KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

ÜZEYİR HACIBƏYLİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜZEYİR HACIBƏYLİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

235656

M.F.Axundov adına

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "**Üzeyir Hacıbəyov**. Əsərləri. On cilddə. I, II cildlər" (Bakı, Azərbaycan Milli Elmlər Akademiyası nəşriyyatı, 1964, 1965) və "**Üzeyir Hacıbəyov**. Seçilmiş əsərləri" (Bakı, Yazıçı, 1985) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni və
ön sözün müəllifi: **Abdulla Abasov**

782.81 - dc 21
AZE
Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 408 səh.

Çoxəsrlik ədəbi mədəni irsimizin inkişafında Üzeyir bəy Hacıbəyli milli bədii istedadın, sənətkarın və ictimai xadimin tamamilə yeni tipini ifadə edir. Sözün əsl mənasında xəlqi, milli bədii şüurun oyanışının, maarifçilik və intibah enerjisinin Üzeyir miqyaslı nadir və universal simasına o dövrdə əvəz və tay göstərmək çox çətindir. Böyük bəstəkarın böyük söz ustası ilə bu səviyyədə vəhdəti dünya musiqi mədəniyyəti tarixində nadir hadisələrdəndir.

Üzeyir Hacıbəyli bir bəstəkar kimi daha çox opera ustasıdırsa, bir dramaturq kimi məzhəkənəvisdir. Dünya komediya təcrübəsi və milli ənənə zəminində o, öz ideya məzmunu, bədii əxlaqi ovqatı ilə büsbütün yeni, şuxluğu, məlahət və duzluluğu ilə misilsiz məzhəkələr yaradıbdır. XX əsrin əvvəlində Azərbaycanda ictimai şüurun səciyyəsini, bədii obrazlı təfəkkürü bunlarsız təsəvvür etmək olmur.

Seçilmiş əsərlərinin bu cildində bəstəkar və dramaturq Üzeyir bəyin xalq musiqisinə sədaqətin, müdrik folklor-muğam stixiyası ilə ən yeni dünya opera ənənəsi arasında qaynağa, qovuşağa doğru hərəkətin ifadəsi olan "Leyli və Məcnun", "Şah Abbas və Xurşid banu", "Əsli və Kərəm", "Harun və Leyla", "Rüstəm və Söhrab", "Koroğlu" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" komediyaları ilə yanaşı satirik hekayələri və səhnəcikləri toplanmışdır.

ISBN 9952-418-65-2

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı
ilə nəşr olunur və ölkə kitabxanalarına
hədiyyə edilir

SƏNƏTKAR ÖMRÜ

Azərbaycan xalqı dünya mədəniyyətinə görkəmli ədəbi şəxsiyyətlər bəxş etmişdir. Xalqımızın iftixarı, XX əsrin qüdrətli sənətkarı Üzeyir Hacıbəyli də belə şəxsiyyətlərdən biridir.

Üzeyir Hacıbəyli ədəbi-bədii aləmə həyatı yaxşı və dərindən bilən bir yazıçı kimi gəldi. İlk gündən də dövrü və əsri ilə bir cərgədə addımladı. Zamanın qabaqcıl ideyaları səviyyəsində dayanmağa, xalqının keçmişinə hörmət etməyə, onun milli ləyaqətini qorumağa, indisi və gələcəyi ilə yaşamağa başladı. Bunun üçün ilk növbədə təbliğ etmək istədiyi ideyaların xalqa xeyrini, ictimai mənasını düşündü, onların yayılması üçün yeni yollar, üsullar və formalar tapdı. Mədəniyyətə bir sıra yeni çalarlar, janrlar gətirdi. Bu yolda gərgin əzab və əziyyətlərə dözdü, dəhşətli çətinliklərlə üzləşməyə məcbur oldu. Bir an da olsa əqidəsindən dönmədi, ictimai mövqeyindən geri çəkilmədi. Əksinə, əsrdən-əsrə, ildən-ilə ucaldıqca tərəqqiyə, inkişafa böyük ehtiyacı olan müqəddəs xalqına, doğma torpağına daha dərindən bağlandı, elinin gücündən, vətəninin qüdrətindən qüvvət aldı, özünün böyük daxili dünyasına, coşqun vətənpərvərliyinə, sədaqətli vətəndaş olmağına qədirbilən xalqını inandıra bildi. Bununla da özünə böyük bir dayaq və arxa qazandı. Xalqına həqiqi oğulluq elədiyi üçün adı əbədiləşdi, əsrlərə və nəsillərə nümunə oldu. XX əsrin tarixi ona öz qızıl səhifələrində yer ayırdı. Onu əsrin böyük oğlu, milli operanın banisi, musiqili komediya janrının ilk yaradıcısı, mahir jurnalist, yeni çalarlı publisistik ədəbiyyatın banilərindən biri, ilk maarif və mədəniyyət işçisi, qüdrətli dramaturq və güclü vətəndaş yazıçı kimi qəbul etdi. Onun məna dolu zəngin ədəbi-bədii irsi, hər cəhətdən kamil, insani hiss və duyğulardan yoğrulmuş müdrik şəxsiyyəti, əzablı və şərəfli həyatı böyük bədii və elmi əsərlər üçün zəngin materialdır. Bu qüdrətli sənətkarın ən birinci obyekti insan, onun həyatı, ən birinci qəhrəmanı isə xalq və onun mübarizəsi olmuşdur. Ona görə də Üzeyir sənəti indinin özündə də müdrik fikirlər, böyük səciyyələr və ehtiraslar sənəti kimi müasir mədəniyyətə işıq salır. Üzeyir irsi yalnız xalqı düşündürən, onun tələb və ehtiyacları ilə bağlı olan, bəzən onu həyəcana gətirən, bəzən də sevindirən mətləblərdən yarandığı üçün həm son dərəcə sadə və həm də qüdrətlidir. Üzeyir irsinin gücü insan ləyaqətini alçaldan, ona hər cəhətdən düşmən kəsilən qeyri-sağlam şəraitə, feodal dünyasının çürük qayda-qanunlarına qarşı yönəlməsində, cəmiyyətə səadət və xoşbəxtlik arzulamasında, daima irəliyə, gələcəyə səslənməsində, güclü həyat eşqi təbliğ etməsindədir. Məhz buna görə də XX əsr mədəniyyə-

tini, ictimai fikir tarixini Üzeyir Hacıbəylisiz təsəvvür etmək qeyri-mümkündür. Keçən əsrin əvvəllərində C.Məmmədquluzadə yeni realist-satirik publisistikanın, hekayənin, M.Ə.Sabir yeni şerin, Ə.Haqverdiyev yeni dramın bayraqdarı idisə, Üzeyir Hacıbəyli inqilabi-demokratik publisistikanın yeni çalarlarının, "ədəbiyyat tariximizdə misli görünməyən yeni, realist məzhəkələrin"[1] yaradıcısı olmuşdur.

Böyük Üzeyirin çoxçalarlı zəngin yaradıcılığı həmişə müasir tənqid və musiqi ədəbiyyatşünaslığının diqqət mərkəzində olmuşdur. Onun məftunedici musiqisi, publisistikası, etik, estetik və ictimai-siyasi görüşləri, jurnalistik fəaliyyəti və dramaturgiyası haqqında S.Vurğun, M.Arif, M.C.Cəfərov, Ə.Sultanlı, M.İbrahimov, F.Köçərli, F.Hüseynov, R.Nağıyev, Q.Məmmədli, Q.Qasımov, E.Abbasova, X.Məlikov, C.Quliyev, Y.Şirvan və s. kimi görkəmli alim və yazıçılar qiymətli fikirlər söyləmişlər. Bundan sonra da Üzeyir irsi haqqında yeni-yeni əsərlərin yaranacağı şübhəsizdir.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabrın 18-də Azərbaycanın səfalı güşələrindən biri olan Ağcabədidə anadan olmuşdur. Atası Əbdülhüseyn Hacıbəyli Şuşanın maarifpərvər ziyalılarından biri olmuş, ağcabədili Kərbəlayı Ələkbər bəyin qızı Şirin xanımla evlənmişdir. Əbdülhüseyn Hacıbəyli təxminən 1901-ci ildə vəfat etmişdir. Üzeyir Hacıbəylinin uşaqlıq və gəncliyinin ilk çağları Şuşada keçmişdir. Şuşa yalnız öz təbii gözəlliyi, tarixi yaraşığı ilə deyil, həm də özünün elmə, mədəniyyətə, ədəbiyyat və incəsənətə verdiyi böyük şəxsiyyətləri ilə nəzəri cəlb etmişdir. Pənahabad kimi tarixə daxil olan, Şuşa kimi məşhurlaşan bu şəhər Vaqiflərin, Zakirlərin, Natəvanların, Cabbar Qaryağdıoğluların, Seyid və Xan Şuşinskilərin ilham mənbəyi olmuşdur. Respublikamızın ilk musiqi ocağı kimi şöhrət qazanan Şuşa Üzeyir Hacıbəyli üçün də ilk yaradıcılıq qaynağı idi. Üzeyir Hacıbəyli haqlı yazır ki, "...Mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən "Muğam" və "Təsnif" oxuyardım. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər..."[2] Üzeyir Hacıbəyli ibtidai təhsilini Şuşada, Nikolayevski adına rus-tatar məktəbində almışdır. Uşaqlıqdan təbiətdən zövq alan, el ruhunda tərbiyələnən Üzeyir sənətə böyük həvəs göstərmiş, zəngin xalq yaradıcılığı ilə maraqlanmağa başlamışdır. Şagird ikən bir neçə kiçik nağıl toplamış, üzünü köçürmüş və bir kitabça tərtib etmişdir. Üzeyir, 1899-cu ildə Şuşa rus-tatar məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək məqsədi ilə Zaqafqaziya müəllimlər seminariyasına daxil olur. Seminariya illəri Üzeyirin dünyagörüşünün inkişafında mühüm rol oyna-

[1] *Ə.Sultanlı.* Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. B., Azərnəşr, 1964, səh.276.

[2] *Q.Məmmədli.* Üzeyir Hacıbəyov. 1895-1948. Həyatı və yaradıcılıq salnaməsi. B., Yazıçı, 1984, səh.7.

yır. Tələbəlik həyatı, buranın müxtəlif millətlərdən olan qabaqcıl dünyagörüşlü insanları Üzeyirdə vətən qürurunu daha da qüvvətləndirir. O, kütləvi fənlərlə yanaşı, bilavasitə musiqi təhsili və nəzəriyyəsi ilə bağlı olan elmlərlə də maraqlanır, bir sıra alətlərdə çalmağı öyrənir. Tələbəlik illəri haqqında Üzeyir Hacıbəyli yazır: "...Seminariyada skripkada, violonçeldə və nəfəsli alətlərdə çalmağı öyrəndim. Mən orada musiqi nəzəriyyəsi haqqında da az-maz məlumat ala bildim".

Üzeyir Hacıbəylinin seminariya təhsili haqqındakı məlumatlarda diqqəti daha çox iki məsələ cəlb edir. Onlardan biri Üzeyirin xarakterinə tam uyğun olan vətəndaşlıq borcu, digəri isə bu borcu yerinə yetirmək cəhdi. Üzeyir Hacıbəyli boş yerə əmək və vaxt sərf etməmiş, hər günün qədrini bilmiş, hər anın ictimai dəyərini nəzərə almışdı. Həqiqi istedadını tapana, üzə çıxarana qədər özünü müxtəlif sənət sahələrində yoxlamış, sınaqdan keçirmişdir. Gah müxtəlif musiqi alətlərində çalmış, gah rəsm çəkmiş, bəzən şən, gümrah olmuş, bəzən də uzun müddət fikrə dalmışdır. Bütün bunlarla yanaşı o, seminariya illərində "Şərq musiqi və nəğmə məsələlərində... misilsiz avtoritet, tənqidçi və icraçı ustad Üzeyir"[1] kimi tanınmışdır. Bu tələbə müvəffəqiyyəti də Üzeyiri razı salmırdı. Ona görə də daha ciddi, daha məhsuldar işləyir, xalqının ehtiyaclarını yüngülləşdirmək üçün yeni yollar və formalar axtarırdı. Hətta bir dəfə seminariyanın son kursunda ikən imtahan üçün "Mən gələcəkdə nə iş görəcəyəm" mövzusunda yazdığı inşada, "mən məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları tərtib edəcəyəm" yazmışdı. Bu, əsl vətəndaşlıq idi. Gələcəkdə xalqın, Vətənin inkişafı yolunda bütün bilik və bacarığını əsirgəməyən bir gəncin, tələbə Üzeyirin andı idi.

1904-cü ildə Üzeyir Hacıbəyli Qori seminariyasını bitirib Şuşanın yaxınlığında Cəbrayıl uyezdinin Hadrud kənd məktəbinin 3-cü paralel sinfinə müəllim təyin olunur. Üzeyir Hacıbəyli yalnız dərs deməklə kifayətlənmir. Bir sıra mətbuat orqanları ilə əlaqə saxlayır. "Kaspi" qəzetində "U" imzası ilə yazılar çap etdirir. Qəzetin sentyabr, oktyabr, noyabr və dekabr nömrələrində ədibin bir neçə məqaləsi çap olunur. 1905-ci ildə Üzeyir Hacıbəyli Hadruddan Bakıya qayıdır və "Həyat" qəzetində işə girir. Bu barədə o özü yazır ki, "...1904-cü ildə seminariyanı bitirdikdən sonra bir il kənddə müəllimlik etdim, ondan sonra Bakıya gəldim. 1905-1908-ci illərədək pedaqoji sahədə çalışıb Bibiheybət rayonunda və şəhərdə müəllimlik edib, eyni zamanda redaksiyalarda çalışırdım".

Bakı həyatı, inqilablar şəhərinin ictimai-siyasi hadisələri gənc Üzeyirə təsirsiz qalmır. O, tez bir zamanda ictimai həyat axınına düşür, zamanın qabaqcıl ideyalarının təsiri altında onun dünyagörüşündə yeni meyllər yaranır.

[1] *Q.Məmmədli.* Göstərilən əsəri, səh.14.

"Həyat" qəzetində çap etdirdiyi "Bir xanım əfəndinin bizlərə hüsn-təvəccöhü", "Gözüaçıq tacirlərimizə xitab" və başqa publisistik yazıları ilə ədəbi ictimaiyyətə daxil olur, öz imzasını əsaslandıra bilir. Üzeyir Hacıbəylinin əksər dövri mətbuatda iştirakı, onun məşhur jurnalist və böyük publisist kimi yetişməsinə və şöhrət qazanmasına səbəb olur. 1906-cı ildən başlayaraq Bakının və ümumən Zaqafqaziyanın ictimai dairələrində tanınmağa başlayır. Dövrünün C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, H.Ərəblinski və başqa qabaqcıl vətəndaş ziyalıları ilə yaxınlıq və dostluq isə Üzeyir Hacıbəylinin demokratik ideyalara yiyələnməsinə, müasir milli məfkurə səviyyəsinə yüksəlməsinə köməklik göstərir. Bütün bu nailiyyətlər və uğurlar Üzeyir Hacıbəylini ictimai münasibətlər, vətəndaşlıq borcu və vəzifələrinə daha dərindən bağlayır. 1906-cı ildə "İrşad" qəzetində katib işlədiyi vaxtdan yeni bir sahəyə, tərcüməçilik sahəsinə keçir. N.V.Qoqolun "Şinel" hekayəsini Azərbaycan dilinə tərcümə edir. Bu, Azərbaycanda tərcüməçilik işinin ilk uğurlu və realist nailiyyətlərindən biri idi. "Molla Nəsrəddin" jurnalı 5 aprel 1909-cu il tarixli nömrəsində yazırdı: "...İndi də mənim fikrimə bir şey gəlir. Söz yox, Köçərli cənablarının açıq və mənalı məqalələrindən, Üzeyir cənablarının şirin tərcümələrindən və qeyri yazıçılarımızın Qoqol barəsində verdikləri məlumatdan oxucularımız haman yazıçını bir növ tanıdılar və bəlkə yaxşı tanıdılar"[1]. Üzeyir Hacıbəylinin böyük rus klassiklərindən – Krılovdan, Puşkindən, Qoqoldan misallar gətirməsi, onların yaradıcılığına müraciət etməsi ədibin və ümumən XX əsr Azərbaycan ziyalılarının rus xalqına, onun yüksək məfkurəli, realist ədəbiyyatına olan böyük marağın nəticəsi idi.

Üzeyir Hacıbəylinin jurnalistlik fəaliyyəti onun pedaqoji və metodiki xidmətləri ilə üzvi əlaqə və təsirdə inkişaf edirdi. O, 1907-ci ildən başlayaraq təlim-tərbiyə və maarif sahəsində bir sıra mühüm işlər görmüşdür. 1907-cü ildə "Rusi-türki və türki-rusi" lüğətini tərtib etmiş və bu sahədə uğurlu addım atmışdır. Pedaqoji sahədəki fəal xidmətlərinə və ümumən maariflə güclü əlaqəsinə görə Üzeyir Hacıbəyli 1907-ci ildə Bakıda keçirilən müsəlman müəllimlərinin qurultayına A.Şaiq, F.Ağayevlə birlikdə nümayəndə və katib seçilir. Bu, Üzeyir Hacıbəylinin bir maarif işçisi kimi həm həvəsini və həm də məsuliyyətini artırır. Gərgin müşahidə və axtarışlardan sonra Üzeyir Hacıbəyli xalqının böyük ehtiyacını nəzərə alaraq 1908-ci ildə ibtidai məktəblərin I-II şöbələri üçün hazırladığı hesab dərsliyini cap etdirir. "Tərcüman" qəzeti həmin ilin 28 dekabr nömrəsində yazırdı: "Hesab məsələləri" müəllim Üzeyir Hacıbəylinin əsəridir, gözəl üsul ilə tərtib edilmişdir... Azərbaycan-türk şivəsində olduğundan məhəlli məktəblər ücün faydalı və lazımdır"[2].

[1] *Q.Məmmədli.* Göstərilən əsəri, səh.60-61.

[2] "Tərcüman" qəzeti, 1908, 28 dekabr.

1905-ci ildən başlayaraq Üzeyir Hacıbəyli demək olar ki, əksər dövri mətbuatda iştirak etmiş, onlarca məqalə çap etdirmişdir. "Molla Nəsrəddin", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal", "Kaspi", "Tərcüman" və başqa qəzet və jurnallar Üzeyir Hacıbəylinin alovlu publisist kimi yetişməsində, həm də xalqımızın fikir oyanışında böyük rol oynamışdır. Bununla yanaşı, Üzeyir Hacıbəyli daha çox "İrşad", "Tərəqqi", "Həqiqət" qəzetləri ilə bağlı olmuş, bir jurnalist və böyük publisist kimi daha çox bu mətbuat orqanlarında parlamışdır. Belə ki, 1906-cı ilədək "İrşad"ın katibi olmuş, 1909-cu ildə gündəlik "Həqiqət" qəzetində redaktor işləmiş, yenə həmin ildə, az da olsa, "Tərəqqi" qəzetinə redaktorluq etmişdir. Birinci dünya müharibəsi illərində nəşr olunan "Bəsirət" qəzeti 1914-cü il 23 avqust nömrəsində xəbər verir ki, "Qəzetlərdə intişar ediləcəyi xəbər verilən "Vətən dili" adında təzə gündəlik qəzet yaxın günlərdə nəşrə başlayacaqdır. Qəzetin müdiri Üzeyir bəy Hacıbəyli olub, dili isə başqa qəzetlər kimi deyil, mütləq vətən dili ilə yazılacaqdır"[1]. Həmin məlumatı 29 avqust nömrəsində "Kaspi" qəzeti də çap etmişdir.

Üzeyir Hacıbəylinin zəngin jurnalistlik fəaliyyəti onun digər yaradıcılıq sahələrinə də müsbət təsir göstərmişdir. O, dövri mətbuatın imkanlarından məharətlə istifadə etmiş, xalqımızın maarif və mədəniyyət cəhətdən inkişafı üçün bir sıra dəyərli işlər görmüşdür. 1920-ci ilə qədər publisist Üzeyir, bəstəkar və yazıçı Üzeyirlə çiyin-çiyinə eyni səviyyədə inkişaf etsə də, əsrin birinci onilliyində bəzən publisist Üzeyir, yazıçı və bəstəkar Üzeyiri üstələmişdir.

Üzeyir Hacıbəylinin jurnalistlik fəaliyyətinin son günləri "Yeni iqbal" və "Azərbaycan" qəzeti ilə bağlı olmuşdur. O, 1915-1916-cı illərdə (fevralın 8-nə kimi) "Yeni iqbal" qəzetində müdir və baş mühərrir işləmiş, 1919-cu ildə isə "Azərbaycan" qəzetinə müvəqqəti redaktorluq etmişdir. O bir tərəfdən güclü sosioloq kimi xalq, dövlət, vətən və inqilab, əxlaq və məişət məsələləri ilə əlaqədar ciddi jurnalistik və publisistik fəaliyyət göstərir, bir tərəfdən zamanın qabaqcıl maarif xadimi kimi çıxış edir, digər tərəfdən də qüdrətli bəstəkar-yazıçı kimi dövrün demokratik hərəkatı ilə səsləşən əsərlər yazırdı. Ona görə də XX əsrin ilk onilliyi həm Üzeyir Hacıbəylinin və həm də ümumən Azərbaycan xalqının mədəni həyatında ən uğurlu və ən əlamətdar illər kimi qeyd olunur. Milli operanın əsası məhz bu onillikdə qoyulur, ilk musiqili komediya bu illərdə yaranır, ilk lüğət, ilk maarif dərslikləri, rus ədəbiyyatından ilk tərcümələr bu illərdə meydana çıxıb. Üzeyir Hacıbəylinin bu sahələrdəki böyük xidmətləri yalnız Azərbaycan üçün deyil, bütün Şərq üçün əlamətdar hadisə idi. "Kaspi"qəzeti 1908-ci il 9 yanvar tarixli nömrəsində yazırdı: "..."Nicat" cəmiyyəti dram və opera əsəri ücün müsabiqə elan edir.

[1] "Bəsirət" qəzeti, 1914, 28 avqust.

Cəmiyyət bu günlərdə gənc publisist və musiqiçi Üzeyir Hacıbəylinin tərtib etdiyi "Leyli və Məcnun" operasının nəşri və quruluş haqqını almışdır. Bu, müsəlman həyatında ilk operadır, özü də ayın 12-də Tağıyev teatrında oynanacaqdır...

Gənc kompozitor, Füzuli poeması əsasında opera yazmış və onun əsərlərindən operaya daxil etmişdir. Şərq mahnıları əsərə ustalıqla qoşdurulmuşdur. Truppa təşkil edilmiş və müəllifin rəhbərliyi altında tamaşa hazırlanır. Operaya böyük xərc sərf edilmişdir"[1].

Əsər həmin gün H.Ərəblinskinin rejissorluğu və Ə.Haqverdiyevin dirijorluğu ilə tamaşaya qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdır. Demək olar ki, əksər qəzetlər Üzeyir Hacıbəylinin xidmətlərini alqışlamış, əsəri sevinclə qarşılamışlar. Bununla yanaşı, "Leyli və Məcnun"un və Üzeyir Hacıbəylinin əleyhinə çıxanlar da az olmamışdır. "Tazə həyat", "Zənbur", "Səda", "Kəliniyyət", "Tuti", "Babayi-əmir", "Bəsirət", "Məzəli" kimi mətbuat orqanları bu cəhətdən daha mühafizəkar mövqe tutmuş, "Hacı İbrahim Qasımov", "Əbdulxalıq Axundov", "Gənc-bekar", "Muxbirimiz Kələmbaş", "Molla Sarsaqqulu", "Kor Aşiq", "Piyada zəvvar", "Tamaşaçı" kimi imzalarla müxtəlif məzmunlu karikaturalar, həcvlər, felyetonlar və bir sıra digər qərəzli yazılar dərc etmişlər. Lakin əsl sözü zəmanənin özü dedi. "Leyli və Məcnun"un müvəffəqiyyəti publisist və maarif xadimi Üzeyirin şöhrətini daha da yüksəklərə qaldırdı. Bu böyük sənətkar dövrünün diqqət mərkəzində duran bir ictimai xadim və vətəndaş səviyyəsinə yüksəldi. Çünki "Leyli və Məcnun" bədii ruhu ilə təmiz və müqəddəs xalq zövqü və istəklərinə uyğun bir əsər idi. Özü də böyük muğam sənəti üzərində qurulmuş, dərin milli və sosial köklərə malik idi. Bəstəkarın "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu", "Harun və Leyla" operalarında da "Leyli və Məcnun"un bu gözəl ənənələri qorunub saxlanmışdı. "Leyli və Məcnun" əsrin birinci onilliyindən boylanaraq Üzeyir Hacıbəylinin 40-cı illərə qədərki yaradıcılığına işıq salmışdır. Bütün Şərq üçün əlamətdar hadisə olan bu əsər muğam sənətindən istifadə yolu ilə deyil, tam sərbəst və müstəqil musiqi dili ilə yazılsaydı, bəlkə də bu qədər şöhrət qazana bilməzdi. Üzeyir Hacıbəylinin ən böyük xidməti onda idi ki, o, xalqını yaxşı tanımış, yaşadığı dövrün ictimai, etik və estetik zövqünə və xarakterinə dərindən bələd olmuşdur. XX əsrin ən çətin və mürəkkəb çağlarında el məhəbbətini qazanmaq ücün ən düzgün yol, xalqın zövqünə uyğun musiqi dili ilə danışmaq, ona öz mənəviyyatını, zəngin daxili dünyasını göstərən "Leyli və Məcnun" yolu idi. "Kaspi" qəzeti 2 dekabr 1909-cu il tarixli nömrəsində yazırdı: "Gənc kompozitor Üzeyir Hacıbəylinin ilk təcrübəsi olan "Leyli və Məcnun"

[1] "Kaspi" qəzeti, 1906, 9 yanvar.

operası Şərqin "Romeo və Cülyetta"sı idi. Bu opera kütlənin son dərəcə xoşuna gəldi və hər dəfə göstərilərkən teatr az qala ağzına qədər dolu olur"[1]. Üzeyir Hacıbəyli bu böyük şöhrətdən məharətlə, xalqının, vətəninin xeyri üçün istifadə etdi. 1910-cu ildə Azərbaycan musiqili komediya məktəbinin ilk qaranquşu olan "Ər və arvad" əsərini yazdı. Yenə də həmin ildə Üzeyirin ikinci opera əsəri "Şeyx Sənan" Azərbaycan səhnəsinə vəsiqə aldı. Artıq musiqi aləminin yeni bir dövrü, Üzeyir dövrü başlandı. Bu haqda bəstəkar özü yazır: "...1910-cu ildə tamamilə musiqi sahəsinə keçib, Avropa musiqisi nəzəriyyəsini öyrənməyə başladım... Sonra Moskvaya gedib Moskva konservatoriyasının professoru İlyinskinin kursuna daxil oldum. Burada harmoniyanı baş müəllim Sokolovskidən, solfecionu professor Ladoqindən öyrəndim..."[2]

Əsrin ilk onilliyi Üzeyirin müxtəlif teatr cəmiyyətləri, dövrün qabaqcıl şəxsiyyətləri: C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Vəzirov, H.Ərəblinski, H.Sarabski, N.Nərimanov, M.Maqomayev, Q.Pirimov və başqaları, müxtəlif nəşriyyatlarla əlaqə və təmasda olduğu illər kimi də maraqlıdır.

Belə ki, XX əsrin (1920-ci ilə qədər) elə bir teatr cəmiyyəti, nəşriyyatı və ədəbi klubu olmamışdır ki, Üzeyir Hacıbəylinin bu və ya digər əsəri ilə əlaqədar fəaliyyət və xidmət göstərməmiş olsun. Tağıyev teatrı, Nikitin qardaşları sirki, müsəlman maarif cəmiyyəti, Orucov qardaşları nəşriyyatı, Mailov teatrı, Musa Nağıyev klubu və başqaları bu sahə ilə əlaqədar bir sıra işlər görmüşlər.

Təhsilə gedənə qədər Üzeyir Hacıbəyli bir an da olsa fəaliyyətini dayandırmamış, əksinə, daha məhsuldar işləmiş, yeni-yeni əsərlər yaratmışdır. 1910-cu ildə bəstəkarın yeni bir operası – "Rüstəm və Söhrab" meydana çıxmışdır. "Günəş" qəzeti həmin il nömrələrinin birində yazır ki, "noyabrın 12-də Tağıyev teatrında əvvəlinci dəfə Üzeyir Hacıbəylinin tərtib etdiyi "Rüstəm və Söhrab" adlı təzə operası oynanacaq"[3].

Üzeyir Hacıbəylinin XX əsrin əvvəllərindən artmağa başlayan bəstəkar və yazıçı hörməti əsərdən-əsərə, ildən-ilə daha da qüvvətli bir şəkil aldı. 1911-ci ildə tamaşaya qoyulan "O olmasın, bu olsun" musiqili komediyası Üzeyir Hacıbəylini böyük dramaturq kimi təsdiq etdi. Q.Şirvanski adlı bir müəllif "Zakavkazye" qəzetinin 29 iyun nömrəsində yazır: "...Əsərin ədəbi qiyməti haqqında mətbuatda çox yazılmışdır. Ona görə də mən ona toxunmayacağam. Ancaq onu deməliyəm ki, "O olmasın, bu olsun" bizim yeni doğulmaqda olan dram ədəbiyyatımıza böyük hədiyyədir. Onun müəllifinin adı isə artıq Axundzadə, Vəzirov, Haqverdiyev kimilərinin sırasında yer tut-

[1] "Kaspi" qəzeti, 1906, 2 dekabr.
[2] Yenə orada.
[3] *Q.Məmmədli*. Göstərilən əsəri, səh.85.

muşdur..."[1]. Üzeyir Hacıbəylinin ən böyük xidmətlərindən biri bunda idi ki, o, hər bir yeni əsərinin müvəffəqiyyətindən son dərəcə düzgün nəticə çıxarır, arxayınlaşmır, həmin xətti davam etdirirdi.

Buna görədir ki, ədib-bəstəkarın əsərlərinin yaranma tarixləri arasında o qədər də böyük vaxt fərqi yoxdur. "O olmasın, bu olsun"un təsiri qurtarmamış Üzeyir Hacıbəyli "Şah Abbas və Xurşidbanu" operasını yazır. "Baku" qəzeti 1912-ci il 11 aprel tarixli nömrəsində yazır: "Aprelin 9-da Tağıyev teatrında talantlı samorodok müsəlman kompozitoru Hacıbəyli cənablarının "Şah Abbas" operası oynandı...

Teatr tam mənası ilə ağzınadək dolu idi. Tamaşaçılar Şah Abbasın "xalq kütləsi içərisinə girməsi hadisəsini" böyük diqqətlə izləyirdi...

Tar və kamança müşayiəti ilə çalınan xalq mahnıları diqqətlə dinlənilirdi... Artistlər və Hacıbəyli dəfələrlə səhnəyə çağırıldılar"[2].

1912-ci ildə tamaşaya qoyulan "Əsli və Kərəm" operası Üzeyir Hacıbəylinin sənətkar şöhrətinə dəyərli əlavə oldu və Üzeyirin adını görkəmli bəstəkar kimi də əbədiləşdirdi. Həmin ilin 20 may nömrəsində "Baku" qəzetində dərc olunan "Q.M." imzalı bir məqalədə deyilir: "Mən Üzeyir bəy Hacıbəylinin operalarının hamısını görməmişəm, lakin mayın 18-də Mayılov teatrında "Əsli və Kərəm" operası birinci dəfə oynandığı zaman deyirdilər ki, bu opera bizim gənc kompozitorun qələmindən çıxmış operalardan yüksəkdir...

Müəllifi çağırdılar, artistlər onu çiyinlərində səhnəyə gətirdilər. Hacıbəyli layiq olduğu şiddətli və gurultulu alqışlarla qarşılandı.

Teatr ağzına kimi dolu idi. Tamaşaçıların xahişinə görə bu opera mayın 22-də təkrar oynanacaqdır".

Üzeyir Hacıbəyli bütün bu müvəffəqiyyətlər içərisində böyük narahatçılıq keçirirdi. O, daha yüksək səviyyəli əsərlər yazmaq üçün özündə həvəs, qüvvə, güc hiss etsə də, dərin musiqi savadı, mükəmməl musiqi nəzəriyyəsi və maddi imkan sahəsində korluq çəkirdi. Ona görə də oxumaq, təhsilini artırmaq və dünya musiqi mədəniyyətinə daxil ola bilən bir istedad sahibi kimi yetişmək istəyirdi. Üzeyir Hacıbəyli bu arzusunu həyata keçirmək məqsədi ilə 1912-ci ildə iki il müddətinə Moskvaya oxumağa gedir. Maddi cəhətdən təmin olunmaq, təhsilini yarımçıq qoymamaq üçün yazdığı "Ər və arvad", "Leyli və Məcnun" və başqa səhnə əsərlərini "Nicat" cəmiyyətinin ixtiyarına verir. "Nicat" cəmiyyəti də ildə 3000 manat olmaq şərtilə Üzeyir Hacıbəyliyə ayda 250 manat pul göndərməyi vəd edir. Bu haqda Üzeyir Hacıbəyli dostu, yazıçı-bəstəkar M.Maqomayevə yazdığı məktubların birində deyir: "Nicat"ın fırıldaqçıları bizi aldatmaq istəyirlər. Mən nəinki onların iki ildən sonra mənə

[1] "Zaqafqaziya" qəzeti, 1911, 29 iyun.
[2] "Baku" qəzeti, 1912, 20 may.

verməli olduqları məbləğin əlimdən çıxacağından, həm də mənə layiq məvacib verməkdən bir gün imtina edəcəklərindən qorxuram. Əgər bu qorxuma sən də şəriksənsə, məni qabaqcadan xəbərdar et, bir tədbir görüm, yoxsa çıxılmaz vəziyyətdə qala bilərəm"[1].

Nəinki dostlar, qohumlar, hətta dövrün bütün qabaqcıl ziyalıları Üzeyir Hacıbəylini düzgün başa düşür, onun maddi vəziyyəti və imkanı ilə əlaqədər bütün söhbətlərini ictimai mənada dərk edir, musiqi mədəniyyətimizin gələcək inkişafı üçün əllərindən gələni əsirgəmirdilər. "Yeri gəlmişkən bir məsələyə də toxunmaq istərdik. Bu da Cabbar Qaryağdı oğlunun 1912-ci ildə Varşavadan qayıdarkən o zaman Moskvada təhsil alan Üzeyir Hacıbəylinin şərəfinə bir neçə konsert verməsi və bundan yığılan vəsaitin gənc bəstəkarın təhsilinə və qeyri ehtiyaclarına sərf edilməsi məsələsidir"[2].

Üzeyir Hacıbəyli maddi vəziyyətin ağırlığı üzündən Moskvada çox qala bilmir və Bakıya qayıdır. Bir müddət yenidən bədii yaradıcılıqla məşğul olur. Maddi imkan əldə etdikdən sonra təhsilini davam etdirmək üçün 1913-1914-cü tədris ilində Sankt-Peterburqa gedir. Professor Qalafatindən harmoniyanı öyrənməyə başlayır. Peterburqda ikən məşhur "Arşın mal alan" musiqili komediyasını yazır. Bu əsər Üzeyir Hacıbəylini bütün dünyada məşhur edir. Bir ilin içərisində "Arşın mal alan" yalnız Bakı teatr səhnələrində 150 dəfədən çox oynanılır, tezliklə bir sıra dillərə tərcümə edilir, özünə son dərəcə güclü və çoxlu tərəfdarlar, o cümlədən əleyhdarlar qazanır. Əsər haqqında nə qədər qeyri-real deyinmələr, ağız büzmələr olsa da, bu cızma-qaraçıların heç biri onun böyük təsir gücünü azalda bilmir, əksinə, tamaşadan-tamaşaya əsərin müvəffəqiyyətləri artır, çox-çox uzaqlara yayılır. "Vaqt" qəzetinin 10 yanvar tarixli nömrəsində dərc olunan "1916-cı ildə Milli səhnə və səhnə ədəbiyyatı" məqaləsində deyilirdi: "...Hesabat ilində Üzeyirbəyin "Arşın mal alan" adlı operettası rus və gürcü dillərinə tərcümə edilib oynanılmışdır.

Bu gün Qafqaz səhnəsində ayrıca zikr edilməyə layiq bir şəxsiyyət varsa, o da Üzeyirbəy Hacıbəyli cənablarıdır. Petroqrad ali musiqi məktəbini tamam etmiş bu şəxs, Qafqaz müsəlmanlarının birinci kompozitorudur. Qafqaz operası bundan on il əvvəl onun "Leyli və Məcnun" adlı operası ilə başlamış idi. Hazırda Üzeyirbəy tərəfindən musiqi ilə tərtib edilib opera tərzində oynanılan milli pyeslərin sayı ona çatır"[3].

Üzeyir Hacıbəylinin belə böyük xidmətləri heç də hakim dairələrin xoşuna gəlmir. Buna görə də Üzeyir Hacıbəylinin evi bir neçə dəfə polis tərəfindən yoxlanılmış, o, bir sıra təhqir və məzəmmətlərə məruz qalmışdır. Bu hədə-qorxular Üzeyiri öz sosial məqsədindən döndərə bilmir.

[1] *Q.Məmmədli.* Göstərilən əsəri, səh.118.
[2] *F.Əmirov.* Musiqi aləmində. B., Gənclik, 1983, səh. 78.
[3] *Q.Məmmədli.* Göstərilən əsəri, səh.216.

"Leyli və Məcnun"dan "Arşın mal alan"a qədərki qısa bir dövr Üzeyir Hacıbəyliyə əsrlərə sığmayan böyük şöhrət gətirir. Yalnız "Arşın mal alan" əsərinə əsasən demək olar ki, Üzeyir Hacıbəyli nəinki Zaqafqaziya və Orta Asiya respublikalarında, habelə Yaxın Şərq ölkələrində tanınmağa başlayır. Komediyanın Amerika, Fransa, İngiltərə və bir sıra digər xarici ölkələrdə tamaşaya qoyulması, dünyanın əksər dillərinə tərcümə edilməsi Üzeyir Hacıbəyliyə dünya şöhrəti qazandırdı. Üzeyir Hacıbəyli bütün ömrünü, bilik və bacarığını müasir mədəniyyətin, musiqi elmi və musiqi sənətinin inkişafına sərf edir. Muxtəlif təhsil sistemli musiqi məktəblərinin açılması, Azərbaycan Dövlət Konservatoriyasının təşkil olunması, dünya musiqi mədəniyyəti səviyyəli kadrların yetişdirilməsi, Azərbaycan musiqi tarixi və musiqi nəzəriyyəsinin yaradılması sahəsində xüsusi xidmətlər göstərir. Bununla yanaşı, birbirinin ardınca musiqi təhsili və metodikasına aid dərslik və dərs vəsaitləri çap etdirir, yeni-yeni musiqi əsərləri yazır. 1934-cü ildə "Azərbaycan xalq türk musiqisinin əsasları", 1935-ci ildə "Azərbaycan xalq mahnılarının adlarını öyrənmək üçün təlim", "Çahargah" mövzusunda "Birinci fantaziya", "Şur" üzərində "İkinci fantaziya" və s. əsərlərini çap etdirir. 1936-1937-ci illərdə Üzeyir Hacıbəyli daha zəngin fəaliyyət göstərir. Zamanla səsləşən, müasir insanın zövqünə, ruhuna yatan dərin məzmunlu əsərlər yaratmaq, bütün musiqi kadrlarını yeni həyata səfərbər etmək üçün yollar axtarır, bu sahədə gözəl nümunələr göstərir. 1937-ci ildə "Koroğlu" operasını yaradır. Bu əsər eyni zamanda Üzeyir Hacıbəylinin dünyagörüşünün milli mahiyyəti, Üzeyir fantaziyası və istedadının qüdrət və əzəmətinin ifadəsi idi. Xəlqilik, vətənpərvərlik ideyaları ilə yoğrulan "Koroğlu" operası yalnız bir musiqi əsəri kimi deyil, həm də klassik irsə, xalqın tarixinə, el ədəbiyyatına yanaşmaq, onlardan yaradıcı şəkildə istifadə etmək və xüsusilə də mədəni irs və folklor ənənələrini müasir dövrün tələb və prinsiplərinə uyğun davam etdirməyin gözəl nümunəsi idi. İlk gündən məişətə, musiqi mədəniyyətinə daxil olan bu əsər, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu zəngin tarixini, xalqın əyilməzliyini, qəhrəman keçmişi və böyük fədakarlığının təbiiliyi və qanunauyğunluğunu əks etdirən təbliği bir əsərdir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında "Koroğlu"nun birinci yer tutmasının səbəblərindən biri də bu idi.

Qədirbilən xalqımız bütün vətəndaş ziyalılarının, sənətin inkişafı naminə fədakarlıqlar göstərən bütün qələm sahiblərinin həmişə dostu və xeyirxahı olmuş, onların xidmətlərini yüksək qiymətləndirmişdir. Fikrət Əmirov "Üzeyir məktəbi" məqaləsində yazır: "...Üzeyir Hacıbəylinin gənclərə münasibətində mən həmişə təmkinli bir qətiyyət, doğma bir tələbkarlıq duymuşam. Yeri gəlmişkən deyim ki, məni Üzeyir musiqisinin yetirməsi adlandıranlar var. Bu adla yalnız fəxr edirəm. Mən Üzeyir müəllimdən xalq musi-

qisinin paklığını mənimsəmişəm. Üzeyir musiqisini nə qədər dinləsəm, mənə elə gəlir ki, ilk dəfədir eşidirəm, hər dəfə o mənə təzə görünür. Yaşa dolduqca dərk etmişəm ki, nə yaxşı bu böyük sənətkarla durub-oturmaq səadəti mənə də nəsib olub, onun unudulmaz məsləhətlərini eşitmişəm"[1].

Üzeyir sənəti, Üzeyir irsi haqqında onlarca elmi-nəzəri məqalə, tədqiqat əsərləri və digər yazılar dərc olunmuşdur. Lakin elə bir əsər, xatirə və tədqiqat yoxdur ki, Üzeyir Hacıbəyli bir ictimai vətəndaş, yaradıcı sənətkar və böyük vəzifələr daşıyıcısından başqa, müdrik və maraqlı bir şəxsiyyət, son dərəcə xeyirxah, nəcib, böyük ürək və qəlb sahibi, mətin dost, sədaqətli yoldaş, alicənab ailə başçısı, hər şeydən əvvəl də sadə və təvazökar bir insan kimi təqdim olunmasın və xatırlanmasın. Böyük Üzeyir şəxsiyyəti haqqındakı bu həqiqətlər yalnız ayrı-ayrı elm və mədəniyyət xadimlərinin, yazıçıların, şairlərin, bəstəkar və rəssamların, heykəltəraş və incəsənət ustalarının və ümumən, müxtəlif sənət və elm sahəsində çalışan tanınmış mütəxəssislərin yazılarında, tədqiqat əsərlərində qorunub saxlanılmır, bunlar eyni zamanda Hacıbəylinin zəngin ədəbi irsinin də zinət və bəzəyi kimi onun hər bir əsərində özünü büruzə verir. Bu da onunla əlaqədardır ki, Üzeyir Hacıbəylinin böyük yaradıcılığı ilə onun böyük şəxsiyyəti arasında möhkəm əlaqə və bağlılıq olmuşdur. Sənətkar şəxsiyyəti ilə sənətkar yaradıcılığı arasında olan bu qarşılıqlı əlaqə və təsirin nəticəsində yaranan böyük və dahi ədəbi şəxsiyyətlər isə, yalnız xalqının içərisində qapanıb qalmır, bütün ölkənin rəğbət simvoluna çevrilir, minnətsiz və təmənnasız olaraq dünya klassikasına daxil olur. Üzeyir Hacıbəyli məhz belə sənətkardır. "Biz böyük Üzeyir yaradıcılığındakı bu Antey qüdrətinin sirlərini hələ çox öyrənməliyik"[2].

Abdulla Abasov

[1] *F.Əmirov.* Musiqi aləmində, səh.143.

[2] Yenə orada, səh.150.



LEYLİ VƏ MƏCNUN

Dörd pərdəli altı şəkilli opera

235656.

İŞTİRAK EDİRLƏR

M ə c n u n (Q e y s) – məşhur cavan ərəb
Ə b ü l-Q e y s – Məcnunun atası
Ü m m ü l-Q e y s – Məcnunun anası
L e y l i – Məcnunun sevgilisi
F ə t t a h – Leylinin atası
Ü m m ü l-L e y l i – Leylinin anası
İ b n-S ə l a m – dövlətli ərəb
N o f ə l – sərkərdə
Z e y d – Məcnunun dostu
B i r i n c i ərəb
İ k i n c i ərəb
Ü ç ü n c ü ərəb
D ö r d ü n c ü ərəb
B e ş i n c i ərəb
A l t ı n c ı ərəb
Y e d d i n c i ərəb
S ə k k i z i n c i ərəb
Ərəblər, döyüşçülər, uşaqlar

M.F.Axundov adına Azərbaycan Milli

BİRİNCİ PƏRDƏ

Vaqe olur məktəbdən kənarə bir çəməndə. Məcnun bir kənarda durub, Leylinin yolunu gözləyir. Pərdədən qabaq musiqi çalınır, xor və cəmi əhli-məclis "Şəbi-hicran" havası oxuyurlar.

(M u s i q i)

H a m ı (*xor*)

Şəbi-hicran yanar canım, (*2 dəfə*)
Tökər qan çeşmi-giryanım, (*2 dəfə*)
Oyadar xalqı əfqanım, (*1 dəfə*)
Qara bəxtim oyanmazmı?! (*2 dəfə*)

(M u s i q i)

Güli-rüxsarına qarşu (*2 dəfə*)
Gözümdən qanlı axar su, (*2 dəfə*)
Həbibim, fəsli-güldür bu, (*1 dəfə*)
Axar sular bulanmazmı?! (*2 dəfə*)

P Ə R D Ə

(Hamı dağılır, Məcnun qalır.)
M u s i q i: "Mahur-hindi).

M ə c n u n

Yandı canım hicr ilə, vəsli-rüxi-yar istərəm,
Dərdməndi-firqətəm, dərmani-didar istərəm.
Bülbüli-zarəm, deyil bihudə əfqan etdiyim,
Qalmışam nalan qəfəs qeydində, gülzar istərəm.

L e y l i (*gəlir, "Mahur-hindi" üstə*)

Eşq daminə giriftar olalı zar olubam,
Nə bəladır ki, ona böylə giriftar olubam.
Qüdrətim yox ki, qılam kimsəyə şərhi-qəmi-dil,
Öylə kim, arizeyi-hicr ilə bimar olubam.

(Musiqi şikəsteyi-fars çalır, Məcnun Leyliyə yavuqlaşıb oxuyur.)

M ə c n u n

Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,
Sayə tək bir yerdə durmağa qərarım qalmadı.
Rahi-eşq içrə mənə ancaq fəna məqsud idi,
Şükr kim, məqsudə yetdim, intizarım qalmadı.

L e y l i

Dili-zarimdə nə kim, var bilirsən, bilirəm.
Yar, hali-dilimi zar bilirsən, bilirəm.
Mən, nə hacət ki, qılım şərh sənə hali-dilim,
Dili-zarimdə nə kim, var bilirsən, bilirəm.

(M u s i q i: təsnif)

L e y l i v ə M ə c n u n (*bir yerdə*)

Ah eylədiyim sərvi-xuramanın üçündür, (*2 dəfə*)
Qan ağladığım qönçeyi-xəndanın üçündür. (*2 dəfə*)
Sərgəştəliyim kakili-müjganın ucundan, (*1 dəfə*)
Aşüftəliyim zülfi-pərişanın üçündür. (*1 dəfə*)

(M u s i q i: segah)

M ə c n u n

Payibənd oldum səri-zülfi-pərişanın görüb,
Nitqdən düşdüm ləbi-ləli-dirəxşanın görüb.
Oda yandım şəmvəş canım baxıb rüxsarına,
Çərxə çəkdim dudi-dil sərvi-xuramanın görüb.

L e y l i

Könlüm açılır zülfi-pərişanını görcək,
Nitqim tutulur qönçeyi-xəndanını görcək.
Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navəki-müjganını görcək.

(M u s i q i: segah)

M ə c n u n

Qəddin həlakiyəm, düşə bilməm əyaqinə,
Bir eşqə düşmüşəm ki, bulunmaz nəhayəti.
Bildim təriqi-eşq xətərnakdır, vəli
Mən dönməzəm bu yoldan, ölüm olsa qayəti.

L e y l i

Ey hər təkəllümüm xəti-səbzin hekayəti,
Virdim həmişə məshəfi-rüxsarın ayəti.
Mən kim, səni görəndə gedir əldən ixtiyar,
Gəlməz bəyanə möhnəti-eşqin şikayəti.

(Bu halda qızlar Leyliyə tərəf gəlib oxuyurlar.)

(M u s i q i)

Qızlar

Nagah olur, Leyli, atan agah (*2 dəfə*)
Kim, qeyrilə aşina olubsan, ay Leyli! (*2 dəfə*)

(M u s i q i)

Layiq deyil, Leyli, sənə bu üslub, (*2 dəfə*)
Yaxşı nəzər eyləsən yamandır, Leyli! (*2 dəfə*)

(M u s i q i)

(Leylini aparırlar, Məcnun tək qalıb, bikef oturur. Bu halda Məcnunun atası gəlir.)

M ə c n u n u n a t a s ı (*çahargah üstə*)

Ey bülbüli-bustani-bidad!
Hali-dilini mənə bəyan et,
Əsrari-nəhanini əyan et.
Kim aldı əlindən ixtiyarın?

Kim eylədi tirə ruzigarın?
Nə seyrdəsən, sənə tələb nə?
Bu naleyi-zarinə səbəb nə?
Dəryadə isə sənə düri-kam,
Sən söylə, mən eyləyim sərəncam.

(M u s i q i: çahargah)

M ə c n u n

Ey piri-şikəstə hali-naşad,
Tanrıyçün əlimdən eyləmə dad.
Demə ki, nədir bu macəralar,
Səndən mənə yetdi bu bəlalar.
Mən bilməz idim qəmi-cahanı,
Təşvişi-zəminü asimanı.
Bilməzlik ilə xoş idi halım,
Nə hüsnü, nə eşq idi xəyalım.

(Məcnunun anası gəlir və müxalif üstə oxuyur.)

M ə c n u n u n a n a s ı

Ey rahəti-canü nuri-didə!
Fərzəndi-yeganeyi-güzidə!
Sən sərvsən, olmagil giranbar!
Azad ola gör, nə kim giriftar!
Sən ləlsən, olmagil səbüksəng,
Döndərmə günəş görüb rəvan rəng!
Bizdən bu nəsihəti qəbul et!
Hər ləhzə bizi, yetər, məlul et!

M ə c n u n

Ey ruhi-rəvanım ata, ana!
Kami-dilü canım ata, ana!
Bildim bu işi özümə layiq,
Leyli sənəmə mən oldum aşiq.
Sonra olubam bu işdən agah,

Amma nə deyim, nə söyləyim? Ah!
Yoxdur bu işimdə ixtiyarım,

(Çahargaha enir.)

Əql oldu zəifü, eşq ğalib,
Xatir nigəran, nigari cazib.

Atası (*çahargah üstə*)

Can vermə ğəmi-eşqə ki, eşq afəti-candır.
Eşq afəti-can olduğu məşhuri-cahandır.
Yaxşı görünür surəti məhvəşlərin, əmma
Yaxşı nəzər etdikdə sərəncamı yamandır.
Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir işi ahü fəğandır.

(M u s i q i: təsnif)

Atası

Durun gedək evimizə! (*2 dəfə*)

Anası

Qeysim, Qeysim!.. (*1 dəfə*)

M ə c n u n

Ata, ana, aşqin həvası
Məni məcnun edəcəkdir,
Məni məcnun edəcəkdir!..

(M u s i q i)

Atası

Mən sənə Leylini gedib, alıb istərəm. (*2 dəfə*)

Anası

Oğlum, oğlum!.. (*1 dəfə*)

M ə c n u n

Ata, ana, eşqin həvası
Məni məcnun edəcəkdir,
Məni məcnun edəcəkdir.

(M u s i q i)

P Ə R D Ə

İKİNCİ PƏRDƏ

Vaqe olur Leylinin evində. Leyli və anası oturubdurlar. Pərdə qalxmazdan qabaq musiqi (səmayi-şəms) çalınır; pərdə qalxır, Leylinin anası oxuyur.

L e y l i n i n a n a s ı

Ey şux! Nədir bu göftügülər?
Qılmaq sənə tənə eybcülər?

(M u s i q i)

Nəyçün özünə ziyan edirsən?
Yaxşı adını yaman edirsən?

(M u s i q i)

Derlər səni eşqə mübtəlasən,
Biganələr ilə aşinasən.

(M u s i q i)

L e y l i

Ey munisi-ruzigarım ana!
Dürci-düri-şahvarım ana!

(M u s i q i)

Sözlər dersən ki, bilməzəm mən,
Məzmununu fəhm qılmazam mən.

Leylinin anası

Sən hardanü eşq zövqü hardan?
Sən hardanü dust zövqü hardan?

(Musiqi)

Oğlan əcəb olmaz olsa aşiq,
Aşiqlik işi qıza nə layiq?

Leyli

Dersən məşuqü eşqü aşiq,
Mən sadə ürək tifli-sadiq;
Bilməm nədir ol hədisə məzmun?
Söylə! Necə olmayım digərgun?

Leylinin anası

Neylərsən əgər atan eşitsə,
Qəhr ilə sənə siyasət etsə?

(Musiqi)

Minbə'd gəl eylə tərki-məktəb.
Bil əbcədini həmin cədü əb.

(Musiqi)

Gərçi adın ola dildə məzkur,
Görmək səni ola ğeyri-məqdur.

Leyli

Mən məktəbə rəyim ilə getməm,
Bir şüğli xilafi-rəyin etməm.

Billah, mənə həm bu idi məqsud,
Məktəbdə olurmu tifl xoşnud?
Artıq bu sözü mükərrər etmə,
Lütf eylə, məni mükəddər etmə!

(Musiqi)

("Şur" çalınır. Qapı döyülür. Leyli anası ilə durub o biri qapıdan çıxırlar. Leylinin atası gəlib qapını açır. Məcnunun atası və bir neçə ərəb gəlirlər. Leylinin atası onlara oturmağı təklif edir. Məcnunun atası onlara müraciət edib oxuyur.)

Məcnunun atası (*şur üstə*)

Ey qədrlə qibleyi-qəbait!
Əslü nəsəbim sənə əyandır,
Hökmüm neçə min evə rəvandır.
Məşhuri-qəbailəm səxadə,
Mərufi-təvaifəm ətadə.
Nəxli-əməlim səmər veribdir,
İyzəd mənə bir gühər veribdir.
Hala dilərəm bu türfə lölu,
Bir ləl ilə ola həmtərazu.
Lütf eylə, inayətü, kərəm qıl!
Ol ləl ilə dürrü möhtərəm qıl!

Leylinin atası (*şur üstə*)

Ey qovm içində bir xirədmənd!
Mən kimi əsiri-dami-fərzənd!
Müşgülcə xitabdır xitabın,
Bilməm necə verəyim cavabın.
Qürbün, bilirəm, mənə şərəfdir,
Əmma xələfin əcəb xələfdir.
"Məcnun" – deyə tən edir xəlayiq,
Məcnuna mənim qızım nə layiq?!

(Musiqi)

Xor–Ərəblər (*təsnif üstə*)

Ey ərəb, bizləri məyus etmə!
Vergilən Leylini Qeysə getsin.

Qeys

Maldan da, candan da, puldan da
Maldan da, candan da, puldan da,
Hamıdan artıqdır, bil bunu, ərəb!
Bil bunu, ərəb!

(Musiqi)

Leylinin atası

Xeyr, vermərəm, vermərəm, vermərəm!
Vermərəm, vermərəm, vermərəm!
Leyliyə yaraşmaz divanə oğlan,
Divanə oğlan!

(Musiqi: "Kürd-şahnaz")

Ərəblər əl ilə, göz ilə Leylinin atasını rağib etmək istəyirlər.

Məcnun

Ya rəbb! Bəlayi-eşq ilə qıl mübtəla məni,
Bir dəm bəlayi-eşqdən etmə cida məni.
Az eyləmə inayətini əhli-dərddən,
Yəni ki, çox bəlalara qıl mübtəla məni.

(Qonaqlar gedirlər, musiqi yenə şur çalır.)

Leylinin atası (*təkcə*)

Nəsl ilə olur bəqayi-insan,
Nəzmi bəşərü nizami-dövran.
Can cövhərinə bədəldir övlad;
Övlad qoyan, qoyur həmin ad.
Xoş ol ki, xələfdən ola xoşdil,

Dünyada bir oğlu ola qabil.
Ah, olsa əgər səfihü sərkəş,
Ətvari kərihü xülqi naxoş,
Təşni oxuna olub nişanə,
Bizar ola ondan ata-anə.

(Qapı döyülür, Leylinin atası qapını açır. İbn-Səlam ilə bir neçə ərəb daxil olub oxuyurlar.)

(Musiqi)

Ərəblər

Ali-cahani bilib, gəlmişik ziyarətə,
Bir əmri edib izhar, əncamın alaq səndən,
Əncamın alaq səndən.

(Musiqi)

Leylinin atası

Xoş gəldiz, səfa gəldiz, məni siz uca etdiz,
Hər əmrə varam hazır, mümkündürsə əlaci,
Mümkündürsə əlaci.

(Musiqi)

Ərəblər

Bu oğlan İbn-Səlam, hər cahi-cəlali çox.
Əmma ki, onun, heyfa, həmdərdi-şəmsirri yox,
Həmdərdi-həmsirri yox.

(Musiqi)

Ərəblər

Bilmişdir sənin vardır ismətli
gözəl qızın,

İstər kim, ola sənlə həm qom, həm dost,
həm aşina.
Həm qom, həm dost, həm aşina.

(M u s i q i)

L e y l i n i n a t a s ı

Ey tayifeyi-nəcib, mən bu təklifə şadam.
Xudavəndin əmrilə verdim Leylini getsin,
İbn-Səlamın olsun.

Ə r ə b l ə r (*İbn-Səlama*)

İbn-Səlam, ilahi
Səni xoşbəxt eyləsin!

(M u s i q i)

İ b n-S ə l a m

İmdi sən mənə oldun ata-anadan əziz,
Allah qoysa, mən də ollam sənə oğul yerində,
Sənə oğul yerində.

Ə r ə b l ə r

İndi biz gedək toy üçün tədarükə başlayaq,
Tədarükə başlayaq.

(Hamı gedir. Leyli çıxıb qatar oxuyur.)

L e y l i

Xilafi-rəyim ilə, ey fələk, mədar etdin,
Məni gül istər ikən mübtəlayi-xar etdin...

P Ə R D Ə

ÜÇÜNCÜ PƏRDƏ

Vaqe olur bir meşədə, sübh açılmağa yavuqdur; səhnədə əvvəl heç kəs yoxdur; ətrafda bir dağ görünür, musiqi "Bayatı-Şiraz" başlayır; bir qədər sonra Məcnun dəli sifətində çıxır, başıaçıq, ayaqyalın və s.

(Oxuyur.)

(M u s i q i)

M ə c n u n

Fəzayi-eşqi ta gördüm, səlahi-əqldən durəm,
Məni rüsva görüb, eyb etmə, ey naseh ki, məzurəm.
Əgər çaki-giriban eyləsəm, mən etməyin, çün mən
Mətai-nəngdən arəm, libasi-ardən urəm.
Mənu səhrayi-vəhşət mənzil etməm afiyət güncün,
Əsiri-dami-zülmət olmazam, çün talibi-nurəm.
Bəlayi-eşqü dərdi-dust tərkin qılmazam, zahid,
Məni rəyimlə sanmın, eşq sultaninə məmurəm.

(Məcnun oxuduqca dağ tərəfdən əks-səda gəlir.)

(M u s i q i: "Bayatı-kürd")

(*Məcnun dağa üz tutub oxuyur.*)

Ey guşənişini-pakdamən!
Suzi-cigərimdən oldun agah,
Əhsən-tü əhsən-tü, bərəkallah!
Sənsən mənə həmdəmü müvafiq,
Birdəm qoşalım səda sədayə,
Gəl ağlayalım, bu macərayə.

(M u s i q i)

Q ı z l a r (*pərdə dalından*)

Bu gələn yara bənzər,
Telləri qara bənzər.
Oğlan, oğlan, bir bəri bax, bəri bax, bəri bax!..
Qoşa xal var üzündə...

Allana-sallana telləri var,
Xırdaca-xırdaca gözləri var.
Gəl Leyli, bala, gəl, Leyli!
Gedək gəzək bu bağda.
Gül açılıb, bülbül oxur,
Gül açılıb, bülbül oxur,
Gül açılıb, bülbül oxur!..

(Məcnun Leylini və Leyli Məcnunu görüb, bir-birinin üstünə yüyürüb bərk qucaqlaşırlar. Bir-iki saniyə sonra işıq keçir, qaranlıqda qızlar Leylini aparırlar, Məcnun tək qalır.)

(M u s i q i: "Rast")

(Məcnunun atasının səsi gəlir və sonra özü də səhnəyə çıxır və Məcnunu tapır.)

M ə c n u n u n a t a s ı

Ey cövhəri-canımın həvası,
Ey dideyi-bəxtimin ziyası!
Səndən nə rəva bu macəralər,
Sərmayeyi-eyb olan sədalər.
Derdim olasan mənim pənahım.
Fəxrim, şərəfim, ümidgahım.
Vəhşilər ilə nədir bu birlik?
İnsan ilə xoş deyilmi dirlik.
Rəhm et məni-zarü namuradə,
Qoyma bu məşəqqətü bəladə.

M ə c n u n

Söylə görüm, ey mənə verən pənd,
Danayi-süxən və ru xirədmənd.
Kimsən və nədir bu güftügülər?
Bifaidə batil arizulər.
Get! Dərdimə sən dəva deyilsən,
Biganəsən, aşina deyilsən.
Mən böylə kəlamə tutmazam guş,
Leyli sözü söylə, yoxsa xamuş!

(Bu halda bir neçə ərəb gəlib keçərkən bu macəranı görüb, Məcnunun atasından soruşurlar.)

(M u s i q i: "Təsnif")

Ə r ə b l ə r

Söylə bir görək, ərəb, bu cavan nədən xəstə, (*2 dəfə*)
Bəlkə bizdə bu dərdin davası tapıla kaş...
Davası tapıla kaş, davası tapıla kaş...
Ey, biz də dünya görmüş adamız, (*2 dəfə*)
Xəstələrə dava edəriz.
İnsan başına gələni bilmək gərək. (*2 dəfə*)

(M u s i q i)

M ə c n u n u n a t a s ı

Allahın bəndələri, bu mənim fərzəndimdir, (*2 dəfə*)
Eşqdir bunun dərdi, olub bir qıza aşiq,
Leyliyə budur aşiq! (*2 dəfə*)
Ey, hər təbibə getdim, söylədim,
Dərdi-eşqə əlac istədim.
Min cürə dəva verdilər, kar etmədi... (*2 dəfə*)

(M u s i q i)

Ə r ə b l ə r

Ey pir, bunun dərdinə əlac bircə şey var, (*2 dəfə*)
Kəbəyə aparasan, Həcəri görə bəlkə.
Həcəri görə bəlkə,
Dərdindən ola azad.
Ey, səcdə qılsın Kəbəyə oğlan, (*2 dəfə*)
Sən də üz tut dərgahi-ilahə,
Qılginən münacat, dilə bir əlac. (*2 dəfə*)

(M u s i q i: "Əraq")

Məcnun

Eşq dərdi, ey müalic, qabili-dərman deyil!
Cövhərindən eyləmək cismi cida asan deyil!
Dövr cövründən şikayət edənə aşiq demə,
Eşq məsti vaqifi-keyfiyyəti-dövran deyil!
Canı canan ittihadi fariq eylər cismdən,
Cismdən agah olan can vasili-canan deyil!

(Musiqi: "Heyratı"; Nofəl qoşunu ilə gəlir; bunları görüb oxuyur.)

Nofəl

Ey xəstə, nədir bu çəkdiyin zəhmətü rənc,
Viranədə zaye etdiyin dürü gənc?!
Vəhşi nə bilir sənin məqamın? (*2 dəfə*)
Hal əhlisən, istə, əhli-hali etsin əlac,
Hal əhlisən, istə, tapasan şəfa.

Ərəblər hamısı

Bu oğlan aşiqdir.

(Musiqi)

Leyli adlı bir gözələ.
Əmma bəxti yar olmaz,
Atası qızı verməz.
Bu da qızın eşqindən olmuş divanə, (*2 dəfə*)
Əl çəkib dünyadan, ata-anadan qaçıbdır.
Əl çəkib dünyadan, məcnun olubdur.

(Musiqi)

Nofəl

Ey cavan, bildim dərdini sənin, bəladır,
Əmma ümidini kəsmə, Allah kərimdir.
Mən cəhd eylərəm, Leylini sənə alaram,
Qızıl istəsələr, qızıl bəxş eylərəm.
Yoxsa qılıncımın zoru ilə alaram.

(Musiqi)

(Nofəl kağız yazıb göndərir.)

Məcnun (*Kabili üstə*)

Şükr eylərəm, ey yeganeyi-əhd!
Tədbirimə çoxlar etdilər cəhd.
Səndə, bilirəm ki, lütf çoxdur,
Nə sud ki, məndə bəxt yoxdur.
Bəxtim, bilirəm, mənim yamandır,
Sud istədiyin mənə ziyandır.

Ərəblər

Ey Nofəl, məlumdur, səndə şücaət çoxdur.
Əmma ki, Məcnunun bəxti, taleyi yoxdur.

Məcnun

Bəxtim, taleyim yoxdur, bəxtim, taleyim yoxdur,
Mən ki, məcnunəm.

Ərəblər

Məcnunin də Allahdan başqa bir əlacı yox,
Ona əlac olsa Allahdan olar.

(Musiqi)

Nofəl

Qəm çəkmə ki, mən olunca sənə qəmxar,
Yarın, bil ki, ənqərib olur sana yar.
Ümidvar ol!
Sən cəhd elə ki, yar ola sənə mayil,
Çün yar olsa mayil, kar olur asan.

(Musiqi)

(Bu vaxt Leylinin atası on nəfər yaraqlı ərəblə gəlir. Nofəl onlara deyir:)

Nofəl

Ey qom büləndpayə,
Biganə olmuş aşinayə.
Leylini verin Məcnunə,
Bu işə siz razı olsanız,
Sizi eylərəm dövlətmənd.
Simüzər verərəm,
Əgər sözlərimi yerə salsanız, eylərəm
Sizi şəmşirin zərbinə qurban.

(Musiqi)

Leylinin atası

Ey hünərvər, bu cünundur,
Bizdə cünunə qız yoxdur.
Lazım deyil bizə zərin,
Əl çəkirik zərindən.
Qorxmuruq şəmşirindən.
Hər nə bilsən et!
Laf ilə qılıncdan gəl urma qıl dəm
Kim, vardır qılınclar bizlərdə də həm.

(Musiqi)

(Qılınclarını çəkib davaya başlayırlar. Məcnun əlinə bir xəncər alıb Nofəlin qoşunlarını qırmağa başlayır. Nofəl onu kənara çəkib deyir:)

Nofəl

Nə iş görürsən, divanə!
Düşmənə kömək edirsən.
Biz ölürük sənin üçün,
Sən qırırsan bizi neçün?
Xəncəri tulla,
Mən cəhd edirəm ki, düşməni məğlub eyləyim
Kim, Leylini alıb sənə verdirim.

(Musiqi)

Məcnun (*Kabili üstə*)

Ey Nofəl, mən fədayi-yarəm,
Vəslinə onun ümidvarəm.
Yarım tərəfində ola nüsrət,
Bəlkə ki, bulam vüsalə fürsət.
Canım ola dust dilpəziri,
Ya köştəsi ola, ya əsiri.

(Bu vaxt Leylinin atası ilə İbn-Səlam gəlir; qılınclarını salıb, Nofələ müraciətlə oxuyurlar:)

Leylinin atası

Ey hünərvər, səndə zəfər.
Bizə aman ver, nahaq bu xəlqi
Qırma, qırma, qırma, qırma!
Leylini vermişəm özgə ərə,
Leyli verilib İbn-Səlamə.
İndi razı olma iki əri olsun yarın,
Namusa toxunan iş deyilmi bu?

(Musiqi)

Nofəl (*əl verir*)

Doğrudur, doğrudur, doğrudur.

(Qoşuna)

Ey ləşkər! Çəkilin davadan
Dəxi bəsdir cəng;
Əvvəldən bilsəydim tökməzdim bu qədər qan,
Məcnunə Allahdan əql istərdim.

(Musiqi)

(Hamı bir yerdə əllərini yuxarı qaldırır.)

Hamı

Bar, ilahi, əfv et
Bu günahı biz bəndədən.
Bu Məcnuni eylə
Aşiqlikdən xilas.

(Musiqi)

PƏRDƏ

DÖRDÜNCÜ PƏRDƏ

Vaqe olur İbn-Səlamın evində. Evin bir tərəfi küçədir; Məcnun Zeyd ilə küçədə durublar. Otaqda toy məclisidir.

Musiqidən sonra pərdə qalxır.

Zeyd (*rast üstə*)

Dün əxtəri-bəxtin oldu tirə,
Leyli sitəm etdi sən fəqirə.
O, İbn-Səlamə ruzi oldu,
Ruzi sənə dərdi-süzi oldu.
Yar özgəyə oldu şəmi məhfil,
Qaldı sənə tabi-atəşi-dil.

Qonaqlar (*otaqda*)

Xoşbəxt ol, İbn-Səlam!
Alasan kamü məram.
Keçirəsən xoş günlər,
Bar verə muradın.
Ola bir övladın.
Mübarək olsun toyun.

(Oyundan sonra durub gedirlər, bu halda Məcnun şüştər oxuyur.)

Məcnun

Qeyr ilə, yara, nədir seyri-gülüstan etdiyin?
Bəzm urub, xəlvət qılıb, yüz lütfü ehsan etdiyin?
Əhd bünyadın mürüvvətdirmi viran etdiyin?!
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

(Leyli içəri daxil olur, Məcnunun səsini eşidir; İbn-Səlam gəlib təəccüblə Leyliyə baxır və oxuyur.)

(Musiqi)

İbn-Səlam

Leyli, Leyli, bu odlu səs Məcnunundur,
Mən tanıyıram onu.
Məgər, Leyli, bəs bu cünun əl çəkməyibdirmi
səndən indi də?
Leyli, söylə, doğrusun söylə,
Səndəmi ona aşiqsən?
İstərsənmi Məcnunun ola aşiqin?

(Musiqi)

Leyli

İbn-Səlam, qoy doğrusun mən söyləyim,
mən Məcnuna aşiqəm.
Uşaqlıqdan bir-birimizi sevməyə
söz vermişik əhd ilə.
İndi söylə, sən özün söylə, sındıra billəm
əhdimi mən?
Məhəbbətin odunu mən söndürə billəmmi,
qəlbimi yandırar.

(Musiqi)

Leyli

Bir neçə vaxt sən səbr elə, qoy soyusun eşqin odu.

İ b n-S ə l a m (kənara)

Yəqin Leyli məni sınamaq istəyir,
Mən fikrini duymuşam.

L e y l i

İbn-Səlam, sən səbr elə, qoy bəlkə Məcnun da
əl çəkə.

İ b n-S ə l a m

Leyli, mən səbrə hazıram.
Sənin cəfanı mən çəkməyə hazıram.

(*Gedir.*)

(M u s i q i)

M ə c n u n

Cürmümüz noldu ki, bizdən eylədin bizarlıq?
Biz qəmin çəkdik, sən etdin özgəyə qəmxarlıq.
Sizdə adət bumudur? Böylə olurmu yarlıq?
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

(Bu halda Leyli taxt üstə ağlayır. Zeyd və bir neçə nəfər ərəb gəlib Məcnuna deyirlər:)

Z e y d v ə ə r ə b l ə r

Məcnun, Məcnun, dur gedək,
Bu rəqibin evidir.
Sənə tənə eylərlər.
Bədnam etmə özünü.

L e y l i

Allah, bu nə sitəm, bu nə zülm?!
Bu nə sitəm, bu nə zülm?!
Eşqin oduna yandım,
Hicran sitəmin qandım.

M ə c n u n

Bəs sənin vəfan bu imiş, Leyli; bu imiş, Leyli?
Bivəfa da yar olarmı?! (*2 dəfə*)

Z e y d v ə ə r ə b l ə r

Məcnun, dur gedək evinə,
Yazığın gəlsin atana.
Rəhm eylə bir dəm anana.
Leylini səndən ayırdı mürüvvətsiz fələk,
Sən də eşqin havasını başından eylə cida.

(Məcnun ərəblərlə gedir.)

P Ə R D Ə

BEŞİNCİ PƏRDƏ

Vaqe olur İbn-Səlamın evinin qabağında. İbn-Səlam qapı ağzında oturur. Musiqi "Osmanlı" havasını çalır. Pərdə qalxdıqda Leyli içəridən çıxıb gəlir və İbn-Səlamın qabağında oturur. Leyli xəstədir.

İ b n-S ə l a m (*osmanlı üstə*)

Pərişan-halın oldum, sormadın hali-pərişanım,
Qəmindən dərdə düşdüm, qılmadın tədbiri-dərmanım.
Nə dersən, ruzigarım böyləmi keçsin, gözəl yarım!
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

(M u s i q i)

Əsiri-dami-eşqin olalı səndən vəfa görməm,
Səni hər anda görsəm, əhli-dərdə aşina görməm.
Vəfayi-aşinalıq rəsmini sənə rəva görməm,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

L e y l i (*təsnif üstə*)

Ey mənə qəmxar olan, görmürsənmi əhvalımı?
Dərdə düşmüş cismimi, oda alışmış canımı?
Daim pərişan halımı.

(Musiqi)

İbn-Səlam

Ey gözüm, guş etmədin pəndü nəsihətimi sən,
Bir cününə mehrini saldın, etdin özünü sən,
Xəstəvü naçar olmusan.

Leyli

Söylə bir, İbn-Səlam, gər aşiqi həqiqisən,
Eşq odu düşsə əgər, dəfi onun qabildirmi?
Söndürməsi mümkündürmü?

(Leyli və İbn-Səlam evə daxil olurlar. Zeyd Məcnunu zəncirə bağlı Leylinin qapısına gətirir.)

Məcnun

Leyli, ey bivəfa Leyli!
Özgəyə saldın sən meyli!
Elədin məni divanə,
Sözümü saldın hər yanə, ey zalım! (*2 dəfə*)

(Musiqi)

Yaxıldı canım eşqindən,
Titrədi dağlar ahimdən.
Niyə sən bəs, ey bivəfa!
Belə üz döndərdin məndən, ey zalım! (*2 dəfə*)

(Musiqi)

Nə qədər təndə var canım,
Yanaram atəşi-eşqə,
Çəkərəm fəqan-ahim,
Yandıraram dağı, daşı, ey zalım! (*2 dəfə*)

(Bu halda Leyli evdən çıxıb, oxuya-oxuya yüyürür Məcnunun üstə.)

Leyli

Gəl, ey Məcnun, Leylinəm, al canımı!
Vəfasız olmuşam, billah, tök qanımı!

(Məcnun Leylini görcək zəncirini qırıb, geri çəkilib oxuyur.)

Məcnun

Sən Leyli deyilsən, ey pərizad!
Qaç, qəlbimi xunla etmə bərbad.
Aldatma məni, cünun deyib qaç,
Qaç, eyləmə gül üzünlə Leylini yad.

(Qaçır. Zeyd də onun dalınca gedir, Leyli tək qalıb oxuyur.)

Leyli (*segah üstə*)

Xoşdur nə qədr eyləsə yarım cəfa mənə,
Ta kim, rəqib söyləməsin bivəfa mənə.
Sənsiz diyari-hicrdə sərgəştə qalmışam,
Vəslin ümidi, billah, olur rəhnüma mənə.
Rəna qəsəd qalıbdı belə xürdi-xabidən
Xuni-dilim olubdur, əzizim, qəza mənə.
Qan bəstərində qoyma məni zar-mübtəla,
Ver şərbəti-vüsaldən, ey meh, şəfa mənə.

(Leyli yerə yıxılıb ölür. Bu halda xor daxil olub oxuyur.)

(Musiqi)

Xor

Rəhmət olsun sənə, Leyli! (*2 dəfə*)
Bu dünyada kam almadın,
O dünyada kam alarsan, ey aşiq! (*2 dəfə*)

PƏRDƏ

ALTINCI PƏRDƏ

Vaqe olur qəbiristanda. Bir tərəfdə Leylinin qəbri görünür.

(M u s i q i)

M ə c n u n (*bayatı-kürd üstə*)

Sındırdı çərx zülm ilə balü pərim, haray!
Döndərdi tez xəzanə fələk güllərim, haray!
Ey ruzigar, nə eyləmişəm bilməm sənə,
Ümmanə döndü qan ilə çeşmü tərim, haray!

(Bu halda Zeyd bir ərəblə daxil olur.)

Z e y d

Ey şifteyi-şikəstətale!
Əfsus ki, səyin oldu zaye!
Leyli sənə verdi zindəgani,
Sən ol baqi, ol oldu fani!
Sən sədqəsi olduğun pərivəş
Sədqə sənə oldu, ey bəlakəş!
Əzmi-rəhi-cənnət etdi ol hur,
Firdovs məqamın etdi məmur.

M ə c n u n

Netdim sənə, qəsdi-canım etdin?!
Qəsdi-dili-natəvanım etdin?!
Eylət məni yar olan diyarə,
Şəm eylə məni məzari-yarə!

(Məcnunu Leylinin qəbri üstünə aparırlar. Məcnun qəbri qucaqlayıb oxuyur.)

M ə c n u n (*bayatı-qacar üstə*)

Aşiq oldur kim, qılır canın fəda cananına,
Meyli-canan etməsin hər kim ki, qıymaz canına.

Canını canana verməkdir kəmali aşiqin,
Verməyən can etiraf etmək gərək nöqsanına.

(Deyir, ölür. Bu halda ərəblər yığılıb oxuyurlar.)

(M u s i q i)

X o r və ə r ə b l ə r

Ey bikəs, biçarə qalan aşiq, sadiq Məcnun! (*2 dəfə*)
Səd heyf ki, ahu qəmin oldu belə zaye!
Axı eşq, eşq, eşq bəladır, bəladır,
Aşiqlik edən dərdə mübtəladır!

(M u s i q i)

Olmadın nail Leyliyə sən bəs bu dünyada,
Məcnun! (*2 dəfə*)
Bari o dünyada olasan vəslinə nail.
Axı eşq, eşq, eşq bəladır, bəladır,
Aşiqlik edən dərdə mübtəladır! (*2 dəfə*)

P Ə R D Ə

ŞAH ABBAS VƏ XURŞİD BANU

Dörd pərdəli dörd şəkilli opera

İŞTİRAK EDİRLƏR

Şah Abbas – 35 yaşında
Vəzir – 50 yaşında
Birinci əyan
İkinci əyan
Üçüncü əyan
Dördüncü əyan
Beşinci əyan
Nökər
Odunçu
Odunçunun birinci oğlu
Odunçunun ikinci oğlu
Xurşid – odunçunun qızı, 20 yaşında
Məstavər – aşpaz
Dostəli – Şiraz əhli
Divanə
Birinci məhbus
İkinci məhbus
Üçüncü məhbus
Dördüncü məhbus
Beşinci məhbus
Birinci keçəçi
İkinci keçəçi
Üçüncü keçəçi
10 nəfər Şiraz əhli
Qoşun və başqaları

BİRİNCİ PƏRDƏ

Bir meşədə vaqe olur. Müqəddimə çalındıqdan sonra pərdə qalxır. Odunçu öz iki oğlu ilə odun yığırlar.

Odunçu (*rast üstə*)

Məsəl vardır deyərlər ki,
Çəkən zəhmət yeyər balı;
Çəkib zəhmət, nə bal gördüm,
Nə oldum eyşdən hali.

(Musiqi)

Bu nə gündür, nə dirlikdir
Ki, heç bir istirahət yox;
Pulum yoxdur, malım yoxdur,
Evim bomboş, içi xali.

(Musiqi)

Birinci oğlu

Nə bədbəxtin biriymişsən,
Bizi həm eylədin bədbəxt;
Nə busət basmış hər yanı,
Məişətmiz keçir çox səxt;

(Musiqi)

İkinci oğlu

Bizi insan bilən yoxdur,
Deyən yoxdur ki, kimsən sən;
Nə zillətdir, nə möhnətdir,
Buna bais, bəli, sənsən!

(Musiqi)

İkisi bir yerdə. Neçün oldun odunçu sən?

(Musiqi)

Odunçu. Kim? Mən?

Oğlanları. Bəli, sən!

Odunçu. Babam kimmiş?

Oğlanları. Odunçuymuş!

Odunçu. Atam kimmiş?

Oğlanları. Odunçuymuş!

Odunçu. Özüm kiməm?

Oğlanları. Odunçusan!

Odunçu və oğlanları (*bir yerdə*). Biz, siz?

Odunçu. Siz də odunçu oğlu odunçusunuz!

(Musiqi: təsnif)

Üçü bir yerdə

Gündə odun yığmaq oldu bizə sənət,
Özgə çəkir ləzzət, qaldı bizə möhnət.
Gərçi əzab çoxdur, evdə çörək yoxdur;
Evdə çörək yoxdur, əmma əzab çoxdur.

Musiqinin üsuluna (taktına) müvafiq odun yarırlar və balta endikcə "hey!" edirlər – "hey!" altı kərədir, sonra yenə oxuyurlar.

Gündə odun yığmaq oldu bizə sənət (*və ilaxır*).
Ay, hay... odunçuluq oldu bizə sənət!

Baltaları yerə qoyub, hərəsi bir yerə yıxılıb yatırlar.
Musiqi çalınır. Pərdə dalından Xurşid oxuyur.

Xurşid (*bayatı üstə*)

Yaz gəldi, gül açıldı,
Çəmən, çölə saçıldı;
Könlümdəki yaram da
Qızılgül tək açıldı.

Musiqi. Xurşid səhnəyə gəlir.

Xurşid

Bülbül oxur nəvasın,
Nəğməsini nəvasın;
Kimdən sorum, ay Allah!
Mən dərdimin dəvasın.

Musiqi çalınır. Xurşid oynayır. Bəədə odunçu və oğlanları oynayırlar.

Odunçu (*şur üstə*). Xurşid, nə xürrəmsən, guya ki, qəmin yoxdur.

Birinci oğlu. Xurşid nə bilsin ki, qəm-qüssə nədir?

İkinci oğlu. Toxdur. Ac olsa bilərdi ki, dərd və qəmimiz çoxdur.

Xurşid (*səmayi-şəms üstə*)

Qəm nədir, qüssə nədir, bil ki, xəbərdarəm mən,
Nəyə lazımdır olaq dərd-qəmin həmmali;
Halbuki xaliqi-sübhan yaradıbdırsa qəmi,
Onu rəf etməyə də həqq yaradıb bir hali;
İstiqamətdir adı ol halın.

Odunçu və oğlanları (*təsnif üstə*)

Pəh, pəh, pəh!..
Günüz axşama qədər işləyirik heyvan tək, (*2 dəfə*)
Hər səhər hey, hər səhər hey, hər səhərə hey!..
Çüçü-çüçü, tokkuşçu, çüçü-çüçü, tokkuşçu!
Çü, çüçü, çüçü, tokkuşçu!
Belədir dirliyimiz, belədir dirliyimiz!

(Musiqi)

Xurşid (*şur üstə*). Eşitməyibsinizmi ki, bir nəfər odunçu Hatəmi-Taiyə nə dedi?

(Təsnif)

Hər ke nan əz əməli-xiş xorəd.

(Musiqi)

Hər ke nan əz əməli-xiş xorəd,
Minnət əz Hatəmi-Tai nəbərəd!

(Musiqi)

Minnət əz Hatəmi-Tai nə bərəd!

Hamısı bir yerdə

Hər ke nan əz əməli-xiş xorəd (*2 dəfə*)
Minnət əz Hatəmi-Tai nə bərəd! (*2 dəfə*)

(Musiqi)

Şeypur səsi gəlir; bunlar qorxu ilə qulaq asırlar.

Birinci oğlan (*qışqırır*). Durun qaçaq, yəqin padşah ova çıxıbdır!

Xurşid. Qorxmayın, dayanın görək.

(Yenə şeypur)

Oğlanlar. Vallah, durun qaçaq, bizi öldürərlər!

Xurşid. Heç qorxmayın və dayanın!

Marş səsi gəlir, qoşun əhli cərgə ilə girib düzülür. Şah Abbas daxil olur. Bu əsnada qoşun və sair əyan oxuyurlar:

(Marş)

Hamı

Çox ömr etsin bu şahımız,
Dadına yetsin Allahımız.
Qalib gələsən sən düşmənə,
Olmasın asi bir kimsənə.

Ey padşah, sən çox yaşa, (*2 dəfə*)
Sən çün ədalət padşahısan,
Bizlərə, ey şah, eylə mərhəmət!

(Musiqi)

Şah Abbas

Əsgərlərim, çox razıyam, (*vəzirə*)
Məndən cəmi qoşun əhlinə razılıq et.
Hər bir nəfər bilsin bunu:
Padşahı onlara eylər mərhəmət;
Ta heç kəs heç bir kəsi
İncitməsin, ta zülm olmasın.
Zalimlərə zülm eylərəm,
Qoy cümlə bilsin bu əmrimi.

Hamı. Yaşasın padşah! (*səkkiz dəfə*)

Musiqi. Qoşun çadır qurmağa məşğul olur.

Şah Abbas (*Xurşidə baxır. Rast üstə*). O qız kimdir?

Vəzir. Odunçudur!

Şah

Ağıllıdır, yəqin o qız, özü də çox gözəl qızdır.
Nə dersən, bax: hərəmxanə eylər bunu qəbul, ya yox?

Vəzir

Əgər iradəyi-şahanə iqtiza etsə,
Kimin sözü ola bilər.

Şah (*təsnif üstə*)

Yəqin o şəxs atasıdır,
Çağır onu gəlsin!

Musiqi. Vəzir odunçuya tərəf gedir.

V ə z i r (*rast*)

Ey şəxs, səni padşah
Çağırır, irəli gəl!

M u s i q i. Odunçu gəlir; odunçunun oğlanları qorxularından bərk titrəyirlər.

Birinci oğlan (*ağlamsınaraq*). Dedim sizə durun qaçaq!

(M u s i q i)

Ş a h (*odunçuya*). Sən kimsən və nəçisən?

O d u n ç u. Padşah sağ olsun, sənin nökərin odunçudur!

Ş a h. O qız sənin nəyindir?

O d u n ç u. Kənizin mənim övladımdır.

Ş a h (*təsnif*). Sənin qızın, razısanmı, mənə hərəm olsun?

(M u s i q i)

Tez söylə!

O d u n ç u (*rast*). Padşah, əgər öldürtməliyəmsə öldurt!

Ş a h. Eşit, gör nə deyirəm? Sənin qızını almaq istəyirəm, nə deyirsən, razısanmı?

Odunçu. Buyur boynumu vursunlar, günahım varsa, sən yaxşı bilirsən.

Ş a h. Nə axmaq kişidir.

V ə z i r. A kişi, padşahın iradəsi budur ki, sənin qızını alsın, razısanmı? Söylə!

Odunçu. Əşhədən-la-ilahi-illəllah və əşhəd...

Ş a h. Burax bu divanəni, oğlanlarını buraya çağır!

M u s i q i. Vəzir gedir.

V ə z i r. Gəliniz padşahın hüzuruna!

Oğlanlar ikisi də (*ağlaşıb qışqırırlar*). Axı bizim günahımız nədir; bizi öldürürsünüz?! Padşah, bizi başına çevir, öldürmə! Padşah, qurban olaq, bizi öldürmə!

Ş a h (*qeyz ilə*). Qoy dursun! Çağır gəlsin qızı!

Qızı çağırır. M u s i q i.

Ş a h (*qıza*)

İradəm var səni almaq,
Hərəmlər içrə yer tutmaq,
Sənə layiq görülsə gər,
Ona razı olarsanmı?

Xurşid (*kamali-cürət ilə*).Yox!..

Ş a h (*böyük qeyz ilə*). Cəllad!

Cəllad gəlib qılıncı siyirib hazır durur. Odunçu və oğlanları bir-birindən tutub bərk titrəyirlər, hamı sakitdir. Xurşid kamali-cürət ilə padşaha baxır, musiqi çalınır.

V ə z i r (*padşaha xitabən, "Bayatı-şiraz"*)

Sən şücaətdə və qüvvətdə ki, məşhuri-cahansan,
Həm ədalətdə də, söz yox buna, mərufi-zamansan!
Nə ki, vardır həmə larzandı qabağında sənin,
Cürət etməz ola bir kimsə müxalif əmrin.
Lakin, ey şah, azalmaz zərrə qədər şanın gər
Dinləsən sən bu qocalmış vəzirin nitqin əgər!

Ş a h. Söylə görək!

V ə z i r

Bu qızın cürət ilə yox deməyi heyrətimə oldu səbəb;
Bir soraq ki, səbəbi-yox deməyə nəydi əcəb!

Ş a h. Bil görək!

V ə z i r

Söylə, doxtər, necə cürət edibən yox dedin!
Padşahın bu sualını belə rədd etdin!
Şübhəsizdir ki, səbəb var sənin cürətinə;
Söylə sən ol səbəbi, qıyma, qızım, gəl özünə!

(M u s i q i)

X u r ş i d (*təsnif*)

Cürətimin sirrini mən söyləyim, bil, ey vəzir! (*2 dəfə*)
Ta ki, olsun, ta ki, olsun qoy əyan dil, ey vəzir! (*2 dəfə*)
Heç bilirmi bir peşə padşahın, ey vəzir! (*2 dəfə*)
Gər peşəsi olmasa, bil, getmərəm mən heç kəsə. (*2 dəfə*)

(M u s i q i)

Bil ki, insanın əgər ki, heç bir peşəsi olmasa, (*2 dəfə*)
Dar dünyada yaşamaq olur müşkül, ey vəzir! (*2 dəfə*)
Heç bilirmi bir peşə padşahın, ey vəzir! (*2 dəfə*)
Gər peşəsi olmasa, bil, getmərəm mən heç kəsə. (*2 dəfə*)

H a m ı (*qızdan başqa*)

Padşaha heç yararmı olsun onun peşəsi,
Bunca dövlət tam onundur, həm doludur xəznəsi!

X u r ş i d

Xah gədadır, xan, bəydir, padşahdır hamısı,
Olmalıdırlar hərəsi bir peşənin sahibi!

M u s i q i. Padşah fikrə gedir.

Ş a h (*rast üstə*). Bu söz mənə xoş gəldi. Nə dersən, vəzir, yararmı ki, mən də bir peşə sahibi olam?

V ə z i r. Padşah sağ olsun! Əgər sən bir sənət və peşə bilsən, sənin şanın daha da uca olar!

Ş a h. Ey ağıllı qız, gəl yanıma. (*Gəlir, əlini onun çiyninə qoyur. Odunçu və oğlanları sevindiklərindən ağlayırlar.*) Vəzir, mənimçin hansı peşəni məsləhət görürsən?

V ə z i r . Padşah sağ olsun! Keçəçilik sənəti çox yarar sənətdir.

Ş a h. Əmr olunsun bir keçəçi ustadı gəlib, məni bu sənətə öyrətsin; (*qıza*) indi sən mənə gələrsənmi?

X u r ş i d. Bəli!

V ə z i r. Padşahım, təzə sənətin mübarək olsun!

H a m ı. Mübarək olsun, mübarək olsun!

(M u s i q i)

Ş a h (*təsnif*). Yəqin mənim bu peşəmdən camaata nəf var!

H a m ı. Yəqin elədir!

Ş a h. Yəqin mənim bu peşəmdən camaata nəf var!

H a m ı. Yəqin elədir!

Ş a h. Keçəçilik edərəm mən, keçəçi şah ollam. (*2 dəfə*)

H a m ı

Artar sənin qədrin,
Baqi qalar əsərin!

Ş a h. Keçəçilik edərəm mən, keçəçi şah ollam. (*2 dəfə*)

H a m ı

Yaşa, yaşa, yaşa, şahım, ədalətin vardır. (*2 dəfə*)
Odunçu qız sözü ilə olmusan keçəçi. (*2 dəfə*)

X u r ş i d

Ey... Allah eylər, Allah eylər,
Biləsən sən, biləsən sən
Səmərin bu peşənin.

H a m ı

Çox yaşa bizim şahımız!
Qalmasın yerdə ahımız!

Ş a h

Keçəçilik edərəm mən, keçəçi şah ollam. (*2 dəfə*)

H a m ı. Keçəçilik peşəsindən camaata nəf var!

Ş a h v ə q ı z. Var! (*Zəngülə*)

H a m ı. Var!

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Padşahın otaqlarından birində vaqe olur. Müqəddimə çalındıqdan sonra pərdə qalxır. Şah Abbas və üç nəfər keçəçi keçə qayırmaqla məşğuldurlar. Keçənin biri hazır olub bir miz üstə sərilib, camaat tərəfindən görünür. O biri də fərş üstə sərilib, ora-burası düzəldilməkdədir.

Ş a h A b b a s (*keçədən əl çəkib*)

(*çahargah təsnifi*)
Vaxt olar bir gün bu sənət
Edər mənə xidmət, edər mənə xidmət!
Ey xudavənda, sən eylə bir gün
Bu peşə mənə bir mədəd versin!

(M u s i q i)

Çəkməyən zəhmət bilməz, ah!
Bu dünyada ləzzət.
Ey xudavənda, sən eylə bir gün
Bu peşə mənə bir mədəd versin!

Ş a h (*çahargah*)

Xurşid ilə əhd edib, sərf eylədim bir müddəti,
Eylədim kəsfi-məharət öyrənib bu sənəti;
Mən hələ bir mənfəət görməmsə heç bu peşədən,
Könlümün şad olduğun hiss eylərəm mən dəmbədəm.

(M u s i q i)

Vaxt olar bir gün bu sənə göstərər öz xidmətin,
Onda mən də artıraram Xurşidimin izzətin,
Artırıb cahu cəlalın, izzətin mən ol zaman
Xurşidi arvadlar içrə eylərəm şahi-zənan!

M u s i q i. Müxalif guşəsi.

Qoy odunçunun qızı (*yada salın ol halını*)
Sayəsində ağlının tutsun məqami alini.

(*Enir çahargaha*)

Ağa ilə şöhrət tapar zillətdə qalmış bir gəda,
Nikbəxtdir ol kişi kim, əqli vermişdir xuda.

Şah bu sözləri oxuyarkən keçəçilər əllərindəki keçəni yumurlayıb hazır edirlər. Sonra şah bu sözlərini qurtaran tək zeyldəki təsnifi oxuya-oxuya keçə təpirlər, ayaqlarını (takt ilə) vururlar.

Hamı bir yerdə (*təsnif*)

Vaxt olar bir gün bu sənət
Edər şaha xidmət, edər şaha xidmət!
Ey xudavənda, sən eylə bir gün
Bu peşə şaha bir mədəd versin!
Çəkməyən zəhmət bilməz, ah!
Bu dünyada ləzzət, bu dünyada ləzzət!
Ey xudavənda, sən eylə bir gün
Bu peşə şaha bir mədəd versin!

M u s i q i. Keçəçilər şaha baş əyib gedirlər.

Ş a h (*rəhab*)

Maldan, mülkdən qəni bir padşah
Keçəçilik sənətin etmiş özünə bir pənah!
Gör bunu, ey kibr ilə əshab sənətə baxan,
Bilginən kim, sənəti əzl bilən eylər günah.

(M u s i q i)

Peşədir, hər bir kəsin dərdi-qəmin az eylər,
Sevdiyi peşəylə insan hər zaman naz eylər;
Peşə ilə hər nəfər öz işlərin saz eylər,
Peşəsi olmazsa insanın olar ömrü təbah.

M u s i q i. Xurşid daxil olur.

Ş a h (*təsnif*)

Xurşid, əhdimə yetdim,
Keçəçilik mən etdim!
Bil kim, sənə söz verdim,
Durdum sözümün üstə. (*2 dəfə*)

(M u s i q i)

Bir bax, budur keçələr,
Zəhmət çəkib gecələr,
Bu sənəti öyrəndim;
Durdum sözümün üstə. (*2 dəfə*)

M u s i q i. Xurşid keçələrə tamaşa edir.

Xurşid (*bayatı-kürd*)

Ey şahi-dövran,
Sən mənim tək naçizin nitqin əcəb təqdir edib,
Keçəçilik sənətin öyrənməyi tədbir edib,
Xəlq ara timsal olub, sənətə etdin ibtida;
Bunun nəticəsidir ki:
Məmləkətdə şövq edibdir sənətə xan və gəda!

Ş a h

Dövlətə etmiş olubsan sən böyük hər xidməti,
Cəhd edib dövlətdə təşviq eylərəm bir sənəti.
Şükr Allah, mən düçar oldum sənə, ey Xurşidim!
Çünki bu zamanda:
Tapmaq olmaz arvadı həm ağl ola, həm surəti!

Xurşid

Bir söz idi mən dedim, sən də ona etdin əməl,
Bəlkə biz bir gün görərik gər aman versə əcəl,
Kim bu sənət göstərər bundan böyük bir xidməti,
Həm onunla sənətin artar bütünlük izzəti.

Ş a h

İndi sən söylə mənə, ey Xurşidim, doğru danış,
Ol zaman ki, meşədə mən sənlə olmuşdum tanış.
Mən səni görcək məhəbbət atəşi qəlbimdə oldu şöləvər,
Ol zamandan get-gedə eşq atəşi tosi edər;
Söylə indi bir mənə, sən də sevirsənmi məni?
Sevməyirsənsə bu gün azad etdirərəm səni!

M u s i q i. Xurşid başını aşağı salıb dayanır, şah ona baxır, bəədə Xurşid birdən:

X u r ş i d (*qatar*)

Ey şahi-dövran, səni mən ol zamandan sevmişəm,
Sevgimin üzrə bu gün dərgahinə mən gəlmişəm.
Ya dirilt, ya ki, məni öldür, özün bil, ey şahım!
Mən ki, öz qəlbimdəki hissi məhəbbət bilmişəm.

Ş a h

Sevmişəm, billah, səni, bil, ey gözüm!
Sən mənə yar olginən, budur sözüm!
Şah sözü olmaz yalan, ey Xurşidim!
Xurşidim sən həm məhim, həm ulduzum!

X u r ş i d

Taleyimin ulduzu şölə saçıb hər bir yana,
Yetmişəm axırda can tək sevdiyim mən bir cana.
Ol qədər eşqin həvasi məst edibdir kim, məni,
Ləzzət ilə eylərəm mən canımı qurban ona.

Ş a h

Yanıma gəl, Xurşidim, eylə hekayət eşqdən,
Burda yoxdur heç kəs, bir sən isən, bir də ki, mən!
Bil qənimət fürsəti, gəl et mənə izhari-eşq;
Yanıma gəl, Xurşidim, gəl, gəl, gəl, ey nazik bədən!

M u s i q i. Xurşid və şah qol-boyun olub otururlar.

İ k i s i b i r y e r d ə

Bu nə xoşdur yar ilə söhbətü saz eyləmək, (*2 dəfə*)
Söyləyib eşqin sözün, işvə ilə naz eyləmək.

M u s i q i. Bir qədər qol-boyun qalırlar; bəədə musiqiyə görə şah tez durub qapıya tərəf gedir; bu əsnada vəzir daxil olur.

V ə z i r (*çahargah*). Ey şahi-dövran, Şiraz şəhərindən bir neçə nəfər nökərlərindən sizə şikayətləri vardır. İzin versəniz içəri daxil olarlar.

Ş a h. Buyur daxil olsunlar. (*Xurşidə*) Xurşid, sən burada qal.

Şiraz əhlləri daxil olub, təzim edirlər.

Ş a h. Vəzir, rəiyyətimin şikayəti nədir?

V ə z i r. Padşah sağ olsun! Əhvalatı mənə nəql edibdirlər, izin versəniz, nəql edərəm.

Ş a h. Söylə!

V ə z i r. Əlhəq, bunların söylədikləri qəribə bir əhvalatdır. Şiraz şəhrində, budur, beş ay tamamdır ki, bir əcibə hadisə üz verməkdədir; şəhər əhlindən iki yüzdən artıq nəfəri səhər evlərindən çıxıb, daha geri qayıtmayıbdır. Məlum deyildir ki, onlara nə olubdur, əlli-ayaqlı itibdirlər.

Ş a h. Ḥamısı birdən?

V ə z i r. Xeyr, padşah, bu gün biri, sabah beşi, biri gün üçü, qərəz, bu nəhv ilə. Sahirlər, münəccimlər dəxi bu barədə heç bir söz deyə bilməyirlər; odur ki, indi şəhər əhli içinə vahimə düşübdür, bilmək olmayır ki, bu nə sirdir.

Ş i r a z l ı l a r (*təsnif*)

Ey padşah, səndən əlac,
Səndən əlacı olsa, bu təhlükə
Bəlkə rəf ola, bəlkə dəf ola!
Yoxsa başqa yoxdur heç bir əlacı,
Bu sirri bil, rəhm eylə sən,
Rəhm eylə, ey şah, bu zülmü aç,
Bu zülm əgər rəf olmasa,
Sən bil, yəqin kim, şuriş düşər!
Xəlq ağlaşır, şivən qopur, (*2 dəfə*)
Arvad-uşaq qatışır bir-birinə. (*2 dəfə*)

M u s i q i. Padşah fikrə gedir.

Ey padşah, səndən əlac,
Səndən əlacı olsa, bu təhlükə
Bəlkə rəf ola, bəlkə dəf ola!
Yoxsa başqa yoxdur heç bir əlacı!

Ş a h (*çahargah*). Siz gediniz, mən əncam çəkərəm! Qoy camaat sakit olsun. (*Onlar gedirlər. Vəzir qalır.*) Vəzir, bu çox qəribə işdir, yəqin burada bir hiylə vardır. Mən daha dayana bilmərəm, əmr et mənim dərviş libasımı tez gətirsinlər, mən gedirəm!

V ə z i r. Padşah sağ olsun! Olmazmı ki, sizin əvəzinizə mən gedim, bu işi yerində təhqiq edim.

Ş a h. Yox, yox! Özüm getməliyəm, sən əmrimi yerinə yetir.

V ə z i r. Borcumdur. (*Deyib çıxır.*)

M u s i q i. Padşah fikirdə.

X u r ş i d (*şüştər*)

Canıma saldı mənim vahiməni böylə səfər,
Qorxuram bundan yetə haşa bu cana bir xətər.

Ey şahim, nolar ki, həm mən də gedim sənlə belə,
Ta ki, canın hifzini çün öz canım edim sipər.

Ş a h

Qorxma, Xurşidim mənim, bunca səfər çox görmüşəm,
Qorxmayıb düşmən qabağında hələ tək durmuşam.
Allah eylər bu işi təhqiq edib tez qaydaram,
İstərəm ki, qalmasın bu zülmdən heç bir əsər!

M u s i q i. Vəzir və qulam əlində libas daxil olurlar.

Ş a h (*geyinə-geyinə, çahargah-tihur ilə*). Mən heç vəqt razı olmaram ki.

(M u s i q i)

Mənim məmləkətimdə zülm olsun.

(M u s i q i)

Vay olsun zalimlərin halına
Ki, mənim rəiyyətimi incidirlər;

(M u s i q i)

Kökündən, kökündən qazıyacağam zülmü

(M u s i q i)

Vəzir, dövlət ümuri yenə sənə qalır; hər bir əmri layiqincə yerinə yetirərsən və bir də bu Xurşid mənim gəlinimdir, ona hörmət olunsun və mən gəlincə mənim imarətimdə ona xüsusi yer verilsin. İndi mən gedirəm; hələ kim, xudahafiz! (*Tələsik gedir.*)

P Ə R D Ə

ÜÇÜNCÜ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Şiraz şəhərinin böyük bir bazarında vaqe olur. Səhnənin sol tərəfində aşpaz Məstavərin dükanı görünür. Məstavər dükanının qabağına yığılmış olan adamlara xörək satır; o biri tərəfdə cürbəcür dükanlar vardır; bir tərəfdə qaraçılar oynayırlar. Müqəddimədən sonra pərdə qalxır. Qaraçı qızı oynayır. Böyük qaraçı oxuya-oxuya qaval vurur. Sair qaraçılar da yerində oxuyurlar.

(Musiqi)

Qaraçı (*qaval vura-vura*)

Gəl yanıma, gözüm, mən sənə qurban!

O birilər

Gəl, yarım, mən ölləm, gəl, canım, mən ölləm!

Qaraçı

Gir qoynuma, özüm mən sənə qurban!

O birilər

Gəl, yarım!.. (*və ilaxır*)

Qaraçı

Eşitmişəm sənin özgə yarın var!

O birilər

Ay balam, mən ölləm, ay yarım, mən ölləm!

Qaraçı

Sənin həmi gülün, həmi xarın var!

O birilər

Ay balam, mən ölləm!.. (*və ilaxır*)

Musiqi. Adamlar buraya yığılırlar.

Qaraçı

Bir ala göz, uzun boylu (*2 dəfə*)
Dərdimə dərman eyləməz!
Nazlı balam, bircə nolu,
Bizim çəməndə gəlib gəz! (*2 dəfə*)
Eşqin oduna yanaram, (*2 dəfə*)
Dərdimə dərman eyləməz!
Gah sönərəm, gah yanaram,
Mən yazığam, rəhm elə bəs. (*2 dəfə*)

(Musiqi)

Sinəm olub para-para,
Dərdimə dərman eyləməz!
Mən nə edim, nədür çara?
Nazlı balam, gedib gəlməz! (*2 dəfə*)

(Musiqi)

Qaraçı qavalını açıb, pul yığır; bu əsnada Şah Abbas dərviş libasında olaraq buraya daxil olur. Şəhər əhlindən Dostəlinin qaraçılara acığı tutur.

Dostəli (*şur üstə*). Bu nə şadlıqdır yas günündə? Şəhərin tamam yarısı matəmə batıb, amma siz burada şadlıq edirsiniz. Hələ bizdən pul da istəyirsiniz; doğrudan da ki, qaraçısınız.

(Musiqi)

Qaraçılar çıxıb gedirlər.

Şah Abbas (*Dostəliyə*)

Söylə görüm nədir bu yas və matəmə səbəb, nədir?
Nə olub, məyər nə bədbəxtlik üz veribdir?

Bir dəstə adam bunların başına yığılır.

Dostəli. Ağa dərviş, görünür ki, sən buraya təzə varid olubsan. Tamam neçə aydır ki, şəhərimizin adamları itib yox olur. Bilmək olmur ki, onları kim oğurlayır.

Dəstə. Doğrudur!

Dostəli. Bir çox külfət sahibsiz, atalar oğulsuz, bacılar qardaşsız qalıb, ah və nəva edirlər!

Dəstə. Doğrudur!

Dostəli. Bu sirdən heç kəs əyan ola bilmir; hərgah sən cadugərsənsə bu sirri faş et.

Dəstə. Faş et, ağa dərviş, faş et!

Musiqi. Divanə gəlir, o da qulaq asır.

Şah. Bir də mənə söyləyin görüm, bu kimin dükanıdır və nə dükandır ki, hər kəs ora yüyürür?

Dostəli. Yazıq dərviş, görünür ki, sən Məstavərin ləziz təamından yeməmisən.

Dəstə. Yazıq!

Dostəli. Məstavər bir aşpazdır ki, onun kimi ləziz təam bişirən heç Şah Abbasın sarayında da yoxdur.

Dəstə. Yoxdur!

Dostəli. Bunun məharəti qabağında heç aşpaz da davam edə bilməyib, cümləsi dükanlarını bağladılar. Hərgah ləziz təamdan məhrum olmaq istəmirsənsə sən də tez ol get, ondan xörək al ye. Tez get, yoxsa dükanını bağlar, axşamdır.

Dəstə. Tez get, ağa dərviş, tez get!

Musiqi. Hamı dükanlarını bağlayıb, buraya yığılır.

Divanə. Ha-ha-ha! Tez get, ağa dərviş, tez get! (*Şur*) Heç bilirsinizmi ki, Məstavər sizə nə yedirdir, ey mənə divanə deyib özləri məndən divanə olanlar?

Dəstə. Bu nə deyir?

Divanə. Mən onu deyirəm ki, Məstavərin sizə yedirdiyi nədir, bilirsinizmi?

Dəstə. Ləzzətli təamdır!

Divanə. Ha-ha-ha!.. Ləzzətli təam!.. Tez get, ağa dərviş, tez get. Ey divanələr, Məstavər sizə insan əti yedirdir, insan!..

Dəstə. Xamuş, nə axmaq sözdür!

Dostəli. Doğrudan da ki, divanəsən!

Divanə. Bəli, divanəyəm, amma sizdən ağıllı divanəyəm! Məstavər adamları oğurlayıb başını kəsir və ətini sizə yedirdir... Tez get, ağa dərviş, tez get!..

Dəstə (*əl çala-çala*). Ay dəli şəpəli, ay dəli şəpəli, çıx bala-bala get!

Musiqi. Divanə gedir, bir neçə saniyədən sonra dəstə dəxi dağılıb, səhnədə bir Şah Abbas və bir də Məstavər öz dükanında qalır.

Şah (*şur*). Dəlidən doğru xəbər... Bu divanənin sözü o ağıllıların sözündən daha əhəmiyyətlidir. Doğrudan da bu aşpazın ləzzətli xörəkləri məni şübhəyə salır. Gedim bir onun yanına... Nə cəllad surətli adamdır!

Musiqi. Məstavərə yaxınlaşır.

Şah

Şöhrəti tutmuş bu şəhəri namın,
Tərif eylər hər kəs sənin təamın;
Mən binəva dəxi çox arzuməndəm ki, sənin
Ləziz təamından dadmış olam.

(Musiqi)

Məstavər (*gözaltı şaha baxır*)

Doğrudur, ağa dərviş, doğrudur.
Bəs gərək səni qonaq edim mən; (kənara)
Çəngimə düşmüsən,
Çox əcəb gəlmisən!

(*Ona*)

Doğrudur, ağa dərviş, doğrudur!
Bəs gərək səni qonaq edim mən!
Keç bəri. Gəl bəri, bir az bəri, bir az daha
İrəli... Ha-ha-ha!..

Bu halda şah durduğu yerdə yerin içinə gedir, ha gücənir ki, yuxarı çıxsın, olmur. Axırda bir quyuya düşən kimi yox olur. Oh!.. Ha-ha-ha! (Mühib bir qəhqəhə)

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Bir zirzəmidə vaqe olur. Qaranlıqdır. Zirzəmidə Şah Abbasdan başqa beş nəfər məhbus dəxi vardır. Müqəddimədən sonra pərdə qalxır.

Məhbuslar (*şaha, təsnif*)

Bədbəxt dərviş, sən nə günahın sahibisən?
Məstavərin hiyləsinə oldun nişanə!
Gəl ağlaşaq bəs, ağa dərviş, əhvalımıza,
Oldu bizə, ax, ay yazıq, düşmən zəmanə!

Şah (*şüştər*)

Söyləyin bir dəm mənə bu hiylədən məqsəd nədir?
Çəkdiyimiz zəhmətə, dərdə, qəmə illət nədir?
Zindəyik, ölməmişik ki, qəbrə salmışlar bizi,
Söyləyin, Məstavərə, aya, görək neylər sizi?

Məhbuslar (*təsnif*)

Bir-bir kəsəcək, ağa dərviş, bizi Məstavər.
Dünyada yoxdur, əcəba, bunca sitəmgər.
Qurban əti tək ətimizi doğram edəcək,
Ləzizi təamlar bişirib, xəlqə verəcək!

Şah (*şüştər*)

Ağlamaqla, ey rəfiqan, olmayır dərdə dava,
Qoymayaq Məstavəri versin bizə bunca cəfa,
Cəm olaq, həmlə edək, həbs eyləyək bu zalimi,
Ta gərək ədli-ədalətlə ona olsun cəza!

Məhbuslar (*təsnif*)

Bu fikirdən gəl daşın, ey bixanə dərviş!
Nə qədər biz cəhd eylədik baş tutmadı iş!
On bir nəfərdik, ağa dərviş etdik həmlə biz,
Olduq axırda, a yazıq, məğlub cümləmiz!

Şah (*təsnif*)

Nədir əlaci bu işin, bəs söyləyin siz (*2 dəfə*)
Göz görə-görə olalım qurban xəbisə?!
Ölmək gözəldir yaşamaq əgər bu isə.

Musiqi. İşıq görünür.

Məhbuslar (*qorxu ilə*)

Odur, gəlir!

Musiqi. Daha işıq.

Odur, gəlir, odur, gəlir, odur, gəlir!

Musiqi. Qorxularından bir-birinə qısılırlar.

Məstavər (*daxil olur, əlində siyirmə xəncər və bilo*). A!.. Xoş gördük, xoş gördük qoyunlar, quzularım. Mən gəldim ki, ikinizi tutub kəsim xörək bişirim. (Musiqi) Xörək bişirim, yüyürün mənə sarı. (*Onlar yüyürürlər.*) Çəkilin dalı-dalı. (*Onlar çəkilirlər.*) Yüyürün mənə sarı, çəkilin dalı-dalı. Öyrənibsiniz qoçaqlarım, hay, hay.

M u s i q i. Xəncərini itiləyir. Bunlar əlləri ilə üzlərini örtüb ağlayırlar. Şah Abbas mat və mütəhəyyir tamaşa edir.

M ə s t a v ə r. A!.. Mən çobanam, mən çoban, mən çoban, siz qoyun! Mən çoban, siz qoyun; gəlin bəri qoyunlarım, bir-bir düzülün; ən əvvəl sən, sən, sən. Sonra da sən-sən-sən, ondan da sən-sən-sən! Sonra da sən-sən-sən! Axırda ağa dərviş! Tez olun! Gün keçdi, tez olun, gün keçdi, tez olun, çox gecdir bu gün, tez olun, çox gecdir bu gün!

M ə h b u s l a r (*yalvarırlar*). Rəhm et, rəhm et, bizi öldürmə. (*3 dəfə*)

M ə s t a v ə r. A!.. Düzülün bir-bir, tez olun bir-bir, düzülün bir-bir, tez! Tez-tez-tez-tez! Mən gəldim ki, ikinizi tutub kəsəm, xörək bişirəm. (M u s i q i) Yüyürün mənə sarı. (*Onlar yüyürürlər.*) Çəkilin dalı-dalı. (*Onlar çəkilirlər.*) Öyrənibsiniz, öyrənibsiniz, qoçaqlarım, hay-hay!.. (*Xəncərini itiləyir.*)

Ş a h (*öz başına; "Bayatı-şiraz"*). Taxtın tarac ola, ey şah, bu zülmə bir çarən yox, gözün önündə olan zülmə şahidsən və zülm qurbanısan.

M ə s t a v ə r. Tez düzülün!

Ş a h. Mən ölümdən qorxmuram, qorxum mənim bu zülmdür. İntiqam almaq bu zülmdən gərək, zülmü tamam rəf eyləmək!

M ə s t a v ə r. Tez düzülün!

Ş a h. Nə edim, nə çarə qılım, nədir dərmanı bu dərdin? Xəyal pəjmürdə, ağıl tutqun, başımda huş pərişandır.

M ə s t a v ə r. Tez düzülün!

Ş a h. Bari-ilahi, zehnimə bir fikir sal, eylə mədəd!
Qoymayın bu zalimi töksün əbəs qanı yerə!

M ə s t a v ə r. Tez düzül!

M u s i q i. Məstavər soxulub adamların içindən birini tutub yerə yıxır və qılıncını hazır edir başını kəsə.

Ş a h (*qışqırır*). Tapdım, tapdım, keçəçilik... Ey şəxs, (*rast üstə*) bir ləhzə dayan, sənə bir kəlmə sözüm vardır.

M u s i q i. Məstavər qurbanını əlindən buraxıb.

M ə s t a v ə r. Söylə!

Ş a h. Bu şəxsi qırıb, əbəs qan tökməkdə sənin muradın dövlət qazanmaq deyilmi?

(M u s i q i)

M ə s t a v ə r. Əlbəttə, puldur!

Ş a h. Öylə isə, sən bizə bir ay möhlət ver, bir yol ilə sənə xeyli pul qazandıraram.

M ə s t a v ə r. Nə sayaq?

Ş a h. Mən dərviş çox gözəl keçə qayıra bilirəm. Mənim keçələrimin qiyməti çox bahadır, sən bir iş eylə!

M ə s t a v ə r. Nə iş?

Ş a h. Sən bazardan mənə yun al və keçəçi aləti al. Mən bir keçə qayırım, bunlar da mənə kömək etsinlər.

M ə s t a v ə r. Sonra?

Ş a h. Sonra sən o keçəni apar Şah Abbasın imarətinə və ver şahın vəzirinə, o sənə keçə əvəzində o qədər pul verər ki, bizim hamımızın bahası əvəzinə olar.

M ə s t a v ə r. Mən razıyam, əgər vəzir pul verməsə?

Ş a h. O halda bizim qanımız sənə halaldır.

M ə s t a v ə r fikrə gedir.

Ş a h (*öz-özünə*). İndi bütün ümidim vəzirin fərasətinədir. Yəqin keçəni görüb, mənim xətadə olduğumu anlar.

M ə s t a v ə r. Razıyam bu işə, amma gər...

M u s i q i: təsnif

Əgər görsəm yalan vardır sənin sözündə, dərviş,
Sən bil kim, əzab ilə kəsib çak eylərəm.

(M u s i q i)

Mənəm Məstavər, ey dərviş, bunu əvvəlcə bil,
Məni aldatmaq olmaz, bil, səni xak eylərəm.

(M u s i q i)

Bütün Şiraz yığılsa gər bunu bilməz ki, mən
Kəsib insanları ondan da xörək eylərəm.
A!.. (*Kadensiya; tez gedir*).

M ə h b u s l a r (*təsnif*)

Ağa dərviş, Allah səndən razı olsun,
Bu dünyada dərdin, qəmin az olsun!
Həmə vəqti hər bir karın saz olsun!

Ş a h. Xuda kərimdir, xuda!..

P Ə R D Ə

DÖRDÜNCÜ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Şahın sarayında vaqe olur. Vəzir və beş nəfər əyan məclis qurubdurlar. Müqəddimədən sonra pərdə qalxır.

V ə z i r (*çahargah*). Tamam altı aydır ki, padşahdan bir xəbər yoxdur.

(M u s i q i)

Çün nigaranam, çox pərişanam, çox da heyranam!

(M u s i q i)

B i r i n c i ə y a n. Bəli, padşahın bu səfəri çox uzun çəkdi. Bu qədər zaman paytaxtdan ayrıldığı heç yox idi...

(M u s i q i)

İ k i n c i ə y a n. Dilim-ağzım qurusun, bəlkə padşahın başına...

V ə z i r. Sus! Oylə söz demə, yoxsa camaat xəbərdar olsa haman dəm şuriş düşər.

(M u s i q i)

Ü ç ü n c ü ə y a n. Mənim fikrimcə, hər halda vəliəhdi paytaxta çağırmaq lazımdır, yoxsa sonra gec olar.

D ö r d ü n c ü ə y a n. Məncə, heç bir şey lazım deyildir; inşallah, padşah tezliklə gələr. Bu qədər iztirab əbəsdir.

İ k i n c i ə y a n. Xeyr, əbəs deyildir!

D ö r d ü n c ü ə y a n. Xeyr, əbəsdir!

Ü ç ü n c ü ə y a n. Heç əbəs deyildir!

Beşinci əyan. Əbəsdir, əbəsdir!..

Birinci əyan. Mən çox nigaranam!

Beşinci əyan. Mən heç də nigaran deyiləm!

Dördüncü əyan. Mən də nigaran deyiləm!

İkinci əyan. Sənin üçün təfavüt yoxdur!

Beşinci əyan. Xeyr, sənin üçün təfavüt yoxdur!

Üçüncü əyan. Ağzının sözünü danış!

Birinci əyan. Əbləh taifə!

Beşinci əyan. Əbləh sənsən!

Dördüncü əyan. Sizsiz əbləh taifə!

İkinci əyan. Sizsiz!

Birinci əyan. Sizsiz!

Beşinci əyan. Sənsən!

Dördüncü əyan. Sənsən!

Səs-küy düşür.

Vəzir. Sakit! Əhalidən əvvəl siz şuriş salırsınız. Səbr ediniz, görək bu işin çarəsi nədir. Binəva Xurşid günüz axşama qədər yaş töküb ağlayır. Hər halda biz hələ bir neçə gün səbr edək, görək nə olur.

Musiqi. Nökər daxil olur.

Nökər. Xurşid banu izin istəyir!

Vəzir. Buyursun, buyursun!

Musiqi. Xurşid daxil olur.

Xurşid (*müxalif*)

Gün gedib, aylar dolandı, padşahim gəlmədi,
Atəşi-hicrə tənim yandı da, şahim gəlmədi,

Gözləməkdən yolunu qan ağlayır bu gözlərim,
Düşmən oldumu mənə bu xeyirxahim gəlmədi!

Qəlbimə düşmüşdü əvvəl vahimə kim, bu səfər
Padşahın canına haşa yetirməzmi xətər!
Altı ay keçdi o gündən, gəlmədi heç bir xəbər,
Noldu ki, yarəb, mənim dadü pənahım gəlmədi.

Musiqi: təsnif başı.

Vəzir və əyanlar (*təsnif*)

Xurşid, nəyə lazım bunca cəfa; (*2 dəfə*)
Səbr et, bala, bala, sən cəzə-fəzə eyləmə! (*2 dəfə*)
Şahın bu səfəri millətə edər xidmət;(*2 dəfə*)
Səbr et, bala, sən cəzə-fəzə eyləmə! (*2 dəfə*)

Xurşid

Qorxum bunadır kim, şahim gedər gəlməz, (*2 dəfə*)
Bəs mən necə edim cəzə-fəzə eyləməyim? (*2 dəfə*)

Musiqi. Xurşid əlləri ilə üzünü örtüb ağlayır.

Vəzir və əyanlar

Xurşid, nəyə lazım bunca cəfa?! (*2 dəfə*)
Səbr et, bala, bala, sən cəzə-fəzə eyləmə! (*2 dəfə*)

(Musiqi)

Xurşid (*mənsuriyyə*)

Gecələr sâbah tək yatmam yataqda, ağlaram,
Ah edib, nalə qılıb, öz sinəmi mən dağlaram,
Sən gedərkən yalvarırdım, ey şahım, apar məni,
Ta xətər vaxtında qalxan eyləyim mən sinəmi.

V ə z i r (*çahargah*)

Ahü nalə fayda verməz, əbəsdir göz yaşı,
Hər işə tədbir lazımdır, gərək bu müşgülü
Həll üçün bir neçə gün səbr eyləyək.

Ə y a n l a r

Şübhəsizdir ki, gərək səbr eyləyək!

V ə z i r. Xurşid, sən get bir qədər istirahət elə. Qorxma sənin duan şahın üstündədir. (*Xurşid gedir.*) Siz hər gün burada hazır olarsınız, hər halda ehtiyatı əldən buraxmaq olmaz, amma bu barədə camaat heç bir söz bilməsin. Əgər beş günə qədər şah gəldi, gəldi və ila gəlməsə...

N ö k ə r (*daxil olur*). Vəzir sağ olsun, bir nəfər Şirazdan gəlib sizi görmək istəyir.

H a m ı. Aha!..

V ə z i r. Yəqin bu şəxsi padşah göndəribdir. İlahi sənə şükür! Siz gediniz o biri otaqda gözləyiniz.

M u s i q i. Əyanlar çıxırlar, Məstavər daxil olur, qoltuğunda bükülü keçə var.

V ə z i r (*rast*). Söylə görək mətləbin nədir?

M ə s t a v ə r. Şiraz şəhərində bir dərviş bu keçəni, sizin hüzurunuza göndəribdir.

V ə z i r (*kənara*). Ah, şahın keçəsidir, mən tanıdım! (*Ona*) Xob, keçə qalsın burada, sən çıx get! (*Kənara*) Gedim Xurşidə müjdə verim. (*Gedir.*)

M ə s t a v ə r (*öz-özünə acıqla*). Gedim? Bəs pul, bəs pul?

(T ə s n i f)

Aldatdı məni mühil dərviş,
Göndərdi məni sərayi şahə.
Pul vermədilər, pis oldu bu iş;
Sərf oldu bu qədr vəqt rahə,
Gör mən sənə neylərəm, a dərviş!
Durmam, gəlirəm sənə cəzaçün;
Gəlcək sənə öylə sancaram niş,
Ta xalq tamam vəhşətə gəlsin!

M u s i q i. Gedir.

M u s i q i. Vəzir və Xurşid banu bir tərəfdən, əyanlar dəxi o biri tərəfdən gəlir.

V ə z i r (*şikəsteyi-fars*)

Müjdə olsun sənə, Xurşid yarından xəbərim var.
Sağ-səlamət o şəhinşah, yanından xəbərim var.
(*Rasta enir.*)

Gör, budur, naməsidir padşahın, bu keçə,
Bunda çəkmiş, gəl-gəl etmiş, nişanından xəbərim var.

Xurşid keçəni görcək ağlayır və keçəni öpür.

X u r ş i d. Bu gecə mən bir yuxu görmüşəm, sizə nəql eyləyim!

H a m ı. Söylə, söylə. (*Qulaq asırlar.*)

(M u s i q i)

X u r ş i d

Gecə olcaq başlamışdım mən ahi, (*musiqi*)
Yuxu tutdu, gördüm onda mən şahi, (*musiqi*)
İtiribdir nə isə şahim rahi, (*musiqi*)
Məni görcək söylədi: gəl-gəl-gəl-gəl!
Xurşid, gəl, tez-tez gəl, hey!..

(M u s i q i)

Baxıb gördüm şahım düşdü bir çahə, (*musiqi*)
Belə baxdım, heyran qaldım dəstgahə, (*musiqi*)
Yüyürüb tez çahə, baxdım mən şahə, (*musiqi*)
Məni görcək söylədi: gəl-gəl-gəl!
Xurşid, gəl, tez-tez gəl, hey!..

(M u s i q i)

Dedi: əl ver, Xurşid, məni azad et, (*musiqi*)
Köməyə çağır tez xalqı, fəryad et. (*musiqi*)
Əlimi atdım, mən şahdan yapışdım, (*musiqi*)
Quyudan çıxcaq söylədi: gəl-gəl-gəl!
Xurşid, gəl, tez-tez gəl, hey!..
Hey!.. Tez gəl-gəl!

(M u s i q i)

V ə z i r (*çahargah*). Xeyir olsun, çox gözəl yuxudur.

H a m ı. Xeyir olsun, çox xeyir olsun!

X u r ş i d. Fikrimə bir şey gəlir...

V ə z i r. Nə var ki?

X u r ş i d. Bu keçəni göndərməkdə şahın fikri nə imiş?

V ə z i r. Şübhəsizdir ki, özündən xəbər verir.

X u r ş i d. Yox-yox, mənim fikrimə başqa şey gəlir.

H a m ı. Nə var ki?

X u r ş i d. Bəlkə padşah bir təhlükə içindədir və bu keçəni göndərməklə bizə xəbər verir.

V ə z i r. Yox!.. (*Fikir edir.*) Amma ola bilər. Keçəni gətirən necə oldu?

N ö k ə r. Çıxdı getdi!

X u r ş i d. Ah, bu saat onu geri qaytarın!

V ə z i r. Doğrudur, onu geri döndərmək lazımdır! Görək şah nərədədir!

Nökər gedir.

B i r i n c i ə y a n. Xurşidin sözü mənim ağlıma batır.

İ k i n c i ə y a n. Doğrudan da şah təhlükədə ola bilər.

Ü ç ü n c ü ə y a n. Nə eyləməli, əlac nədir?

N ö k ə r (*daxil olur*). O adam Şiraza yola düşübdür. İstəsəniz dalınca gedək.

X u r ş i d. Yox-yox, vəzir qoşun götürüb, qarabaqara onun dalınca getməlidir.

V ə z i r. Mən də o fikirdəyəm. Öylə isə vaxtı itirmək lazım deyildir. Gedək. (*Bir əyana*) Əmr et, qoşun hazır olsun. Biz hamımız, Xurşid dəxi bizim ilə bərabər, o adamın dalınca yavaş-yavaş, qarabaqara gedək, görək o hara gedir; sözün doğrusu, onun sifəti mənim xoşuma gəlmədi, cəllada bənzər bir adamdır.

Hamı bir yerdə: t ə s n i f.

Yavaş-yavaş gedək görək bu şəxs kimdir və nəçidir!
Şah Abbası nerdə görüb, bəlkə bu bir quldur, ya düzddürmü?

(M u s i q i)

Allah göstərməsin, şahımda xətər olar. (*2 dəfə*)
Şah Abbassız, Şah Abbassız dövlət puç olar. (*2 dəfə*)
Yavaş-yavaş gedək görək bu şəxs kimdir və nəçidir!
Şah Abbası nerdə görüb, bəlkə bu bir quldur və ya,
düzddür, a!..

Tez gedək. (*Gedirlər.*)

P Ə R D Ə

İKİNCİ ŞƏKİL

Yenə haman zirzəmidə vaqe olur. Məhbuslar və Şah Abbas bidamaq oturubdurlar. Müqəddimədən sonra pərdə qalxır.

Şah Abbas (*kürd-şahnaz*)

Düşüb iraq yardan, oldum bəlayi-hicrə düçar!
Görüb o zülmü ki, aşiqlər üzrə yağdırır girdar,
Cəzavü tənbehə layiq olan şəxsə həbs bari-giran,
Günah-cürmdən azad olana gör nədir bu rəftar?!

Sərayi-şahda məskun, bütün cahana amirkən,
Şəhin məkani bu zindan və amiri–xunxar.
Gecə yatıb da yuxumda görüm ol məhi-xurşidi,
Üzündə zülfi-pərişan, ahüzar edib ağlar.

Nədir əlaci bu dərdin, ey xudayi-ləmyəzəli,
Tükətdi ömrümü zindan, yox oldu səbrü qərar.
Olarmı bir gün o Allah ki, azad olam, yoxsa
Yazıb qəza mənə böylə bu zindanda qəbrü məzar.

(Musiqi)

Məhbuslar (*təsnif*)

Bizi burdan azad eylə, ey dərviş!
Bizi burdan azad eylə, ey dərviş!
Çağır Allah, fəryad eylə, ey dərviş!
Çağır Allah, fəryad eylə, ey dərviş!
Səni Allah, imdad eylə, ey dərviş!
Səni Allah, imdad eylə, ey dərviş!
Çağır Allah, fəryad eylə, ey dərviş!
Çağır Allah, fəryad eylə, ey dərviş!

Birinci məhbus (*şur*). Allahın altında Şah Abbas bizim bu halımızı bilmiş ola idi; yəqin ki, ədalət-pənah bu zülmü kökündən rəf edərdi.

İkinci məhbus. Ah, a yazıq, bu saat Şah Abbas öz sarayında gözəl-göyçək hərəmlərilə eyş-işrətə məşğuldur; bu cür nadidə zülm, yatsa da onun yuxusuna girməz.

Üçüncü məhbus. Vallah, deyirlər ki, Şah Abbas çox vaxt dərviş libası geyib, şəhərbəşəhər gəzir ki, bir yerdə rəiyyətə zülm görmüş olsa, haman dəm rəf etsin.

Dördüncü məhbus. Doğrudur bu söz, əmma, heyif ki, Şah Abbas zülmü yerin üstündə axtarır, altına girmir ki, biz yazıqları görsün.

Beşinci məhbus. Ağa dərviş, bəlkə sən Şah Abbası görmüş olasan, çünki çox vəqt dərviş dərvişə düçar olar.

Şah. Mən heç vaxt ona düçar olmamışam!

Musiqi. Məhbuslar bikef olub, başlarını dizləri arasında gizlədirlər.

Şah (*səmayi-şəms*)

Bunların bu sözləri yandırdı, yaxdı canımı;
Zərbə vurdu başıma, etdi pərişan halımı.

(*Ürəyindən tutur.*)

Sakit ol, ey qəlb, çırpınma alışmış sinədə,
Ya gərək azad edim mən bunları, ya kim,
töküm öz qanımı.

(Musiqi)

Gər vəzirim yetməsə bu vərtədə imdadıma,
Mən özüm çarə qılıb, cəng eylərəm cəllad ilə;
Çağırıb Allahı, nərə çəkib fəryad ilə,
Böylə göstərrəm hünər, layiq olar öz adıma.

(Musiqi)

Əldə heç bir yaraq, ya ki, silahim yox isə,
Gəlməyir bu zindan içrə heç ümidim bir kəsə;
Lakin ol haqqü ədalət məndədir, bunlar isə
Düşməni məğlub üçün, billah, yetər fəryadıma.

Musiqi. Məhbuslar qorxu ilə başlarını qalxızırlar.

Məhbuslar (*qorxu ilə*). Deyəsən gəlir... gəlir...

Bir-birlərinə qısılırlar.

Məstavər daxil olub qeyz ilə əllərini qoynuna qoyub, şaha baxır.

Məstavər (*acıqla*)

Məni aldatdın, məni aldatdın,
Məni aldatdın, oh!.. (*Xəncərini çəkir.*)

(Musiqi)

İrəli dur!

(Musiqi)

İrəli dur!

(Musiqi)

Aldın möhlət, göndərdin şahın sarayına,
Aldatdın dərviş məni sən!
Öldürəm indi səni mən, öldürəm səni mən!
Məni aldatdın, məni aldatdın, məni aldatdın!
Ox!.. (Musiqi) İrəli dur! (Musiqi) İrəli dur!

Musiqi. İstəyir həmlə etsin, şah əlini qabağa uzadır.

Şah ("*Bayatı-Şiraz*")

Sən bədəfkar və xəbis cəllad isən,
Qorxmuram səndən, buyur meydanə sən, a-gəl!

Musiqi. Şah ilə Məstavər ötüşürlər. Şah onun xəncərini alıb, yerə atır. Məhbuslar qorxularından küncə qısılırlar. Məstavər cəld xəncəri yerdən götürüb, şahı vurmaq istərkən bu halda qapılar tay-tay açılıb, Xurşid, vəzir, əyanlar və qoşun əhli içəri daxil olurlar və əhvalatı böylə gördükdə haman dəm Məstavəri tutub, qollarını bərk-bərk bağlayırlar. İş böylə ikən Şah Abbas ilə Xurşid qucaqlaşırlar.

Vəzir (*rast; Məstavərə*). Bədbəxt nakəs, sən kimin üstə əl qalxızırsan? Bilmirsənmi ki, bu, padşahi-cahan Şah Abbas cənnətməkandır?!

Bu halda məhbuslar yerə yıxılıb, şahın ayağına sürünürlər.

Qoşun (*qışqırır*). Yaşasın padşah!

Şah (*məhbuslara*). Durun və indi bilin ki, Şah Abbas yerin üstündəki zülmü axtarıb tapan kimi, yerin altındakı zülmü də tapa bilir.

Məhbuslar. Padşah!.. Padşah!.. (*Deyib, ağlamaq onları boğur, ağlayırlar.*)

Qoşun. Yaşasın padşah!..

Şah. Xurşid, doğrudan da, mən çox xoşbəxtəm ki, sənə düçar oldum və yenə xoşbəxtəm ki, sənin məğruranə sözlərini qəbul edib, sənət öyrəndim; bir sənət ki, məni və vətən övladını bir nadidə və naşidə zülmdən xilas eylədi. Görünür ki, mənim millətə olan məhəbbətim Allaha xoş gəlibdir ki, səni mənə kömək göndəribdir. Bu gündən sonra belə sən, odunçunun qızı, mən İran padşahına hərəmsən! Qoy valideynin fəxr etsin. Səni bütün hərəmlər içrə şahizənan etdim. Yaşasın Xurşid!..

Hamı. Yaşasın padşah və Xurşid banu!..

Şah. Bu məluni (*Məstavərə*) aparıb, Şiraz əhlinin gözü qabağında dar ağacından asarsınız, qoy xunxar qatil öz cəzasına çatsın!

Hamı. Yaşasın padşah! Yaşasın padşah!..

(Marş)

Allah səni yenə şad edə, şahım! (*2 dəfə*)
Millət səni yenə yad edə, şahım!(*2 dəfə*)
Ey padşah, sən vətəni et (*2 dəfə*)
Yad vətəni, şad vətəni, yad vətəni et!(*2 dəfə*)
Şah, çox yaşa vətənə sən!
Qənimətsən vətənə sən, qənimətsən!
Millətə sən qənimətsən!
Millətə sən qənimətsən!

PƏRDƏ

ƏSLİ VƏ KƏRƏM

Dörd pərdəli altı şəkilli opera

İŞTİRAK EDİRLƏR

İsfahan padşahı – 50 yaşında
Kərəm (Əhməd Mirzə) – onun oğlu, 25 yaşında
Keşiş, padşahın xəzinədarı –50 yaşında
Əsli (Qara Sultan) – onun qızı, 15 yaşında
Sofi, Kərəmin yoldaşı –30 yaşında
5 nəfər əyan
Hələb paşası – 45 yaşında
2 nəfər zəbtiyyə
Şeyx Nurani – ağsaqqal və ağ geyimli bir şeyx
Səfi – bir qoca kişi
Bəylər, küçə adamları, yol ötən
bir dəstə qız və sairə

BİRİNCİ PƏRDƏ

Zəngidə, padşahın xəzinədarı olan keşiş (Arsen) xanın imarəti həyətində vaqe olur. Həyət gözəl bir bağçadır ki, içində cürbəcür ağaclar və güllər vardır. Sağ tərəfdə keşişin evi görünür, içəri daxil olmaq üçün qapısı vardır. Sol tərəfdə başı qarlı və dumanlı dağlar görünür. Keşişin qızı (Əsli) bağçada bir sərv ağacının dibində oturubdur. Ətrafda keşiş ilə bərabər qızlar və oğlanlar oynayıb gülməkdədirlər. Keşiş qapısının ağzında əyləşib, bağçaya tamaşa edir.

Ə s l i (*kürd-şahnaz*)

Qəlbimə bir hiss girmişdir, adı bilməm nədir,
Gah acıdır, gah şirindir, heç dadı bilməm nədir.
Bezmişəm ata-anadan, görməyir heç şey gözüm,
Bu pərişan halımın heç illətin bilməm özüm.
Görmüşəm mən bir yuxu, ol yuxuda bir novcavan,
Qədd-qamət sərv tək, gözlər qara, qaşlar kaman.
Sarılıb incə belimdən, bus edər rüxsarımı,
Söyləyir: sevdim səni, tapdım nəhayət yarımı.

Keşiş, qızlar və oğlanlar Əsliyə tərəf gəlib oxuyurlar.

(M u s i q i: təsnif)

Gülüm, söylə sən görək,
Böylə pərişan neçin?

(M u s i q i)

Gülüm, söylə sən görək,
Böylə pərişan neçin?
Bizi eylə hali sən,
Dərdin nədir, dərdin nədir, dərdin nədir?
Hey... tez söylə, tez söylə, tez söylə sən!

(M u s i q i)

Bunca dövlətdən məgər
Razı deyilsən, qızım?

(M u s i q i)

Bunca dövlətdən məgər
Razı deyilsən, qızım?
Bizi eylə hali sən.
Dərdin nədir, dərdin nədir, dərdin nədir?
Hey... tez söylə, tez söylə, tez söylə sən!

Ə s l i (*şahnaz*)

Zərrə qədri dövlətin yoxdur gözümdə hörməti,
Anlamam, billah, nədir dövlətlə dünya ləzzəti.
Eşqdir dərdim mənim, aşiq olub bir oğlana,
Hazıram qurban edəm öz canımı mən ol cana.

K e ş i ş

Sən nəsən, aşiq nədir?
Heç həya etməzmisən?!
Kimdir ol oğlan belə?
Kim dəli etmiş səni?
(*nəvazişlə*)
Gəl, qızım, söylə görüm:
Kim edib aşiq səni?

Ə s l i (*şahnaz*)

Görmüşəm mən bir yuxu, ol yuxuda bir novcavan,
Qədd-qamət sərv tək, gözlər qara, qaşlar kaman.
Sarılıb incə belimdən, bus edər rüxsarımı,
Söyləyir: sevdim səni, tapdım nəhayət yarımı.

(M u s i q i)

H a m ı (*təsnif*)

Yuxunun var insana böylə əsəri məgər? (*2 dəfə*)
Yuxu verir insana zövqü səfa, cövrü cəfa,
zövqü səfa,
Hey, sən söylə, sən söylə, sən söylə hey!..

(*bir də təkrar*)

(M u s i q i)

Hamı Əsli ilə durub içəri daxil olurlar. Səhnədə heç kəs qalmır. Bu halda Kərəm ilə Sofi o biri tərəfdən çıxıb bağçaya gəlirlər.

S o f i (*bayatı-Şiraz*)

Sal nəzər, şahzadə, bir bax keşişin bağına,
Həm gülə, həm sünbülə, gendən görünən dağına.

K ə r ə m. Dostum Sofi!

Bu qədər güllər və sünbüllər mənə eşq artırır,
Eşq ilə yanmış çirağa yağ olub da yandırır.

S o f i

Söylə sən, şahzadə, kimdir aşiqin bir dəm mənə,
Bəlkə mən bu yolda göstərrəm ola xidmət sənə.

K ə r ə m

Bir yuxu gördüm, əzizim, bir nəfər nazlı sənəm,
Bus edər hərdən məni, söylər mənə yarın mənəm.
Qaş qara, gözlər qara, baldan şirindir ləbləri,
Qədd-qamət sərv tək, xumardır şux gözləri.
Qönçə tək açmış dəhanın, dişləri dürr danəsi,
Olmuşam, Sofi, o gündən ol qızın divanəsi.

Keşiş çıxıb baş əyir.

K e ş i ş (*söz ilə*). Ey şahzadə, sən bizə çox xoş gəlibsən, səfa gətiribsən! Buyurun bizim xanəmizə!

K ə r ə m. Çox sağ ol, keşiş, çox razıyıq.

Hamısı bərabər içəri girirlər.

(M u s i q i)

Bir qədər sonra Əsli pərişan bir halda evdən çıxır.

Ə s l i (*söz ilə*). Odur... özüdür... yuxumda gördüyüm oğlandır!

Bayatı-kürd

Yandırıb yaxmaqdadır eşq atəşi əndamımı,
Düşmüşəm bir dərdə kim, bilməm özüm əncamımı.
Bar ilahi, tez yetir gəlsin mənim cananımı,
Ya diriltsin bəndəni, ya kim, tez alsın canımı.

Kənarda bir sandaliya üzərinə yıxılıb qalır.

(M u s i q i)

Kərəm dəxi içəridən çıxır, bu da pərişan haldadır.

K ə r ə m (*söz ilə*)

O kim idi?.. O qız kim idi?..
Yoxsa mən yenə yuxu gördüm... yuxu...

(M u s i q i: şikəsteyi-fars)

Yenə gördüm surətin ol məhvəşin odlanmışam,
Tazadan eşqə düşüb, suzi-cigərlə yanmışam.
Gəl, gəl, ey dilbər, məni bu şübhədən eylə xilas,
Gördüyüm sənsənmi, yoxsa yuxuya adlanmışam?

O tərəfdən Əsli ayağa durub getmək istərkən bunlar bir-birini görürlər və bir qədər məəttəl qalıb qucaqlaşırlar, bəədə Əsli kənara çəkilir.

Ə s l i (*söz ilə*). Ah!.. Oğlan, kərəm eylə, bizi görərlər.
K ə r ə m. Əsli nədir, ey dilbər? (*Buraxmayır.*)
Ə s l i (*dartınır*). Ah!.. Kərəm eylə, keşiş babam gəlir.
K ə r ə m. Əsli nədir, gözəlim!
Ə s l i. Ah!.. Kərəm eylə, qorxuram.
K ə r ə m. Əsli nədir, qorxma!
Ə s l i. Yox, oğlan, kərəm eylə, kərəm eylə.
K ə r ə m. Ey nazlı dilbər, qoy sənin adın Əsli olsun, mənim adım Kərəm.

Ə s l i. Qoy olsun, ancaq qorxuram, keşiş babam çıxıb bizi görər.
K ə r ə m. Canım Əsli, bir ləhzə mənim ilə otur, səni tapmışam və səndən ayrıla bilmirəm.

(M u s i q i)

Ə s l i (*şikəstə*)

Nə gəzərsən məlul-məlul bu yerdə,
Aman Kərəm, məni rüsvay eyləmə!
Məni sənə qismət eyləmiş yəzdan,
Aman Kərəm, məni rüsvay eyləmə!

K ə r ə m

Doymadım dadlı-dadlı dilindən,
Aman Əslim, elə sözlər söyləmə!
Gözümü qan bürüdü, qorxuram ölümdən,
Aman Əslim, elə sözlər söyləmə!

(M u s i q i)

Ə s l i

Heç olurmu buralarda elə iş,
Keşiş babam duyar, eyləyər təftiş,
Duymamışkən tez olgilən qalx, siviş,
Aman Kərəm, məni rüsvay eyləmə!

(M u s i q i)

K ə r ə m

Sarılaram incə miyan belindən,
Doymamışam dadlı-dadlı dilindən.
Qorxuram ki, ayrılasan sən məndən,
Aman Əslim, elə sözlər söyləmə.

(M u s i q i)

Ə s l i (*durur ayağa*)

Ağam Kərəm, paşam Kərəm, xan Kərəm,
Atış Kərəm, tutuş Kərəm, yan Kərəm.

Əsli olsun sənə qurban, can Kərəm,
Aman Kərəm, elə sözlər söyləmə!

Keşişin səsi gəlir. Əsli Kərəmə baxa-baxa həsrətlə getməyə məcbur olur.

Kərəm (*segah*)

Gərçək oldu bu yuxum, tapdım məgər xan Əslimi,
Verməsə, billah, keşiş ölləm əgər xan Əslimi.
Ağlımı aldı başımdan səndəki sövdayi-eşq,
Kor olmuş gözlərim təkcə görər xan Əslimi.

Sofi (*çıxıb Kərəmi axtarır və tapır*). Ey şahzadə, keşiş səndən nigarandır, harada qaldın gəlmədin.

Kərəm (*segah*)

Tapmışam cananımı, Sofi, mənə rəhm eylə sən,
Noldun, ey birəhm, sən söylə, ona rəhm eylə sən.
Gördüyüm röyadakı dilbər keşişin qızıdır,
Söyləməm, bil kim, bu sirri tək sənə rəhm eyləsən.

Sofi (*söz ilə*). Yuxuda gördüyün keşişin qızı imiş?

Kərəm. Odur... özüdür.

Sofi. Daha bundan asan bir iş yoxdur. Şah baban əmr edər, keşiş qızını sənə verər. Özü də bu işə çox şükürlər edər, çünki şahzadədən artıq kimə qız vermək olar.

Kərəm. Yox, Sofi, qardaş, mən keşişdən çox qorxuram. O, qızı mənə verməyəcəkdir.

Keşiş (*çıxır*). Ey şahzadə, səndən nigaran oldum. (*Kənara*) Şahzadə çox pərişanhaldır, burada bir hikmət vardır. (*Onlara*) Buyurun eyş-işrətə məşğul olaq.

Sofi. Çox razıyıq. Lakin şahzadə bir qədər kefsizdir. İsfahana getməyimiz lazımdır.

Qızlar və oğlanlar hamısı buraya çıxırlar. Əsli isə qapının ağzında dayanır.

Keşiş. Buna heç bir sözüm ola bilməz. Əmr sizindir. (*Kənara*) Çıxıb getsələr yaxşıdır...

Kərəm və Sofi. Xudahafiz, səlamət qalasınız. (*Hamı baş əyir.*)

(Musiqi)

Hamı (*təsnif*)

Xoş gəldin, xoş gəldin,
Xoş gəldin, şahzadə! (*2 dəfə*)
Yaşasın şahzadə, ömrü onun çox olsun! (*2 dəfə*)

Kərəm və Sofi gedirlər, Əsli özünü saxlaya bilməyib, birdən hönkür-hönkür ağlayır, hamı mat qalır.

Əsli (*segah*)

Sən məni tənha qoyub getdin, mənim canım Kərəm,
Rəhm qıl, qoyma məni hicr oduna yanım, Kərəm!
Bilmirəm ata nədir, ana nədir, əqvam nədir,
Sən mənə oldun belə candan əziz xanım Kərəm!

Keşiş (*acıqla*). Qızım, qızım, bu nə işdir görürsən.

Təsnif, musiqi ilə bir yerdə

Yoxsa, qızım, şahzadəyə aşiqsən?
Yoxsa, qızım, şahzadəyə aşiqsən?
Bəs elə imiş, bəs elə imiş,
Onda gör səni mən necə edərəm.

Əsli. Bəli, mən şahzadəyə aşiqəm. (*Hamıda hərəkət*)

Keşiş

Get gözümdən tez! (*2 dəfə*)
Rədd ol burdan, rədd ol!
Mən səni sevməm,
Get gözümdən tez,
Get gözümdən tez,
Sən dəlisən, sən dəlisən.
Sən dəlisən, get!

(Musiqi)

Get, get, get!..

PƏRDƏ

İKİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

İsfahan şəhərində padşahın sarayında vaqe olur. Saray mümkün mərtəbədə şəşəəli döşənmişdir. Padşah taxtda əyləşibdir, əyanlar dəxi yanına düzülübdürlər. Kərəm dəxi padşahın hüzurunda ortada dayanıbdır.

P a d ş a h (*rast*)

Söylə görüm, oğlum, bu qədər ahə səbəb nə?
Gündüz, gecələr ahü fəğan, nalə səbəb nə?
Derlər səni tərsa qızına aşiq olubsan,
Söylə görüm a... bundakı dəsgahə səbəb nə?

K ə r ə m (*söz ilə*). Şah baba, izin ver ki, mən öz eşq bəlamı sizə dil ilə deyil, tel ilə qandırım. Sofi, ver mənim sazımı. (*Sofi saz gətirir.*)

P a d ş a h. Söylə, qulaq asaq!

K ə r ə m (*sazı əlinə alıb çalır*)

(M u s i q i)

K ə r ə m

Keşiş bağçasında bir gözəl gördüm,
Əqlimi başımdan aldı, nə çarə?
Daramış zülfünü, tökmüş üzünə,
Sərimi sevdayə saldı, nə çarə?

(M u s i q i)

Mən də bildim bir keşişin qızıdır,
Səhərdən çıxmış dan ulduzudur,
Yuxuda gördüyüm ol özüdür,
O, halımı bilməz isə nə çarə?

(M u s i q i)

Dərdli Kərəm deyir firqətim qəti,
Kəskindir qılıncı, yürükdür atı.
Ol İsəvi, mən Məhəmməd hümməti,
Həqq dininə dönməz isə nə çarə?

(M u s i q i)

P a d ş a h (*rast*). Sən xəzinədarım keşişin qızına aşiqsən; burada heç bir ahü-nəva etməli iş yoxdur. Sən səbr elə, mən onun qızını alıb sənə verərəm.

Ə y a n l a r (*təsnif*)

Əlbəttə, şah buyursa, əgər buyursa, əgər əmr etsə.

(M u s i q i)

Əlbəttə, şah buyursa, əgər buyursa, əgər əmr etsə,
Keşişin sözü olmaz. (*2 dəfə*)

N ö k ə r (*daxil olur*). Padşah sağ olsun, xəzinədar keşiş hüzurunuza izin istəyir.

Ş a h. Söylə gəlsin.

Kərəm keşişin adını eşitcək müztərib hal olur və ağlayır.

Ş a h. Oğlum, nə oldu sənə, nə üçün ağlayırsan?

(M u s i q i)

K ə r ə m

Aşardı qarlı dağın ardına,
Xan Əslim ağlıma düşdü, ağlaram.
Hey ağalar, dayanamam dərdinə,
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Eşidib keşişin adını,
Xan Əslim ağlıma düşdü, ağlaram.
Duymuşam məhəbbətin dadını,
Sevdiyim xətrimə düşdü, ağlaram.

(M u s i q i)

Ş a h. Oğlum, sənin bəxtindən keşiş özü hüzuruma gəlibdir. Mən bu gün ondan nişan alaram.

Keşiş daxil olur, baş əyir, əlində bir dəstə açarlar.

Ş a h. Söylə görüm, xəzinədar, mətləbin nədir?

K e ş i ş. Padşah sağ olsun, tamam otuz ildir ki, sənin çörəyini yeyib, sənə xidmət etmişəm, indi çörəyini mənə halal elə və məni qulluğumdan azad elə.

Ş a h. Keşiş nə olubdur? Yoxsa məndən və ya mənim adamlarımdan incimisən?

K e ş i ş. Əstəğfürullah!.. Ancaq mən çox qocalmışam, qorxuram ki, xidmətimdə qüsur göstərəm.

Əyanlar bir-birlərinə işarə edirlər.

Ş a h. İndi ki, azadlıq sənin öz xahişindir, mənim də sözüm yoxdur. Lakin onu bil ki, bu otuzillik xidmətindən mən çox razıyam, məhşərəcən hümmətim üstündə baqi qalacaqdır. Ancaq, keşiş, sən də gərək mənim əmrimi yerinə yetirəsən.

K e ş i ş. Buyur, padşah, can və baş ilə yerinə yetirərəm. (*Kənara*) Ax, qorxuram ki, qızımı istəyə.

Ş a h. Keşiş, mənim oğlum Əhməd Mirzə sənin qızına aşiq olubdur (*keşişdə hərəkət*), sən gərək qızını mənim oğluma verəsən.

K e ş i ş (*pərişan halda*). Padşah sağ olsun, necə ola bilər, dinimiz ayrı, adətimiz ayrı...

Ş a h. Mən sənin qızını müsəlman edərəm.

K e ş i ş (*daha da bədhal olub*). Padşah sağ olsun, hər nə ağır təklifin varsa mənə əmr et, lakin bu təklifdən vaz keç (*əyanlarda işarələr*).

Ş a h. Yox, keşiş, heç vaxt keçmərəm, gərək qızını mənim oğluma verəsən.

K e ş i ş (*yalvarır*). Padşah sağ olsun, buyur boynumu vursunlar, amma qızımı əlimdən alma.

Ş a h. Keşiş, gözümün ağı-qarası bir oğlum var, mən onun əza və cəfasına razı ola bilmərəm, əmr edirəm ki, qızını ona verəsən.

K e ş i ş. Padşah!..

Ş a h (*qəzəblə*). Xamuş!.. Artıq söz lazım deyildir.

K e ş i ş. Padşah sağ olsun, indi ki, sənin əmrindir, razıyam. Ancaq mənə beş ay möhlət ver ki, toy tədarükü görüm.

Ş a h. Razıyam möhlətə (*Kərəmə*); oğlum, daha sənin ahü-nəvan əbəsdir, get, arxayın ol! (*Kərəm ağlayır.*)

Ş a h (*təəccüblə*). Oğlum, daha niyə ağlayırsan?

(M u s i q i)

K ə r ə m

İnanmıram qara keşiş sözünə,
Yox etibarım onun özünə;
Salacaqdır məni çölün düzünə,
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Uca dağ başında ötüşür quşlar,
Tərlanım uçdu kimlər görmüşlər,
Dərdimi anlamaz bunda keşişlər;
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Dərdli Kərəm deyir: bu dərdim bitməz,
Yarımın sevdası sərimdən getməz,
Yüz min öyüd ver, biri kar etməz,
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Ş a h (*ayağa durur, getmək üçün oğlunun qolundan tutur*). Oğlum! Keşiş mənə söz verəndən sonra sözündən çıxa bilməz. Beş ay dözərsən,

inşallah sonra yarın sənə yetişər. İndi gəl gedək səni şikara aparım. (*Hamısı gedirlər, keşiş onları bir qədər ötürüb sonra qayıdır*).

(M u s i q i)

K e ş i ş

Qaçmaq, qaçmaq, (*2 dəfə*)
Qaçmaqdan başqa əlacı yoxdur. (*2 dəfə*)
Getmək, getmək,
Getməsəm əgər əngəlim çoxdur.
(*Fikir ilə*) Olsam razı... Yox!..
Qaçmaq, qaçmaq, (*2 dəfə*)
Qaçmaqdan başqa əlacı yoxdur. (*2 dəfə*)
Qaçmaq, qaçmaq, qaçmaq,
Qaçmaq!.. (*Qaçır gedir.*)

P Ə R D Ə

İKİNCİ ŞƏKİL

Zəngidə keşişin bağçasında vaqe olur. Ancaq bu səfər bağçadakı güllər sınıb, solub, ağacların bəziləri qırılıbdır. Sandalyalar alt-üst olubdur. Yenə sol tərəfdə dağlıq və ortada sərv ağacı. Zəngi əhlindən Səfi adlı qoca məyus və kasıb bir bucaqda yumrulub yatıbdır. Musiqi çalınırkən səhnə açıq durur. Sonra əyanlar, qoşun, Kərəm ilə padşah kamal-dəbdəbə ilə daxil olurlar.

Ş a h (*söz ilə*). Bu nə işdir, keşiş bizim qabağımıza çıxmadı? Səsləyin keşişi!

Ə y a n l a r d a n b i r i. Hey, hey!.. Keşiş, hey, hey!.. (*Gedir içəri baxır və çıxır.*) Şah sağ olsun, heç kəs yoxdur.

Ş a h. Bu necə olan işdir?! Yoxsa keşiş məni aldatdı, bu saat onun başını bədənindən cida etdirərəm.

Əyanlardan biri (*axtararkən Səfini görür*). Şah sağ olsun, burada bir şəxs yatıbdır.

Ş a h. Durğuzun ondan soruşaq.

Ə y a n (*Səfini oyadır*). Hey, hey, dur ayağa! (*Səfi güc ilə qalxır, gözlərini ovur.*) Dur, padşah gəlibdir. (*Səfi üzü üstə yıxılır və səcdə edir.*)

Ş a h. Ey adam, söylə, keşiş haradadır?

S ə f i. Atam-anam sənə qurban olsun, padşah! Keşiş budur üç aydır evli-eşikli bu vilayətdən qaçıbdır.

Ş a h. Ax, məlun!.. (*Fikrə gedir.*)

(M u s i q i)

K ə r ə m (*birdən başlayır, üzünü dağlara tutub oxuyur.*)

Xan Əslim Zəngidən fərar eyləmiş,
Yol verməyin, başı dumanlı dağlar!
Belə getmiş atasilə anası,
Yol verməyin, başı dumanlı dağlar!

(M u s i q i)

İsfahan bəyləri qalxdılar toya,
Zənginin xalqı qaçdılar Xoya,
Aşiq gəldi məşuqundan doya,
Yol verməyin, başı dumanlı dağlar!

(M u s i q i)

Dərdli Kərəm bu eşq ilə bişmişdir,
Sövda üçün bu sərindən keçmişdir.
Əsli, keşiş qaçıb burdan getmişdir,
Yol verməyin, başı dumanlı dağlar!

(M u s i q i)

H a m ı (*təsnif*)

Qara keşiş, qara keşiş
Fərar etmiş Zəngidən, Zəngidən.
Ax, üç ay edər keşiş burdan sən gedən. (*2 dəfə*)

K ə r ə m

Haqdan mənə, haqdan mənə
Təqdirdir: aşiqəm, aşiqəm.
Gərəkdir olsun məndə ahü dərdü qəm. (*2 dəfə*)

Hamı

Yolun sənin, yolun sənin
Yumrulsun a, ay keşiş, ay keşiş!
Sən necə qıydın şaha, gördün belə iş. (*2 dəfə*)

Kərəm (*sərv ağacına tərəf gedib oxuyur; segah*)

Dur, sərv ağacı, xəbər ver, sorayım,
Sərv ağacı, sənin maralın hanı?
Eşit gəl, eşit ver mənim cavabım,
Sərv ağacı, sənin maralın hanı?

Doğru söyləməzsən qəddin əyilsin,
Dilərəm mövladan belin bükülsün,
Çürüsün yarpağın, şaxın qurusun,
Sərv ağacı, sənin maralın hanı?

Dərdli Kərəm deyir: yanıb tutərəm,
Yarımın yanına bu gün yetərəm;
Viran bağda bülbül olub ötərəm,
Sərv ağacı, sənin maralın hanı?

(Musiqi)

Şah (*şur*). Bəsdir, oğlum, bu qədər ah-nəva bəsdir. Mən bu saat hər yerə adam göndərib keşişi tapdıraram.

Kərəm (*hicaz*)

Yeni bir sevdadır gəldi başıma,
Gəlin halallaşaq, mən gedər oldum.
Gəlib, ya gəlməyib sizi tapmaram,
Gəlin halallaşaq, mən gedər oldum.

(Musiqi)

Ürəyimdə yanar bunca atəşlər,
Yar əlindən yenə yaralar işlər.
Gülüb oynadığım qızlar, qardaşlar,
Gəlin halallaşaq, mən gedər oldum.

(Musiqi)

Duz-çörək yediyim qohum-qardaşlar,
Nədir bu fələyin etdiyi işlər,
Gözümdən axıtdı qan ilə yaşlar;
Gəlin halallaşaq, mən gedər oldum.

Şah (*şur*)

Oğlum, bu nə sözdür danışırsan, danışırsan?
Eşq oduna bunca alışırsan, alışırsan?
Tərsa qızına aşiq olub bunca uyursan?
Mən tək qocanı didəsi giryan qoyursan.
Ölsəm, oğlum, bu hökumət kimə qalsın?
Kim şahlıq edib dövlətin əhvalına yansın?

Kərəm

Məndən, ata, padşahlıq uyma, uyma,
Mən aşiqi gəl gözü yaşlı qoyma.
Haqq aşiqi olmuşam, yəqin bil,
Qoy yarımı axtarım tapım, bil.

(Musiqi)

Hamı (*təsnif*)

İzn verin getsin, şahım, bu Kərəm (*2 dəfə*)
Getsin yarın tapsın, alsın o məram. (*2 dəfə*)
Sənin oğlun, şahım,
Həqdən aşiqdir, aşiqdir, aşiqdir.
Eşqə düşmək, şahım, ona layiqdir,
Layiqdir, layiqdir.

(Musiqi)

Padşah üzünü dəsmal ilə tutub ağlayır.

(Musiqi)

Kərəm

Qəm-qəsavət bu gün başa düzüldü,
Ağla, atam, ayrılığın günüdür.
Bizə qismət qürbət eldə verildi,
Ağla, atam, ayrılığın günüdür.

(Musiqi)

Məni kül eylədi elin dilləri,
Bundan belə gözləməyin yolları.
Varayım, gəzəyim qürbət elləri,
Ağla, atam, ayrılığın günüdür.

(Musiqi)

Məni, ata, halal elə gedirəm,
Bir tənbehdir öz-özümə edirəm.
Əslidən başqa özgəni nedirəm?
Ağla, atam, ayrılığın günüdür, hey!.. (*Gedir.*)

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Bir çöldə vaqe olur, çöldə ora-bura yollar vardır. Sol tərəfdə meşədir, sağ tərəf dağlıqdır. Səhnədə Kərəmlə Sofi dayanıbdır. Musiqi çalınır.

Kərəm (*üzünü yollara tutub deyir*)

Əyri-üyrü gedən yollar,
Yollar, xan Əslimi gördünmü?
Düşmüşəm yarın izinə,
İzlər, xan Əslimi gördünmü?

Əyninə geyibdir saya,
Yanında var cüftə taya,
Sənə deyirəm, sarı qaya!
Qaya, xan Əslimi gördünmü?

Bir dəstə yol ötən gəlib keçirkən bunları görüb dayanır.

Kərəm

Düşmüşəm yarın izinə,
Qurban olum onun qara gözünə;
Çıxmışam mən çöllərin düzünə,
Düzlər, xan Əslimi gördünmü?

Yol ötənlər (*təsnif-tar*)

Nə gəzirsən burada,
Nədir, nədir, nədirsiz? } (*2 dəfə*)
Nərəyədir səfəriz,
Gedir, gedir, gedirsiz?
Gedir, gedir, gedirsiz?
Səbəb nədir bu ahə,
Edir, edir, edirsiz? } (*2 dəfə*)
Nərəyədir səfəriz,
Gedir, gedir, gedirsiz?
Gedir, gedir, gedirsiz?

Sofi. Ay qardaşlar, bu oğlan haqq aşiqi Kərəmdir. Neçə zamandır keşiş qızı Əsli xana aşiqdir, amma keşiş şöz qızını götürüb qaçıbdır, indi bu da yarın axtara-axtara neçə-neçə vilayətlər keçib gəlib bu yerə çatıbdır. Hərgah siz də keşişin qaçmağını bilirsinizsə, bizə xəbər veriniz gedək.

Yol ötənlərdən biri. Ey aşiq! Sənin yarının haraya qaçdığını bilirik. Hərgah bizim üçün bir türkü oxusan xəbər verərik.

Kərəm sazını əlinə alır və yol ötənlər oturub qulaq asırlar.

(Musiqi)

Kərəm

Hey... ağalar, yarımı qaçırdım,
Bəylər, xan Əslimi gördünmü?
Bülbülü şaxdan uçurdum,
Bəylər, xan Əslimi gördünmü?

(M u s i q i)

Əsli huridir bilənə,
Qoynu cənnətdir girənə.
Ceyrana bənzər ceyrana.
Bəylər, xan Əslimi gördünmü?

(M u s i q i)

Obaları oymaq-oymaq,
Olmaz imiş yardan doymaq.
Ağzı süd, dodağı qaymaq,
Bəylər, xan Əslimi gördünmü?!

(M u s i q i)

Mən Kərəməm, düşüb çölə gəzərəm,
Yarımı tapsam, üst-başını bəzərəm,
Min cür cəfa etsə, mininə dözərəm,
Bəylər, xan Əslimi gördünmü, hey?!

O n l a r. Doğrudan da ki, sən haqq aşiqi imişsən. Ey aşiq, sənin yarın atası ilə bərabər buradan keçib, Hələb şəhərinə qaçıbdır. Onu orada taparsan, amma, ey aşiq, sən gəl burax Əslini, qal bizim ellərdə.

O b i r i. Ol bizim əhlimizdən.

D i g ə r i. Bizdə Əslidən gözəl qızlar vardır.

B i r a y r ı s ı. O qızlardan birini al.

H a m ı s ı. Gəl, gəl, aşiq, bizdə qal.

K ə r ə m (*baş bulayır*). Ay qardaşlar! Mən İsfahan padşahının oğluyam, hərgah bir yerdə qalıb rahat ola bilsə idim, padşah sarayında qalıb, şahlıq edərdim. Mən haqq aşiqiyəm, yarımdan əl çəkə bilmərəm.

Bu halda bir dəstə qız gəlir, qızlardan biri oynayıb qalanları oxuyurlar.

(M u s i q i)

Q ı z l a r

Güli-sünbüllər açılıb bağda,
Açılıb bağda güli-sünbüllər.

Hamı bülbüllər oxuyur tağda,
Oxuyur tağda hamı bülbüllər. (*2 dəfə*)

(Oyun, musiqi)

Düzülün, qızlar əl-ələ verin,
Əl-ələ verin, düzülün, qızlar!
Görəsiz, qızlar, neçə bayramlar!
Neçə bayramlar görəsiz, qızlar! (*2 dəfə*)

O ğ l a n l a r v ə q ı z l a r

Yığışın, qızlar, həmi oğlanlar,
Gülüşüb danışaq,
Görüşək, danışaq.
Gülə bənzərsiz hərəniz, qızlar,
Sizə aşiqdir hamı oğlanlar! (*2 dəfə*)

(Oyun, musiqi)

K ə r ə m

Xuraman-xuraman gəlin-qızlar,
Xan Əslimi sizdən görən oldumu?
Küsmüşəm atadan, anadan, eldən,
Məni salıb Əsli xanım dildən;
Bir dayanın, sorayım sizdən,
Xan Əslimi sizdən görən oldumu?

(M u s i q i)

Mənim yurdum dağlar ilə daş olub,
Məhəbbət sirri hər kəsə faş olub,
Ağlamaqdan yerim-yurdum yaş olub,
Xan Əslimi sizdən görən oldumu?

(M u s i q i)

Ah edəyim, könül, sənin əlindən,
Qaldıq bir əcaib zarın içində.

Nəyə ağlayım, nəyə güləyim?
Qönçə gülüm qaldı xarın içində.

(M u s i q i)

Dərdli Kərəm deyir: vətənim yox mənim,
Heç kimsə yoxdur sora əhvalım.
Yardan ayrılalı büküldü belim,
Qaldıq namus ilə arın içində.

(M u s i q i)

H a m ı (*təsnif*)

Dərdli Kərəm, sən itirdin Əslini; (*2 dəfə*)
Get, tap, get, tap yarın, itirdin Əslini. (*2 dəfə*)
Haqdan aşiqsən, çək eşqin əzabın; (*2 dəfə*)
Get, tap, get, tap yarın, itirdin Əslini. (*2 dəfə*)

Qızlar və oğlanlar gedirlər.

K ə r ə m (*yollara sarı*)

Ərzurumdan çıxdımı, üç oldu yolum,
Mən bu yolun hankısına gedəyim?
Çağırdım gecə-gündüz mövlamı,
Mən bu yolun hankısına gedəyim?

(M u s i q i)

Sofi qardaş, necə olur halımız?
İsfahan şəhridir bizim elimiz.
Bülbül getdi, məhzun qaldı gülümüz,
Mən bu yolun hankısına gedəyim?

(M u s i q i)

Kərəm deyir yetmədim muradıma,
Əslim getdi, qonamadım yurduna.

Hey ağalar, bir dilbərin dərdinə,
Mən bu yolun hankısına gedəyim?

(M u s i q i)

Bu halda Şeyx-Nurani vaqe olur və üzünü Kərəmgilə tutub oxuyur.

Ş e y x-N u r a n i (*humayun*)

Eşqə giriftar olan
Zarü pərişan gördüm.

(M u s i q i)

(*təkrar o sözlər*)
Cəng edib can alanı
Qanını qəltan gördüm.

(M u s i q i)

(*təkrar o sözlər*)
Atəşi-eşqə düşəni
Çaki-giriban gördüm.

(M u s i q i)

(*təkrar o sözlər*)
Hicr oduna yananın
Qəlbini büryan gördüm.

(M u s i q i)

(*təkrar*)

Ş e y x (*söz ilə*). Ey qərib, sizlər haraya getmək istəyirsiniz?
S o f i. Ey Şeyx, biz Hələb şəhərinə getmək istəyirik.
Ş e y x. Siz bilirsinizmi ki, buradan Hələbə altı aylıq yol var?
S o f i. Xeyr bilmirik.

Ş e y x. Yumun gözlərinizi.

Kərəm və Sofi gözlərini yumurlar, haman dəm hər yerdə qaranlıq olur, bu halda səhnənin dal pərdəsi qalxıb, Hələb şəhəri görünür.

Ş e y x. Açın gözlərinizi.

Bunlar gözlərini açırlar, hər yer işıqlanır. Kərəm və Sofi Hələbin mənzərəsini görüb şad olurlar.

Ş e y x. Bax, siz Hələb şəhərinə yetişdiniz. (*Deyib tez çıxıb gedir.*)

(M u s i q i)

K ə r ə m

Şükr eylə, Sofi, xudaya, (*2 dəfə*)
Hələb şəhri, Hələb şəhri!
Hələb şəhrinə gəldik.

(M u s i q i)

Qalxız əlini duaya, (*2 dəfə*)
Hələb, Hələb şəhri!
Hələb şəhrinə gəldik.

(M u s i q i)

K ə r ə m v ə S o f i

Yetirdi mövlam bizi tez, (*2 dəfə*)
Hələb şəhri, Hələb şəhri!
Hələb şəhrinə gəldik (*2 dəfə*)
Hey...

(M u s i q i)

P Ə R D Ə

DÖRDÜNCÜ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Hələb şəhərinin bazarında vaqe olur. Axşam çağıdır, sağ tərəfdə sair evlər var. Sol tərəfdə Keşiş və Əsli olan ikimərtəbə və balkonlu ev vardır. Ortada çeşmə qurulub, altı nəfər qız su doldurmaqla məşğuldurlar, evlərin içindən işıq gəlir. Qızlar su doldururlar və oxuyurlar.

(M u s i q i)

Q ı z l a r

Axşam oldu hey... şamlar yandı, (*2 dəfə*)
Tez ol, tez ol, qızlar, qaranlıq damdı. (*2 dəfə*)
Hər kim istər kim, dərdi az olsun, (*2 dəfə*)
Getməsin ərə, evdə qız qalsın. (*2 dəfə*)

(M u s i q i)

Axşam oldu hey... obalar yatdı, (*2 dəfə*)
Qaranlıq çökdü, ay da həm batdı; (*2 dəfə*)
Arvad olanın dərdi çoxdur, (*2 dəfə*)
Amma qızların heç dərdi yoxdur. (*2 dəfə*)
Amma qızların heç dərdi yoxdur. (*2 dəfə*)

Bu halda Kərəm ilə Sofi sağ tərəfdən nümayan olurlar, qızlar onları görüb qorxan kimi olurlar.

(M u s i q i)

K ə r ə m

Ey Hələbin gözəlləri,
Altı qızlar, altı qızlar!
Bulaqdan su süzənləri,
Altı qızlar, altı qızlar!

(M u s i q i)

Keşiş bunda gəlib durar,
Xan Əslimi döyər, vurar,
Dərdli Kərəm sizdən sorar,
Altı qızlar, altı qızlar!

(M u s i q i)

Q ı z l a r d a n b i r i. Siz kimsiniz və bizlərdən nə istəyirsiniz?

S o f i. Ey gözəl qızlar, sizin bu şəhərə bir keşiş gəlib, öz qızı ilə olur, söyləyin bizə, Allah eşqinə, o keşiş harada olur?

Q ı z l a r d a n b i r i. Bildim hansı keşişdir, bax, o keşiş bu evdə olur, bu evdə. (*Qızlar gedirlər.*)

(M u s i q i)

K ə r ə m (*sevinib*)

Gəzib-gəzib şəhərləri, kəndləri,
Axır gəlib sənə yetişdim, Əsli!
Unutmuşam cəfaları, dərdləri,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Haqq aşiqi söylədilər adıma,
Yetişmədi bir kəs mənim dadıma.
Keçən günlər düşdü mənim yadıma,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Şah oğluyam, dönmüşəm mən gədayə,
Çıx gəl bəri, verək səda-sədayə,
Dərdli Kərəm desin şükür xudayə,
Axır gəlib sənə yetişdim, Əsli!

Bu halda balkona açılan qapılar taybatay açılıb, Əsli hövlnak bir surətdə balkona çıxır və aşağı baxıb deyir:

Ə s l i. Kərəm!!!

K ə r ə m. Can Əsli!

Əsli bihuş kimi olur.

(M u s i q i)

K ə r ə m

Gəzib-gəzib şəhərləri, kəndləri,
Axır gəlib sənə yetişdim, Əsli!
Unutmuşam cəfaları, dərdləri,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Ə s l i

Dustaq kimi gəlib qalıb bu evdə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!
Bilməz idim çarə nədir bu dərdə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!

(M u s i q i)

K ə r ə m

Ağlar qoyub ata ilə anamı,
İncitmişəm hər bir canı yananı.
Ötürmüşəm Məcnunu və Sənanı,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Ə s l i

Keşiş babam məni döyüb söyəndə,
Qaçar ikən o kənddən bu kəndə,
Ahu kimi düşüb qalıb kəmənddə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!

(M u s i q i)

K ə r ə m

Şah oğluyam, dönmüşəm mən gədayə,
Çıx gəl bəri, verək səda-sədayə,
Dərdli Kərəm desin şükür Xudayə,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Ə s l i

Keşiş babam bağlayıbdır hər yanı,
Yanmaz imiş onun mənə heç canı.
Gözüm görmür bu işıqlı dünyanı,
Çıx gəl bəri, Kərəm, Kərəm, Kərəm, gəl!

– deyib, ipək nərdivanı aşağı atır, Kərəm nərdivana çıxıb, Əsli dəxi balkondan bədənini aşağı sallayıb, ikisi bir-biri ilə görüşməkdə ikən keşiş bazardan qayıdır və əhvalatı bu halda görüb qışqırır.

K e ş i ş. Ay haray!.. Evimə oğru gəlibdir, ay haray!.. Yığılın buraya?..

Bu qışqırığa iki nəfər zəbtiyyə gəlib Kərəmi və Sofini tuturlar, camaat dəxi evlərindən bayıra çıxıb, əllərində fanus olaraq bu əhvalatı görürlər.

B ə z i l ə r i. Nə olub? Nə olub?
O b i r i l ə r i. Keşişin evinə oğru-quldur gəlibdir.

Xalq kamal-təəccüb ilə Kərəm ilə Sofinin ora-burasına tamaşa edir.

K e ş i ş (*kənara çəkilib*). Ax-ax-ax... Tanıdım, odur, padşahın oğlu Əhməd Mirzədir... Yenə gəlib məni tapdı, ax!..

Bu halda Hələb paşası daxil olur, yanında iki nəfər zəbtiyyə.

P a ş a. Bu nə yığıncaqdır burada? Nə olubdur? Geri çəkilin!

Camaat çəkilir.

K e ş i ş. Paşam! Bu iki şəxs mənim evimi yarmaq istərkən gəlib üstə çıxmışam.

P a ş a (*acıqla*). Nakəslər! Bu şəhəri sahibsizmi zənn etdiniz? Nə cürət edib quldurluğa gəlirsiniz? Aparın bunları həbs edin!

K ə r ə m (*əcz ilə*). Paşam, izin ver, bir neçə kəlmə sözüm var.

P a ş a. Nə sözdür, de görək.

(M u s i q i)

K ə r ə m

Yazıq ömrüm qərib eldə keçirdim,
Heç əhvalım bildirən yox, bilən yox!
Getdi fürsət, əldə ikən qaçırdım,
Qərib qaldım, güldürən yox, gülən yox!

(M u s i q i)

Əlimdən aldırdım nazlı sonamı,
Tərk eylədim atamı, həm anamı,
Döyə-döyə gömgöy etdim sinəmi,
Xəncər alıb dəldirən yox, dələn yox!

(M u s i q i)

Mən Kərəməm, ah çəkərəm, ağlaram,
Dərd bilənin ürəyini dağlaram.
Kimi deyib, kimə ümid bağlaram.
Göz yaşımı sildirən yox, silən yox!

İndi buyur məni aparsınlar həbs etsinlər.

P Ə R D Ə

İKİNCİ ŞƏKİL

Hələb paşasının imarətində vaqe olur. Paşa bir taxt üzərində əyləşib, meypuş qəlyan çəkir. Onun qabağında bir neçə qız oynayır. Bir qədərdən sonra nökər daxil olur, qızlar oyunu kəsib, bir kənarda dayanırlar.

N ö k ə r. Paşam, bir dəstə camaat hüzurunuza izn istəyir.

P a ş a. Burax gəlsinlər.

Camaat və Şeyx-Nurani daxil olurlar.

(M u s i q i)

C a m a a t (*təsnif*)

Ey paşam, ey paşam,
Kərəmi et azad.
Ey paşam, ey paşam,
Kərəmi et azad, azad et.
Aşiq olub keşiş qızına, } (*2 dəfə*)
Aşiq olub keşiş qızına. }
Ol aşiqdir!

P a ş a (*şur ilə*). Əmr olunsun, gedib dünənki məhbusu buraya gətirsinlər.

Ş e y x - N u r a n i (*Osmanlı üstə*)

Aşiqə etmə əziyyət, ey paşam,
Aşiqin üftadədir, üftadədir, üftadədir.
İstəsə aşiq əgər öz canını,
Yar üçün qurban edə amadədir.

C a m a a t

Aşiq olub keşiş qızına, } (*2 dəfə*)
Aşiq olub keşiş qızına. }
Ol aşiqdir.

Ş e y x (*yenə təkrar haman sözlər başqa tərkib musiqi ilə*)

Kuhkəm nəqşin çəkib, Şirinə vermiş bir fərib,
Gör nə cahildir, yonar daşdan özünə bir rəqib.

C a m a a t

Aşiq olub keşiş qızına, } (*2 dəfə*)
Aşiq olub keşiş qızına. }
Ol aşiqdir.

Oxuyub gedir. Kərəmi gətirirlər, əllərində zəncir vardır.

P a ş a (*söz ilə*). Ey şəxs, sən kimsən və nəçisən, söylə!

(M u s i q i)

K ə r ə m

Mən Kərəməm, İsfahandır elimiz,
Ördək uçdu, viran qaldı gölümüz.
Qoy olsun, necə olur halımız,
Qurban olsun yar yolunda canımız.

(M u s i q i)

Ayrı düşdüm vətənimdən, elimdən,
Gör kim, nələr çəkdim eşqin əlindən.
Hər şəhərdə xəbər aldım gələndən,
Hələbdədir Əsli, – mənə dedilər.

(M u s i q i)

Dərdimi duyanlar cümlə ağladı,
Bəylər tutdu qollarımı bağladı,
Ürəyimi eşq oduna dağladı,
Burda mənə quldur adı verdilər.

(M u s i q i)

Yandı ciyərciyim döndü büryana,
Axdı çeşmim yaşı döndü ümmana.
Gətirdilər məni ulu divana,
Bağladılar ayağımı, əlimi.

(M u s i q i)

Dərdli Kərəm qoydu başın qəzaya,
Yar ilə getmədi xəlvət odaya.
Çox şükürlər olsun bari-xudaya,
Kəsmədilər ağzımdakı dilimi.

P a ş a. Ey oğlan, sən keşişin qızına aşiqsən və adın Aşiq Kərəmdir. Özün də İsfahan padşahının oğlusan, öylədirmi?

K ə r ə m. Öylədir, paşam.

P a ş a. Əmr olunsun, keşiş və qızı buraya gəlsinlər. (*Nökər gedir.*) Açın Kərəmin əlin. (*Açırlar.*) Aşiq Kərəm, sən gəl keşiş qızından əl çək, mən sənə bu şəhərdə hansı gözəli desən alaram.

K ə r ə m. Paşam, bizim vilayətimizdə gözəllər çox idi, lakin mən ürək sevəni istəyirəm, başqa məramım yoxdur.

P a ş a. Ya istərsən gəl səni vətənə göndərim get.

K ə r ə m. Vətən mənə Əslidən əziz olsaydı, onu buraxıb bunun dalınca düşməzdim.

Bu halda keşiş və Əsli daxil olurlar. Əsli və Kərəm bir-birini görcək bihuş olurlar.

P a ş a. Keşiş, bu oğlan quldur deyilmiş, bu sənin qızına aşiqdir. Sən gəl qızı ver ona, rəhm elə! Mən sənə nə qədər desən dövlət verərəm.

K e ş i ş. Paşam, əgər mən dövlət sevən olsaydım, İsfahan padşahının sözünü rədd etməz idim. Mən öz qızımı, qızımın milliyyətini hər şeydən əziz tuturam.

P a ş a. Sən bilirsən ki, bu oğlan sənin qızının aşiqidir.

K e ş i ş. Bilirəm.

P a ş a. Və bilirsən ki, qızın buna aşiqidir.

K e ş i ş. Bilirəm.

P a ş a. Və bilirsən ki, iki aşiqi mərama çatdırmaq savabdır.

K e ş i ş. Bilirəm.

P a ş a. Bəs nə üçün mane olursan?

K e ş i ş. O mənim atalıq haqqımdır.

P a ş a. Keşiş, sən gəl bu işə razı ol, yoxsa...

K e ş i ş. Paşam, İran vilayətində mənim hörmətim padşah hörmətinə bərabər idi, amma mən yenə də oradan qaçıb, sənin şəhərinə gəldim və sənin kölgənə qısıldım, hərgah sən də məni incitmək istəsən, özgə bir şəhər hakiminə pənah apararam.

P a ş a (*Kərəmə*). Ey oğlan, sən müsəlmansan, bu erməni qızı, sən gəl bundan əl çək, get özünə özgə bir qismət axtar.

(M u s i q i)

K ə r ə m

Hey ağalar, necə edəyim,
Mən dönərəm, könül dönməz.
Bir gözələ düşdü könlüm,
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

Kəklik kimi səkişindən,
Köküs əlvan naxışından,
Bir hərami baxışından,
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

İstəmirəm başqa özündən,
Mənə söylə Əsli sözündən.
Əsli kimi keşiş qızından,
Kərəm sevdi Əsli xanı.
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

Yoluna qoymuşam canı,
Gözümdən axıtdı qanı,
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

P a ş a. Ax!.. Qoy indi bir qızdan soruşum, hərgah qız sənin yanında oğlana getmək istəsə o halda, keşiş, gərək heç bir sözün olmasın. Olsa da sənə cəza elətdirərəm. Ey qız, söylə görüm, sən Kərəmə aşiqsənmi və Kərəmə ərə getmək istəyirsənmi?

(M u s i q i)

Ə s l i

Kərəm mənə, mən Kərəmə aşiqik,
Ver Kərəmə məni, paşam, rəhm elə.
Hər ikimiz aşiqliyə layiqik,
Ver Kərəmə məni, paşam, rəhm elə.

(M u s i q i)

İllər ilə həsrətini çəkirdim,
Gizli-gizli qan-yaşımı tökürdüm,
İki əlli bir başıma döyürdüm,
Ver Kərəmə məni, paşam, rəhm elə.

(M u s i q i)

Qorxum yoxdur keşiş babamdan mənim,
Dözə bilməm, təngə gəlibdir canım.
Mənim yarım ancaq Kərəmdir, Kərəm,
Ver Kərəmə məni, paşam, rəhm elə.

(M u s i q i)

H a m ı (*musiqi: təsnif*). Keşiş, razı ol bu işə!
K e ş i ş. Olmam, olmam.
C a m a a t. Keşiş, razı ol bu işə.
P a ş a. Razı ol, razı ol. (*Deyib, qılıncı sivirmək istəyir.*)
C a m a a t. Əslini ver Kərəmə.
K e ş i ş. Verməm, verməm.
C a m a a t. Əslini ver Kərəmə.
P a ş a. Razı ol, razı ol. (*Deyib, qılıncı sivirir və keşişin üstünə qalxır.*)

K e ş i ş. Olmam, olmam, olmam!.. (*Söz ilə birdən*) Ver, ver, ver Əslini Kərəmə! Əmma hərgah bunlar həqiqi aşiqdirlərsə, gərək bu dünyada kam almasınlar! Almasınlar! Almasınlar! (*Deyib, çıxıb gedir.*)

P a ş a (*Kərəmə*). Al oğlan, öz yarını apar!

Əsli ağlayır, Kərəm hövlnak bir haldadır ki, guya canı odlanır. Əsliyə tərəf əllərini uzadıb oxuyur.

(M u s i q i)

K ə r ə m

Gəl, gəl, Əslim, yetər, ağlama,
Yanaram, Əslim, yanaram!
Ciyərim artıq dağlama,
Yanaram, Əslim, yanaram, hey!..

Rəhm elə bir gəl halıma,
Atəş düşübdür canıma,
Öləndə gəl məzarıma,
Yanaram, Əslim, yanaram, hey!..

Mən Kərəməm, haqq aşiqiyəm,
Aşiqliyə mən layiqəm.
Rəhm eylə tez, mən yazığam,
Yanaram, Əslim, yanaram!

Kərəm söyləməz adım,
Ərşə dayandı fəryadım.
Əldən getdi muradım,
Yanaram, Əslim, yanaram!

Yanaram, yanaram, Əslim, yanaram, hey!..

(M u s i q i)

– deyirkən hər tərəfdən alov çıxıb, odlanıb yanır. Əsli də əlindəki xəncərini çıxarıb, sinəsinə çaxır və yıxılıb ölür. Bütün məclis əhli mat və məəttəl qalıb, kəmali-heyrətdə ikən pərdə yavaş-yavaş enir.

P Ə R D Ə

HARUN VƏ LEYLA

Beş pərdəli opera

İŞTİRAK EDİRLƏR

Ə m i r – ərəb mərasından birisi, 50 yaşında
L e y l a – Əmirin qızı, 17 yaşında gözəl bir qızdır.
V ə z i r – Əmirin vəziridir ki, özü də alim və mürəbbidir, 60 yaşında
H a r u n – Sər əsgər, 25 yaşında, gözəl bir cavandır
Z e y d – Sər əsgər, 30 yaşında, çirkin bir şəxsdir
B ə k i r, R ə h m a n və d i g ə r i k i s i – qoşun dəstəsi böyükləridir (zabit kimidir)
B i r d ə s t ə q ı z, L e y l a n ı n r ə f i q ə l ə r i v ə k ə n i z l ə r
B i r d ə s t ə o ğ l a n, q u l a m l a r v ə s a i r ə
Q o ş u n ə h l i
D ə r v i ş – qoca bir dərvişdir

BİRİNCİ PƏRDƏ

Əmirin bağçası: sağ tərəfdə Əmirin imarəti görünür, bağçaya yolu vardır. Sol tərəf ilə dal tərəf ağaclıqdır. İçlərindən xiyabanlar çəkilibdir, hər tərəfi gülzardır. Ortada bir hovuz vardır ki, su fəvvarə vurur. Qabaq tərəfdə bir ağacın dibində açıq yerdə fərş salınıb, vəzir əlində kitablar əyləşib, qabağında düzülmüş olan qızlara dərs verir və nəsihətlər edir. Əmirin qızı Leyla dəxi bunların içindədir; lakin bütün qızlar kamali-huş nəsihətlər edir. Əmirin qızı Leyla dəxi bunların içindədir; lakin bütün qızlar kamali-huş və guş ilə dərsə və pənd və nəsihətə qulaq asdıqları yerdə, Leyla bir növ pərişan-hal görünüb, fikri özgə yerlərdə olduğunu izah edir. Bilaxirə üzünü əli ilə tutub ağlayan kimi görünür.

V ə z i r

Guş edin pəndi nəsihətim mənim, zar olmayın,
Guş edin bu sözləri kim, aqibət xar olmayın.
Dinimiz, ayinimiz göstərdiyi yolla gedin;
Səy edin, Allah yanında həm günahkar olmayın.

Leyla ağlayır.

Yaxşı ilə həm yamanın fərqini seçmək gərək,
Hər gözə görünən mətaə tez xiridar olmayın.
Yarü yoldaş seçkisində ehtiyata var ehtiyac,
Axtarın mərdi tapın, namərd ilə yar olmayın.

Q ı z l a r v ə V ə z i r (*Leylaya*)

Gəl söylə, Leyla, halını,
Etdiyin qəm, qüssə, naləni.

(M u s i q i)

Gəl söylə, Leyla, halını,
Etdiyin qəm, qüssə, naləni;
Gizlətmə bizdən sirrini,
Söylə, söylə əhvalını. } (*2 dəfə*)
Dərd nədir, qəm nədir,
Ahü nəva hərdəm nədir? } (*2 dəfə*)

Leyla

Düşmüşəm bir dərdə kim, yoxdur əlac dərman ilən,
Vəslə yetməkdir dəvası dərdimin canan ilən.
Bir qədəm qoysun ki, görsün naleyi-əfğan ilən,
İntizarın çəkmədəyəm didəyi-giryan ilən.

(Musiqi)

Bir nəzər salmaqla etdi qəlbimi bəndi-kəmənd,
Çəkdi, qıldı qəlbimi öz qəlbinə zənciri-bənd.
Bu səbəbdəndir olub avazeyi-eşqim büləndi,
İntizarın çəkmədəyəm didəyi-giryan ilən.

Qızlar və Vəzir

Bəs söylə, bildir aşiqin
Kimdir, kim ola layiqin.

(Musiqi)

Bəs söylə görək, aşiqin
Kimdir, kim ola layiqin.
Sən tək gözəllikdə, Leyla,
Yox, ola bir kəs faiqin. } (*2 dəfə*)
Dərd nədir, qəm nədir,
Ahü nəva hərdəm nədir? } (*2 dəfə*)

Leyla

Aşiqim dava çölündə çün olur şiri-jəyan,
Zərbi-dəstindən onun düşmən deyir ah, əlaman,
Eylədi aşiq məni, saldı bəlayə ol cavan,
İntizarın çəkmədəyəm didəyi-giryan ilən.

(Musiqi)

Od tutub yaram yanır, suz ciyərdəndir tənim,
Neyləyim, çarə nədir, siz öyrədin, mən öyrənim.

Söyləyim agah olun: Harunadır eşqim mənim!
İntizarın çəkmədəyəm didəyi-giryan ilən.

Qızlar və Vəzir

Ax, Leyla! Harun olsa gər
Aşiqin, layiqdirmi məyər?

(Musiqi)

Ax, Leyla! Harun olsa gər,
Aşiqin layiqdirmi məyər?
Sən Əmirin fərzəndisən,
Bu, Əmirin şəninə dəyər. } (*2 dəfə*)
Dərd nədir, qəm nədir?
Ahü nəva hərdəm nədir? } (*2 dəfə*)

Vəzir (*təəccüb ilə*). Leyla bu nə halətdir? Sən hara, Harun hara?! Sən Əmirin qızı, Harun sər əsgər... Doğrudur, Harun şücaət və cəsarətdə ad qazanmış bir pəhləvandır, lakin yenə də sənə layiq olacaq dərəcəyə çatmamışdır. Sən bu daşı ətəyindən tök və bu yoldan qayıt! Əmirimiz Harunu nə qədər sevirsə də, yenə gümanım yoxdur ki, bu əmrə razı ola; çünki Harundan başqa bir sər əsgər dəxi vardır – Zeyd! Əmirimizin Haruna bu qədər iltifatı Zeydi sərnigun və xar edər. Və bir də Leyla! Səni xəbərdar edirəm: Harun səni və sən Harunu sevirsinizsə də Zeyd dəxi, mənə məlumdur ki, sənin aşiqindir. Lakin hərçənd mən onu bu xam xəyaldan mən etdim, amma yenə də sən onun qəlbində nəqş bağlayıbsan, odur ki, Zeyd sənin Haruna məhəbbətindən xəbərdar olsa, bil ki, dəli-divanə olar və xuda-aləmdir ki, nə tövr şəniəməllərə iqdam edər!.. Sən gəl bu fikri başından və bu eşqi qəlbindən çıxart, vəssalam!

(Musiqi)

Leyla

Getdi əldən taqətim, səbrü qərarım, ey vəzir!
Zərrə qədri qalmayıbdır ixtiyarım, ey vəzir!
Ruzü şəb ahü nəvadır, bil ki, karım, ey vəzir!
Günbəgündən tirə olmuş ruzigarım, ey vəzir! (*Ağlayır.*)

Vəzir
Səbr et, Leyla, ağlama!
Qızlar
Ürəyimi dağlama! (*2 dəfə*)

Vəzir
Əl çək ahü zardan.

Qızlar
Yara ümid bağlama!

(Musiqi)

Vəzir
Etmə özünə cəfa!
Qızlar
Çək bir beş gün səfa! (*2 dəfə*)

Vəzir
At qəlbindən eşq odun!
Qızlar
Etmə dünyaya vəfa! (*2 dəfə*)

(Musiqi)

Hamı bir yerdə (*öz-özlərinə*)

Hər birimiz bu dərdə
Gəl çalışaq bir yerdə,
Axtarıban hər yerdə dərmanını. (*2 dəfə*)

Vəzir (*tək, kənara*)

Mən görürəm ki, Leyla sövdadadır,
Bir bu qədər sözlərimiz bifaydadır.

Hamı
Axtarıban hər yerdə dərmanını,
Qurtararıq Leylanın canını! (*2 dəfə*)

Vəzir
Səbr et, Leyla, ağlama!
Qızlar
Ürəyimi dağlama! (*2 dəfə*)

Vəzir
Əl çək ahü zardan. (*2 dəfə*)

Qızlar
Yara ümid bağlama!

(Musiqi)

Eşqdən mən etməyin pəndü nəsihətlə məni,
Rəhm edin, incitməyin beylə əziyyətlə məni,
Heç rəvadırmı ölüm dərdi-məhəbbətlə məni,
Bir əsər etməzmi, aya, ahü zarım, ey vəzir!

Vəzir
Səbr et, Leyla, ağlama!
Qızlar
Ürəyimi dağlama! (*2 dəfə*)

Vəzir
Əl çək ahü zardan.
Qızlar
Yara ümid bağlama! (*2 dəfə*)

(Musiqi)

Vəzir

Etmə özünə cəfa.

Qızlar

Çək bir beş gün səfa! (*2 dəfə*)

Vəzir

At qəlbindən eşq odun!

Qızlar

Etmə dünyaya vəfa! (*2 dəfə*)

(Musiqi)

Hamı bir yerdə (*öz-özlərinə*)

Hər birimiz bu dərdə
Gəl çalışaq bir yerdə,
Axtarıban hər yerdə
Dərmanını. (*2 dəfə*)

Vəzir (*tək, kənara*)

Mən görürəm kim, Leyla sövdadadır,
Bir bu qədər sözlərimiz bifaydadır.

Hamı

Axtarıban hər yerdə dərmanını,
Qurtararıq Leylanın canını. (*2 dəfə*)

Vəzir

Səbr et, Leyla, ağlama!

Qızlar

Ürəyimi dağlama! (*2 dəfə*)

Vəzir

Əl çək ahü zardan.

Qızlar

Yara ümid bağlama! (*2 dəfə*)

Vəzir və onun dalınca qızlar yavaş-yavaş dağılıb gedirlər. Leyla tək qalır. Bir qədərdən sonra Harun görünür. Leyla intizarında olduğu aşiqini görcək sürür-qəlb ilə bərabər hicrandan şikayətini bu növ ilə izhar edir.

Leyla

Gəl, ey Harun, xilas eylə məni bu dərdü möhnətdən,
Yanır canım, yetiş dadə, qurtar bu nari-firqətdən.
Bütün gün intizarında, gözüm həsrətdə qalmışdım,
Əzabi-firqəti rəf et, mənə söylə məhəbbətdən.

(Musiqi)

Harun

Dözməyə eşq oduna yox məndə taqət, gəlmişəm.

(Musiqi)

Üz veribdir çün mənə bir başqa halət, gəlmişəm.

(Musiqi)

Düşmənin zori qabağında könül xof eyləməz,
Eşqə qarşı qəlbdə yoxdur mətanət, gəlmişəm!

(Musiqi)

Leyla

Səndən özgə heç kəsim yox könlümü şad eyləsin,
Ya ki, viran qəlbimi bir ləhzə abad eyləsin.

(Musiqi)

Harun

Varmı bir aşiq ki, ney tək böylə fəryad eyləsin,
Çəkmişəm eşqin yolunda çox məlamət, gəlmişəm!

(Musiqi)

Ol zamandan kim, sənin mehrin edib valeh məni.

(Musiqi)

Heç kəsi görmür gözüm, Leyla, görür ancaq səni!

(Musiqi)

İstəməm sənsiz keçə bu ömrümün tək bir günü,
Sən mənimsən, mən sənin, ta bir qiyamət, gəlməmiş!

(Musiqi)

Leyla

Yardan, yoldaşdan əl çəkmişəm bilmərrə mən.

(Musiqi)

Görmədim heç içlərində dərdimə dərman edən.

(Musiqi)

Bir kəsim varsa mənim, Harun, yenə sənsən və sən,
Tut əlim, öyrət məni, eylə dəlalət, gəlmişəm!

(Musiqi)

Harun

Şükr edirəm, ey xuda, nemətin əslin görüb,
Yar ilə həmdəm olub neməti-vəslin görüb;

Leyla

Şükr edirəm, ey xuda yara yetirdin məni,
Mənzilü vəslə gedən rahə gətirdin məni.

(Musiqi)

Harun

Lütf elə, ver ələ-ələ, gəl bəri, Leyla, gedək!
Eşq havası ilə bir dağı, bağı seyr edək!

Leyla

Bağda tamaşa edər, dağa salıb vəlvələ,
Bülbül ilə gül bizə, biz gül ilə bülbülə!

(Musiqi)

Harun və Leyla

Bağda bülbül olmasa,
Şaxda cəh-cəh vurmasa,
Güldə, sünbüldə də bəs,
Söylə, olurmu həvəs? } (*2 dəfə*)

(Musiqi)

(*Bağa tərəf gedə-gedə*)

Bağda bülbül olmasa,
Şaxda cəh-cəh vurmasa,
Güldə, sünbüldə də bəs,
Söylə, olurmu həvəs? } (*2 dəfə*)

(Musiqi)

İki aşiq bağın əğyar nəzərindən kənar bir guşəsinə çəkilirlər; bu halda Zeyd ki, o da Leylaya aşiqdir, xəyal və fikrə qərq olmuş bir surətdə zahir olub deyir:

Zeyd

Günüz-axşam fikrim, zikrim Leyladır. (*2 dəfə*)

(Musiqi)

Gecə sübhədək halım vaveyladır. (*2 dəfə*)

(Musiqi)

Belə məlum, eşq aləmi peydadır. (*2 dəfə*)

(M u s i q i)

Mənim bu dərdimə bais sövdadır. (*2 dəfə*)

(M u s i q i)

Nədür bəs çara, nədür bəs çara?
Nə edim, nə edim yetişim yara?
Gəl, Leyla, yar ol,
Gəl, vəfadar ol!
Gəl gör ah-zarımdan,
Gəl xəbərdar ol! (*2 dəfə*)

(M u s i q i)

(*Təkrar*)

Günüz-axşam fikrim, zikrim Leyladır,
(*ilaxır... axıra kimi*)

Bu halda bağın guşəsindən Harun ilə Leylanın səsi gəlir.

Harun və Leyla

Bağda bülbül olmasa,
Şaxda cəh-cəh vurmasa,
Güldə, sünbüldə də bəs,
Söylə, olurmu həvəs? } (*2 dəfə*)

Zeyd bu səsləri eşitcək son dərəcə təğyiri-hal olub, paxıllıq və həsədlə bərabər qeyz və qəzəb izhar edir və deyir:

Zeyd

Leyla, Leyla! (*akkord*)
(*qəzəblə*) Ah, Leyla, Leyla! Harun ilə bir yerdə!..

(M u s i q i)

Harun! Leyla!
Ah, Leyla, Leyla! Harun ilə bir yerdə!

(M u s i q i)

Harun! Leyla!

(M u s i q i)

Bu əsnada Harun tək gəlir. Zeyd bir növ acığını sıxıb, Haruna müraciətən deyir:

Zeyd

Harun, bu nə haldır? Söylə, nə əhvaldır?
Leyla sənin ilə bir yerdə
Məşğul, xoşhaldır! } (*2 dəfə*)
Harun, guş et, bir dəm,
Leylayə mən bəndəm;
Fikrim, zikrim hər dəm,
Hər dəm eşqi-Leyladır!

Bu halda qoşun əhlindən on nəfəri dəxi buraya gəlir.

Məcnun sifət olmuşam,
Hər dərdə mən dolmuşam.
Rəhm et, rəhm et, Harun, bir ləhzə,
Yarpaq kimi solmuşam! } (*2 dəfə*)

Harun (*Zeydə*)

Çox əcəb təklifdir, Zeyda, edirsən sən mənə,
Bilmirəm hətta cavabında nə ayətəm mən sənə;
Bil ki, biz Leyla ilə bir təndə bir can olmuşuq,
Eşqimiz çuş eyləyib artmaqdadır gündən-günə.

Qoşun əhli (*xor*)

Nə etmək bu müşkül işə,
Həlli bizə gər düşə?
(*Zeyd bikef üzünü tutubdur.*)
Əhvalı vəzirə ərz edək,
İmdada tez yetişə! } (*2 dəfə*)

Zeyd

Harun, əl çək yarımdan,
Gəl qorx ahü zarımdan;
Bil ki, bu yolda keçərəm
Canımdan, həm varımdan.
Dövlət isə – verərəm,
Sərvət isə – verərəm,
Xidmət isə – verərəm,
Əl çək, Harun, Leyladan!
Məcnun sifət olmuşam,
Hər bir dərdə dolmuşam.
Rəhm et, rəhm et, Harun, bir ləhzə,
Yarpaq kimi solmuşam!

Harun

Sən deyirsən əl çəkim Leyla kimi canandan?!
Hazıram mən əl çəkim bu baş ilə candan.
Sən məni təhqir edirsən simüzər təklif edib,
Bir tükün həm yarımın verməm bütün dünyayə mən!

Qoşun əhli (*xor*)

Nə etmək bu müşkül işə,
Həlli bizə gər düşə?
Əhvalı vəzirə ərz edək,
İmdada tez yetişə! } (*2 dəfə*)

Zeyd

Ax, Harun! Məni sən öldürdün!..

(Musiqi)

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Əmirin sarayıdır. Otaq ərəb əmirlərinə məxsus gözəl bir surətdə döşənib, bir tərəfdə dəxi Əmirin öz təxti vardır. Otaqda tək bir Leyla oturub, öz-özünə eşqdən danışır.

Leyla

Çünki bildin təmini eşqin şərabi-nabinək,
İstərəm bir cam daha, ver saqiya, sərməst olam.

(Musiqi)

Bu həqiqi aləmin qeydü qəmindən büsbütün,
İstərəm kim, aləmi-məstdə mən sərməst olam.

(Musiqi)

Yarımın bir gün fəraqi bir ilin dərdin verir,
İstərəm kim, yar ilə mən daima həmdəst olam.

(Musiqi)

Yarü əğyar tənəsi təqib edər hərdəm məni,
Varmı bir kani-müqəddəs, istərəm mən bəst olam.

(Musiqi)

Bu halda Zeyd daxil olur, Leylanı görür və ona müraciətlə deyir:

Zeyd

Leyla, sənə sözüm var,
Etmə yenə məni xar.
Rəhm etsən nə olar?
Rüsxət ver! } (*2 dəfə*)

Sevdim, billah!
Səni, Leyla!
Oldum mən sənə aşiq! } (*2 dəfə*)

Leyla, Leyla!
Sevdim billah!
Ah! Sevdim!
Sevdim səni, Leyla!

Leyla

Cürətin, Zeyda, təəccübdür sənin!
İstəyirsən kim, əmirin düxtərin
Yar qılasan özünə? Öyləsə bəs,
Xam xəyaldır kim, edirsən sən əbəs!

Zeyd

Gəl sən mənə kərəm et,
İnsaf yolu ilə get,
Bir dəm rəhm eylə,
Yandırma böylə. } (*2 dəfə*)

Sevdim billah!
Səni, Leyla!
Oldum mən sənə aşiq! } (*2 dəfə*)
Leyla, Leyla!
Sevdim, billah!
Ah, sevdim!
Sevdim səni, Leyla!

Leyla

Ahü nalən etməyir heç bir əsər,
Sözlərin, bil kim, sənə verməz səmər.
Qismətin axtar sən özgə yardan,
Lütfü ehsan gözləmə mən sarıdan.

Zeyd

Rədd etmə, Leyla!
İncitmə, Leyla!
Bir nəzər lütf et!
Bir əsər lütf et! } (*2 dəfə*)
Sevdim, billah!

(Musiqi)

Sevdim, billah!
Səni, Leyla!
Oldum mən sənə aşiq! } (*2 dəfə*)
Leyla, Leyla!
Sevdim, billah!
Ah, sevdim!
Sevdim səni, Leyla!

Leyla

Bunca zəhmət bəs edər, Zeyda, mənə
Artığın, insaf qıl, görmə rəva!
Zərrə qədri meyl etməm mən sənə!
Get, mənə vermə daha bir də cəfa!

Zeyd (*qəzəblə*)

Bildim, sən Haruna aşiqsən!

Leyla

Bəli! Mən Haruna aşiqəm!

Zeyd

Leyla! Yandırma məni!

Leyla

Sevdiyim yalnız bir Harundur!

Zeyd

Leyla, Leyla! Zalım olma!.. Bildim, sən Haruna aşiqsən!

Leyla

Bəli! Mən Haruna aşiqəm!

Zeyd

Leyla! Yandırma məni!

Leyla

Sevdiyim yalnız bir Harundur!

Z e y d

Leyla, Leyla! Zalım olma!

(M u s i q i)

Zeyd bihalət bir surətdə miz üzərinə yıxılıb, üzünü əli ilə tutur; Leyla isə məğruranə bir surətdə ona baxıb qalır.

Z e y d (*yalvara-yalvara*)

Olma zalım, rəhm qıl, sən mən fəqirə, Leyla!
Xoş nəzərlə bir kərə bax mən fəqirə, Leyla!
Gör, əlində dönmüşəm mən əsirə, Leyla!
Bir də etmə sən nişanə seyfi-tirə, Leyla!

(*ƏLAVƏ*)

Allaha bax, rəhm elə!
Zalım olma bir belə! (*2 dəfə*)
İstəmə sən Zeyd axır
Eşq dərdindən ölə!..

(M u s i q i)

Olma zalım, rəhm qıl, sən mən fəqirə, Leyla!
Xoş nəzərlə bir kərə bax mən fəqirə, Leyla!
Gör, əlində dönmüşəm bir əsirə, Leyla!
Bir də etmə sən nişanə seyfi-tirə, Leyla!

L e y l a

Əbəsdir naleyi-zarın,
Xəyalın, xam əfkarın.
Yəqin et qətiyyən, Zeyda!
Deyil Leyla sənin yarın!

Z e y d

Rəhm eylə, Leyla!
Leyla, rəhm eylə!

Allaha bax, rəhm eylə! (*2 dəfə*)
(*Yaxınlaşır*) Zalım olma bir belə!..

L e y l a (*acıqla*). Əl çək məndən! (*Tez çıxıb gedir.*)

(M u s i q i)

Bu məqamda Harun daxil olub, Zeydə tərəf yaxınlaşır. Zeyd onu görüb, bu səfər dəxi ona yalvarır.

Z e y d

Harun, sənə sözüm var!
Etmə yenə məni xar,
Rəhm etsən nə olar? } (*2 dəfə*)
Rüsxət ver!
Sevdim, bil sən,
Leylanı mən; } (*2 dəfə*)
Oldum Leylaya aşiq!
Harun, Harun,
Leyla yarım!
Ah! Sevdim, sevdim Leylanı mən!

H a r u n

Cürətin, Zeyda, təəccübdür sənin.
İstəyirsən özgə şəxsin dilbərin
Yar qılasan özünə! Öylə isə bəs,
Xam xəyaldır kim, edirsən sən əbəs!

Z e y d

Gəl sən mənə kərəm et,
İnsaf yolu ilə get;
Bir dəm rəhm eylə, } (*2 dəfə*)
Yandırma böylə!
Sevdim, bil sən,
Leylanı mən, } (*2 dəfə*)
Oldum Leylaya aşiq!

Harun, Harun,
Leyla yarım.
Ah! Sevdim, sevdim Leylanı mən!

H a r u n

Ahü nalən etməyir heç bir əsər,
Sözlərin, bil kim, mənə verməz səmər.
Qismətin axtar sən özgə yardan,
Heç dərd, qəm çəkmə Leyla sarıdan.

Z e y d

Rədd etmə, Harun!
İncitmə, Harun!
Bir nəzər lütf et!
Bir əsər lütf et!
Sevdim, bil sən. (*2 dəfə*)

(M u s i q i)

Sevdim, bil sən,
Sevdim, bil sən, (*2 dəfə*)
Leylanı mən,
Leylanı mən,
Oldum Leylaya aşiq!
Harun, Harun!
Leyla yarım!
Ah! Sevdim, sevdim Leylanı mən!

H a r u n

Bunca zəhmət bəs edər, Zeyda, mənə!
Artığın, insaf qıl, görmə rəva!
Candan artıq sevdiyim cananımı,
Sən alınca, alginən bu canımı!

Z e y d (*qəzəbnak*)
Harun! Qorx məndən!

H a r u n

Boş və bihudə danışma!

Z e y d

Harun, əl çək Leyladan!

H a r u n

Candan, başdan əl çəkərəm!

Z e y d

Harun, Harun! Olma bais!.. Harun! Qorx məndən!

H a r u n

Boş və bihudə danışma!

Z e y d

Harun! Əl çək Leyladan!

H a r u n

Candan, başdan əl çəkərəm!

Z e y d

Harun! Harun! Olma bais!

Deyib qılıncını çəkir; Harun dəxi qılınc çəkir və hər ikisi qalxan götürüb dava edirlər; bu halda vəzir daxil olub bunları görür.

V ə z i r. Allahü əkbər! (*Aralarına girir.*) Siz nə işdəsiniz?! Bu saat Əmir buraya gəlir. Qasid gəlibdir ki, üstümüzə düşmən qoşun çəkib gəlməkdədir; siz nə ilə məşğulsunuz?!

Zeyd və Harun davadan əl çəkib, qılınclarını qınına qoyurlar. Bu halda Əmirin əyanları, oğlanlar və qızlar cərgə-cərgə gəlib düzülürlər və bədə Əmir daxil olduqda oxuyurlar:

H a m ı

Şanü şövkət, ey Əmir, səndən artıq kimdə yox.
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)

Şanu şövkət, ey Əmir, səndən artıq kimdə yox.
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)
Canü başdan keçməyə hazırıq biz, bil,
Ömr versin Allahım, çox yaşasın il.
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)

Vəzir məktub pişnəhad edir, Əmir mütaliə edir. Musiqi çalır, bədə yenə hamı oxuyur:

H a m ı

Şanü şövkət, ey Əmir, səndən artıq kimdə yox!
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)

Ə m i r. Allahın mərhəməti cümləmizin üzərində olsun.

H a m ı. Amin!

Ə m i r. Üzərimizə düşmən gəlir. Bizi qırmaq və müqəddəs məkanlarımızı əlimizdən almaq istəyir. Nə etmək lazımdır?

H a r u n və Z e y d (*irəli durub*). Düşmənə müqabil durub, onu məğlub və pərişan etmək!

Ə m i r. Əmr edirəm: qoşun bu gün hazır olsun! Harun və Zeyd, Zeyd və Harun! Qoşun çəkib gedirsiniz, düşmən ilə dava edirsiniz, eşidin! Hansı biriniz davadan müzəffər gəlsə, əmir sözü verirəm ki, məndən hər nə istəsə, təxtü-tacımdan başqa, – onu əmələ gətirərəm. Amma məğlub olsa, daha bir də gözümə görünməsin! Eşitdinizmi?

Harun və Zeyd. Əlbəttə, Əmir sağ olsun!

Ə m i r. Mürəxxəssiniz, gedin qoşun tədarük edin. Allahın mərhəməti cümləmizin üzərinə olsun!

H a m ı. Amin!

Harun və Zeyd gedirlər, dallarınca Bəkir, Rəhman və sairə.

Vəzir. Əmir sağ olsun! Səxavətiniz aləmə əyandır! Lakin, xudanəkərdə, sui-istifadə edən olmasın!

Ə m i r. Vəzir, bilirsənmi ki, bir söz ki, Əmirin ağzından çıxdı, o hökmü-qanundur!

Vəzir. Şübhəsizdir, Əmir sağ olsun! (*Deyib çəkilir.*)

Bədə Əmir işarə edir, sazəndə və bazəndələr gəlib, çalıb oynayırlar; ondan sonra Əmir durub gedir, dalınca qızlar və oğlanlar.

(M u s i q i)

H a m ı

Şanü şövkət, ey Əmir, səndən artıq kimdə yox!
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)

(M u s i q i)

Hamı gedir, Leyla qayıdır.

L e y l a

Neyləmişdim, ey fələk, hicran qəmin verdin mənə,
Bir bu qədri ahü naləm heç əsər etmir sənə.
Gəl muradın canımı almaqsa, billah, alginən,
Bir kərə öldür məni, qurtar əzabi-hicrdən! (*Ağlayır.*)

H a r u n (*daxil olur*)

Ayrılıq, Leyla, pərişan eylədi əhvalımı,
Yandırıb yaqmaqdadır suzi-ciyarlə canımı.
Heç ümidim yox bu firqət dərdinə tab eyləyim,
Fikrimə gəlməz ki, bir gün görməyim mən yarımı.

(M u s i q i)

Beylədir, əmri qəzanın kim, gərəkdir ayrılaq,
Məhv qıl, pərvərdigara, zülm ilə həm zalımı.

L e y l a

Sən gedirsən, söylə, Harun, mən nasıl tənha qalım,
Kim səda versin sədamə, kim eşitsin zarımı.

(M u s i q i)

Leyla ağlayır, Harun durub gedə-gedə oxuyur.

H a r u n

Əlvida, Leyla, yetişdi çün zamanım, əlvida!
Bax, unutma cəngdə fovt olsa canım, əlvida! (*Gedir.*)

Leyla

Ax, Harun getmə, getmə! (*Ağlaya-ağlaya dalınca çıxır.*)

(Musiqi)

Zeyd (*daxil olur*)

Dedi: hər kəs müzəffər gəlsə,
Hər nə istəsə verərəm.
Bunca möhnət, bunca zillət
Səndədir, Leyla! Ax, Leyla, Leyla, gedirəm!
Bunca zillət səndən, Leyla! Getdim! (*Tez çıxır.*)

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Meşə içində boş yerdə vaqe olur. İki çadır qurulubdur. Hər çadır ağzında bir nəfər əsgər durubdur. Bəkir tək ora-bura gəzinir. Pərdə qalxır.

Bəkir (*söz ilə*). Harun, bəli, düşməni məğlub etdi! Zeyd məyus qaldı... Nə edim? Zeydin təklifini qəbul edim, etməyim? Təklifi ağırdır. Lakin əvəzində verdiyi simuzərin çəkisi də ağırdır! (*Fikrə gedir.*) Olsun! Mənə simuzər lazımdır! (*Bu halda pərdə dalından qoşunun səsi gəlir.*) Aha, gəlirlər!

Qoşun əhli (*pərdə dalından*)

Davaya getdik,
Meydana yetdik
Biz məğlub etdik; } (*2 dəfə*)
Ol düşməni!
Etməzdi düşmən böylə güman,
Yalvardı, istədi əlaman!
Davaya getdik,
Meydana yetdik;
Biz məğlub etdik
Ol düşməni!

(Musiqi)

Harun, Zeyd və qoşun səhnəyə gəlir; bir də haman marşı oxuyurlar.

Harun

Çalınsın təbli-zəng, qoşun rəqs etsin!

Musiqi. Qoşun rəqs edir; rəqsin bir yerində qılınclarını siyirib oxuyurlar.

Qoşun

Hər davada üst olduq, } (*2 dəfə*)
Düşmən gördü süst oldu, } (*2 dəfə*)
Əl çəkdi ol davadan, } (*2 dəfə*)
Düşmən döndü dost oldu. }

Harun. Allahın köməyi ilə düşməni məğlub etdik. Bir arzumuz varsa, o da bu şadlıq xəbərini tezliklə Əmirə yetirməkdir. Yaşasın Əmirimiz!

Qoşun. Yaşasın Əmirimiz!

Harun. İndi istirahət zamanıdır!

Deyib çadıra girir; qoşun əhli istirahətə əyləşir. Axşam düşür. Zeyd Bəkiri kənara çəkib danışır.

Zeyd. Hər şey dediyim kimi hazırdırmı?

Bəkir. Bəli, hazırdır!

Zeyd. İndi get, işə şüru eylə.

Bəkir. Baş üstə.

Harunun çadırına tərəf gedir. Harun çadırdan çıxır.

Bəkir (*Haruna*). Sər-əsgər sağ olsun! İzin ver, qoşun dayanmasın, biz qoşunu götürüb gedək, siz isə gecə istirahət edib sonra gələrsiniz. Yoxsa qoşun ağır gedir, bizi ləngə salar!

Harun (*Zeydə*). Zeyd, sən nə məsləhət görürsən?

Zeyd. Əlbəttə, qoşunu saxlamaq lazım deyildir.

Harun. Qoşun getsin! Bəkir, sən qoşunu çək, Rəhman isə yoldaşı ilə bizimlə qalsın.

Bəkir. Baş üstə. (*Qoşuna*) Səfər təbli çalınsın. Dayanmaq bəsdir.

Təbil çalınır, qoşun durur, yenə haman marşı oxuyub sonra gedirlər. Rəhman ilə digəri və iki qarovulçu qalırlar. Axşam olur. Zeyd çadıra girir.

Rəhman (*Haruna*)

Lap nahaqdır leşkəri göndərdiniz böylə uzaq,
Qorxuram kim, nagahan düşmən hücumunda qalaq.

Harun

Qorxma, Rəhman! Düşməni bərk əzmişik, imkanı yox!

Rəhman. Doğrudur, amma ki, düşmən gər bir olsa, baki yox. (*Zeydə tərəf işarə edir.*)

Harun (*barmağını ağzına tutur*). Anladım... Mən anladım! Həqdir sözün, Rəhman, sənin, amma gecdir...

Rəhman. Bəli, gecdir.

Harun. Fikri vardır düşmənin...

(*Qeyz ilə*) Qorxmuram mən ol dənidən, bildiyin qoy eyləsin.

Rəhman. Doğrudur. Biz hazırıq. Hər nə edirsə eyləsin!

Çadıra girirlər. Qaranlıq düşür.

(Musiqi)

Harun (*çadırdan çıxıb oturur*)

Bir aman ver, ey qənim,
Qoy bir görüm cananımı;
Çün gözü yolda qalıb,
Qıyma tökülsün qanımı.

(Musiqi)

Cəngdə hər anidə çıxmaz yadımdan Leyla,
Ah, olurmu bir o gün bir də göreydim yarımı.

Çadıra girir. Musiqi. Lap qaranlıq olur.

Zeyd (*qısıla-qısıla öz çadırından çıxıb meşəyə tərəf gedir*).

Vaxtdır cəngə, vaxtdır cəngə, ah!
Düşməyin ləngə, düşməyin ləngə, ah!

Bu əsnada meşədən on-on beş nəfər müsəlləh adam çıxıb, Zeyd ilə bir yerdə Harun və yoldaşları üzərinə hücum edirlər. Bunlar yuxudan ayılır, dava başlanır. Lakin bunlar az, onlar çox; odur ki, hamını qırıb, qaçıb gedirlər. Gedərkən Zeyd yerə yıxılıb qalmış Harunun ölmüş olduğuna inanıb, çıxıb gedir. Amma Harun ölməyib, bərk yaralıdır.

Harun (*güc ilə başını qaldırır*)

İncidir yaralarım, yoxdur ümidim özümə,
Bu nə haldır... (*Ora-bura baxır.*)
Görünür cürbəcür insan gözümə!

(Musiqi)

Ax, Leyla! Sənə qurban edirəm canımı mən,
Tərk qıl, yoxdur ümidim, gözləmə gəl rahimi sən!

Musiqi çalır, Harun uzanır. Yavaş-yavaş sübh açılır, işıqlanır. Bu halda bir nəfər dərviş gəlib buradan keçərkən yerə yıxılmış meyitləri görüb, təəccüblə dayanır.

Dərviş

Allah, Allah, bu nədir böylə? Əcəl meydanıdır?
Bu tökülmüş nəşlər insanın qurbanıdır!
Gör bəni-adəm necə zülmü sitəmlə bir-birin,
Öldürüb qırmaqdadır... aya, kimin fərmanıdır
Bu əməl, bunca sitəm, böylə fəna rəftarlar?!

Dərviş gedib meyitlərə bir-bir baxır.

Dərviş. Heç birində can yoxdur. (*Haruna gedib baxır.*) Bu hələ ölməyibdir. Bəlkə nicatı mümkündür?

Cibindən cürbəcür otlar və dərmanlar çıxarıb, onlardan birini Harunun burnuna tutur.

H a r u n (*ayılır*). Ax, Leyla... bir içim su... ölürəm!

D ə r v i ş. Qorxma, mən səni sağaldaram. Mən yaraların dərmanını bilirəm, qorxma!

H a r u n. Sən kimsən?

D ə r v i ş. Mən sənə müalicə edənəm. Qorxma, sağalarsan!

(M u s i q i)

H a r u n

Bir bu qədri yaralar qoymaz məni sağa çıxam
Kim, görəm Leylanı mən, gül tək camalına baxam.
(*Birdən qəhr və qəzəblə*) Zeyd! Alçaq Zeyd!
Ölməyəydim, intiqam alaydım, intiqam!
(*Deyib yıxılarkən dərviş tutur.*)

P Ə R D Ə

DÖRDÜNCÜ PƏRDƏ

Yenə Əmirin sarayında vaqe olur. Əmir, yanında vəzir və əyanlar taxt üstündə əyləşibdir. Qabağında qızlar rəqs edirlər. Bədə rəqs tamam olur.

Ə m i r (*qızlara*)

Bir nəğmə çalın, həm oxuyun, qəlbimi şad eyləyəsiz,
Həm şəbabətdə keçən günləri yad eyləyəsiz!

(M u s i q i)

Q ı z l a r

Yadındadır keçmişlər,
Keçirdiyin xoş günlər;
Gözəl idi o dəmlər,
Keçdi getdi, o günlər hanı?
Keçdi getdi o dəmlər! } (*2 dəfə*)

(M u s i q i)

Cəh-cəh vurur bülbüllər,
Hər yan açıbdır güllər.
Pəh, nə nazikdir bellər,
Keçdi getdi, o günlər hanı?
Keçdi getdi o dəmlər. } (*2 dəfə*)

O ğ l a n l a r

Olsun o günlər,
Gəlsin o dəmlər,
Güllər, bülbüllər! } (*2 dəfə*)

Q ı z l a r

Saqi, tez ver badəni,
Çağır Pərizadəni,
Salsın yada ol günü.
Keçdi getdi, o günlər hanı?
Keçdi getdi o dəmlər. } (*2 dəfə*)

(M u s i q i)

Tut əlimdən seyr edək,
Zövqü şövqə meyl edək,
Eşqin yolu ilə gedək.
Keçdi getdi, o günlər hanı?
Keçdi getdi o dəmlər. } (*2 dəfə*)

O ğ l a n l a r

Olsun o günlər,
Gəlsin o dəmlər,
Güllər, bülbüllər! } (*2 dəfə*)

Q ı z l a r v ə o ğ l a n l a r

Yadındadır keçmişlər,
Keçirdiyin xoş günlər,
Gözəl idi o dəmlər.
Keçdi getdi, o günlər hanı?
Keçdi getdi o dəmlər. } (*2 dəfə*)

(M u s i q i)

Q a s i d (*söz ilə*). Əmir sağ olsun, qoşunumuz davadan qayıtdı, budur, gəlməkdədirlər. (*Leylada bəşaşət əsəri*)

Ə m i r. Allahın mərhəməti cümləmizin üzərinə olsun, xeyirxəbər olsunlar!

H a m ı. Amin!

Qoşun pərdə dalından əvvəlki marşı oxuyur. Sonra Zeyd Bəkir ilə daxil olur; Leyla bunların içində Harunu görməyib, müztərib hal olur və intizardadır ki, görsün Harundan nə xəbər vardır.

Ə m i r (*Zeydə*). Qalibsiniz, ya məğlub?

Z e y d. Əmir sağ olsun, Allahın köməyi ilə qalibik.

Ə m i r. Allahın mərhəməti cümləmizin üzərində olsun!

H a m ı. Amin!

Ə m i r. Söylə təfsilatı, qulaq asaq!

Z e y d. Düşməni məğlub və pərişan etdik. Söz verdi on il bizimlə dava etməsin. Budur əhdnaməsi! (*Təqdim edir.*)

Ə m i r (*mütaliə edir, vəzirə verir*). Bəs Harun?

Z e y d (*başını aşağı salıb, boğuq səs ilə*). Şəhid oldu!

Hər kəsdən bir təəssüf və təhəssür nidası qalxır. Leyla isə bərk qışqırıb özündən getməkdə ikən vəzirin işarəsi ilə qızlar Leylanı götürüb, o biri otağa çıxarırlar.

Ə m i r. Şəhid oldu? Allahü-əkbər! Allah rəhmət eyləsin... Zalım düşmən! Harun kimi sər-əsgərimi əlimdən aldı... (*Fikir.*) Ax, Harun, Harun! (*Fikir, bədə Zeydə*) Zeyd, sən ki, davadan müzəffər və qalib gəldin, əvəzində məndən bir ənam istə!

Z e y d. Əmir sağ olsun, siz bizi göndərəndə buyurdunuz ki, hər kəs qalib gəlsə hər nə istəsə verərəm.

Ə m i r. Doğrudur, necə?

Z e y d. Sizin o sözünüz mənə cürət verir və mən sizdən qızınız Leylanı istəyirəm.

Bu sözdən hamı pərişanhal olur və təəccüb edir.

Ə m i r (*qeyz ilə*). Nə cürət etdin? (*Yada salır.*) Ax, söz vermişəm... Nə ağır təklifdir! Zeyd, sən məndən özgə şey istə, qızıl istə!

Z e y d. Əmir sağ olsun, Leyladan başqa özgə istəyim yoxdur. Sizin vədiniz mənə cürət verib istəyirəm.

Ə m i r. Bir övladım var, o da Leyladır... Zeyd, Leylanı əlimdən alma!

Z e y d. Əmir sağ olsun, cürətim böyükdür, buyur boynumu vursunlar; amma sən söz verdin, mən də cürət etdim.

Ə m i r (*vəzirə*). Sənin sözün doğru imiş... (*Zeydə*) Hansı şəhərimi istəsən sənə verərəm, amma Leylanı alma!

(M u s i q i)

Z e y d

Sən söz verdin,
Mən eşitdim.
Düşmən ilə
Cəngə getdim. } (*2 dəfə*)

Qoşun çəkdim,
Mən cəng etdim;
Düşmən halın
Mən təng etdim! } (*2 dəfə*)

Nə tövr komanda etdiyini əli ilə işarə edir.

Hay... hay... hay... Leylanı mən

(M u s i q i)

Sevdim, ey Əmir!
Leylanı mən.
Sevdim, ey Əmir!
Bəs nə edim,
Nədir tədbir? } (*2 dəfə*)

Qoşun çəkdim,
Mən cəng etdim.
Düşmən halın
Mən təng etdim! } (*2 dəfə*)

Hay... hay...
Hay... cəngə gəl!

Ə m i r. Zeyd, bir ləhzə gözlə, mən sənə cavab verərəm!

Zeyd çıxır.

Ə m i r (*vəzirə*). Vəzir, nə etməli? Bu mənhus dava Harun kimi sər-əsgərimi əlimdən aldı... Bu nakəs də qızımı almaq istəyir, təki düşmən bizə qalib gələydi, bu iş olmayaydı.

V ə z i r. Əmir sağ olsun, əlbəttə, sən istəsən bu saat əmr edərsən, Zeydin boynu vurulsun. Lakin sən söz verdin... Əmir sözü... nə etmək!

Ə m i r

Bu qulu bir əmr ilə rədd eyləmək məqdur ikən,
Gör əlində mən onun acizü naçar olmuşam;
Çünki mən söz vermişəm, sözdən dönüm, ya dönməyim.
Bunca müşkül məsələ həllinə vadar olmuşam!

H a m ı

Çox çətin məsələ!
Həlli onun müşkül,
Həlli onun müşküldür.
Zeydi rədd eyləmək
Hər bir şeydən yüngül,
Hər bir şeydən yüngüldür.
Amma ki, söz verdin,
Əmrini bildirdin,
Əmrini bildirdin!
Çünki sən söz verdin!

Ə m i r (*söz ilə*). Vəzir, nə etməli? Bir çarə tap!

V ə z i r. Əmir sağ olsun, sən Zeyddən qırx gün möhlət istə, bəlkə bu qırx günün ərzində bir əlac tapaq.

Ə m i r (*şad olur*). Doğru deyirsən, vəzir. Çağırın Zeydi!.. Bəlkə bu qırx gündə bir əlac tapılsın. (*Zeyd daxil olur.*)

Ə m i r. Zeyd, mənim sözüm Əmir sözüdür, onda xilaf ola bilməz; Leylanı sənə verərəm, lakin sən mənə qırx gün möhlət ver, sonra Leylanı apar.

Z e y d. Mərhəmət və iltifatın, Əmir, artıq olsun! Baş üstə, mən qırx gün gözlərəm.

Ə m i r. İndi mürəxxəssən. (*Zeyd baş əyib gedir.*)

(M u s i q i)

Ə m i r. Nökərimdən, nökərimdən möhlət aldım, çünki mən söz vermişəm. Verdiyim sözlərdə mən daim vəfadar olmuşam.

H a m ı

Çox çətin məsələ,
Həlli onun müşkül,
Həlli onun müşküldür.
Zeydi rədd eyləmək
Hər bir şeydən yüngül,
Hər bir şeydən yüngüldür.
Amma ki, söz verdin,
Əmrini bildirdin,
Əmrini bildirdin!
Çünki sən söz verdin!

Əmir və hamı durub gedirlər.

(M u s i q i)

Leyla gözüyaşlı daxil olur.

L e y l a

Bu qədər zülmü, fələk, sən ki, rəva gördün mənə,
Təqsirim nəydi mənim, aya, nə etmişdim sənə?
Zülm ilə aldın əlimdən yarımı, qıydın ona,
Təqsirim nəydi mənim, aya, nə etmişdim sənə?

Qaldı yolda gözlərim, canım, ənisim gəlmədi,
Çünki Leyladır adım, səhrada Qeysim gəlmədi;
Eylədin zayil ümidim, verdirdin həsrət mənə,
Təqsirim nəydi mənim, aya, nə etmişdim sənə?

(*Ağlayır.*)

PƏRDƏ

BEŞİNCİ PƏRDƏ

Əmirin hamankı sarayında vaqe olur. Səhnədə vəzir ilə Bəkirdir. Pərdə qalxır.

Vəzir. Qırx gün keçdi... Bu gün vədə tamamdır. Zeyd gələcəkdir, amma biz bir əlac tapa bilmədik... Hiyləgər Zeyd Əmirin sözündən asıldı, özünyə yol tapdı. Harun isə... ax, Harun, Harun! Kim bilir, davadamı ödürdülər, ya Zeydin namərd əli ilə qətl oldun. (*Fikrə gedib, sonra Bəkirə tərəf yönəlir.*) Bəkir! Doğrusunu söylə, yoxsa həm bu dünyada və həm o dünyada şədid cəzalara düçar olarsan! Harunu davada öldürdülər, yoxsa?..

Bəkir (*başını aşağı salır*). Vəzir sağ olsun, davada öldürdülər...

Vəzir. Davada! Hansı davada? Bəs Rəhmanı?

Bəkir. Onu da öldürdülər!

Vəzir. Amma, bil, Bəkir! Nahaq tökülmüş qan yerdə qalmaz! (*Tez dönüb çıxır.*)

Bəkir (*tək*). Vəzirin gözünə düz baxa bilmirəm. Vicdanım özümü incidir... deyim, deməyim? Kim bu sirri açа bilər? Harun ölübdür, Rəhman ölübdür... (*Qəti surətdə*) Yox! Demərəm. (*Dönüb bu da tez çıxır.*)

Bu halda Leyla qara geyimli, gözü yaşlı, zəif, pərişanhal, iftan və xizan daxil olub oturur, bədə əllərini yuxarı qalxızıb minacat diləyir.

(Musiqi)

Leyla

Ya ilahi, ya ilahi!
Bir ölüm ver, canımı qurtar əzabi-hicrdən,
Bir dəqiqə rahatım yox dərddən, min fikrdən.

Heç rəvadırmı ki, Harundan sonra mən sağ qalam,
Ol şəhidi ticikən, mən həm əsiri-dam olam.

Ağlayır; bədə birdən fikrinə düşür ki, qırx gün keçibdir və Zeyd gələcəkdir.

Leyla (*söz ilə hövlnak*). Ax, qırx gün keçdi... Bu gün vaxt tamamdır, Zeyd gələcəkdir! (*Daha hövlnak*) Yox, yox! Mən özümü xilas edərəm.

Belindən xəncərini çəkir və oxuyur.

Çünki yox başqa əlacım, var ümidim bir sənə,
Mərhəmət eylə, a xəncər! Tez əcəl göndər mənə!
(*Yanıq ilə*) Gəl, gəl, Zeyd! (*Lakin yenə sustalıb, Harunu yad edir.*)
Bir bu qədri dərd içində könlümü məsrur edən,
Bir odur ki, tez ölüm, ta kim, görüm Harunu mən.
Çatmadıq çün biz murada bu cahani-fanidə,
Axirətdir aqibət hər yarı yara vəsl edən.

Bu yerdə Əmir və hamı daxil olub, Leylanı nalan görürlər.

Hamı

Bəsdir, Leyla, bunca möhnət,
Gəl vemə böylə özünə zəhmət. (*2 dəfə*)
Qismətdir bu, keçdi müddət,
Gəl vermə böylə özünə zəhmət. (*2 dəfə*)

Tək qızlar

Ax, necə etmək, ax, necə etmək?
Bax, yola getmək, başqa da çarə yox! } (*2 dəfə*)

Hamı

Allahdandır çün bu işlər,
Gəl vermə böylə özünə zəhmət. (*2 dəfə*)
Səbr et, səbr et söyləmişlər;
Gəl vermə özünə böylə zəhmət. (*2 dəfə*)

Tək qızlar

Ax, necə etmək, ax, necə etmək?
Bax, yola getmək, başqa da çarə yox! } (*2 dəfə*)

Hamı

Bəsdir, Leyla, bunca möhnət,
Gəl vemə böylə özünə zəhmət. (*2 dəfə*)
Qismətdir bu, keçdi müddət,
Gəl vermə böylə özünə zəhmət. (*2 dəfə*)

Əmir

Qismətin buymuş, qızım, yox çarəmiz təğyir edək,
Biz gərək daim bizə qismət olan yolla gedək.

Leyla

Ax, ata, bil sirrimi: Haruna aşiqdir qızın!
Aşiqi etmiş bu yarın halətin, fikr et özün!

Əmir

Gər deməydin sən qabaq: Haruna ver, ata, məni,
Bil, yəqin Haruna, Leyla kim, verərdim mən səni.

Leyla

Oldu Harunum şəhid, söz vermisən həm Zeydə sən,
Qoy olum qurban, sözün ver, ver... gedim ol Zeydə mən.

(*Ağlayır.*)

Hamı

Bəsdir, Leyla, bunca möhnət!
(*Necə ki, qabaqda var, axıra kimi*)

(Musiqi)

Əmir əyləşir. Hər kəs öz məqamında durur. Bu əsnadə Zeyd daxil olur.

Zeyd

Qırx gün keçdi,
Qırx gün keçdi.
Leylanı aparmağa gəldim,
Leyla, Leyla!
Sevdim billah, ah!
Sevdim, sevdim səni, Leyla!

Əmir. Zeyd! Əmirin sözü sözdür... Apar, apar Leylanı. (*Zeyd baş əyir.*)

Leyla (*rişxənd ilə*). Gəl, gəl, Zeyd! Mən hazıram! (*Zeyd Leylaya tərəf hərəkət edərkən*) Apar Leylanın nəşini!

Xəncərini çəkir və qaldırır ki, sinəsinə çaxsın, bu halda qapılar açılır, Harun daxil olur və tez Leylanın qolundan tutur. Bu əhvalat hamını mat və məəttəl qoyur; elə ki, bir neçə saniyə heç kəsdə söz deməyə ixtiyar olmur. Leyla heyran, təəccüb, sürur və xof ilə yavaş-yavaş dönərək Haruna baxır və bunun Harun olduğunu yəqin edib qışqırır.

Leyla. Harun!

Ürəyi gedir. İndiyə qədər gözləri bərəlmiş və Haruna təəccüb ilə baxan Zeyd axır özünə gəlib qaçmaq istərkən Harun cəld onun qolundan yapışır və deyir:

Harun. Dayan, namərd qatil! Qaça bilməzsən!

Əmir (*təəccüblə*). Harun, sən qəbirdən dirilib gəldinmi?

Leyla şadlığından ağlayır.

Harun. Əmir sağ olsun! Qəbirdən dirilən kimi olmuşam, lakin Allahın mərhəməti üstümdə çox imiş!

Əmir. Bəs söylə, bu nə əhavalatdır!

Harun. Mən düşməni məğlub edib qayıdarkən, bu məlun hiylə ilə qoşunu ötürüb, öz gizli qatilləri ilə üzərimə hücum etdi. Adamlarımı və Rəhmanı öldürüb, məni də ağır yaralar ilə yıxdılar!

Əmir. Səbəb?

Harun. Səbəbini qızın Leyladan soruş!

Əmir. Harun, Leyla mənə söylədi ki, sənə aşiqdir. Sən də ona aşiqsənmi?

(Musiqi)

Harun

Ax, Əmir! Leylanı mən canımdan artıq sevmişəm,
Sevmişəm, bu yolda həm min cür cəfalar görmüşəm.
(*Leyla ilə bir yerdə*)
Sevmişik bir-birimizi, olmuşuq bir təndə can,
Olma razı, ey Əmir, kim, ayrılıq, ah, əlaman!..

(Musiqi)

Əmir (*dəbdəbə ilə*)

Olun agah, qızım Leylanı mən verdim bu Haruna,
Gərək qırx gün gecə şadlıq edək hər növü hər gunə.

Hamı

Şanü şövkət, ey Əmir, səndən artıq kimdə yox,
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)
Şanü şövkət, ey Əmir, səndən artıq kimdə yox,
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox!
Canü başdan keçməyə hazırıq biz, bil,
Ömr versin Allahım, çox yaşasın il.
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)
Canü başdan keçməyə hazırıq biz, bil,
Ömr versin Allahım, çox yaşasın il;
Həm ədalət, həm səxafət, həm şücaət səndə çox! (*2 dəfə*)

Zeyd

Öldürdün, öldürdün,
Qoy yetim mən öz cəzama!
Öldürdün, öldürdün,
Böylə lazımdır mənə! } (*2 dəfə*)

Hamı

Şanü şövkət, ey Əmir, səndən artıq kimdə yox,
Həm ədalət, həm səxavət, həm şücaət səndə çox! (*2 dəfə*)

PƏRDƏ

RÜSTƏM VƏ SÖHRAB

(*Firdovsidən*)

Dörd məclisli opera sayağında yazılmış bir dramdır

ƏFRADİ ƏHLİ-MƏCLİS

R ü s t ə m – məşhur İran pəhləvanı, 40 yaşında
S ö h r a b – onun oğlu, 15 yaşında
T ə h m i n ə – Rüstəmin övrəti, Səməngan padşahının qızı, 20 yaşında
S ə m ə n g a n p a d ş a h ı – 45 yaşında
K e y k a v u s – İran padşahı, 45 yaşında.
H ü c e y r – əsir, 35 yaşında
V ə z i r l ə r, q o ş u n, x o r və q e y r i l ə r i

ƏVVƏLİNCİ MƏCLİS

Vaqe olur Səməngan padşahının evində. Padşah oturub, vəzirlər də yanında. Bu əsnada bir qoşun nəfəri daxil olub rast oxuyur.

B i r n ə f ə r

Sağ olsun padşahımız çox
Xəbər gəldi qarovuldan
Budur bir pəhləvan tənha
Gəlir dağda bizə sarı (*sükut*)
Əlində tiğü bürrandır
Qolunda qanlı qalxandır.
Deyirlər ki, bu surətlə
Ki Rüstəm pəhləvandır o.

(Hamısı bir yerdə oxuyurlar. M u s i q i)

X o r

Əyər Rüstəmsə o,
Əyər Rüstəmsə o,
Bizə yoxdur aman
Nədir qəsdi onun
Ki tək-tənha gəlir.

(Padşah rast oxuyur.)

P a d ş a h

Yığılsın hər nə var əsgər
Düzülsün həm qoşun səf-səf
Gərək Rüstəm cəlal ilə
Qəbul olsun imarətdə.

(Padşah və hamısı gedirlər. Sonra Təhminə daxil olub "Bayatı-Şiraz" oxuyur.)

T ə h m i n ə

Arslan simalı yar eşqilə xumar olmuşam,
Rüstəm adlı arslana aşiqi zar olmuşam,

Etməyə nəzara bülbül tək güli ruxsarına
Ah həsrətlə dəmadəm didə xumbar olmuşam.
Ey təbibi-haziqim gəl bir dəva qıl dərdimə
Yox əlac sənin eşqində bimar olmuşam.
Ey səbah, cənanımın ver bir surağı zülfünü
Lütf qıl billah əsiri-eşqi dildar olmuşam.

(Təhminə gedir. Marş çalınır. Rüstəm və qeyriləri daxil olur.)

X o r

Xoş gəldin bizə Rüstəm, xoş gəldin sən (2)
Bizləri eylədin sən sərəfraz (2)
Bir belə sən bizə etdin lütfi təvazöh
Xoş gəldin bizə Rüstəm, xoş gəldin sən. (2)

(Rüstəm rast oxuyur.)

R ü s t ə m

Mənəm Rüstəm ki qeyzimdən bütün məxluq
lərzandır
Atam seyf, anam qalxan, məkanım qanlı
meydandır
Şərabım ruzi dəvada olur düşmənlərin qanı
Kəməndimdən xilas olmaz əgər kim şiriğərrandır
Küdurətlə dolub qəlbim itibdir Rəxş rəxşanım
Mənə hər kəs xəbər versə ona bezmim
firavandır.

(Təsnif)

Rəxşim, Rəxşim şiri-jəyanım
Sənsiz olmaz rahat canım
Rəxşim, Rəxşim ahu maralım
Sənsiz gəlməz səbrü qərarım.

X o r

Hər yerdə dəvadəsən
Düşmənlərə qalibsən

Heç kəsə olmaz kim cürət, Rəxşim, Rəxşim (2)
Canın edə bəxş, canın edə bəxş.

P a d ş a h

Gəl ey aləmdə fərzanə
Ki sənsiz gəlmişik canə
Bizim bu bezmi-şahanə
Səfa gəldin, səfa Rüstəm
Nədən tərk etdin İranı
Diyarı qürbətə gəldin
Şücaət qeyrətin kanın
Dilirü əjdaha Rüstəm
Əgər sən olmasan İran
Yəqin eylə olur viran
Bizə gəl olginən mehman
Sərvi vəfa Rüstəm.

(M u s i q i)

X o r

Sənə yoxdur heç kəs
Ola bilsin həmta
Girə bilsin cəngə
Meydana tək-tənha.

(M u s i q i)

Budur işdə meydan.

(M u s i q i)

Düzəlibdir min can
Hər biri bir arslan.

(M u s i q i)

Edə bilməz heç kəs cürət
Qədəmin qoysun. (*2 dəfə*)

Rüstəm

İtibdir Rəxşi Rəxşanım
Ki qəmdən inciyib canım
Gərək Rəxş olsun
Ki etsin canımı rahət.

Padşah

Bütün dünyanı axtarram
Sənin Rəxşini tapdırram
Günahkarın başın vurram
Nədir qəm çəkməyə hacət.
Gedək biz Rəxş dalınca
Sən ol rahət bu İranda
Tapıb Rəxşi gətirdirrəm
Əyər olmuşsa hər yanda.

(Musiqi)

Xor

Sənə yoxdur heç kəs
Ola bilsin həmta
Girə bilsin cəngə
Meydanə tək-tənha.

Rüstəm

Budur iştə meydan. (2)

Xor

Budur iştə meydan.

Rüstəm

Düzülübdür min can.

Xor

Düzülübdür min can
Hər biri bir arslan.

Rüstəm

Edə bilməz heç kəs cürət
Qədəmin qoysun.

Xor

Edə bilməz heç kəs cürət
Qədəmin qoysun.

(Hamısı gedirlər, Rüstəmi yuxu tutur, Təhminə yavaş-yavaş daxil olub kürd-şahnaz oxuyur.)

Təhminə

Bəski dərdi, qəmi eşqində pərişan oldum
Pəhləvanım, belə axir ürəyi qan oldum.
Hər gələn söylədi avareyi nami nəsəbin
Mən də nadidə sənə aşiq nalan oldum
Həsrətin canda çəkirdim, neçə vaxt yarım
Şimdi görcək səni pek valehi heyran oldum
Dedilər adını Rüstəm mənə təsir etdi
Bənd olub adına kim həsrəti didar oldum.

(Təsnif)

Aldı məni eşqi dərdi saldı bir müşkül işə
Olmadı bir çarə səndən yandı qəlbim atəşə (2)
Görməmişdim aşiqindim görmüşəm kim qurbanım
Getdi əldən tabü taqət yandı canım atəşə (2)
Dur əlac et mən fəqirə qoyma zari giryanam
Dut əlimdən qoyma zinhar yandı canım atəşə.

(Rüstəm oyanıb təəccüblə baxıb şur ilə oxuyur.)

Rüstəm

Kimsən ey meh, belə xurşid kimi rəxşansan
Mənə bu şihridə bir canalıcı canansan
Gər desəm huri sənə huri yer üzrə olmaz

Ya perisən sən haşa demərəm insansan
Vəh nə ziba nə gözəl ahu baxışlı dilbər
Bu vəcahətlə yəqin padşahi xubansan
De adın bircə mənə getdi qərarım əldən
Mən sənə valehi şeyda nə sən heyransan

(Təhminə simayi-şəms oxuyur.)

Təhminə

Sənə ey şiri jəyan sevgili bir dildaram
Aşiqi namin olub eşqinlə xumbarım
Şükr lillah səni gördüm ürəyim şad oldu.
Möhnəti hicri çəkib vəslinə minnətdaram.

Rüstəm

Mənə sən aşiq olubsan, bunu bildim söylə
Kimsən a, mənzilimə sən necə gəldin söylə.

Təhminə

Mənəm ol şah qızı ismim kim Təhminə
Söyləyir hər bilən amma yüzmi kimsə
Görməyibdir görə bilməz sən ancaq Rüstəm
Eylədim faş bu sirri bunu əfv eylə mənə.

(Təhminə – təsnif oxuyur, yıxılıb diz üstə)

Elə gəl Rüstəm sən məni qəbul (*2 dəfə*)
Rədd etmə Təhminəni sən.
Layiq bilməsəm gər özümü mən (2)
Qoymaram olam mən məqbul.

Rüstəm

Dur ayağa ey nazlı dilbərim
Eyləmə məni xəcalət.

(*Qucaqlaşırlar.*)

Qoy mən sənə öz canımı verim (2)
Söz söyləməyə nə hacət. (*Bazubəndi verir.*)

Rüstəm (*şur ilə*)

Budur Təhminə məndən bu bazubəndi
al saxla
Əyər oğlan əta olsa onu bazusuna bağla
Əyər davada mən görsəm bu bazubəndi bir
kəsdə
Odur oğlum deyib bağrıma basmaqdır
xəyalımda.

(İkisi bir yerdə təsnif oxuyurlar.)

Allah eyləsin o günlər olsun (*2 dəfə*)
Qəlbimiz şadlıq ilə dolsun. (*2 dəfə*)

(Qucaqlaşıb qalırlar.)

PƏRDƏ

İKİNCİ MƏCLİS

(Yenə vaqe olur həmən otaqda. Söhrab bidamağ anasının qabağında durub, şüştər oxuyur.)

Söhrab

Sinnim əyər azdır, ey anacan
Amma özüm əjdahayi-dövran
Davaya əgərçi qılsam ahəng
Kimdir ki, mənimlə eyləsin cəng
Söhrabi qəzənfəri-dilirəm.
Dava günü bir acıqlı şirəm

Amma ki sən ey xəstəcə madər
Lütf et mənə doğrusun xəbər ver
Məndən sorur hər görən atamı
Kəşf eylə mənə nədir nişanu namı.
Könlümdə görə ah iştiyağın
Ver nami nişan tapım surağın.

(Təhminə təsnif oxuyur. M u s i q i)

Təhminə

Söhrabım, bu sirri mən sənə
Kəşf edim yeməyəsən heç qəm
Sən deyirsən kim atan kimdir
Səndən soruşur hərdəm
Bilginən oğlum atan sənin
Hər yerdə məşhurudur Rüstəm.

(Söhrab bayatı-kürd oxuyur.)

Söhrab

Ana, ana, nə deyirsən məgər o Rüstəm-Zal
Ki şöhrəti tutmuş cahanı mala-mal
Mənim atam əgər o şiri qərrandırsa
Yararmı kim ola pünhan mənə bu əhval
Mənəmsə mən gedirəm atam məni gözlər
Mənim məkanım o meydandır ana salamat qal.

Təhminə

Kaş oğlum deməyəydim bu sözü mən sənə kaş
Etməyəydim bu qədər saxladığım sirri faş
Sən gedirsən məni bəs neyləyirsən, ey oğlum
Sən gedirsənsə gözümdən axacaqdır qan, yaş.

Söhrab

Nə edim bəs anacan, qalmış atam tək-tənha
Gözlüyür kim gələcəkdir onun oğlu Söhrab.

Təhminə

Qorxuram gər səni cəngə buraxsam oğlum
Qalmıya məndə dözüm zərrə qədər taqət-tab.

(Söhrab qatar oxuyur.)

Söhrab

Çəkərəm xəncərimi hər tərəfi qan edərəm
Görsəm gər atamı cismimi qurban edərəm
Çəkmə qəm ey anacan, mən gedirəm davaya
Ad alıb, san qazanıb, aləmi heyran elərəm.

(Rasta enir.)

Yorulubdursa atam cəngü cidaldan hərgah
Mən ona imdad edib düşməni giryan edərəm.

(Padşah, vəzirlər, xor daxil olurlar, Şah "Mahuri-hindi" oxuyur.)

Padşah

Bu güftuguyə səbəb söylə bir nədir, Söhrab
Neçin Təhminənin halı olubdur xərab
Yararmı incidəsən qəlbini ta kim ola da əzab.

Söhrab

Əfv qıl şah babacan, madərimi incitməm
Mən ki, adabə muğayir hərəkət heç etməm
Qəsdim ancaq ki, budur öz atamın yanına mən

Gedibən canımı qurban eləyim canına mən
Bilmişəm Rüstəmi-Zal nə olmuş getməm
İzn ver sən də, anam da mənə, ey şah babacan
Ta gedim bir görüm o şiri-jəyan Rüstəmi mən.

Ş a h

Get bala, get sənə mən getməyə rüsxət verdim
Görgünən Rüstəm-Zalı pədərindir o sənin.

(*Təhminəyə*)

İzn ver, Təhminə, sən də nəyə lazım giryə
Qoy oğul görsün atasın ki, ərindir o sənin.

(*Vəzirlərə*)

Söyləsinlər qoşuna hazır olun meydanə
Hər nə var tiğü kaman, nizəyi-xəncərlə belə
Eyliyir əzmi səfər Rüstəm-Zal oğlu bu gün
Görəcəkdir atasın cəng edəcək mərdanə.

(Qoşun daxil olur, marş ilə oxuyur.)

X o r

Cəng əhliyiz biz – cəng əhliyiz biz
Cəng əhliyiz biz – cəng əhliyiz biz. } (*2 dəfə*)

(Söhrab davaya hazır olub, anası ilə əlvida eləyir.)

S ö h r a b

Səlamət qal anacan həlal et oğlunu bəlkə
Gedər-gəlməz olur rahim deyil ovdet mənə
qismət
Könlümdə bir arzum vardır, görüşməkdir
atam ilə

Qəm etmə, ağlama billah nə lazım bir belə
möhnət
Xudahafiz, xudahafiz məni gözlər qoşun
əhli
Gedək meydanə yüz tutduq görək neylər qəza
qüdrət.

(Təhminə təsnif oxuyur. M u s i q i)

T ə h m i n ə

Oğul rəhm et – qoyma məni
Necə qalım – mən sənsiz
Sən gəlincə – mən dözmərəm
Necə qalım – mən sənsiz.

(*Ağlayır.*)

S ö h r a b

Ana, ana – sən qəm çəkmə
Rahət yaşa – sən mənsiz.

(Marş çalınır, "Cəng əhliyiz biz" oxunur, pərdə düşür.)

P Ə R D Ə

ÜÇÜNCÜ MƏCLİS

(Vaqe olur Keykavusun bargahında; təxtə əyləşmiş, vəzirlər yanında, musiqi çalınıb bazəndələr oynayırlar. Bir qədərdən sonra xor daxil olub təzim edir.)

K e y k a v u s

Nə vardır kim pərişansız
Nədir bais ki heyransız

Edin agah məni
Edim yox düşməni
Deyin nolub
Sizə etmiş əsər.

(Musiqi)

Xor

Rüstəmin oğlu Söhrab
Kimsə etməz ona tab
Cəngə əzm eyləmişdir
Xeyli qoşun çəkmişdir
Qəsd etmiş İrana
Qoysun onu virana
İntiqam alsın ondan
Qanına etsin qəltan
Əmr vercək qoşun
Dəf eylə düşməni
Sən çağır tez gələr
Pəhləvan Rüstəmi
Cəngə, qoy Rüstəm getsin
Oğlunun dəfin etsin
Əvvəl ol davada
Qətl etsin Söhrabı.

Keykavus (*fikirli*)

Göndərin-göndərin
Rüstəmi çağırsınlar
Qoşuna əmr olsun cəngə
Qoşuna əmr olsun cəngə.

(*Qıza*)

Yanıma gəl, dilbər, yanıma gəl
Yanıma gəl et məni şad. } (*2 dəfə*)

(Musiqi çalınır, qız oynayır, sonra Rüstəm daxil olur.)

Keykavus

Nə cürət etdin, ey Rüstəm
Hüzuri şaha gec gəldin
Əcəb bu cür rəftarı
Mənimçün sən rəva gördün
Mənəm Keykavus ol şəh kim
Bütün İran edər səcdə } (*2 dəfə*)
Xilaf əmrim olmaqda
Nə cürət var bir kəsdə
Nə lazım sən kim əlindən bir şey gəlməz
Sənin tək pəhləvanlarım mənim çoxdur bunu bil
Sən hüzurumdan çəkil. (*2 dəfə*)

(Musiqi)

Xor

Ey padşah – rəhm eylə bizə
Qoyma düşmənə – ta olaq fəda.

(*Rüstəmə*)

Ey pəhləvan – rəhm elə bizə
Qoyma düşmənə – ta olaq fəda.

Rüstəm

Bəsdir, ey şah, bu qədər qeyzidə tüğyan etdin
Gəlməyimdən məni bu şəhrə peşiman etdin.
Hamı işlər sənə dünyada bu gün təng olmuş
Əjdaha tək dəminə çun səni Söhrab almış
Bedtər olmuş belə gün gündən işlər dünyada
Olmasam mən gedəcək taxtilə tacın badə
Mənəm ol Rüstəmi dəstan ki, ismi-pakim
Külli dünyanı tutub, sən kimidən yox bakim.

(İstəyir getsin, padşah saxlayıb deyir.)

(M u s i q i)

K e y k a v u s

Rüstəm, gəl barışaq (*2 dəfə*)
Lazımdır ittifaq. (*2 dəfə*)

X o r

Rüstəm, gəl barışaq (*2 dəfə*)
Lazımdır ittifaq (*2 dəfə*)
Cəngə qoyduq qədəm (*2 dəfə*)
Düşmən olsun ədəm. (*2 dəfə*)

P Ə R D Ə

DÖRDÜNCÜ MƏCLİS

(Vaqe olur dava meydanında. Söhrab Hüceyri çəkib gətirir.)

S ö h r a b

O kimdir ki, gəl mənə söylə
Cəlal cahı var boylə
Di gəl adın bəyan eylə
Mənə olsun əyan kimdir.

H ü c e y r

Onun adı Keykavus
O taxtı zərnigar üstə
Kim ətrafı qoşun dəstə
O şah-gül İrandır.

S ö h r a b

Bəs ol kimdir elə izhar
Yanında pəhləvanlar var
Başı üstündə bir bayraq
Ucaldıblar uca kimdir.

H ü c e y r

Odur məhbub Keykavus
Adıdır pəhlivani-Tus
Özü də norəz evladı
Şücai ruzi meydandır.

S ö h r a b

Bəs ol al rəngli bir xeymə
Kimindir qübbəsi almas
Müsəlləh pəhləvan bir çox
Varıdır pasiban kimdir.

H ü c e y r (*kənara*)

Əgər mən Rüstəmi versəm
Nişan öz oğlu Söhraba
Ata ilə oğlu birləşsə
Edər dünyanı viranə.

H ü c e y r (*Söhraba*)

Onun heç bilmirəm adın
Gəlib bu ən qərib vəxtə
Özü biganədir bizdən
Bizə amma ki mehmandır.

S ö h r a b

Nədir adın kəşf eylə
Nişanı namını söylə.

Hüceyr

Adın mən bilmirəm hərgiz
Gəlibdir özgə yerlərdən
Budur axır sözüm istər
Birgə bəndi zindandır.

(*Gedirlər.*)

Rüstəm

Nədəndir kim bu davaya könül zinhar meyl etməz
Nə qədri kim qədəm qoysam, qədəm şovq ilə getməz
Əcəb bir möhnəti üzmə könül gözlər bu davadan
Gərək mən qan tökəm ya kim tökülsün öz qanım axsın
Həmi dosti, həmi düşməni ona bu növ ilə baxsın
Desinlər kimdir Rüstəm düşübdür ruhun cismi
Budur kani şücaətdən qalıbdır təkcə bir ismi.

(*Söhrab gəlir.*)

Söhrab

Mənə doğru söylə gəl mərdanə
Rüstəm-Zalsan aya ya nə
Sənə miyali könlüm çox-çox
Söylə zənnim gecdir ya yox.

Rüstəm

Gec gedib zənnin sənin etmə əcəb boylə xəyal
Rüstəm-Zal sənə görmək olur xeyli mahal

Zərbidəstim bildirir kim mən kiməm ey nocavan
Et süpər qalxanını yoxsa ki qalmaz heç macal.

(Dava edirlər, Söhrab Rüstəmi yıxır yerə)

Rüstəm

Ey cavan, gəl mənə rəhm et başımı kəsmə mənim
Məni rüsvay eləmə mərd ilə namərd baxar
Heyfdir bu qoca vaxtımda yerə qanım axar.

Söhrab

Dur ayağa, ey pəhləvan, öz qəlbini şad etginən
Get yaşa dünya üzündə bir cavanı yad etginən.

(Rüstəm durub məlul, mükəddər gedir.)

Hüceyr

Çox böyük səhv etdin, ey Söhrab, düşməni öldürmədin
Əldə fürsət var ikən öz özlüyün bildirmədin.

Söhrab

Kimdə var cürət qoysun bu meydana qədəm
Zərbi dəstindən bilər dünyada kim nə imiş ədəm.

Rüstəm (*çıxır*)

Ey cavan, məğrur olma bunca zərbi dəstəsinə
Söyləmə əfsanə sözlər qüvvətindən urma qəm.

Söhrab

Gəl gedək meydanə – gəl gedək meydanə

(*İkisi də*) Tiği-tiğə bağlayaq
Qəhri ilə keçti tutaq əflak qəlbini dağlayaq.

(Dava olur. Söhrab yıxılır. Rüstəm xəncərini onun ürəyinə sancır. Söhrab ölürkən oxuyur.)

Söhrab

Ey sitəmkar qanımı tökdün mənə rəhm etmədin
Mərdi namərd tək vurub əhvalıma rəhm etmədin
Mən sənə verdim aman ta tökmədim al qanını
Sən də ey zalım çəkərkən xəncəri rəhm etmədin.
Bil bunu, ey bivəfa, Söhrabıdır adım mənim
Rüstəm-Zal oğluyam zalım mənə rəhm etmədin.

(Rüstəm hövlnak Söhrabın qolunu açıb bazubəndi çıxardıb "Qatar" üstə oxuyur.)

Rüstəm

Bütün qəhri qeyzlə oğul vurdum sənə yarə
Mənəm Rüstəm oğul Söhrab ki etdim bəxtimi qarə.

Söhrab

Nə xoşbəxtəm, ata, canı-tənimdə var ikən canım
Səni gördüm məni əfv et sənə qurban bu al qanım.

Rüstəm

Yeritdin ey fələk əmrin saldın əcəb dərdə
Ki oldum qatili Söhrab atası olduğum yerdə
Əlimlə öz ciyərparəm olubdur qaninə qəltan
Eşit Təhminə, Söhrabın olubdur boylə gör qurban.

(Rüstəm Söhrabı qucaqlayıb ağlayır.)

Musiqi

Xor

Etdin min zülm ilə (*2 dəfə*)
Söhrabı qətl sən (*2 dəfə*)
Bunca cövrü cəfa
Eylədin bəzl sən (*2 dəfə*)
Sən də bu vətən yolunda (*2 dəfə*)
Etdin oğlunu qurban. (*2 dəfə*)

PƏRDƏ

KOROĞLU

Beş pərdəli opera

BİRİNCİ PƏRDƏ

Xor

Bu gözəl təbiət, bu şən mənzərə
Bir daha səadət verməz bizlərə;
Səadət verməz, səadət verməz, səadət verməz,
bizlərə, bizlərə, bizlərə.
Matəmə bürünmüş gözəl kəndimiz,
Görünür bu dünyada yox bəxtimiz.
Görmədik azadlıq üzü bir zaman,
Bizləri əzdi bəylər,
Əzdi xan, əzdi xan, əzdi xan. } (*2 dəfə*)

Vəli

Dönmüşdür zəmanəmiz cəhənnəmə,
Mənim də varlığım bürünmüş qəmə.

Nadir

Həsən xan dünyanı dağıdır, didir,
Kəndləri talayır, xəlqi məhv edir.

Xor

Doğrudur, xanlarda yoxdur mərhəmət;
Talanmış məmləkət, yanmış məmləkət.
Xan bilməz insaf, insanə cəbr edər,
Nadir, söylə görək daha nə xəbər?

Nadir

Həsən xan göndərmiş öz adamların.

Vəli

Öz adamların?

Nadir

Allahyar kəndçinin yarmış anbarın.

Vəli

Yarmış anbarın?

Nadir

Tamam aparmışlar arpa, buğdasın,
Qoyun, quzu, xoruz, toyuq, çolpasın;
Bir şeyi yox idi bunlardan səva.

Xor

Nə qədri zülmüdür, nə qədri cəfa.

Vəli

Nə bəla gələcək görəsən yarın,
Belə getsə işi bizim xanların.

Nadir

Hər həftə başında bir xan, ya paşa.

Vəli

Bir xan, ya paşa.

Nadir

Qonaq gəlmiş olsa bu dağılmışa.

Vəli

Bu dağılmışa.

Nadir

Gedər var-yoxumuz qonaqlar üçün,
Oğul-uşağımız qalar ac o gün,
Bir ləzzət olmuyur əzabdan səva.

Xor

Nə qədri zülmüdür, nə qədri cəfa.

Vəli

Nə bəla gələcək görəsən yarın,
Belə getsə işi bizim xanların.

Vəli və Nadir (*ikisi birlikdə*)

Bizim xanların, bizim xanların, bizim xanların

Xor

Bu gözəl təbiət, bu şən mənzərə
Bir daha səadət verməz bizlərə,
Səadət verməz, səadət verməz, səadət verməz,
bizlərə, bizlərə,
Matəmə bürünmüş gözəl kəndimiz,
Görünür bu dünyada yox bəxtimiz.
Görmədik azadlıq üzü bir zaman,
Bizləri əzdi bəylər,
Əzdi xan, əzdi xan, əzdi xan. } (*2 dəfə*)

Nadir və Vəli

Həsən xan, Həsən xan,
Həsən xanın adamları,
Həsən xan, Həsən xan,
Həsən xanın adamları,
Həsən xan, Həsən xan, Həsən!..

İbrahim xan

Oğrular, quldurlar,
Kimdə var ixtiyar,
Xan keçən yolları tozlaya, oğrular!
Vurun, qovun, vurun, qovun!..

Həsən xan

Qamçıdır saxlayan bu rəiyyəti,
Qamçısız yaşamaz xanın dövləti.
Zülmə öyrənənlər sevməz mərhəmət,
Zülmsüz yaşamaz bizim məmləkət.
Döyməsən, söyməsən, malın almasan,
Dara çəkdirməsən, dama salmasan,
Rəiyyət bir daha xanı dinləməz.

Həmzə bəy

Xanı dinləməz.

Həsən xan

Malımın, canımın sahibi deməz.

Həmzə bəy

Sahibi deməz.

Həsən xan

İstəsən xanlığı öz rəiyyəti, –
Söyləyib atalar bu vəsiyyəti, ah!
Qamçıdır saxlayan bu rəiyyəti,
Qamçısız yaşamaz xanın dövləti.
Zülmə öyrənənlər sevməz mərhəmət,
Zülmsüz yaşamaz bizim məmləkət.

Həmzə bəy

Döyməsən, söyməsən, malın almasan,
Dara çəkdirməsən, dama salmasan.
Rəiyyət bir daha xanı dinləməz.

Həsən xan

Xanı dinləməz.

Həmzə bəy

Malımın, canımın, xanısan deməz.

Həsən xan

Sahibi deməz.

Həmzə bəy

İstəsən xanlığı əz rəiyyəti, –
Söyləyib atalar bu vəsiyyəti, bu vəsiyyəti.

Həsən xan

İbrahim xan, yügür bu saətdə
İlxını hazır etdir əlbəttə.
İlxıdan bir at gərək seçəsən,

Söyləsin aləm afərin, əhsən!
Görməmiş olsun oylə at insan.

İbrahim xan

Bu saət edərəm sərəncam.

Həsən xan

Xanların xanıyam, böyük bir xan,
Yeddi min kəndə eylərəm fərman.
Şöhrətim, dövlətim, nəhayətsiz,
Səltənət qurmuşam, varım hədsiz,
Səltənət qurmuşam, varım hədsiz!

Xor

İlxı qaçdı otlağa!

İbrahim xan

İlxıdan qalmadı burda bir nişan,
Qalmış yerində beş-on cüt qulan,
İlxıçı ilxını sürdü otlağa.
Böyük cəza lazım o cür alçağa.

Həsən xan

Qəsdən bunu etmiş ol haramzadə.

Həmzə bəy

Qəsdən bunu etmiş ol haramzadə. (*2 dəfə*)

İbrahim xan

Qəsdən etmiş bunu ol haramzadə.

Həsən xan

Gətirin hüzura!

İbrahim xan

Bu saət, qurban!

Həsən xan

Məlunun qətlinə verərəm fərman.
İlxıdan ayrılmış beş-on cüt qulan,
Etina etmərəm bunlara, inan.
Oylə at istərəm bilinsin zatı,
Ya Dağıstan atı, ya ərəb atı.

Qoca Alını gətirirlər.

Həsən xan

Söylə, qoca məlun, bu nə, bu nə, bu nə hilədir?
İlxını sürməkdə məqsədin nədir?

Alı

Ortada yox idi heç bir məqsədim,
Mən xana bir xidmət etmək istədim.
Nə qədər cins at var seçdim, saxladım,
Vallahi, yoxumdur heç bir məqsədim,
Billahi, yoxumdur heç bir məqsədim.

Həsən xan

Heç mənası yoxdur yalan, yalan, yalan sözlərin,
Aparın, çıxarın bunun gözlərin!
Tez olun aparın, qoymayın qala!..

Həmzə bəy və Həsən xan

Döyməsən, söyməsən, malın almasan,
Dara çəkdirməsən, dama salmasan,
Rəiyyət bir daha xanı dinləməz,
Malımın, canımın sahibi deməz.
Sakitlik istəsən əz rəiyyəti, –
Söyləyib atalar bu vəsiyyəti, vəsiyyəti...

Nigar

Şərir Həsən xan, zalım Həsən xan
Cəllada verdi fərman:
Fağır, günahsız, dilsiz, ağızsız Alını etsin qurban.
Kor etdilər yazıq Alını,
Dağıtdılar bütün malını.
Qəlbim yanır, odlanır
Mənim bu ahü nalədən,
Gələr bir gün, gələr bir gün
Bu məzlum xalq verər cəza
Bu məlun, zülmkar xanlara,
Bu eşq odundan yaralıyam mən,
Gözümdə Rövşən, sözümdə Rövşən,
Rövşən, Rövşən, Rövşən.
Rövşəndir dünyada məni yaşadan,
Rövşən məni sevir, mən də Rövşəni!
Rövşən məni sevir, mən də Rövşəni.
Sevmirəm, sevmirəm varı, dövləti.
Ölsəm də saxlaram məhəbbəti.
Rövşəni minlərcə cana vermərəm,
Min bəyə, paşaya, xana vermərəm.
Sevirəm, sevirəm, sevirəm,
Sevirəm, sevirəm səni, əzizim Rövşən,
Sevirəm səni mən, səni mən,
Səni mən candan artıq sevirəm, Rövşən, Rövşən!
Bu eşq odundan yaralıyam mən, Rövşən!

Sevdim səni, Rövşən!
Rövşən gəlib çıxmadı,
Gözləməkdən yoruldum.
Ah, gəlirlər, gəlirlər,
Gəlir igid Rövşənim.
Hanı bəs Rövşən?

Rövşən (*pərdə dalından*)

Səni gördüm, hey!..

Xor

Rövşəndir, Rövşən, Rövşən!

Rövşən

Səni gördüm, aşiq oldum,
Dərdə saldın canımı.
Ala gözlər, dadlı sözlər,
Qara qaşlar, işvə nazlar...
Can alan yar tökdü nahaq qanımı.
Gözəlim gəl, halımı sor, rəhm elə.
Nazlı yarım, gülüzarım, işvəkarım, hey...
Nədir əmrin, tacidarım, sərvərim?..
Ah, Nigarım! Sevgili, nazlı dilbərim, sevgilim,
Sevgilim, ayrı düşdüm səndən, gəl görüm.

Nigar

Şərir Həsən xan, zalım Həsən xan
Cəllada verdi fərman,
Dilsiz, ağızsız, fağır, günahsız
Alını etsin qurban.
Kor etdilər yazıq Alını.

Xor

Yazıq Alı!

Nigar

Dağıtdılar bütün malını.

Xor

Yazıq Alı!

Nigar

Nə vaxtadək zalımın zülmü görməz intiqam?!

Rövşən

Ax, intiqam, ax, intiqam!..

Nigar və xor

Gərək bu gün edək qiyam,
Alaq o xandan intiqam!

Nigar və Rövşən

Ax, intiqam, ax, intiqam!..

Xor

Gərək bu gün edək qiyam,
Alaq o xandan intiqam!

Rövşən

Ax, intiqam, ax, intiqam!..

Alı

Rövşən, Rövşən!..

Hamı

Alaq o xandan intiqam!..

Nigar və Rövşən

Yazıq atam!..

Rövşən

Sənin qanın yerdə qalmaz!

Xor

Yazıq Alı kor, bədbəxt oldu,
Bədbəxt oldu, bədbəxt!

Rövşən

Görünür taxsırın var imiş əlbət.

Alı

Ortada yox idi heç bir məqsədim,
Mən xana bir xidmət etmək istədim.
Nə qədər cins at var seçdim, saxladım,
Vallahi, yoxumdu heç bir məqsədim.
Ha, ha, ha... (*Ağlayır.*)

Xor

Nə qədər qulluq eyləsən,
Yolunda canından keçsən,
Yenə də axırda səndən
Razı qalmaz əsla nə bəy, nə xan,
Nə paşa, nə tacir, nə əyan.

Alı

Oldun sən kor oğlu, (*2 dəfə*)
Kor oğlu, kor oğlu, kor oğlu, kor oğlu!..

Rövşən

Təngə gəldik, yox tavan,
Əzdi bizi vəhşi xan.
Görmədik bir yaxşı gün
Hərgiz, məhv edildik büsbütün,
Bəy, xan, paşa, mülkədar,
Yansın, batsın hər nə var.
Qalxsın üsyan şöləsi,
Rədd olsun vəhşi bəy, xan!
Mən daima düşmənəm
Xanlara, düşmən, düşmən.
Hər tərəfdən qanlar axsın
Sel kimi, sel kimi, sel kimi, sel!..
Üsyan etmək, üsyan etmək, məhv eyləmək,
Xanı məhv eyləmək, onu məhv eyləmək!
Yoxsul xalqa nicat verəcək
Bir əlac var isə – üsyan, üsyan!..

Xor

Hər bir yerdən – dağdan, daşdan,
Ormanlardan, insandan
Qalxsın üsyan, qalxsın üsyan!
Hər ölkədən, hər yandan!
Qoy rədd olsun, qoy məhv olsun
Bəylər, xanlar, zalımlar.
Qoy məhv olsun, qoy məhv olsun
Qəddar, xain qatillər!

Rövşən

Dağlar, daşlar, dağdaşlar arasına
Səngərlər çəkmək,
Ordan saldırmaq, qırmaq, yıxmaq,
Qırmaq, yıxmaq, xanları məhv etmək!

Xor

Məhv olsun, məhv olsun xanlar!

Rövşən və Nigar

Üsyan, üsyan!..
Üsyandan başqa yox çarə,
Üsyandan, başqa yox çarə, çarə!..

Hamı

Üsyan, üsyan!..

Rövşən və Nigar

Üsyandır son çarə!

Rövşən

Mənimlə gedən gəlsin, gedək dağlara.
Qalarsan burda, Nigarım,
Olarsan mənə burda lazım.
Xanın əməllərindən
Məni xəbərdar edərsən,
Səni tezliklə xilas edərəm mən.
Sevgilimsən.
Mənimlə gedən gəlsin, gedək.

Xor

Qoy rədd olsun, qoy məhv olsun,
Xanlar, bəylər, zalımlar!
Qoy məhv olsun, qoy tərk olsun
Qəddar, xain qatillər!
Qatillər, zalım xainlər!..
Rövşən, gedək!

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Həsən xan

Bu inqilab törədəni
Asardım mən öz əlim ilən.
Ehsan paşa ilə barışmaq gərək,
İttifaqa girib, çalışmaq gərək.

Polad

Ehsan paşa gəlir, yarı yoldadır.

Həsən xan

Tədarük görün, tez qabağa çıxın.
Mina ibriqlərə şərab doldurun,
Mina ibriqlərə şərab doldurun,
Şərab, şərab, şərab, şərab, şərab, şərab!..
Payəndaz döşəyin o gələn yola,
Bəzənsin qadınlar, salsın qol-qola,
Geysin rəqqasələr təzə paltarın,
Paşaya göstərin ölkənin varın.
Bütün adamları çağır, ver xəbər,
Onu aldadalım bəlkə birtəhər.
Doğrudur, düşmənik, neyləyim fəqət.
İndi sülhə girmək eyni məsləhət,
eyni məsləhət, eyni məsləhət. (*2 dəfə*)
Gərək axır qoyam bu üsyanlara,
Hər gün bir müsibət doğur xanlara.
Mina ibriqlərə şərab doldurun,
Mina ibriqlərə şərab doldurun, şərab doldurun,
Şərab doldurun, şərab, şərab, şərab,
Şərab, şərab, şərab!..
Payəndaz döşəyin o gələn yola,
Bəzənsin qadınlar, salsın qol-qola,

Geysin rəqqasələr təzə paltarın,
Paşaya göstərin ölkənin varın.

Polad

Ehsan paşa gəlir, əmriniz nədir?

Həsən xan

Böyük ehtiramla qonağı gətir.

Xor

Bizə xoş gəldin, paşa!
Dünya durduqca yaşa!
Uzun illər sür dövran,
Belə sür dövran.
Səfa gəldin sən bizim ölkəyə,
Sür belə dövran.

Həsən xan

Çox səfa gəlmisən, Ehsan paşa həzrəti,
Mən təqdir edərəm böylə hörməti.

Ehsan paşa

Məhrəbalar sənə, məhəbbətli xan,
Məhəbbət sənə bəslərəm hər zaman.

Həsən xan

Bizim dostluğumuz olduqca saf.

Ehsan paşa

Olduqca saf.

Həsən xan

Yoxdur aramızda heç bir ixtilaf.

Ehsan paşa

Heç bir ixtilaf.
Olmasın yerindən bir-iki kəndim.

Həsən xan

Rəiyyət dinc olsun.

Ehsan paşa

Bu sözü bəyəndim.

Həsən xan

Bu sözü bəyəndim.

Həsən xan və Ehsan paşa

Bu sözü bəyəndim.
Onu aldadalım bəlkə birtəhər.
Doğrudur, düşmənik, neyləyim fəqət,
İndi sülhə girmək eyni məsləhət,
Eyni məsləhət, eyni məsləhət.

Həsən xan

İçək badəni bu şərəflərə.

Xor

İçək badəni bu şərəflərə.

Həsən xan

Gəlsin rəqqasələr,
Gəlsin rəqqasələr, çalsın, oynasın.

Rəqs

Həsən xan

Əmr edin, təlxək gəlsin,
Bizi güldürsün, ha, ha, ha, ha!..

Qoşunlar içəri daxil olurlar.

X o r (*qoşunlar*)

Xan cənabları, xan cənabları!
Koroğlu, Koroğlu, Koroğlu.
Vergi yığdıq kəndlilərdən,
Getdi aldı Koroğlu,
Vurdu, döydü, yıxdı, əzdi,
Zərbə çaldı Koroğlu.
Dörd-beş illik vergiləri
Güclə, zorla döydük, aldıq,
Cəza verdik, dama saldıq,
Başlar yardıq, nə var aldıq:
Çox qızıllar, çox gümüşlər,
Çox cavahir talan oldu,
Viran oldu, bada getdi,
Bada getdi, bada getdi,
Hər nə vardı, xandan ötrü
Hədyə, sovqat bada getdi,
Həmlə etdi, zərbə çaldı,
Qoşunlara Koroğlu,
Əzdi, tökdü, yaman günə
Saldı bizi Koroğlu.
Qırdı bizi, lüt eylədi,
Yamanca şil-küt eylədi,

Bir əlac edin bu dərdə,
Qalmışıq belə, əlac edin,
Əlac edin, əlac edin,
Əlac edin, əlac edin!

Həsən xan

Daha bəsdir!

Təlxək

Kimdir məni çağıran?

Həsən xan

Kor oğlu!
Kor oğlunun çıxışları qəti tədbir istər.

Ehsan paşa

Kor oğlunun çıxışları qəti tədbir istər.

Həsən xan və Ehsan paşa

Əlac, əlac!..

Həsən xan

Çıxın gedin, çıxın gedin,
Qalsın bəylər, əyanlar,
Məsələ olduqca çətin məsələ,
Ölkəni quldur, qaçaq almış ələ,
Koroğludur başçıları onların,
Qorxusu yox xandan o məlunların.
Yığmışdır başına quldurdan, oğrudan;
Qorxunc bir təhlükə olmuşdur doğrudan.
Tezliklə biz gərək, bir çarə eyləyək.
Koroğlunu öldürmək, məhv etdirmək!..

Ehsan paşa

Göndərək Koroğlunu tutmaq üçün min nəfər.
O məlunu tutub gətirsin, müxtəsər.

Birinci əyan

Lazım olmaz min nəfər,
Beş yüz kifayət edər.
Məncə beş yüz olsa da,
Bəs min nəfərə, bəs.

İkinci əyan

Burda müşkül bir iş yox,
Gərək Koroğlunu məhv edək.

Təlxək (*gülür*)

Ha, ha, ha!..

Həsən xan

Təlxək!

Ehsan paşa

Ehtiyatla iş görmək gərək,
Güclü qoşun göndərək.
Koroğlunu məhv etmək, öldürmək.

İbrahim xan

Sərkərdələr getsin,
Onu məhv eləsinlər.
Bu xalqa dərs olsun.
Düşmənə bir zərbə çalsın,
Bir əsər qalmasın.

Birinci əyan

Sürətlə getmək, tutmaq onu,
Tutub məhv etmək.

Hamı

Sürətlə onu öldürmək,
Məhv etmək, məhv etmək, öldürmək.

(*Təlxək gülür.*)

Həsən xan

Təlxək, bu nə gülməkdir,
Bu nə istehza?!

Hamı

De görək sən bir!

Təlxək

Axı necə mən gülməyim
Bu cür axmaq sözlərə;
Dəli edib Koroğlu,
Salıb bizi düzlərə.
Koroğlunun üstünə
Göndərirsiz min əsgər,
Amma onu tutmağa
Kifayətdir bir nəfər.

Hamı

Bir nəfər?

Təlxək

Bir nəfər!

I. Koroğlunun bir atı var, (*2 dəfə*)
Qırat deyərlər adına. (*2 dəfə*)
Qırat yaman gündə yetər (*2 dəfə*)
Koroğlunun imdadına. (*2 dəfə*)
Koroğlunun imdadına, hey!..
Koroğlunun imdadına. (*2 dəfə*)

II. Bir nəfər igid gərək, (*2 dəfə*)
Atın oğurlasın onun. (*2 dəfə*)
Bu kələk yaxşı kələk. (*2 dəfə*)
Afərin ustadına! (*2 dəfə*)
Afərin ustadına, hey!..
Afərin ustadına! (*2 dəfə*)

III. Bura gəlcək tutun onu, (*2 dəfə*)
Bağlayın, əl-ayağın. (*2 dəfə*)
Bu kələk yaxşı kələk.
Afərin ustadına! (*2 dəfə*)
Afərin ustadına, hey!..
Afərin ustadına! (*2 dəfə*)

Ehsan paşa

Tələxədə ki, yox həya üzündə,
Lakin çox ağıllıdır sözündə;
Tək bircə nəfər gedərsə, bəsdir,
Qırat gətirilsə, cəng əbəsdir.

Birinci əyan

Çox doğru danışdı burda tələxək,
At gəlsə, gələr Koroğlu bişək.

İkinci əyan

Atsız yaşamaz Koroğlu bir an,
Dönməz o yəqin ki, Qıratından.

Həsən xan

Hər kimsə Koroğlu səngərindən
Qıratı tutub gətirsə,
Məndən ənam alacaq, böyük bir ənam.
Kimdir, kimdir bu işə verən sərəncam?

Həmzə bəy

Bir şərt ilə mən gedib gətirrəm.

Həsən xan

Qəlbin nəyi istəyirsə verrəm.

Həmzə bəy

Hər əmrin olursa hazıram mən,
Qorxmam, gedərəm, Nigarı versən.
Müddətdir mən aşiqəm Nigarə,
Mən tapmamışam bu dərdə çarə,
Hər əmrin olursa hazıram mən,
Qırat gələcək, Nigarı versən.

Həsən xan

Verdim, sözüm üstə durmuşam mən,
Toy başlanacaq Qırat gəlirkən.
Çağırın Nigarı! Möhtərəm paşa,
İndi siz bir baxın o göz, o qaşa.

Ehsan paşa

Bəh, bəh, üzündə var bahar, bu qızın;
Yolunda can qoymaq yarar bu qızın. Bəh, bəh!..

Həsən xan

Həmzə bəy özü bir böyük qəhrəman,
Qıratın dalınca gedir sabahdan.

O səni istəyir, mən də razıyam,
Qıratı gətirsə, iş olsun tamam.
Mərhəmətli paşa, buyurun gedək,
Dostluğumuz üçün kəsək duz-çörək.

Nigar

Polad, Eyvazı tap, gətir, amandır!
Tez ol!

Polad

Bu saat.

Nigar

Tez ol! Əhvalım yamandır.
Mən iztirab içindəyəm. (*2 dəfə*)
Nədir bu dərd, nədir bu qəm?
Gərək kəsək o əlləri...
Bu həyasız, bu həyasız xanlardan bir gün
Azad ola insan, insan, insan!

Nigarın ariyası

Hanı o günlərim,
Səfalı dəmlərim?
Yazıq Nigar, yazıq Nigar,
Bütün bahar əsir ikən bu evdə sən,
Nə sevgi var, nə yar.
Yox ahu-zarımı eşitdirən yara,
Keçirdiyim həyat gecəm kimi qara;
Dedim gələr bahar,
Olar yanımda yar,
O yarımdan məni ayırdı ruzigar,

Qəfəsdədir Nigar,
Qəfəsdədir Nigar,
Nə bir nəfər kömək verən,
Nə dindirən, nə rəhm edən,
Mənə. Bu eşq, bu məhəbbət,
Əsiri-dami-zülmət;
Bu dərdü qəm, bu möhnət,
Bu ayrılıq, bu firqət,
Bütün düşüncə, həsrət,
Yazıq Nigara qismət!

Eyvaz çıxır.

Nigar

Eyvaz, amandır,
Eyvaz durma, get Rövşənin yanına,
Dayanmadan gedib, xəbər ver ona.
Keçəl Həmzə gəlir Qıratı çalsın,
Əvəzində xandan Nigarı alsın.

Eyvaz

Həmin saat yola düşüm,
Qanad açıb uçum, gedim.

Nigar
Polad
Eyvaz } – Zəfər bizim, zəfər bizim olsun, olsun!..

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Xor

Çənlibel ölkəm, hər yeri möhkəm, möhkəm.
Quş keçə bilməz bu səngərlərin üstündən,
Qəsd edə bilməz bu yerlərə heç bir düşmən.
Qəhrəmanlar yurdu Çənlibel,
Basılmaz bir ordu Çənlibel.
Məskən saldıq Çənlibeldə, hey...
Əlbir olduq Çənlibeldə,
Çənli-çənli Çənlibeldə, Çənlibeldə hey...
Koroğlu vurdu, yıxdı, qırdı,
Tökdü xan-paşaları,
Azad etdi yoxsulları,
Qurtardı dərddən, qurtardı qəmdən,
Dərddən, qəmdən, zalım xanların zülmündən,
Zalım xanların zülmündən, hey!..
Çənlibel ölkəm, hər yeri möhkəm, möhkəm,
Quş ötə bilməz bu səngərlərin üstündən,
Qəsd edə bilməz bu yerlərə heç bir düşmən.
Qəhrəmanlar yurdu Çənlibel,
Basılmaz bir ordu Çənlibel,
Çənli bel, Çənli bel...
Məskən saldıq Çənlibeldə, hey...
Düşmən vurduq Çənlibeldə, hey...
Əlbir olduq Çənlibeldə, Çənlibeldə, Çənlibeldə hey...
Koroğlu vurdu, yıxdı, qırdı,
Tökdü xan-paşaları,
Azad etdi yoxsulları,
Qurtardı dərddən, qurtardı qəmdən,
Dərddən, qəmdən, zalım xanların zülmündən,
Zalım xanların zülmündən, hey!..

Koroğlu

Darmadağın eyləmişəm xanın qoşunlarını,
Ölkəsini dağıtmışam, almışam canlarını,

Talan edib qoymamışam daş üstündə daşını,
Həsən xanlar ala bilməz Koroğlunun başını.
Mərd igidlər nərə çəksin davada...

Xor

Hey!.. Hey!..

Koroğlu

Şikar etsin tərlan kimi havada,
Dövran etsin misri qılınc davada,
Bağırsaq cəmdəyə dolanmaq gərək.

Xor

Hey!.. Hey!.. (*2 dəfə*)

Koroğlu

Dövran etsin misri qılınc davada,
Bağırsaq cəmdəyə dolanmaq gərək.
Koroğludur içən düşmən qanını,
Nərəsindən davalarda tanını.
Qırın vəzirlərin, tutun xanını,
Leş-leş üstə bir-bir qalanmaq gərək.
Qırın vəzirlərin, tutun xanını,
Leş-leş üstə bir-bir qalanmaq gərək.

Xor

Koroğlusan, mərd oğlusan, (*2 dəfə*)
Sənsən məzlum xalqın dostu,
Xanların qatil düşmanı,
Çox sağ ol!..

Koroğlu

Xanlarından zülm görmüş ermənilər, gürcülər,
Başlayıb üsyana; bizlərdən gəlib yardım dilər.

Ermənilər, gürcülər, kürdlər – bu miskin kəndlilər.
Mən gətirdim bu camaat yoldaş olsun sizlərə,
Xan cəfasından qaçanlar qoy qoşulsun bizlərə.
Əlbir olsunlar bu yoxsullar bizimlə bir kərə,
Müttəfiq qüvvətlə zərbə endirmək düşmənlərə,
Qan içən düşmənlərə,
Məhv edən düşmənlərə,
Zülm edən düşmənlərə.

Xor

Hər kəs olsa yoxsuldan,
Qaçmış olsa bəy-xandan,
Gəlsin, hər nə məzlum var,
Gəlsin, Çənlibeldə yeri var.
Gəlsin, hər nə məzlum var,
Gəlsin, Çənlibeldə yeri var, hey!..

Koroğlu

Çənlibeldə zülm olmaz,
Burda xan-bəy yaşamaz.
Azad olmaq istəyən gəlsin,
Rahat olmaq istəyən gəlsin.
Azad olmaq istəyən gəlsin,
Rahat olmaq istəyən gəlsin.

Hamı

Burda hər kəs qardaşdır,
Bir-birilə yoldaşdır.
Böylə bir söz verdik,
Əhdi-peyman etdik;
Mülkədara qarşı, zülmkara qarşı,
Hiyləgərə qarşı saldırmaq, məhv etdirmək.

Koroğlu

Hey... saldırmaq, məhv etdirmək.

Xor

Cümlə mülkədarı, cümlə zülmkarı,
Cümlə hiyləkarı məhv etdirmək.

Həmzə bəy

Yandım, Allah (*2 dəfə*)
Ver bir içim su...

Xor

Kimdir bu, kimdir bu?

Həmzə bəy

Mən yazığam, siz mənə rəhm edin,
Mən fağıram, siz mənə rəhm edin.
Bir kəsim yox, siz mənə rəhm edin.
Mənə gəlin rəhm edin, rəhm edin...

Xor

Rədd ol get!

Həmzə bəy

Yazığam.

Xor

Rədd ol get!

Həmzə bəy

Yazığam.

Xor

Hiyləgər, rəzil adam, rədd ol get!

Həmzə bəy

Yazığam.

Xor

Rədd ol get!

Həmzə bəy

Yazığam.

Xor

Bədsifət, səfil adam.

Həmzə bəy

Mən yazığam, rəhm edin siz mənə,
Gəlin mənə rəhm edin bir kərə.
Mən fağıram rəhm...

Koroğlu

Dayan! Kimsən, nəçisən, sənətin nədir?
Bura belə gəlməkdə məqsədin nədir?

Həmzə bəy

Sənətim atlara baxmaqdır,
Bu yolda çox mahirəm.
Xanların zülmündən qaçmışam,
Sənə, sənə mailəm.

Koroğlu

Aparın bunu tövləyə,
İş görsün orada fəraqət;
Hər gün, hər gecə Qıratı
Bəslətsin, eyləsin rahət.

Xor

Rövşən, sən əbəs yerə eylədin bunu qəbul,
Səndən çıxmayan bir iş, ehtiyatsız bir üsul...
Bəlkə xan tərəfindən gəlmiş olsun bu füzul.

Koroğlu

Cəsus olsaydı əgər, verərdi xəbər Nigar,
Bunda olsaydı xətər, Nigar eylərdi xəbər,
Gözləyir o yar məni, gözləyir Nigar məni,
Düşdü yadıma Nigar, getdi əldən ixtiyar.
Sən çək orda min cəfa,
Biz görək burda səfa, ax...
Gəl, Nigar!..
Sevdim səni mən, ey Nigarım,
Rəna gözəlim, şən baharım.
Sevdim səni, canan!
Lakin zülmkar xan,
Xalqın qatil düşməni
Əsir etmişdir səni.
Ondan müşküldür ayrı düşmək,
Lakin çətindir bu görüşmək.
Oldum bu yolda mən
Öz-özümə düşmən,
Ayrı düşdüm səndən,
Mən ayrı düşdüm səndən, hey...
Səndən mən, hey... səndən mən, hey... səndən mən!..
Dönmərəm bu yoldan,
Xof etmərəm xandan,
Məqsəddən keçmərəm, ölərəm,
Keçərəm canımdan.
Ölsün düşmən, bu üsyandan
Qurtarmasın yaxasın.
Dağılsın, kor olsun kainat,
Onda nə zövq var, nə həyat.
Bu aləm sevgilər, məhəbbət
Yaratsın, yaratsın, hey!..

Sevdim səni mən, ey Nigarım,
Rəna gözəlim, şən baharım.
Sevdim səni, yarım,
Sənsən mənim canım.
Olmaz özgə sevgilim səndən,
Ayrı səndən, ayrı səndən,
Ayrı düşdüm, Nigar!..

X o r (*baslar*)

Gəlsin düdükçülər,
Çıxsın oyunçular,
Şadlıq edək bu gün,
Həm çənlibelçilər.

(Rəqs)

X o r

Əhdimiz üstə durduq,
Burda biz qardaş olduq.
Xanlara qarşı üsyan
Tədbirini biz qurduq, qurduq, qurduq.

Həmzə bəy

Qırat mənimdir,
Yansın Koroğlu, həm Nigar
Mənimdir, yansın Koroğlu, ha, ha, ha...

X o r

Qırat oğurlandı, Qırat oğurlandı.
Alçaq, xain insan.
Qırat oğurlanmış, yırtıcı bir heyvan,
Yırtıcı, qanmaz heyvan, heç çıxmaz yaddan,
Apardı səni insafsız düşman, hey... amansız düşman!

Qırat, Qırat, Qırat!..

P Ə R D Ə

DÖRDÜNCÜ PƏRDƏ

Xanəndə qız

Saqi, benure-bade bərəfruz came-ma (*2 dəfə*)
Mütrüb, be gu ke, kare-cahan şod bekame-ma (*2 dəfə*)

Bekame-ma... aman ey...

Qızlar xoru

Yarım hey... yarım ey... aman ey...

Xanəndə qız

Aman ey... aman, aman, bekame-ma, bekame-ma.

Qızlar xoru

Əhsən qara saçlara, qara qaşlara,
Qara gözlərə, qara xallara.
Məcnun kimi yar məni saldı çöllərə,
Saldı dillərə, yaman hallara, yaman hallara. (*2 dəfə*)

Xanəndə qız

Ma dər piyale əkse-ruxi-yar dideim,
Ey bixəbər ze ləzzəte-şurbe-modame-ma.
Aman ey, aman ey, aman ey...
Yarım ey, yarım ey, aman ey, aman...
Modame-ma, modame-ma.

Qızlar xoru

Əhsən qara saçlara, qara qaşlara,
Qara gözlərə, qara xallara.
Məcnun kimi yar məni saldı çöllərə,
Saldı dillərə, yaman hallara, yaman hallara.

(Rəqs)

Qızlar xoru

Gözəl xanım, sən mənim canım, naz eyləmə.
Bizimlə sən bir şirin söhbət-saz elə,
Kərəm qıl gəl, lütfünü bizdən az eləmə,
Sən bir gülsən, gəl xəzanimi yaz elə,
Naz elə, bala, saz elə, bala, yaz elə, bala, hey!..

(Rəqs)

Koroğlunun çıxışı

Həsən xan

Bu kimdir, nəçidir?

Ehsan paşa

Aşığa bənzəyir.

Həsən xan

İzinsiz girdin sən tez içəri,
Səlam vermədin nədər ötəri?

Koroğlu

Səlam verdim, səlamım almadılar,
Səlam kəssin bəyi də, ya xanı da.

Həsən xan

Aşıqsansa əgər, hünərini göstər.

Koroğlu

Göstərim, izin verin.
Çünki oldun dəyirmançı,
Çağır gəlsin dən, Koroğlu. Balam hey!..

Səni gördüm, aşiq oldum,
Dərdə saldın canımı.
Ala gözlər, dadlı sözlər,
Qara qaşlar, işvə-nazlar...
Can alan yar tökdü nahaq qanımı,
Nədir əmrin, tacidarım, sərvərim?..
Nazlı yarım, gülüzarım, işvəkarım, hey...
Nədir əmrin, qəddi rəna dilbərim!
Gecə-gündüz ayrılıqdan
Yandım hicran dərdinə.
Səni görsəm, nazlı yarım,
Gedər əldən ixtiyarım.
Səni görsəm, gülüzarım,
İftixarım, nazlı dilbərim, hey...
Gərək aşiq yar yolunda
Qalmasın can dərdinə.
Ala gözlər, dadlı sözlər,
Qara qaşlar, işvə nazlar...
Can alan yar tökdü nahaq qanımı.
Nədir əmrin, tacidarım, sərvərim?
Nazlı yarım, gülüzarım, işvəkarım, hey...
Nədir əmrin, qəddi rəna dilbərim?..
Gecə-gündüz hey!..
Gecə-gündüz ayrılıqdan yandım hicran oduna.
Gecə-gündüz ayrılıqdan yandım hicran oduna.
Səni görsəm, nazlı yarım,
Gedər əldən ixtiyarım.
Səni görsəm, gülüzarım,
İftixarım, nazlı dilbərim, hey...
Gərək aşiq yar yolunda
Qalmasın can dərdinə.
Ala gözlər, dadlı sözlər,
Qara qaşlar, işvə nazlar...
Can alan yar tökdü nahaq qanımı,
Nədir əmrin, tacidarım, sərvərim?
Nazlı yarım, gülüzarım, işvəkarım, hey...
Nədir əmrin, qəddi rəna dilbərim?..

Hamı

Afərin!

Həsən xan

Aşıq olmağına aşıqdır.

Ehsan paşa

Aşıq olmağına aşıqdır.

Xor

Qəzəlləmə söylə!

Koroğlu

Koroğlunun Qıratını gözəllərəm mən çox.

(*kənara*)

Görüm Qırat burdadır, ya yox!

Həsən xan

Koroğlunu tanıyırsan?

Koroğlu

Tanıyıram!

Həsən xan

Qıratını tanıyırsan?

Koroğlu

Tanıyıram!

Həsən xan

Sən indi ki, tanıyırsan,
Bir gözəlləmə söylə, söylə!

Koroğlu

Eşitsin xanlar, paşalar,
Eşitsin bəylər, ağalar,
Eşitsin xanlar, paşalar,
Eşitsin bəylər, ağalar,
Eşitsin arif atalar,
Eşitsin şənin Qıratın (*2 dəfə*)
Eşitsin şənin (*2 dəfə*)
Eşitsin şənin Qıratın.
Qanadlı quşdur, at deyil,
Bir ildırımdır elə bil.
Yeri, yatağı, oynağı
Çənlibeldir Qıratın.
Çənlibeldir, (*2 dəfə*)
Çənlibeldir Qıratın.

Həsən xan

Aşıq, tərifini etdiyin Qırat,
Koroğludan bizə edilib sovqat.
Neçə gündür ki, at tolamda yatır,
Yeyir, içir və şıllaq atır, ha, ha, ha...

Koroğlu

Ola bilməz bu iş, sən aldanmısan,
Ayrı düşməz Qırat çün Koroğludan.

Həsən xan

Polad, Qıratı get çıxar toladan,
Onda görək, kimdir adam aldadan?

Aldatmış olsa məni Həmzə,
Bəlkə, doğratdıraram onu tikə-tikə.

Ehsan paşa

Aşıq, bir şikəstə!

Koroğlu

Oxuram, baş üstə, baş üstə!

Çalır.

Nazlı yarım, vəslə çatdım,
Keçdi hicran günləri.
Aşiqəm mən, kuyi-dilbər,
Vəsli-canan istərəm.
Vəsli-canan, dərdi-hicran, (*2 dəfə*)
Zülfü reyhan, qəlbi viran,
Dil pərişan günləri.

II

Bir qanadsız bülbüləm mən,
Dərdə düşmüş sünbüləm.
Aşiqəm mən, kuyi-dilbər,
Vəsli-canan istərəm,
Vəsli-canan, vəsli-canan,
Dərdi-hicran, vəsli canan,
Zülfü reyhan, qəlbi viran,
Dil pərişan günləri.

Xor

Yaxşı, yaxşı, bağla qolların.
Möhkəm örtün qaçmaq yolların.
Hər nə var silahını alın,

Xəncərinin gordasın salın.
Alın onun bütün malın.
Yanında beş nəfər qalın.

Həsən xan

Axtarırdım səni göydə, yerdə düşdün əlimə.
Əmr edərəm doğrasınlar səni dilim-dilimə.
Səfil rəiyyət, rəzil kəndli,
Yox eylərəm sizi, qırram,
Bu kimi xain əgər min olsa,
Minin də boynunu vurram.
Koroğlu, Koroğlu, Koroğlu, } (*2 dəfə*)
Ha, ha, ha...
Onu sən bil ki, mən məmləkətin xanıyam,
Mənə kəc baxsa gər, kəndlinin düşmanıyam.
Verə bilməz mənim keyfimə heç bir məlal,
Nə Koroğlu, nə Koroğlu, nə şil oğlu, nə lal.
Axtarırdım səni göydə, yerdə düşdün əlimə,
Əmr edərəm doğrasınlar səni dilim-dilimə.

Əyanlar

Afərin, Həmzə bəy!
Sözlərin doğru çıxdı, afərin!
Rədd olar, məhv olar, bir kərə
Başımızdan bu bəla.

Həsən xan

Nigarı verdim sənə mən,
Həmzə, Nigar sənindir, al,
Halal malındır.
Nigar gözəldir, ədası qəmzə,
Nigar sənindir,
Al, o yar sənindir.

Hamı

Nigar gözəldir, ədası qəmzə,
Nigar sənindir, al,
Nigar sənindir, al.
Sevgili, nazlı dilbərim,
Gəlsin Nigar, tez gəlsin Nigar,
Tez gəlsin Nigar.

Nigar

Ax... bu nə müsibət!

Koroğlu

Elədin xəyanət!

Həsən xan

Nigar, Həmzə bəyin göstərdiyi şanlı rəşadət,
Bizi şad eylədi, verdi sənə fəxri səadət.

Təlxək (*daxil olur*)

Nay, nay, nay!..
Mən demədim bəsdir ona bir nəfər?!
Getsə kifayətdir Ömər, ya Səfər;
Mən deyən oldu yenə də müxtəsər,
Bəxtəvərəm, bəxtəvərəm, bəxtəvər.
İstədilər göndərələr üstünə on min pələng,
Mənsə dedim bəsdir ona getsə keçəl Həmzə bəy.

Fərraş

Xan sağ olsun!
Mahaldan gətirdilər bir nəfər,
Bizlərdən Koroğluya aparırmış xəbərlər.

Həsən xan

Kim göndərirmiş onu?

Fərraş

Əsla deməz, gizlədir,
Nə qədər versən əzab,
Ölsə də dinmir, demir.

Nigar

Ah!..

Həsən xan

Səni kim göndərib, de görüm, alçaq?!

Eyvaz

Vurun, öldürün, demərəm ancaq.

Həsən xan

Cəlladı çağırın.

Nigar

Qoyun mən deyim,
Kimin göndərdiyin sizə söyləyim.

Həsən xan

Kim imiş göndərən?

Nigar

Göndərən mənəm.
Bunu anlayın, mən sizə düşmənəm!

Hamı

Belə bəs, belə bəs, belə, belə!..

Nigar

Bir görün, mən sizə nə deyəcəyəm hələ.
Bir yığın zülmkar, bir yığın cəllad,
Təsir etməz sizə bu qədər fəryad, (*2 dəfə*)
Sərxoş etmiş sizi zülmün nəşəsi.
Narahat eyləməz məzlum naləsi. (*2 dəfə*)
Bir gün gələcəkdir intiqam günü,
Kəsəcək zalimin başının üstünü.
Bu gün əzilənlər əzər sizləri,
Xan zülmündən qurtararlar bizləri,
Qurtararlar bizləri!

Əyanlar

Rədd edilsin, məhv edilsin, öldürülsün xainə,
Qoy cəza görsün, xəyanət eyləmişdir xaninə!

Həmzə

Ax! Qəlbimdəki məhəbbət
Döndü, oldu bir nifrət ol xainə!

Əyanlar

Ay tutun, qoymayın! (*5 dəfə*)

Həsən xan

Ay tutun, qoymayın, tez Koroğlunu,
Tez tutun, qoymayın, öldürün onu!

Xor

Ay tutun, qoymayın! (*5 dəfə*)
Ay tutun, qoymayın, tez Koroğlunu,
Tez tutun, qoymayın, öldürün onu!

İbrahim xan

Xan sağ olsun! Polad verdi Qıratı
Mindirib Koroğlunu, tez qaçırtdı.

Həsən xan

Bu üç xainin də kəsilsin başı!

Hamı

Cəzaya verilsin qohumu, qardaşı!

Nigar
Polad
Eyvaz } – Koroğlu sağ olsun!

PƏRDƏ

BEŞİNCİ PƏRDƏ

Birinci carçı

Ya əyuhənnas! Ya əyuhənnas!
Bu gün meydanda kəsilir üç baş!

İkinci carçı

Ya əyuhənnas! Ya əyuhənnas!
Bu gün meydanda kəsilir üç baş!

Üçüncü carçı

Ya əyuhənnas! Ya əyuhənnas!
Bu gün meydanda kəsilir üç baş!

Xor

Gündə-gündə baş kəsilməz,
Xanlar qandan doya bilməz!
Rədd olsun, batsın zalım xan!
Rədd olsun bəy, rədd olsun xan!
Rədd olsun bəy, rədd olsun xan!

Əyanlar

Olsa xain xana hər kəs –
Ya ölüm var, ya da məhbəs.
Məhv edilsinlər.

Xor

Gündə bir baş, gündə bir qan,
Qatil insan, zalım insanlar.
Rəiyyət təngə gəldi,
Məhv edildi, talan edildi.

Əyanlar

Olsa xain xana hər kəs –
Ya ölüm var, ya da məhbəs.
Bir də sizdən çıxmasın səs,
Oğru bidinlər!

Xor

Gündə bir baş, gündə bir qan,
Qatil insan, vəhşi insan.
Bu rəiyyət təngə gəldi,
Məhv edildi, talan edildi.

Əyanlar

Gətirin o məlunları,
Vurulsun boyunları!
Qəzəbdir tutan onları, cəzalansınlar!

Xor

Gəl rəhm et, ey xan, bu cavanlara,
Rəhm et bunlara, öldürmə!
Gəl rəhm et, ey xan, sən rəhm eylə,
Gəl rəhm et bunlara, öldürmə!
(2 dəfə)

Əyanlar

Etsə hər kəs xana üsyan,
Məhv edilsin, vəssalam!

Xor

Bir gün olsun kütlə coşsun,
Sizdən alsın intiqam.

Ehsan paşa

Bu gündən bircə insan
Xana qarşı etsə üsyan,
Ya ölüm var, ya da zindan!
Əfv edilməz xain insan!
Verməriz biz bir də fürsət
Çıxsın üsyanlar,
Xəyanətpərvər insanlar,
Bu yolsuz, oğru nadanlar,
Bu cahil, bu qudurğanlar,
Kəsilsin, məhv olunsunlar!
Xəyanət çıxsa bir kəsdən,
Əlindən, ya dilindən,
Məhv edilsin, məhv edilsin, məhv edilsinlər!

Əyanlar

Etsə hər kəs xana üsyan,
Məhv edilsin, vəssalam!

Xor

Bir gün olsun, kütlə coşsun,
Sizdən alsın intiqam.

İbrahim xan

Bu gündən bircə insan
Xana qarşı etsə üsyan
Ya ölüm var, ya da zindan!
Əfv edilməz xain insan!
Verməriz biz bir də fürsət
Çıxsın üsyanlar,
Xəyanətpərvər insanlar,
Bu yolsuz, oğru nadanlar,
Bu cahil, bu qudurğanlar,
Kəsilsin, məhv olunsunlar!
Xəyanət çıxsa bir kəsdən,
Əlindən, ya dilindən,
Məhv edilsin, məhv edilsin, məhv edilsinlər!

Əyanlar

Olsa xain xana hər kəs –
Ya ölüm var, ya da məhbəs, məhv edilsinlər!

Xor

Gündə bir baş, gündə bir qan!

Həsən xan

Etməsinlər bir də üsyan!

Xor

Bu rəiyyət təngə gəldi,
Məhv edildi, talan oldu.

Zalım, zalım, qatil xanlar,
Vəhşi xanlar, qanlı xanlar!

Həsən xan

Sənə mən əmr edirəm, İbrahim xan,
Bu saatda gərək boşalsın meydan!
Gedib camaatı qovun hər nə var,
Düzəltsin qoşunlar poladdan hasar!
Divani-ədalət qurulsun bu gün!
Boynu vurulsun xainlərin bu gün!
Əvvəlcə Nigarın başı kəsilsin,
Xanın ədalətin aləm bilsin!

Xor

Zalım, zalım, zalım, qatil xanlar,
Vəhşi xanlar, qanlı xanlar!

İbrahim xan

Cəllad başı, tez ol, hökmü et icra,
Ən əvvəl bu işi Nigardan başla!

Qızlar xoru

Ax... yazıq, bədbəxt Nigar!
Nigar, Nigar, Nigar!
Onu apardılar başını kəsməyə!
Afərin! Afərin!
Öldür, öldür, öldür, öldür,
Qoy düşmən ölsün, qoy düşmən ölsün!
Ölsün, ölsün, ölsün, ölsün, ölsün!

Xor

Zəfər bizimdir, Nigarı etdin xilas!

Koroğlu

Sevimlim, sevgilim, ayrı düşdün məndən,
Ax, Nigarım, gülüzarım,
Qanlı düşmən eylədi qəsd,
İntiqamın alsın səndən,
Uçmuşam quş kimi, özümü yetirdim.

Nigar

Bu xalqı sən eylədin azad, azad,
Xalqa sən olmusan ən əziz qəhrəman, qəhrəman!

Koroğlu

Məni yaşatdı, məni böyütdü
Bu qəhrəman xalqım mənim! Yaşa!..


(Rəqs)

Xor

Nə şənli, şənli bayram,
Nə şənli əyyam, yaşa, yaşa!..
Koroğlu qəhrəman, qəhrəman!

SON





ƏR VƏ ARVAD

Üç pərdəli operetta

İŞTİRAK EDİRLƏR

Kərbəlayı Qubad – 40 yaşında
Kərbəlayı Qubadın kənddəki qoca arvadı
Mərcan bəy – cavan
Minnət xanım – onun arvadı
Gülpəri – qulluqçu
Səfi – nökər
Qeyri nökərlər, tarzən, xanəndə, xor və qeyriləri

BİRİNCİ PƏRDƏ

Vaqe olur Mərcan bəyin otağında; otaq Avropa qaydasında düzəlmişdir. Musiqi çalınır. Mərcan bəy tək; pərdə qalxır.

Mərcan bəy.

Mən bir kişiyəm, düşmüşəm arvadın əlinə, (*2 dəfə*)
Əldən qoya gər dolayacaq məni dilinə, (*2 dəfə*)
Bəs mən nə edim kim, qurtarım böylə bəladan;
Təxlisi-giriban eləyim cövri-çəfadan. (*2 dəfə*)

(Musiqi)

Allah səni vursun, belə arvad, belə arvad! (*2 dəfə*)
Kim etdi səni mən fəqirə tuş, a bədzad? (*2 dəfə*)
Saldı çatını dar boğazıma, məni boğdu,
Eylədi mənim zəhmətimi on dəfə min qat. (*2 dəfə*)

(Musiqi)

Nəzr eyləmişəm, iş düşə arvadı boşayam, (*2 dəfə*)
Çünki başqa əlacı yoxdur, boşamasam çatlaram.
Heç bilmirəm, amma, nə kələk mən gəlim ona, (*2 dəfə*)
Tərs kimi, kəbin pulu da beş min manat yazılıb.
Bəs mən nə edim kim, həmi arvadı boşayım,
Həm də kəbin pulu cibimdə qalsın,
Həm də yenə bir arvad alım, sözümə baxsın. (*2 dəfə*)

Minnət xanım (*tələsik daxil olur*). Bu saat mənə de görüm, udmusan, yoxsa uduzmusan?.. Tez ol!

Mərcan bəy (*özünü itirib*). Udmuşam! Yox... Belə uduzmuşam! Yox, mən qumar oynamamışam ki, udam, ya uduzam, əvvəla. İkiminciyə qalan yerdə, çox da udmuşam, ya çox da uduzmuşam, sənə nə?

Minnət xanım (*qeyzlə*). Mənə nə? Mənə nə?..

Mərcan bəy (*lap özünü itirir*). Məsələn deyirəm!

Minnət xanım. Çıxart bu saat cibindəki pulları mənə ver!

Mərcan bəy. Əcəb ekspropriatorsan, "руки вверх!"

Minnət xanım. Tez ol, işim var!

Mərcan bəy. İşin var, get işinə! Ancaq məndən əl götür. Cibimdə beş-altı şahı var, o da özümə lazımdır. Bu gün müsəlman qəzetəsi alıb oxuyaçağam. Daha bundan sonra mən millətpərəst olmuşam.

Minnət xanım. Bura ver pulu! Mən özüm aldıraram, oxuyarsan.

Mərcan bəy. Minnət! Sənin bu cürə hərəkətin çox pis hərəkətlərin birisidir. Heç bilirsən bu cürə hərəkətlərin adına rusca nə deyirlər? Bu hərəkətlərə deyirlər: вмешателство во внутренние дела, yəni mənim öz məxsusi işimə sən qarışırsan. Qoymursan ki, mən öz işimi özüm görüm. Canım, mən səni aldım ki, mənə arvad olasan, nəinki üstümdə qəyyum! Mənə qəyyum lazım deyil. Allaha şükür, həddi-büluğa çatmışam, ağlım başımdadır. Özüm də çamaat arasında sayılan bir kişiyəm; belə olan surətdə sənin nə haqqın var ki, mənim cibimə girəsən?

Minnət xanım. İndi beləmi, Mərcan?! Beləmi? Çox əcəb! Zərər yoxdur. Bir də sən məndən pul istəsən, onda özün bil! Xudahafiz!

(Tez gedir.)

Mərcan bəy. De görüm, ay çamaat! Tutubdur ki, gərək ciblərini soyam. Bu nə kələk idi mən özümü saldım, ay çamaat!.. Bu nə kələk idi? Pulun ola, malın ola, amma arvad sənə göz verə, işıq verməyə?

(Musiqi)

Nəzr eyləmişəm, iş düşə arvadı boşayam, (*2 dəfə*)
Çünki başqa əlacı yoxdur, boşamasam, çatlaram.
Heç bilmirəm, amma, nə kələk mən gəlim ona, (*2 dəfə*)
Tərs kimi, kəbin pulu da beş min manat yazılıb.
Bəs mən nə edim kim, həmi arvadı boşayım,
Həm də kəbin pulu cibimdə qalsın.
Həm də yenə bir arvad alım, sözümə baxsın. (*2 dəfə*)

Musiqi: tarda şur çalınır, Kərbəlayı Qubad daxil olur.

Kərbəlayı Qubad. Səlamünəleyküm.

Mərcan bəy. Ay əleyküməssalam.

Kərbəlayı Qubad. Ağanın kefi-əhvalı necədir?

Mərcan bəy. Sağ olasan, Kərbəlayı, çox yaxşıdır. (*Kənara*) Başıma bir yaxşı fikir gəlibdir, görum mənim arvadımı bu kişi ala bilərmi?

(Musiqi)

Mərcan bəy. Kəblə Qubad, gəl bəri!

Kərbəlayı Qubad. Baş üstə, baş üstə.

Mərcan bəy. Bir qulaq ver sən mənə!

Kərbəlayı Qubad. Baş üstə, baş üstə.

Mərcan bəy. Mən sənə söz söyləyim.

Kərbəlayı Qubad. Sən buyur, sən buyur.

Mərcan bəy diqqətlə Kərbəlayı Qubadın üzünə baxır.

Mərcan bəy. Mənə bir söylə görüm, Kərbəlayı Qubad, Qubad, neçə danə arvadın var, ay neçə danə arvadın var? Tez söylə görum!

Kərbəlayı Qubad. Bir danə!

Mərcan bəy. Tək bircə danə?

Kərbəlayı Qubad. Bir danə.

Mərcan bəy. Bəs necəsən, Kablayı, sən?
Bəs necəsən, Kablayı, sən!
İstəyirsənmi cənə bir danə arvad alım, ay!
Özü dövlətli ola!

Kərbəlayı Qubad. Özü dövlətli ola?..

Mərcan bəy. Yaxşı pulu var, dövləti var!

Kərbəlayı Qubad. Yaxşı pulu var, dövləti var?
Al, sənə mən qurban olum. (*2 dəfə*)

Mərcan bəy. Kərbəlayı Qubad! Sən özün bilirsən ki, bir arvad ilə kişinin ömrü keçməyir; ona görə kişiyə heç olmasa iki danə arvad lazımdır. Belədir, belə deyil?..

Kərbəlayı Qubad. Doğrudan da, mənim də ağlım kəsir ki, iki arvad salahdır. Əlbəttə, kişinin hər bir ləvazimatı iki olsa dəxi yaxşı olar. Buna kimin bir sözü ola bilər.

Mərcan bəy. Yox, məndən sənə əmanət! Arvadını həmişə iki saxla, kişi olan şəxsin arvadı gərək qoşa ola və "Molla Nəsrəddin" jurnalı əbəs yerə bu barədə danışmır.

Kərbəlayı Qubad. Belə görürəm ki, bəy, fərmayişatın hamısı doğrudur. Məsələn, mənim, üzüm ayağının altına, eyb olmasın, bir danə arvadım var; özü də kənddə; deməli, mən şəhərdə lap tək qalmışam. Əlbəttə, əgər bir arvadım da şəhərdə olsa idi, heç halıma təfavüt eyləməzdi. Halbuki indi halıma bərk təfavüt eyləyir. Bəy, təvəqqə eyləyirəm ki, bu biədəb sözlərimi bağışlayasınız.

Mərcan bəy. Zərər yoxdur, doğru sözdür ki, danışırsan. İndi mən özüm də niyyət eyləmişəm ki, iki danə arvad alam, indi mən istəyirəm ki, əvvəlcə öz arvadımı boşayam; çünki mən bu arvadı heç istəmirəm.

Kərbəlayı Qubad. İstəmirsən, boşa! Daha nəyə məəttəlsən?

Mərcan bəy. Boşaram. Ancaq iş burasındadır ki, qabaqda axmaqlıq edib, kəbin pulunu beş min manat yazdırmışam.

Kərbəlayı Qubad. Əcəb sözdür, kəbin pulu nədir, zad nədir? Bir-iki dəfə üzünə baxma, inciyib onda özü deyər ki, kəbinim halal, canım azad.

Mərcan bəy. Vallah, onun özü məni o qədər incidib ki, az qalmışam özüm deyəm ki, kəbinim halal, canım azad, məndən əl çək. (*Bu əsnada qapıdan səs gəlir.*) Dur gedək o biri otağa, burada bizi pusarlar.

Gedirlər; Minnət xanım daxil olur.

Minnət xanım

Mənim adım Minnətdir;
Yerim burda cənnətdir.
Təzə ayı gördükdə
Mənə baxmaq sünnətdir. } (*2 dəfə*)
Gəl məni gör, dərdimdən öl!
Mənim adım Minnətdir;
Gəl məni gör, dərdimdən öl!
Yerim burda çənnətdir.

(Musiqi)

Sizə doğrusun deyim,
Ərimin başı yoxdur.
Ağlı yoxdur axmağın,
Qədrimi bilmir, bilmir. } (*2 dəfə*)
Gəl məni gör, dərdimdən öl!
Mənim adım Minnətdir;
Gəl məni gör, dərdimdən öl!
Yerim burda cənnətdir.

(Musiqi)

Belə fikri vardır kim,
Məni boşasın, özgəsin alsın.
Onu bilmir ki, axmaq,
Belə fikri müşküldür. } (*2 dəfə*)
Gəl məni gör, dərdimdən öl!
Mənim adım Minnətdir:
Gəl məni gör, dərdimdən öl!.
Yerim burda cənnətdir.

(Musiqi)

Mərcan bəy tez daxil olur.

Mərcan bəy

Bu nə səs-küydür burda?
Qonağım vardır orda.
Səsin düşüb hər yana,
Çığırırsan, ay... arvad!

Minnət xanım (*gedir o tərəfə*)

Əcəb eyləyirəm mən,
İstəmirsən, çıx get sən.
Qulağına pambıq tut,
Boynuna sal ağ kəfən. } (*2 dəfə*)
Gəl məni gör, dərdimdən öl!
Mənim adım Minnətdir;
Gəl məni gör, dərdimdən öl!
Yerim burda cənnətdir.

Mərcan bəy acıqlı-acıqlı çırtıq vurur.

Minnət xanım. İndi buyura bilərsən. Buyura bilərsən! (*Gədə-gədə*) Buyur, buyur, buyur!

Mərcan bəy. Tfu!..

Minnət xanım. Tfu!..

Mərcan bəy. Tfu!.. (*Gedir.*)

Minnət xanım. Tfu!.. (*Gedir.*)

Səfi (*daxil olur*). Tfu!.. Süpurək!

Mərcan bəy (*Kərbəlayı Qubad ilə daxil olurlar*). Tfu!.. Balam, gedək o biri otağa. (*Gedirlər.*)

Səfi. Bu canım ölsun ki, bularda bir kələk var; gedim görum nə danışırlar.

Gedir dallarınca. Minnət daxil olur və tez yüyürüb pərdənin dalında gizlənir.

Mərcan bəy (*daxil olur, dalınca Kərbəlayı Qubad əvvəlki qərar ilə*). Balam, orada olmadı, gəl yenə burada danışaq. İndi, Kərbəlayı, mən istəyirəm ki, arvadımı boşayam, ona görə də...

Səfi (*daxil olur*). Bəy, çay gətirim?

Mərcan bəy. Allahü-əkbər! (*Çığırır.*) Gədə, rədd ol! Bir də bu otağa girmə, xəlvət sözum var. (*Nökər gedir.*) Mənim arvadımın kəbin pulu beş min manat eləyir, əgər bu beş min manatı...

Səfi (*daxil olur*). Ağa, istəyirsiniz qapıları daldan bağlayım?

Mərcan bəy. Pa atannan, yeri, gədə yiyəsi! A gədə, qoçaq, mən səni çağırmayınca sən bu otağa girmə!

Səfi. Baş üstə, ağa (*Gedir.*)

Mərcan bəy (*qapılara qulaq asıb, sonra deyir*). İndi mən bilməyirəm kn, arvadımı nə tövr boşayım.

Kərbəlayı Qubad. Nə qayırım, arvad mənim olaydı, görəydin ki, nə tövr boşayırdım.

Mərcan bəy. Bu cürə arvadı sən də boşaya bilməzdin.

Kərbəlayı Qubad. Xeyr, boşayardım.

Mərcan bəy. Yaxşı, nə tövr edərsən?

Kərbəlayı Qubad. Onu mən bilirəm, sənə deməröm və bir də mən arvad almağın da yolunu bilirəm, boşamağın da, amma siz oxumuşlar o cürə şeyləri dürüst bilməzsiniz. Sizin bu curə səriştəniz olmaz.

Mərcan bəy. Yaxşı, sən heç ухаживать eləmisən ki, belə danışırsan?

Kərbəlayı Qubad. Eləmişəm, amma bilmirəm ki, ухаживать nədir, çünki urusca savadım yoxdur.

Mərcan bəy. Kərbəlayı Qubad, indi ki, sən belə mahir kişisən, gəl bir iş eyləyək.

Kərbəlayı Qubad. Nə iş?..

Mərcan bəy. Bax, əgər mən arvadımı boşasam, onda gərək beş min manat kəbin pulu verəm. Amma əgər sən bir iş görə bilsən ki, arvadım mənə deyə kəbinim halal, canım azad və məndən çıxıb gedə, onda sənə iki min manat nəqd pul verərəm. Anladınmı nə deyirəm?

Kərbəlayı Qubad. Nə üçün, heyvan ki deyiləm, yaxşı anlayıram.

Mərcan bəy. Bacararsanmı?

Kərbəlayı Qubad. Bacararam. Ancaq bunu bil ki, iki min manat çox azdır.

Mərcan bəy. Paho, nə danışırsan? İki min manat iyirmi danə yüzlük eləyir.

Kərbəlayı Qubad. Bəy, qorxuram zərər eyləyim, çünki kənddəki arvadım çox bədzat şeydir, sən gəl beş yuz manat da artır.

Mərcan bəy. Zərər yoxdur, iki min beş yuz manat olsun!

Kərbəlayı Qubad. Allah sənə ömür versin, indi, bəy, olmazmı ki, bu işi notarius əli ilə eyliyək?

Mərcan bəy. Yaxşı, o da mumkündür. Gedək notariusun yanına; ancaq de görüm nə tövr edəcəksən?

Kərbəlayı Qubad. Sən bir iş eylə ki, mən bu otaqda arvad ilə bir dəfə görüşüm, vəssalam. Ondan sonra sənin işin yoxdur.

Mərcan bəy. Elə bu?..

Kərbəlayı Qubad. Elə bu, vəssalam.

Mərcan bəy. Di onda gedək. (*Gedirlər.*)

Minnət xanım (*pərdənin dalından çıxır*). Bəs belə, Mərcan, bəs belə; məni iki min beş yüz manata satmaq istəyirsən? Ha... ha... ha... Bəs belə, Mərcan! Məni iki min beş yüz manata satmaq istəyirsən? İndi görək kim bədzatdır; sən, yoxsa mən? (*Çağırır.*) Səfi! Səfi!

Səfi (*daxil olur*). Nə buyurursan, xanım?

Minnət xanım. Gülpərini tez buraya çağır.

Nökər gedir. Musiqi.

Gülpəri (*daxil olur*)

Nədir dərdin sənin, xanım? (*2 dəfə*)
Sənə nə olub, sənə nə olub,
Cənə nə olub, kefsizsən? } (*2 dəfə*)

(Musiqi)

Minnət xanım

Mənim dərdim var, Gülpəri!
Sənə söyləyim dərdimi;
Ona sən bir əlac eylə (*2 dəfə*)
Mənim dərdimin dərmanı
Ərimi aldatmaqlıqdır.
Mənə nə olub, mənə nə olub,
Mənə nə olub, bildinmi? } (*2 dəfə*)

Gülpəri, mənim ərim istəyir ki, məni iki min beş yüz manata satsın.

Gülpəri. Buy, Allah o cürə ərin başına bir daş salsın!

Minnət xanım. Qarğış eləmə. Təqsir ərimdə deyil.

Gülpəri. Bəs kimdədir?

Minnət xanım. Təqsir ərimin başındadır ki, içində beyin yoxdur.

Gülpəri. Bəs mən də deyirəm ki, başına daş salsın, özünə ki, demirəm.

Minnət xanım – Bax, Gülpəri, sabah bura bir kişi gələcəkdir. Onda sən üzünü bərk-bərk tutub və burada otur; o kişi başlayacaq səni tovlamağa və deyəcəkdir ki, gəl səni alım, onda sən də deginən yaxşı.

Ancaq gərək ərimdəm boşanam sonra... O kişi sənə hər nə desə razı ol, bacararsanmı?

Gülpəri. Elə bacararam! Hanı o bəxtəvər kişi, gəlsin görək.

Minnət xanım. Sabah gələcəkdir. Sən bu saat mənə bir qədər kağız ilə mürəkkəb və qələm gətir.

Gülpəri. Bu saat. (*Gətirir.*)

Minnət xanım. İndi mən ərimin axmaq başına bir oyun açım ki, özü də məəttəl qalsın.

Gülpəri. Buyur. (*Kağız, qələm verir.*)

Minnət xanım. Mən kağız yazıram. (*Yazır.*) İndi, Gülpəri, sən get nökərlərin, qulluqçuların hamısını buraya çağır, gəlsinlər.

Gülpəri. Bu saat. (*Gedir.*)

Minnət xanım. İndi qoy bu kağızı Mərcan bəy oxusun, onsuz da dəli başı lap dəli olsun.

Bu əsnada nökərlər, qulluqçular bir-birini basa-basa daxil olurlar. Yoğun aşpaz əlində kəfkir, qolları çirməkli; mehtər əlində xəlbir, üzü samanlı; birinin əlində süpürgə, suçiləyən və Gülpəri də gəlirlər.

Minnət xanım. Ay uşaqlar, bilirsiniz nə var?

Hamı. Xeyr, xanım, bilmirik.

Minnət xanım. Mənim ərim məni satmaq istəyir.

Hamı. Yox, belə iş ola bilməz; bu nə hərəkətdir, by nə bədnamçılıqdır.

Minnət xanım. Amma... (*Hamı sakit*) Mən bir elə iş görəcəyəm ki, məni sata bilməyəcəkdir.

Hamı (*sevinclə*). Ha, bu yaxşıdır.

Minnət xanım. Amma... (*Hamı sakit*) Siz gərək mən deyən sözlərə, mən elədiyim işlərə dürüst diqqət edəsiniz. (*Onlar dim-dik dururlar.*) Və ərimə heç bir söz deməyəsiniz. (*Onlar düz dururlar.*) Əyər biriniz demiş olsa, vay onun halına! (*Hamı tez aşağı oturub qalır.*) Əyər mən deyənə qulaq assanız, hərənizə on manat pul bağışlayacağam. (*Hamı sevincək ayağa qalxır.*)

Hamı. Sağ ol, xanım, sağ ol!

Minnət xanım. Gülpəri, bayaqkı sözlər yadından çıxmasın. Səfi! Buraya gəl, bu kağızı al, Mərcan bəy gələndə ona verib deyərsən ki, bir nəfər qulluqçu arvad gətirdi və başqa heç bir söz demə!

Səfi. Heç bir söz!

(Musiqi)

Minnət xanım

İnsaf eyləyin, bir baxın mənə!
Mərcan eyləyir çox zəbun məni! } (*2 dəfə*)

Xor

Ay xanım, xanım, siz qəm etməyin,
Peşiman olacaq Mərcanın sənin. } (*2 dəfə*)
Ağzı bir çuval, boynu şam piyi,
Başı gərmək, burnu yelpənək;
Əbləhin biri Kərbəlayı Qubad
İstəyir gələ xanıma kələk.
Ay xanım, xanım, siz qəm etməyin,
Peşiman olacaq Mərcanın sənin. } (*2 dəfə*)

(Musiqi)

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Vaqe olur həmin otaqda. Pərdədən qabaq musiqi çalınır; sonra pərdə qalxır. Səfi tək.

(*Musiqi*)

Səfi

Bədnam oldun, Mərcan, bala-bala
Camaatın içində. } (*2 dəfə*)

Ha, ha! Ha, ha! Ha, ha!..
Bədnam oldun, Mərcan, bala-bala } (*2 dəfə*)
Camaatın içində.

Xor.

Ha, ha! Ha, ha! Ha, ha, ha!..
Bədnam oldun, Mərcan, bala-bala. } (*2 dəfə*)

Camaatın içində.

Səfi

Qıldı nəfsin tuğyan, bala-bala,
Arvad ilə savaşdın.
Bir tövr qıldı şeytan, bala-bala,
Başdan dibə dolaşdın.
Ha, ha, ha!.. Ha, ha, ha!..
Bədnam oldun, Mərcan, bala-bala
Camaatın içində.

Qapı döyülür. Hamı qaçır, tək bir Səfi qalıb, qapını açır, əlində süpürgə. Mərcan bəy daxil olur, dalınca Kərbəlayı Qubad.

Mərcan bəy. Kərbəlayı, sən hələ qapıda gözlə; sonra mən səni çağıranda gələrsən.

Səfi. Ağa, sənə bir kağız var, buyurun!

Mərcan bəy. Nə kağızdır, kim verdi?

Səfi. Dünən bir qulluqçu qız bunu gətirdi.

Mərcan bəy. Kimin qulluqçusu idi?

Səfi. Bilmirəm. (*Gedir.*)

Mərcan bəy (*kağızı oxuyur*). "Ey mənim ruhi-rəvanım Mərcan bəy. Bir dəfə səni gördüm, aşiq oldum. İkinci dəfə gördüm, dəli oldum. Üçüncu dəfə gördüm, tab gətirə bilmədim və bu kağızı sənə yazdım. Əyər sən mənə iltifat edib məni almasan və məni özünə arvad etməsən dəli-divanə olub, çöllərə düşəcəyəm. Ah-naləm səni tutacaq. Mən iyirmi üç yaşında bir nazəninəm ki, dərdimdən ölənlər çoxdur; amma mən də sənin dərdindən ölürəm. Əgər məni alsan, iki yüz min manatlıq malımı da sənə qurban edərəm. Məni görmək istəsən, sabah saat altıda gəlib, qapınızı təqqülbab edərəm... Sənə aşiq bir nazənin". (*Məbhut*) Görəsən bu yuxudur, yoxsa gerçəkdir? Yox-yox, bu, yuxudur... Mən yuxu görürəm... Səfi! Səfi! (*Çağırır.*)

Səfi (*daxil olur*). Nə buyurursan, ağa?

Mərcan bəy. Səfi! Mən yatmışam, yoxsa oyağam?

Səfi. Allaha şükür, oyaqsan.

Mərcan bəy. Bərəkallah, Səfi! Bu kağızı sənə kim verdi?

Səfi. Bir qulluqçu.

Mərcan bəy. Kimin qulluqçusu idi?

Səfi. Bilmirəm.

Mərcan bəy. Nə dedi?

Səfi. Dedi bu kağızı Mərcan bəyə ver.

Mərcan bəy. Yaxşı, get. (*Səfi gedir. Mərcan kağızı öpüb, qoyur gözlərinin üstünə.*) Oxxay! A bu kağızı yazan əllər, a bu kağızı yazan əllərin sahibi! Sən ki mənim dərdimdən dəlisən, mən də sənin dərdindən dəli olacağam. (*Ağlamsınır.*) Ox, aşiq oldum, dəli oldum. Yox-yox, bu eşq məni öldürər. Mənim eşq bəlasına bir o qədər tabım yoxdur. Doğrudan da ki: məhəbbət bir bəla şeydir, giriftar olmayan bilməz. Ey iyirmi üç yaşında nazənin! Sən iki yüz min manatını mənə qurban edirsənsə, mən də əlli min manatı sənə qurban edirəm və bir canımı da üstündə verirəm. (*Bərkdən*) Yox-yox, rədd olsun Minnət! Mən gərək onu bu gün boşayam, mən aşiqəm, aşiq!

Qəzayi-eşqi ta gördüm, səlahi-əqldən durəm.
Məni rüsva görüb, eyb etmə, ey naseh ki, məzurəm.

Kərbəlayı Qubad! Kərbəlayı Qubad! (*Kərbəlayı Qubad daxil olur.*) Başına dönüm, axı mən aşiq olmuşam. Cən allah, bu işi bu gün qurtar. Məni Minnətin üzündən xilas eylə, Allah atana rəhmət eyləsin. Zərər yoxdur, sənə iki min beş yüz əvəzinə, üç min manat verərəm. Mən aşiq olmuşam... Mənə aşiq... Mənə aşiq olublar... Mən də aşiqəm... Eşq vurub başıma. Oy, ürəyim xarab olur. Nə şirin şeydir bu eşq... Oy, bitab oldum. (*Yıxılır səndəlin üstə, ürəyi bitab olan tək olur.*)

Kərbəlayı Qubad. Ağa, ağa Mərcan bəy! Ağa Mərcan bəy, ay ağa!

Mərcan bəy (*gözünü açır*). Hə!.

Kərbəlayı Qubad. Ağa! Olmazmı o beş yüz manatı bu saat mənə verəsən! Çünki o, notariusda yazılmayıbdır. Əgər arvadı bu gün tovladım, tovladım; tovlamadım, onda beş yüz manatı gətirib verərəm özünə.

Mərcan bəy. Yaxşı, bir hovur verərəm. Ürəyim xarab oldu, aşiq olmuşam. Ey iyirmi üç yaşında nazənin! (*Bitab olur. Sonra birdən ayağa durub kağızı cibindən çıxardır.*) Ay kişi, kağızda da yazıbdır ki, sabah caat altıda gələcəyəm... Kağız dünən yazılıbdır, deməli, bu gün gələcəkdir. Hurra!. Bu gün gələcəkdir. İndi saat neçədir? (*Saata baxır.*) Saat ikidir, hələ dörd saat var. De bircə, Kərbəlayı, sən tez ol, işini gör.

Kərbəlayı Qubad. Mən hazıram, ancaq arvad gəlsə başlarıq.

Mərcan bəy. Aha, çox yaxşı, sən get qapıda dur, sonra çağırram. (*Qubad gedir.*) Səfi! Səfi! (*Səfi daxil olur.*) Get, Minnət xanımı buraya

çağır. (*Səfi gedir.*) Yox, bu kağız mənə cürət verdi. Mən ona açıq-açığına deyəcəyəm ki, səni boşayıram, daha sənin lə bir yerdə ola bilmərəm.

Minnət xanım (*daxil olur*). Buyurun! Nə deyirsən! (*Gülümsünür.*)

Mərcan bəy. Minnət. (*Kənara*) Cürətim gəlməyir, gözümü bərk qorxuzub. (*Ona*) Minnət... Ey! (*Kənara*) Lap arvada dönmüşəm (*Ona*) Ağız, Minnət!.. Çörək yeyibsən?

Minnət xanım. Yemişəm! Nə eyləyirsən?

Mərcan bəy. Sözün doğrusu, daha bundan sonra mən sənin lə bir yerdə... çörək yeyəcəyəm. (*Kənara*) Tfu mənim üzümə; görün mən nə deyirəm, ay camaat!..

Minnnət xanım. Daha niyə acıqlanırsan?

Mərcan bəy. Çünki (*kağıza baxır*) acığımı sən tutdurursan, sən! Bütün təqsir səndədir. Ona görə bir də mən sənin lə dolana bilmərəm, gərək səni boşayam. (*Kənara*) Allah, sənə şükür, dedim.

Minnət xanım. Aha! Deməli, çörək bəhanə imiş! Sən məni boşamaq istəyirsən! Çox əcəb! Mən də namərd qızıyam, əgər bir dəqiqə sənin evində qalsam. Boşa məni!

Mərcan bəy (*kənara*). Nə yaxşı razı oldu! (*Ona*) Əlbəttə boşayacağam, təvəqqə edirəm ki, bu gün mənim evimdən çıxasan.

Mərcan bəy gedir. Minnət xanım tez gedib Gülpərini çağırıb evdə oturdur, özü də pərdənin dalına girir.

Minnət xanım. Gülpəri, dünən dediyim sözləri unutma, mən deyən kimi əməl eylə! (*Gizlənir.*)

Gülpəri. Arxayın ol! (*Üzün bərk tutub oturur*).

Kərbəlayı Qubad (*daxil olur*). Öhö!.. Öhö!.. (*Öskürür, sükut*) Bu gün hava çox istidir. (*Sükut*) Görəsən bu evlərin hamısı Mərcan bəyindir? (*Bir qədər çırtıq vurur.*)

(Musiqi)

Ay xanım, xanım, dərdin alım,
Bəs məni neylərsən, vəsməni neylərsən?..

(Musiqi)

Qaşın qara, gözün qara,
Bəş məni neylərsən, vəsməni neylərsən?

Gülpəri. Buy, a kişi, dəli deyilsən ki, Allah, aman, kişi elə bil ki, qızıbdır.

Kərbəlayı Qubad. Xanım, bir de görüm, səni görən adam da qızmazmı? Vallah, bu saat sənin dərdindən qızmış dəvəyə dönmüşəm, inanmırsan: lok, lok, lok, lok. (*Arvadın yanından keçəndə xoruz kimi qanad sallayır.*)

Gülpəri. Ay kişi, xoruz deyilsən ki, mənə qanad sallayırsan!

Kərbəlayı Qubad. Vallah, sənin dərdindən bu saat xoruz olmuşam, inanmırsan: quqqulu qu...

Gülpəri. Mənim ərim var, vallah, bilsə səni öldürər.

Kərbəlayı Qubad (*kənara*). Yazıq, daha bunu bilmir ki, əri mənə əli ilə üç min manat pul verir.

Gülpəri. Nə deyirsən?..

Kərbəlayı Qubad. Sənə Kərbəlayı qurban! Deyirəm ki, ərindən boşan, gəl mən səni alım, gül kimi saxlayım, bül-bül kimi saxlayım.

Gülpəri. Bəlkə ərim razı olmadı?!

Kərbəlayı Qubad. Neçün razı olmur? De ki, kəbinim halal, canım azad. Onda hansı ər olsa razı olar.

Gülpəri. Doğrusu, mən özüm də ərimdən incimişəm.

Kərbəlayı Qubad. Axı sənin ərin nə adamdır ki, sənin qədrini bilsin. Sənin qədrini bu qara lələşin bilər! Vallah, səni mən tükcə incitmərəm! Razısanmı? Nənəm sənə qurban! (*Sükut*) Razısanmı? Canım sənə qurban! (*Sükut*) Aha! Fars deyər ki: "Sükut əlaməti-rizast". Görünür ki, razısan. Elə deyilmi? Gözümün ağı gözünün qarasına qurban!

Gülpəri. Razıyam.

Kərbəlayı Qubad. Vəssəlam. Bax, sən bu güncə talağını ərindən al; sonra bir üç ay on gün gözlə iddən çıxsın; ondan sonra gedək evimizə.

Gülpəri. Yaxşı, sən get, mən bu gün kağızımı alaram. Səlamət qal. (*Gülpəri gedir.*)

Kərbəlayı Qubad. Səlamət qal, canım sənə qurban! Səlamət qal. (*Papağını çıxarır.*) Paho! Lap tərlədim. Amma, vallah, bərəkallah mənə. Sözün doğrusu, indi mən arvad alış-verişində yaxşıca dəllal ola bilərəm. Mən heç özümü belə bilmirdim.

Mərcan bəy (*daxil olur*). Nə tövr oldu?

Kərbəlayı Qubad. Çoxdan!..

Mərcan bəy. Nə çoxdan?

Kərbəlayı Qubad. Çoxdan!..

Mərcan bəy. Ay kişi, tez de görüm nə oldu?

Kərbəlayı Qubad. Nə olacaq? Razı oldu, qurtardı getdi.

Mərcan bəy. Ə kişi, nə deyirsən? Razı oldu?

Kərbəlayı Qubad. Əlbəttə oldu, oynaya-oynaya oldu.

Mərcan bəy. Ə kişi, qəribə sən hünərlisən!

Kərbəlayı Qubad. Rəhmətlik oğlu, dəvə kimi nərildəmişəm, xoruz kimi banlamışam, qoç kimi mələmişəm, zarafat deyildir!

Mərcan bəy. Yəni dedi ərimdən boşanıb gələrəm?

Kərbəlayı Qubad. Bəli, bu gün səndən talaq alacaqdır.

Mərcan bəy. Ay bivəfa arvad!.. Hər halda, balam, Allah səndən razı olsun, mən ki səndən razıyam.

Kərbəlayı Qubad. Bəs pulu nə vaxt verəcəksən?

Mərcan bəy. Elə ki arvad sənin evinə gəldi, haman dəm yüyür gəl pulunu al!

Kərbəlayı Qubad. Çox gözəl.

Mərcan bəy. Yəni lap razı oldu?

Kərbəlayı Qubad. Səni aldatmıram ki, indi bir hovur arvad səndən talağını istəyəndə görərsən. İndi mən gedirəm, sabah işi lap təmizləyərik. İndi tələsiyirəm.

Mərcan bəy. Niyə tələsiyirsən?

Kərbəlayı Qubad. Gedirəm Sijimqulu bəyin yanına. Deyəsən, o da arvadından narazıdır, boşamaq istəyir.

Mərcan bəy. Çox əcəb! (*Kərbəlayı Qubadı yola salır.*)

Minnət xanım (*pərdənin dalından çıxır*). Qoçaq Gülpəri oyun oynadı, indi qaldım mən özüm. (*Mərcan bəy daxil olur. Acıqlı o yan-bu yana gəzir.*) Bu saat mənim talağımı ver!

Mərcan bəy (*kənara*). Kişi doğru deyirmiş. (*Ona*) Hə!.. Özgə ərə getmək istəyirsən?..

Minnət xanım. O sənin borcun deyil, bu saat mənim talağımı ver!

Mərcan bəy. Baş üstə, hazır olum, gedək talağa. (*Gedir.*)

Gülpəri daxil olur.

Minnət xanım. Ay Gülpəri, bərəkallah, çox yaxşı iş gördun. İndi mənim işim qalıbdır. Mən bu saat gedəcəyəm atam evinə, ancaq

bir hovur buraya gəlib, sonra yenə gedəcəyəm. Sən sabah mənim çarşabımı geyərsən və qapının ağzında gözlərsən, mən ərimdən talağ kağızımı alıb sənə verəcəyəm. Onu da yanında saxlarsan, sonra hər nə lazımdır mən sənə deyərəm.

Gülpəri. Baş üstə, xanım.

Minnət xanım. İndi get, ərim səni burada görməsin.

Gülpəri gedir.

Mərcan bəy (*daxil olur*). Gedək talağa.

Minnət xanım. Bu saat. (*Gedir.*)

Mərcan bəy (*fikirli*). Ay bivəfa arvad! Gör, sən Allah, məni qoyub Kərbəlayı Qubada gedir. Məni, məni ki, iyirmi üç yaşında bir nazənin dərdimdən ölür. (*Tələsik*) Aha, saat neçədir, o vaxta bir saat qalıbdır, zərər yoxdur, qurtardım Minnətin üzündən, qurtardım! Bir saatdan sonra bir nazənin sənəm gələcəkdir. O mənə aşiq, mən ona aşiq. Əlbəttə, insan gərək arvada əvvəlcə aşiq ola sonra ala, yoxsa görməz-bilməz alırıq, sonra da peşman olub qovuruq. (*Çağırır.*) Səfi! Səfi! (*Səfi gəlir.*) Xanım hazırdırmı?

Səfi. Bəli, hazırdır!

Mərcan bəy. Çox yaxşı. İndi sən bu otağı təmizcə süpür, bir saata qədər qurtar və sonra qapı döyülən kimi, gəl mənə xəbər ver. Mən də bu saat gəlirəm. (*Gedir.*)

Səfi. Baş üstə!

(Musiqi)

Elə ki, ər axmaqdır,
Onun payı toxmaqdır.
Dəyirman öz işində,
Baş ağrıdan çax-çaxdır. } (*2 dəfə*)

Ay Mərcan, vay Mərcan, gəl görüm nə gündəsən?!

(Musiqi)

Millətpərəst olmaqlıq,
Xalqın evin yıxmaqlıq –
İkisi də bir işdir,
O da, bu da – axmaqlıq! } (*2 dəfə*)

Ay Mərcan, vay Mərcan, gəl görüm nə gündəsən?!

Mərcan bəy gəlib keçir öz otağına. Qapı döyülür, Səfi qapını açır.

Minnət xanım yaxşı libasda daxil olur.

Səfi. Buy, xanım, heç sizi tanımadım!

Minnət xanım. Sus!.. (*Üzünü açır.*) Səfi! Get Mərcan bəyə söylə ki, bir nəfər arvad gəlib onu görmək istəyir. Ancaq mən olduğumu demə ha! Anlayırsan nə deyirəm?

Səfi. Arxayın ol, xanım, yaxşı anlayıram. (*Gedir.*)

Minnət xanım. Bu libasda o məni tanımaz, gərək bir qədər ehtiyatlı olam.

Səs gəlir, Minnət xanım bərk-bərk gizlənir.

Mərcan bəy (*titrəyə-titrəyə daxil olur*). A... a... Nazənin sənəm! Mənə kağız yazan sənsənmi?

Minnət xanım. Bəli, mənəm!

Mərcan bəy (*ağlamsınır*). Mən sənə aşiq olmuşam, dərdindən ölürəm, ya məni öldür, ya dirilt!

Minnət xanım. Xeyr, əvvəl mən sənə aşiq olmuşam. Mən səni əvvəl ibtidadə gördükdə qəlbimin içinə bir zərrəyi-eşq daxil olub, bəədə o zərrə mürur-zaman ilə tövsi edib, bir atəşi suznak oldu və fikrimi etraf-binnar etdi.

Mərcan bəy (*kənara*). Paho! Görünür, bu da qəzet oxuyanlardandır.

Minnət xanım. İndi gəlmişəm ki, görüm sən də məni sevirsənmi? Çünki sən məni görübsən.

Mərcan bəy. Ey nazənin sənəm! Mən səni görməmişdən sənə aşiqəm, ancaq urus demişkən: интересно знать, mən səni nərədə görmüşəm?

Minnət xanım. Bir gün sən at ilə gedirdin, mən də balkonda oturmuşdum, gilas yeyirdim; sən ötən zaman mən sənin başına bir danə gilas atdım, sən başını yuxarı qaldırıb məni gördün.

Mərcan bəy (*şadlığından bilmir nə qayırsın*). Vay, dədəm vay! Sən o nazəninsən? Yəni mən bu qədər xoşbəxt olmuşam! Yox, yox!.. Mən bu qədər xoşbəxtliyə davam gətirə bilmərəm! Yox, yox!.. Mən dəli olaram, özümü itirmişəm! Hanı mənim başım? Mən haradayam? Bura haradır? (*Ora-bura yüyürüb, divardan bir şey tutur.*) Elə bildim

taxtabitidir. Bax, eşq vurub məni dəli edibdir! Ey nazənin sənəm! Bir ləhzə üzünü açıb mənə göstər.

Minnət xanım. Yox, bu səfər əlimə bax! Hələ üzümü görməzsən, ancaq o vaxt ki, mənim kəbinimi kəsdirərsən. Mən buraya gəldikdə bütün qonaqların içində üzümü açıb sənə göstərərəm ki, xalq sənin taleyinə həsəd aparsın!

Mərcan bəy (*kənara*). Vaxsey, anam qurban! (*Ona*) Ey nazənin sənəm! Bəs nə vaxt kəbinimizi kəsdirək?

Minnət xanım. Üç aydan sonra.

Mərcan bəy. Vay, dədəm vay!.. Üç aydan sonra! Yox, bu xoşbəxtlik məni dəli edəcəkdir!

Minnət xanım. Üç aydan sonra mənim kəbinimi kəsdir, mənim tərəfimdən hər kəsi istəsən vəkil elə, mənim adım Bədigülcamaldır. Üç aydan sonra qonaqların hazır olsun, mən öz adamlarım ilə gələcəyəm. Hələ ki, xudahafiz!.. (*Tez çıxıb gedir.*)

Mərcan bəy. Yox, getmə, sən getsən mənim canım gedər. Üç aydan sonra... üç ay, üç ay!.. Ey fələk!.. Mən sənə nə etdim ki, sən məni bu qədər xoşbəxt elədin? Yoxsa mənə sataşırsan? Yox, yox! Sataşma!.. Bəli, getdi, getdi. (*Oxuyur.*)

Getsən o qədər ağlaram, aləm olu dərya,
Axırda olursan qərq o dəryayə, yavaş get!

(*Çağırır.*) Səfi! Səfi!

Səfi (*daxil olur*). Bəy, nə buyurursan?

Mərcan bəy. Get, hamını buraya çağır. (*Səfi gedir.*) Bəxtim qudurubdur, amma qorxuram içindən bir xəta çıxa... Xeyr, nə xətası vardır?! Bir göyçək arvaddır rastıma çıxıbdır, alıram. (*Nökərlər daxil olurlar*). Ay uşaqlar, heç dünyada xoşbəxt adam görübsünüz?

Hamı. Xeyr, ağa!

Mərcan bəy. Di görün! O xoşbəxt adam mənəm!

Hamısı. Allah səni həmişə xoşbəxt eyləsin!

Mərcan bəy. Bu yavuqda mənim toyumdur. Taza arvad alıram, ona görə sizin hərənizə bir abbası pul bağışlayacağam.

Hamı. İltifatın artıq olsun! (*Onlardan biri gülməyini saxlaya bilməyib pıqqıldayır.*)

Mərcan bəy. Ha? Nə oldu? Nə üçün gülürsən? Mənə sataşırsan?

Nökər. Xeyr, ağa, səni xoşbəxt görüb şadlığımdan gülürəm.

Mərcan bəy. Qoçaq, sənə iki abbası verəcəyəm. (*Hamı gülür.*) Siz nə üçün güldünüz?..

Hamı. Ağası xoşbəxt olan adamlar əlbəttə gülərlər.

Mərcan bəy. Qoçaqlar, sizin də hərənizə iki abbası verəcəyəm. İndi hərəniz hər nə bilirsinizsə oxuyun, mən də qulaq asım. (*Nökərlər səs verib hərə bir şey oxuyur.*) Yox! Bu olmadı! Heyvan deyilsiz ki, uluyursunuz? Tək-tək oxuyun.

Bir nökər. Ağa, istəyirsən mən sənə bir türk havası oxuyum.

Mərcan bəy. Oxu!

(Musiqi)

Nökər. Mən bir türkəm, dinim, cinsim uludur. (*Oxuyub qurtarır.*)

Qeyri nökər. Ağa, istəyirsən mən sənə bir fars havası oxuyum.

Mərcan bəy. Oxu!

(Musiqi)

Nökər. Eşqin, eşqət pənceyi darəd ahəni. (*Oxuyub qurtarır.*)

Səfi. Ağa, istəyirsən mən sənə bir urus havası oxuyum.

Mərcan bəy. Oxu görək!

(Musiqi)

Səfi (*oxuyur*). Пой, ласточка, пой! (*Oxuyub qurtarır.*)

Bir nökər də. Ağa, istəyirsən mən sənə bir gürcü havası oxuyum.

Mərcan bəy. Oxu! Oxu!

(Musiqi)

Nökər (*oxuyur*)

Qurban olum səni doğan anaya,
Səni, doğdu, məni saldı bəlaya...

Mərcan bəy. Bunlar hamısı çox gözəl, indi bizim öz Qafqaz havamızdan bir şey oxuyun!

(Musiqi)

Xor

Eşitmişik xanımı yola salmısan, (*2 dəfə*)
Xanım getcək, kim, sən tənha qalmısan.
Ay Mərcan bəy, ay Mərcan bəy, ay Mərcan bəy!

(Musiqi)

Biz sənin üçün çalıb, gülüb, oxuruq, (*2 dəfə*)
Heç fikir etmə kim, sən tənha qalmısan.
Ay Mərcan bəy, ay Mərcan bəy, ay Mərcan bəy!

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Həmin otaqda. Bu dəfə otaq bəzənib. Çox qonaqlar vardır. Bir tərəfdə tarzən və xanəndə oturub, musiqi çalınır. Pərdə qalxdıqda Mərcan bəy fəxir libas geyinmiş daxil olur. Onu görcək oxuyurlar.

(Musiqi)

Qonaqlar

Söylə bir görək, Mərcan,
Bu nə toy, bu nə xərcdir? } (*2 dəfə*)
Bəs sənin əvvəldəncə
Arvadın yoxdurmu? (*3 dəfə*)
Ey... Minnət xanımı sən neylədin bəs? (*2dəfə*)
İndi tazadan arvad
Alırsan Mərcan?! } (*2 dəfə*)

(Musiqi)

Mərcan bəy

Allahın bəndələri,
Minnəti boşadım mən. } (*2 dəfə*)
Kəbinin verdim onun,
Özgəyə ərə getdi. (*3 dəfə*)
Ey... Kərbəlayı Qubad aldı Minnəti, (*2 dəfə*)
Mən də alıram indi bir özgə arvad. (*2 dəfə*)

Bir qonaq. Nə var, pullu adamsan, sən gündə üç arvad alıb, üçün də boşaya bilərsən.

Mərcan bəy. A kişi, bu siz öləsiz, iş pulda deyildir, iş ürəkdədir.

Qonaqlar. Doğrudur, doğrudur.

Mərcan bəy. İndi, əziz dostlarım, axır o gün olubdur ki, (*ağlamsınır*) mən öz ürəyim istəyəni tapmışam, mən öz muradıma

çatmışam. Allah sizi də oz muradınıza çatdırsın. (*Gözlərini silir.*) Mənim taza arvadım hələ üzün mənə göstərməyibdir və söz veribdir ki, qonaqların içində üzünü mənə göstərsin. Təvəqqə edirəm ki, gəlin gələnə qədər buradan bir yana tərpənməyin. Oturun burada, yeyin, için, kef çəkin; bu gün şadlıq günüdür, gərək şad olasınız.

Qonaqlar. Yaşasın Mərcan bəy!..

(Musiqi. Oxuyurlar.)

Şadlıqdan başqa ola bilməz işimiz, (*2 dəfə*)
Şükür Allaha kim, daha yoxdur qəmimiz. (*2 dəfə*)
Arvad almaqda müzəffər olmuş Mərcan, (*2 dəfə*)
Olmamış düşmən ona heç qalib hərgiz, (*2 dəfə*)
Şadlıqdan başqa ola bilməz işimiz, (*2 dəfə*)
Şükür Allaha kim, daha yoxdur qəmimiz. (*2 dəfə*)

Mərcan bəy. Sağ olun, qardaşlar, sağ olun! Mən gedirəm özümü bir qədər düzəldim, siz öz işinizə məşğul olun.

Qonaqlar. Buyur! Buyur! (*Mərcan gedir.*)

Bir qonaq. Hanı xanəndə? Hanı sazəndə? A gədə, bizim üçün bir bayatı-kürd çal, xanəndə oxusun.

Tarzən bayatı-kürd çalır, xanəndə oxuyur, meyxana deyirlər, qumar oynayırlar.

(Musiqi)

Xor

Aqil qardaşım, ayıl, bəsdir xəbidən, (*2 dəfə*)
Yatma, dur gör nədir səni hamıdan baz edən, (*2 dəfə*)
Aman, aman Allah, aman, aman Allah, Allah amandır,
İbrət eylə; qeyrət eylə, gör nə zamandır. (*2 dəfə*)

(Musiqi)

Bəsirət gözün açıb, bax bir cahanə! (*2 dəfə*)
Əhli-elmə bax, gör necə dolub zəmanə! (*2 dəfə*)
Aman, aman Allah, aman, aman Allah, Allah amandır, (*2 dəfə*)
İbrət eylə, qeyrət eylə, gör nə zamandır. (*2 dəfə*)

Musiqi rəngi çalınır. Rəqqas rəqs edir. Rəqs qurtardıqda qapıdan məşəllərin işığı görünür və zurna səsi eşidilir.

Qonaqlar. Gəlin gəldi. (*Gedirlər qapıya.*)

Mərcan bəy (*tələsik daxil olur, yaxşı geyinmişdir*). Oy! (*Üzünü yelləyir.*) Yox, deyəsən mən bu gecə tab gətirə bilməyəcəyəm. Vallah, arvadın vəhmi məni basıbdır. Puf! Nə istidir!

Qapılar açılır, səs-küy ilə gəlini gətirirlər. Minnət xanım üzü rübəndli gəlib ortada durur. Mərcan bəy onun o tərəf-bu tərəfinə keçir.

Minnət xanım. Mən əhd eləmişdim ki, qonaqların içində üzümü sənə göstərim, indi əhdimə vəfa edirəm.

Qonaqlar xanımın ətrafına yığılırlar və diqqətlə tamaşa edirlər. Hamı Minnətə sakit baxır. Minnət xanım əvvəlcə çarşabını açır. Sonra başındakı yaylığını. Hər dəfə Mərcan bəy tələsdiyini bildirir. Ayaqlarının birini götürüb o birini qoyur. Axırda Minnət xanım rübəndini açıb Mərcanın üzünə baxır.

Mərcan bəy. Minnət!

Minnət xanım. Bəli!

Mərcan bəy. Sənsən?

Minnət xanım. Bəli, mənəm... Mərcan!

Mərcan bəy. Bəli!

Minnət xanım. Sənsən?

Mərcan bəy. Bəli, mənəm! Vay, dədəm vay!.. Bu mənim öz əvvəlki arvadımdır. Ay camaat, bu Minnətdir! Yox, yox, belə şey olmaz! Mənə sataşırlar. (*Hamı mat, məbhut durur.*) Yox, mənə sataşmaq olmaz! Mənim kimi adamı aldatmaq olmaz! Kimdir, bu saat desin, bu oyunu mənim başıma gətirən, kimdir?

Camaatı yara-yara Kərbəlayı Qubad daxil olur.

Kərbəlayı Qubad. Mərcan bəy, dur üç min manatı bu saat ver, arvadı aparım evə. Bircə tez ol, başına dönüm, istəyirəm bu gün bir dükan yeri alım.

Mərcan bəy (*bərkdən*). Ay zalım balası zalım! Məni sən aldatdın. Mənim evimi yıxdın, hələ bir gəlib məndən pul da istəyirsən?! Ay camaat, məni tutmayın, bu kişini öldürəcəyəm. Buraxın, məni tutmayın, bu saat mən bu kişini qanına bulaşdırım, bu mənim namusuma toxunan işdir. Tutmayın məni, hanı mənim афсерским? Hanı, hanı?..

Kərbəlayı Qubad. Bu nə danışır, ədə, dəli olubsan nədir? Mənə kələk istəyir gəlsin... Bu saat pulu ver, yoxsa gedib bu saat notariusu gətirrəm, evini yazdıraram. Zəhmət çəkib arvadını almışam!

Mərcan bəy. Ay evin yıxılsın kişi, arvad buradadır, budur arvad, burda!

Kərbəlayı Qubad. Vay, dədəm vay!.. Bəs mən aldığım arvad kimdir?

Mərcan bəy. Mən nə bilirəm kimdir!

Kərbəlayı Qubad. Qoy gedim bir arvadı gətirim bura.

Gedir, camaat qarnını tutub gülüşür.

Mərcan bəy. Niyə gülürsünüz? Mənə gülürsünüz? Mənə sataşırsınız? Namərdlər, siz hamınız bədzatsınız! (*Gülüşmə*) Juliksiniz, moşenniksiniz! Yox, yox, bu dərd məni öldürər. (*Yıxılır stolun üstə.*)

Kərbəlayı Qubad (*daxil olur, yanında Gülpəri*). Bəs bu kimdir, sənin arvadın deyildirmi?

Mərcan bəy. Bu Gülpəridir, ay evini Allah yıxsın! Sən arvadı dəyişik salmısan.

Kərbəlayı Qubad. Vay, evim yıxıldı!.. Allah sənin evini yıxsın, Mərcan bəy! Bu nə kələk idi mənim başıma açdın! Ay camaat, mən öz arvadımı kənddə qoyub, şəhərə qaçdım. Burada da bir arvad boğazıma keçdi. İki yüz manat da kəbin pulu yazdırmışam. Bəs mən dükan yeri alacaqdım.

Mərcan bəy. Vay, sənin evin yıxılsın Kərbəlayı Qubad!.. A kişi, bəs sən mənim arvadımı alırdın?

Bir arvad əlində ağac, pərdə dalında qışqırıq sala-sala daxil olub, ucadan çığırır.

Arvad. Hanı o başı batmış Kərbəlayı Qubad? A kişi, mənim üstümə arvad alırsan? A sənin saqqalın tökülsün! (*Ağac ilə vurur Kərbəlayı Qubadı və bir-iki ağac da Mərcan bəyə dəyir. Arvad gedə-gedə deyir.*) Görək, Kərbəlayı Qubad, hərgah sənin saqqalında bir tük qoysam sağ, onda bu ləçək mənə haram olsun. (*Qonaqlar tutub, qoymayırlar vursun və arvadı yola salırlar.*) Mən gedirəm, sonra görüşərik, Allah qoysa.

Arvad gedir. Kərbəlayı Qubad və Mərcan bəy hərəsi bir tərəfdə oturub ağlayırlar.

Minnət xanım. Mərcan! Kefin necədir? Canın-başın sağdırmı? Məni satmaq istəyirdin, ay namərd! Məni! Di get, al payını. (*Qubada*) Sən saqqalından utanmadın, xalqın arvadını satın almaq istədin? Daha bir ayrı alış-veriş tapmırdın?! De al payını!..

(Musiqi)

Qonaqlar

Mübarək olsun toyun
Sənin, Mərcan, ay Mərcan! } (*2 dəfə*)

A kişi, bəs utanmadın?
Belə bədnam oldun sən! } (*2 dəfə*)

Mərcan bəy

Nə bilim mən çarşabın...

Kərbəlayı Qubad

Nə bilim mən çarşabın...

Mərcan bəy

İçinə kim girmişdir.

Kərbəlayı Qubad

İçinə kim girmişdir.

Xor

Nə bilim mən çarşabın
İçinə kim girmişdir.
Mərcan, Mərcan,
Kəblə Qubad, hey!..

(Musiqi)

Xor

Mübarək olsun toyun
Sənin, Mərcan, ay Mərcan! } (*2 dəfə*)
A kişi, bəs utanmadın?
Belə bədnam oldun sən! } (*2 dəfə*)

Mərcan bəy

Nə bilim mən çarşabın.

Kərbəlayı Qubad

Nə bilim mən çarşabın.

Mərcan bəy

İçinə kim girmişdir.

Kərbəlayı Qubad

İçinə kim girmişdir.

Xor

Nə bilim mən çarşabın
İçinə kim girmişdir.
Mərcan, Mərcan,
Kəblə Qubad, hey!..

PƏRDƏ

O OLMASIN, BU OLSUN

Üç pərdəli operetta

İŞTİRAK EDİRLƏR

Rüstəm bəy – 45 yaşında, borclu düşmüş bir bəy
Gülnaz – 15 yaşında, Rüstəm bəyin qızı ki, Sərvərə aşiqdir
Sərvər – 25 yaşında bir studentdir ki, Gülnaza aşiqdir
Sənəm – qulluqçu, dul arvad, 30 yaşında
Məşədi İbad – 50 yaşında, dövlətli bir tacirdir ki, Gülnazı almaq istəyir
Həsənqulu bəy – 40 yaşında, millətpərəst
Rza bəy – 40 yaşında, qəzetəçi
Həsən bəy – 40 yaşında, intelligent } Rüstəm bəyin aşnaları
Əsgər – 30 yaşında, qoçu
Hambal
Məşədi Qəzənfər – hamamçı
Usta Məhərrəm – dəllək
Kərbəlayı Nəsir – bazar əhli
Hamam xidmətçiləri
Qoçular
Bazar adamları və s.

BİRİNCİ PƏRDƏ

Rüstəm bəyin evində vaqe olur. Yaxşı döşənmiş bir otaqdır. İçində stol, kürsü və kreslolar dəxi vardır. Pərdə qalxdıqda bütün iştirak edənlər cərgə ilə durub oxuyurlar.

(Musiqi)

Hamı

Nə sözdür kim, deyir məxluq (*2 dəfə*)
Ki, Leyli oldu ğeyrə yar. (*2 dəfə*)

(Musiqi)

Əbəs sözdür bu əfsanə, (*2 dəfə*)
Düşübdür xəlqin ağzına. (*2 dəfə*)
Gərək Məcnun, gərək Leyli
Veribdirlər canın canə. (*2 dəfə*)

(Musiqi)

Həqiqi aşiqin yoxdur (*2 dəfə*)
Rəqibi, duşməni, xari. (*2 dəfə*)

(Musiqi)

Əbəs sözdür bu əfsanə, (*2 dəfə*)
Düşübdür xəlqin ağzına. (*2 dəfə*)
Gərək Məcnun, gərək Leyli
Veribdirlər canın canə. (*2 dəfə*)

Pərdə enir. Hamı dağılır. Sərvər ilə Gülnaz qalırlar.
Tarda segah çalınır, pərdə qalxır.

Sərvər (*oxuyur*)

Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali-zövq şövqun təşneyi-didar olandan sor.

Gülnaz

Ləbin sirrin gəlib göftarə məndən özgədən sorma,
Bu pünhan nüktəni bir vaqifi-əsrar olandan sor.

Sərvər

Gözü yaşlıların halın nə bilsin mərdümi-qafil,
Kəvakib seyrini şəb ta səhər bidar olandan sor.

Gülnaz

Qəmindən şəm tək yandım, səbadən sorma əhvalım,
Bu əhvali şəbi-hicran mənimlə yar olandan sor.

Sərvər

Məhəbbət ləzzətindən bixəbərdir zahidi-qafil,
Füzuli, eşq zövqün zövqi-eşqi var olandan sor.

Gülnaz (*danışır*). Sərvər, bu gün səni çox kefsiz görürəm, nə olub məgər?

Sərvər. Doğru deyirsən, mən dünəndən bəridir ki, fikirdəyəm.

Gülnaz. Nə olub, söylə görək?

Sərvər. O olubdur ki, atan səni bir özgəsinə ərə vermək istəyir.

Gülnaz (*qorxu ilə*). Kim deyir onu?

Sərvər. Mən deyirəm, doğru yerdən bilmişəm.

Gülnaz. Bəs atam mənə heç zad deməyibdir.

Sərvər. Ola bilsin ki, bu gün deyər və bir də sənə nə deyəcəkdir, sənin borcun onun sözünə qulaq asmaqdır.

Gülnaz. Yox-yox, mən səndən başqa özgəsinə ərə getməyəcəyəm; qoy məni öldürsün, mən səni sevmişəm, sənə də gedəcəyəm.

Sərvər. Axı o ər məndən dövlətlidir.

Gülnaz. Cəhənnəmə olsun!

Sərvər. Məndən gözəldir.

Gülnaz. Çox mənə lazımdır!

Sərvər. Məndən cavandır.

Gülnaz. İstər lap uşaq olsun, lazım deyildir.

Sərvər (*gülür*). Yalan deyirəm, gözəlim Gülnaz! O kişi, doğrudur, məndən min kərrə dövlətlidir, amma özü qocadır, azından bir əlli yaşı vardır. Görsən qorxarsan.

Gülnaz. Bax, mən daha səbr edə bilmirəm: günü bu gün atama deyəcəyəm ki, mən səni sevirəm və səndən başqasına ərə getməyəcəyəm.

Sərvər. Yox, Gülnaz, heç elə eləmə! Sən mən deyənə qulaq as, yoxsa iş düz gətirməz. Mən bilirəm ki, sənin atan borclu düşübdür və pula da çox ehtiyacı vardır. O istəyir ki, bu qohumluqla o kişidən ki, adı Məşədi İbaddır, bir qədər pul yesin. Zərər yoxdur, qoy yesin. Sən atana heç bir söz demə və söz açsa deyinən ki, özün bilərsən. Sonra sənin işin yoxdur, mən bu işə təhər çəkmişəm.

Gülnaz (*bikef*). Mən nə tövr razı olum ki, məni götürüb özgəsinə ərə versin.

Sərvər. Sən o barədə arxayın ol, məndən başqa səni özgəsi ala bilməz, amma sən mən deyənə qulaq as!

Bu halda Sənəm daxil olur.

Sənəm. Bircə o gün ola idi ki, sizin toyunuzda süzə-süzə oynaya idim.

Sərvər. İnşallah, bu yaxında oynarsan.

Sənəm (*sevinir*). Necə? Yaxında toy eyləyirsənmi?

Sərvər. Yox, mən eyləmirəm, Rüstəm bəy Gülnazı özgəsinə ərə verir.

Sənəm (*bikef*). Buy!.. Başıma xeyir! Bu nə sözdür? O ər kimdir?

Sərvər. Bir qoca kişidir.

Sənəm. Buy!.. Ağrım onun ürəyinə! Heç bunun kimi gözəl qız qoca kişiyə gedərmi?

Sərvər. Zərər yoxdur, mən işi özgə cürə düzəldərəm. Gülnaz, sən bikef olma. Arxayın ol, kimin ixtiyarı var ki, yarı yarından ayıra bilsin.

(Musiqi)

Üçü bir yerdə
Əcəb sözdür bu əfsanə, (*2 dəfə*)
Düşübdür xəlqin ağzına. (*2 dəfə*)
Gərək Məcnun, gərək Leyli
Veribdirlər canın canə. (*2 dəfə*)

Qapı döyülür.

Sənəm. Ax, deyəsən ağa gəlir. (*Yüyürüb qapıdan baxır.*) Ay aman, ağa gəlir; dur qaç!

Sərvər (*tələsik*). Gülnaz, hələ ki, xudahafiz. Sən mən deyəndən çıxma, atana başqa söz demə.

Gülnaz. Xudahafiz.

Sərvər gedir.

(Musiqi)

Rustəm bəy (*daxil olur*)
Qızım, sənə yaylıq alım!

Gülnaz
Al, dədə, qurbanın olum!

Rüstəm bəy
Qızım, sənə başmaq alım!

Gülnaz
Al, dədə, qurbanın olum!

Rüstəm bəy
Qızım, sənə corab alım!

Gülnaz
Al, dədə, qurbanın olum!

Rüstəm bəy
Qızım, sənə tuman alım!

Gülnaz
Al, dədə, qurbanın olum!

Rüstəm bəy
Qızım, səni... Qızım, səni...
Qızım, səni ərə verim!

Gülnaz
Yox, dədə, qurbanın olum!
Yox, dədə, qurbanın olum!

(Musiqi)

Rüstəm bəy (*danışıq*). Qızım, yox deyirsən? Sənin üçün bir ər tapmışam ki, bir ər tapmışam ki, dövlət nə dövlət, pul saman kimidir! Özüdəcə abırlı bir kişidir. Hərçənd bir az yaşı çoxdur, amma bir yaxşı adamdır ki, beləsini çıraq ilə axtarsan tapa bilməzsən!

Sənəm. Ah! Qoca olandan sonra heç nə! Ağrım onun özünə də, dövlətinə də!

Rüstəm bəy. Ay qız, sən qıfılla, sən danışma, sən bu cür işləri anlamazsan, çünki sən bir heyvan layələmsən!

Sənəm. Nə qədər heyvan olsam da, mən cavan qızımı qoca kişiyə ərə vermərəm! Heyf deyilmi? Vallah, bu saat onun dərdindən ölən cavanlar çoxdur ki, hər biri bir Yusif!

Rüstəm bəy. Nə vaxt mən səni qoca kişiyə ərə versəm, getmə! Qız mənimdir, mən bilirəm: istərəm qocaya verrəm, istərəm cavana! (*Qıza*) Razısanmı, qızım?

Gülnaz. Nə deyirəm, mənim borcum ata sözünə baxmaqdır, özün bilərsən!

Rüstəm bəy. Ağıllı qızım, gözəl qızım! Mən əvvəldən bilirdim ki, sən mənim sözümdən çıxmayacaqsan. Odur ki, kişiyə söz vermi-

şəm, indi o kişi bu gün buraya gələcəkdir və səni də görmək istəyəcəkdir. Mən sənə izin verirəm ki, sən gedib onun ilə görüşəsən. Get görüş və özün də danış, qorxma!

Sənəm. Yəni batmış bu qədər çirkindir ki, adam qorxa da bilər?

Rüstəm bəy. Ay qız, gəl sən danışma!

Sənəm. Axı deyirsən ki, qorxma; mən də soruşuram ki...

Rüstəm bəy. Ay qız, yum ağzını!

Sənəm. Ağzımı yummamış, nə deyirəm ki?!

Rüstəm bəy. Ay heyvan, danışma deyirəm!

Sənəm. İndi mən nə deyirəm ki, acığın tutur.

Rüstəm bəy. A mürtəd balası, danışma, qulluqçusan, otur qulluqçu yerində!

Sənəm. İndi mən nə deyirəm ki, pis söz demirəm ki?!

Rüstəm bəy. Ay qız, kəs səsini!

Sənəm. Səsimi kəsməmiş mən nə deyirəm ki...

Rüstəm bəy (*lap bərkdən*). A qız, de qoy işimizi görək!

Sənəm. Mən nə qayırıram ki...

Rüstəm bəy (*daha bərk*). A qız!..

Bu əsnada qapı bərk döyülür.

Rüstəm bəy. Durun gəlin bəri, yəqin kişi gəldi.

Hamısı durub gedir.

(Musiqi)

Məşədi İbad (*daxil olur*)

Mən nə qədər, nə qədər qoca olsam da,
Dəyərəm min cavana.
Çörəyi yemərəm mən yavana,
Yaxşı demərəm mən yamana,
Qurban edərəm mən canana
Malımı, pulumu, canımı mən.
Gəl, xanım, gəl yanıma,
Gəl, canım, gəl yanıma,
Gəl, yarım, gəl yanıma.
Gəl, mən ölüm, mən ölum, mən ölüm gəl!.. (*2 dəfə*)
A quzum, gəl yanıma,
Canımı verərəm mən yarıma.

Qurban edərəm mən canana
Malımı, pulumu, canımı mən.

(Musiqi)

Yenə təkrar "Gəl, xanım, gəl yanıma"

(Musiqi)

Rüstəm bəy (*daxil olur*)

Məşdi İbad, sən bizə xoş gəlib, bizi şad elədin!
Bir de görüm nə oldu ki, nə oldu bizi yad elədin?

Məşədi İbad

A kişi, sən öl, mən səni hamıdan artıq yad elərəm,
Sən qızı mənə vergilən, gör necə səni şad elərəm.

Musiqi çalınır, ikisi də oynayır.

Rüstəm bəy

Söylə görüm bir mənə,
Cib doludurmu pul ilən?
Gəl sənə mən qız verim,
Nə işin vardır dul ilən.

Məşədi İbad

A kişi, sən öl, mən sənə
Nə qədər desən pul verərəm,
Sən qızı mənə vergilən,
Gör necə səni şad elərəm.

Musiqi çalınır, ikisi də oynayır.

Məşədi İbad

Pul verimmi?

Rüstəm bəy

Vergilən!

Məşədi İbad

Qız verərsənmi?

Rüstəm bəy

Verərəm!

Məşədi İbad

Tez verimmi?

Rüstəm bəy

Vergilən!

Məşədi İbad
Tez verərsənmi?
Rüstəm bəy
Verərəm!
Məşədi İbad
Degilən sən öl!
Rüstəm bəy
Bu sən öl!
Məşədi İbad
Bəs elə isə?
Rüstəm bəy
Ver əlini!
Məşədi İbad
Bəs elə isə?
Rüstəm bəy
Ver əlini!
Məşədi İbad
Degilən sən öl!
Rüstəm bəy
Bu sən öl!
Məşədi İbad
Bəs elə isə?
Rüstəm bəy
Ver əlini!

Musiqi çalınır, ikisi də oynayır.

Məşədi İbad (*danışıq*). İndi axır sözünü de görüm, qızı mənə verirsənmi? Yoxsa vermirsən, gedib ayrı qız alaram, deyərəm ki, o olmasın, bu olsun!

Rüstəm bəy. Mən öz sözümün üstündə duran adamam. Ancaq sən də gərək qabaqca bir balaca tədarük görəsən. (*Əli ilə pula işarə edir.*)

Məşədi İbad
Min manat sənə bəsdirmi?
Rüstəm bəy
Min də üstə artır.

Məşədi İbad. A kişi, axı bunun bir anbar da toy xərci var.

Rüstəm bəy. Doğrudur, ancaq nə eləmək? Hərgah bir qədər cavan olsa idin, bu iş sənin üçün ucuz tamam olardı, amma heyif ki, qocasan, taxsır özündədir.

Məşədi İbad. A kişi, vallah, mən nə qədər qoca olsam da, min buğu burma cavana dəyərəm. Sən nə fikir edirsən?! Ala, min beş yüz manat, qalanını da sonra verərəm. (*Pul çıxardıb verir.*)

Rüstəm bəy. Olar. (*Pulu alır.*) Zərər yoxdur.

Məşədi İbad. İndi mən istəyirəm ki, bir qızı görüm, danışdırım, nə deyirsən?

Rüstəm bəy. Heç sözüm yoxdur, əyləş, bu saat qızı göndərərəm. (*Gedir.*)

Məşədi İbad. Zarafat deyildir, bir ətək pul verirəm, bir baxım görüm, mal nə cür maldır, verdiyim pula dəyərmi? Mənim istədiyim odur ki, özümə layiq adam olsun. Yoxsa məndən ötrü təfavüt yoxdur, o olmasın, bu olsun!.. (*Sükut*) A kişi, bircə mən bilmədim ki, camaat mənim harama qoca deyir! Vallah, görünür ki, xalqın gözu pis görür. Budur ayna, bu da mən. (*Aynaya baxır.*) Allaha şükür, dişlərim hamısı cabəca, saqqalım da qapqara şəvə kimi. (*Diqqət ilə baxır.*) Deyəsən burda bir dənə ağ tük vardır. Gərək dartam çıxsın. (*Dartır.*) A zəhrimar!.. Görünür ki, heyvan balası dəllək hənanı pis yaxıbdır. (*Çıxardır.*) Puf!.. Rədd ol, şarlatan!.. Qoca odur ki, dişləri olmaya, gözü görməyə, qulaqları eşitməyə, özü də yerindən tərpənə bilməyə; mən ki əlhəmdülillah, quş kimiyəm. Maşallah deyim ki, göz dəyməsin. Özüm də əlli yaşım ya ola, ya olmaya. (*Güzgüyə baxıb ora-burasını düzəldir.*) İndi mən papağımı nə cür qoyum ki, qızın xoşuna gəlsin: hərgah belə qoysam (*kəc qoyur*), onda qız qorxar, elə bilər ki, Bakı qoçusuyam. Əyər belə qoysam (*gözünün üstə qoyur*), onda da qız ürkər, elə bilər ki, Qarabağın pambıq bəylərindənəm. Hərgah bu cürə qoysam (*lap dalı qoyur*), onda qızın məndən zəhləsi gedər. Elə bilər ki, Gəncə qumarbazıyam, əyər belənçik qoysam (*təpəsinə qoyur*), onda da Şamaxı lotusuna oxşaram. Bəs nə tövr qoyum? Hamısından yaxşısı budur ki, başı açıq oturram, onda qızın xoşuna gələr, elə bilər ki, abrazavannıyam. Doğrudan da, mən bir qədər abrazavannıyam, çünki uruslar mən ilə çox alış-veriş eyləyiblər və mən onlardan urus dilini də yaxşı öyrənmişəm. Məsələn: ишто кату, бажалуска, фунт восим qəpik меншы нелзя, нелзя. (*Səs gəlir.*) Aha, deyəsən qız gəlir; indi gərək mən серёзныски olam. (*Bir kreslo üstündə bardaş qurub oturur.*)

Gülnaz ilə Sənəm daxil olur.

Gülnaz. Uy, mən bu kişidən qorxuram!

Sənəm. Nə kifir kişidir, ay Allah!

Məşədi İbad (*kənara*). Deyəsən, məndən qorxurlar. Zərər yoxdur; arvad kişidən qorxsa yaxşıdır. (*Onlara*) Bir deyin görüm, xanım hansınızdır, qulluqçu hansınız?

Sənəm. Mən qulluqçuyam, bu xanımdır. (*Otururlar.*)

Məşədi İbad. Çox gözəl, çox əcəb! (*Kənara*) Heç qulluqçunun özü də yaman deyildir, amma xanıma söz yoxdur. Dəyər verdiyim pullara (*Sükut. Heç kəs dinməyir. Məşədi İbad birdən-birə gözlərini Gülnazın başına tərəf dikib, diqqət ilə baxır.*) Xanım, sənin ki, saçın bu qədər qaradır, yəqin sən də mənim kimi həna qoyursan.

Gülnaz. Xeyr, həna qoymuram!

Məşədi İbad. Hə!.. Çünki mən saqqalıma həna qoyuram, elə bildim ki, sən də saçına həna qoyursan. (*Kənara*) Amma lap nahaq yerə hənadan söhbət saldım, heç yeri deyildi.

Gülnaz. Mənim başım hələ ağarmayıbdır ki, hənaya ehtiyacı ola.

Sənəm. Allaha şükür, xanım qocalmayıb ha!

Məşədi İbad (*tələsik*). Xeyr, xanım, mənim də saqqalım ağarmayıbdır. Mən saqqalıma həna qoydum, qoymadım – həmişə qapqapa şəvə kimidir. Amma mən bir növ adətkərdə olmuşam və fars da deyir ki, "tərki-adət bə movcibi mərəzəst". (*İrəli gəlir.*) Allah ölənlərinizə rəhmət eyləsin, mənim rəhmətlik anam deyərdi ki, başımın hənasının vaxtı keçəndə başım ağrıyır. Çünki adətkərdə olmuşdu.

Gülnaz. Yəqin sizin də saqqalınızın hənasının vaxtı keçəndə ağrıyır.

Məşədi İbad. Bəli, ağrıyır. Saqqalım bərk ağrıyır; bir də, mən sənə deyim, insanın başının, ya saqqalının ağlığı onun qocalığına dəlalət eyləməz. Bax, mən iki yaşında urus balası görmüşəm ki, başı ağappaq qar kimi; halbuki iki yaşında uşağa qoca demək olmaz. Və bir də siz mənim başıma diqqət edin, heç görün bir dənə ağ tük varmı? (*Başını göstərir.*)

Gülnaz. Heç qarası da yoxdur.

Məşədi İbad. Bəs bundan məlum olur ki, insan cürbəcür olar. Sizin ikinizin də canı üçün, indi dünya elə dönübdür ki, indiki ahıllar indiki cahıllardan min pay yaxşıdırlar. Məsələn, mən tarix-nadir kitabını yarısına qədər oxumuşam, ona görə hikmət elmindən yaxşı biliyim vardır. İnsanın zahiri nə qədər çirkin olsa, batili bir o qədər gözəl olar. Məsəl var ki, deyərlər: o olmasın, bu olsun. Əlbəttə, nə zərəri

vardır, cavanlıq olmasın, pul olsun. Pul elə şeydir ki, qocanı cavan eylər və pulsuzluq da cavanı qoca eylər.

Sənəm. Görünür ki, sənin çox pulun vardır.

Məşədi İbad. Sənin dövlətindən kefim çox kökdür. (*Əlini cibinə salıb, bir abbası çıxardır.*) Buyur, bu abbasını saxla, lazım olar, saqqıza verib çeynərsən.

Sənəm. Xeyr, çox sağ ol, pul lazım olsa, ağam verər.

Məşədi İbad. Aha, o başqa məsələ. (*Pulu qoyur cibinə.*) Heç pis arvad deyildir. (*Ona*) Bir mənə de görüm sənin ərin var?

Sənəm. Xeyr, yoxdur.

Məşədi İbad. Çox gözəl. (*Kənara*) Qabaqdan bilsəydim, əvvəlcə bunu alardım, sonra xanımı! (*Ona*) Kefin necədir, yaxşı dolanırsanmı?

Sənəm. Nə üçün, şükür Allaha, yaxşıyam.

Məşədi İbad. Çox gözəl. (*Gülnaza*) Xanım, heç sən danışmırsan?

Gülnaz. Mən qulaq asıram.

Məşədi İbad. Çox gözəl. Qulaq asmaq da yaxşı şeydir. (*Kənara*) Qəribə yerdəyəm, vallah, bir gözəl o yanımda, bir gözəl bu yanımda. Şair çox gözəl deyibdir ki (*oxuyur*):

Hüsn bağında gəzəsən,
Gülü sünbül dərəsən.
Sən kimi bir gözəli
Bağın içində görəsən.

Gülnaz. Baxasan gül yanağına, olasan məstü xumar.

Bir yerdə. Deyəsən heç belə işrət olamaz, sən öləsən!

(Musiqi)

Sənəm

Qoca kaftar, sənə on beş yaş olan qız nə gərək?
Qorxmayırsanmı ki, axırda gələ başa kələk.

Gülnaz

Sənə yüz yaşlı dul arvad yaraşar, ey dəyənək!

Bir yerdə. Üzünü it də görərsə yalamaz, sən öləsən!

(Musiqi)

Məşədi İbad

Görürəm kim, mənə sən çox yetirirsən gözünü,
Qorxuram kim, ki axırda itirəsən özünü.

Gülnaz

İstəyirsənmi, sözün mən deyərəm lap düzünü.

Bir yerdə. Sən kimi bir qocaya qız yaramaz, sən öləsən!

Gülnaz (*dururlar*). Hələ ki, xudahafiz, biz gedək.

Məşədi İbad. Ay çox sağ olun, Allah pənahında olasınız! (*Gedirlər.*) Bir dəli şeytan deyir ki, ikisini də birdən al!

Rüstəm bəy (*daxil olur*). Necədir, qızı bəyəndin?

Məşədi İbad. Qızı da bəyəndim, hələ desən qulluqçunu da!

Rüstəm bəy. Bir beş-altı yüzdən keç, onu da sənə peşkəş eyləyim.

Məşədi İbad. Yox, o hələ sonranın işidir. Yaxşı, indi hələ ki, mən getdim!

Rüstəm bəy. Yox, Məşədi, bir az dayan!

Məşədi İbad. Nə var ki?

Rüstəm bəy (*yalançı sədaqət ilə*). Məşdi İbad, sənin üzünə demirəm, amma sən bunu bil ki, mən sənin qohumluğunu özüm üçün böyük bir fəxr bilirəm. Ona görə bir balaca şadyanalıq edək. Bir neçə nəfər dost-aşna çağırmışam, indi bu saat gələrlər, oturub söhbət edərik.

Məşədi İbad. Rüstəm bəy! Çox adamlar mənimlə qohum olmaq istədilər, hətta qubernatın dilmancı Cəfər bəyin xalası oğlu Daşdəmir bəy – ki, mənə iki min manat pul verəcəkdir və səkkiz yüz otuz altı manat on dörd şahı mamiləsi edir, – keçən gün mənə deyirdi ki, bir qızım olubdur, qoy böyüsün, sənə verəcəyəm. Amma mən hər adamla qohum olmaq istəmirəm. Qərəz... Qonaqların kimdir?

Rüstəm bəy. Birisi millətpərəst Həsənqulu bəydir ki, sən onu tanıyırsan.

Məşədi İbad. Yaxşı tanıyıram, mənə iki yüz manat da verəcəkdir.

Rüstəm bəy. Birisi qəzetəçi Rzadır ki, tanıyırsan, birisi qoçu Əsgərdir ki, onu da tanıyırsan. Biri də intelligent Həsəndir ki, onu tanımazsan. Çünki o bir qədər mərdimgirizdir, çox oxuyub deyən bir qədər başı xarab olubdur. (*Qapı döyülür.*) Aha, gəldilər. Buyurun-buyurun!

Qapı açılır, Həsənqulu bəy, Rza, Əsgər, Həsən və xor daxil olurlar. Sonra səhnənin ortasında üç-üç durub, guya söhbət edir kimi oxuyurlar.

(Musiqi)

Həsənqulu bəy

Deyirlər ki, toy olacaq.

Rza bəy

Məşdi İbad qız alacaq.

Əsgər

Söylə görüm toy haçandır?

Həsən bəy

Doğrudurmu toy olacaq?

Hamı

Bəs nə vədə, nə vədə toy olacaq. (*2 dəfə*)

Rüstəm bəy

Allah qoysa, tez toy olar.

Rza bəy

Söylə görüm toy haçandır?

Məşədi İbad

İnşaallah, tez toy olar.

Həsən bəy

Doğrudurmu toy olacaq?

Hamı

Bəs nə vədə, bəs nə vədə toy olacaq. (*2 dəfə*)

Həsənqulu bəy

Yəqindir ki, bu toyda...

Əsgər

Bu toyda...

Həsən bəy

Bu toy, bu toy, bu toyda...

Hamı

Cib dolacaq, dolacaq pullar ilən. (*2 dəfə*)
Bəs nə vədə, nə vədə toy olacaq. (*2 dəfə*)

(Musiqi)

Rüstəm bəy. Həzərat! Əhvalat özünüzə məlumdur. Mən gözümün ağı-qarası olan bir qızımı, bax, bu kişiyə ərə verirəm.

Rza bəy (*kənara*). Kişiyə yox, kişinin puluna.

Rüstəm bəy. Və özüm də bu qohumluğu özüm üçün...

Rza bəy. Pul dağarcığı hesab edirəm.

Rüstəm bəy. Böyük bir şərəf hesab edirəm.

Hamı. Əlbəttə, əlbəttə. Allah mübarək eləsin!

Bu əsnada nökərlər daxil olub, stol qururlar və üzərinə butulka, stakan və "zakuska" düzürlər.

Rüstəm bəy. Həzərat! Təvəqqə edirəm stola əyləşin; bir qədər boğazımızı yaş edək.

Hamı oturur, Məşədi İbaddan başqa.

Rza bəy. Bəs Məşdi İbad?

Məşədi İbad. Xeyr, məni bağışlayın, mən pəhrizəm. Siz öz işinizlə məşğul olun, mən buradaca əyləşərəm. (*Bir tərəfdə bir kresloda əyləşir.*)

Həsənqulu bəy. Həzərat! Təvəqqə edirəm stəkanlarınızı doldurasınız və mənə də izin verəsiniz ki, bir neçə kəlmə söz deyim.

Hamı. Buyur, buyur,

Həsənqulu bəy. Həzərat! Özünüzə məlumdur ki, dünya getdikcə xarablaşır, yəni mən onu demək istəyirəm ki, bu dünya getdikcə xarab olur; öylə ki, hamının qəlbi pozulub, min cür hiylə ilə dolur, yəni mən onu demək istəyirəm ki, bu dünyada təmiz və saf qəlbli adam tapmaq çətindir.

Məşədi İbad (*kənara*). Ələlxüsus mənim kimi axmağı ki, sənə iki yüz manat verib, iki ildir ki, ala bilmirəm.

Həsənqulu bəy. Yəni mən onu demək istəyirəm ki, bu qədər çirkin ürəkli və qara qəlbli adamlar içində bir nəfər də saf dərun və qəlbi pak adam görmək necə böyük xoşbəxtlikdir. İndi mən onu demək istəyirəm ki, həmin o kənarda oturan Məşədi İbad həmin saf dil adamların ən böyüyüdür, ona görə qalxızaq bu badəni onun sağlığına. Yaşasın Məşədi İbad!

Hamı. Yaşasın, yaşasın, Məşədi İbad!

Əsgər (*ayağa durur, çox bərk danışır*). Günlərin bir günü, axşam saat doqquzda bazardan gəlirdim. Ada, bir də gördüm ki, birisi dalımca gəlir. Bir az getdim gördüm ki, yenə gəlir. Dedim, yəqin ki, mənimlə düşməndir, o saat piştovu belimdən çıxartdım (*göstərir*), çəkdim yuxarı ayağa, dedim: ədə, dayan! Bir də gördüm dalımca gələn göturüldü; ədə, dayan, ədə, dayan!.. Dayanmadı, part, bir güllə!.. Bir də gördüm: şarap!.. Yıxıldı yerə. Dedim, baxım görüm kimdir? Bir də gördüm kim?.. Həmin bu Məşədi İbad! Dedim, yəqin kişini öldürmüşəm. Amma, Allahdan olan kimi, güllə dəyməmişdi. (*Gəlir yanına.*) Sağ ol Məşədi İbad! Sağlığına içirəm.

Məşədi İbad. Çox sağ ol! (*Kənara*) Heç görün dəxli var?!

Rza bəy (*durur*). Əfəndilər, müsaidənizlə bir qaç kəlmə söz ifadəsinə əşəddi ehtiyacım vardır. (*Heç kəs dinməyir.*) Əfəndilərim, sükut eyliyirsiniz, əcəba, müsaidə vermiyorsinizmi! (*Yenə heç kəs dinmir.*)

Əfəndilər, bir də cavab verməyəcək olsanız, bu mübhəm sükutinizi kəndim üçün böyük bir həqarətədd edəcəyəm. Bəkləyürəm, əfəndilərim! (*Yenə heç kəs dinməyir.*) Rüstəm bəy, bəndənizi təhqir etmək fikriniz var idisə, nə üçün bunu xanənizdə icra ediyorsiniz, bunu başqa bir yerdə əda etmək qabil dəyildimi?

Rüstəm bəy. Çox sağ ol, çox razıyam!

Rza bəy (*acıqlı*). Canım, siz anlamıyorsınızmı ki, mən nə diyorəm; ya həqarətmi? Oylə isə, mən burada oturmam! (*Tələsik papağını geyir.*)

Rüstəm bəy. Rza bəy, hara buyurursan?

Rza bəy. Canım, mən həqarət qəbul edən adam deyiləm, on dəqiqədir ki, sizdən söz deməyə izin istəyirəm, amma cavabında dinməyirsiniz; bu böyük həqarətdir, sabah bunu qəzetəmdə yazaram.

Həsənqulu bəy. Deməli, sən bizdən izin istəyirmişsən? Əşi, vallah, mən elə bildim ki, sən nitq söyləyirsən, başa düşə bilmədim.

Onlar. Vallah, biz də başa düşmədik.

Məşədi İbad. Axı, o qədər qəliz danışırsan ki, bilmək olmur ki, nə deyirsən. Mənim özüm tarix-nadir kitabını yarısına qədər oxumuşam, amma sənin dilini anlamıram. Bu bisavadlar neyləsin? (*Rüstəm bəy durub Rzanı oturdur.*)

Rüstəm bəy. Sən allah, bizi məyus eyləmə, bağışla, anlamadıq. Bisavad adamıq.

Həsən bəy (*ayağa durur*). Qaspoda, mənə pazvolt eyləyin, biriki kəlmə Rüstəm bəy haqqında söz söyləyim!

Hamı. Buyur-buyur!

Məşədi İbad. Görək, bu nə deyir?

Həsən bəy. Qaspoda! Platon demişdir ki, çelovek jivotnoye obşestvennoye, yəni insan bir sürü heyvandır.

Məşədi İbad. Heyvan özünsən!

Həsən bəy. Məşhur uçonıy Darvin də bütün hamıya dokazat eylədi ki, insan meymundan əmələ gəlibdir. Darvinin bu sözü ilə saqlasitsya olmaq üçün gedib Afrikadakı "buşmen"lərə və "kontintot"lara baxmaq lazım deyil. Ancaq dovolno çto, bizim bu məclisimizdə oturan Məşədi İbada baxmaq lazımdır. (*Hamı başını aşağı salır.*) Bu sözlər ilə mən Məşədi İbadı askarbit eyləmək istəmirəm, mən özüm də meymuna bənzəyirəm. Amma bir o qədər yox. No Məşədi İbad isə lap aranğutan meymunudur ki, durubdur. Mən yenə povtarit eləyirəm ki, mənim qəsdim Məşədi İbadı askarbit eyləmək deyildir. Ancaq mən

onu yetirmək istəyirəm ki, pozvolte, Məşədi İbadın nəyi və harası Rüstəm bəyə xoş gəlibdir ki, gözəl qızı olan madmazel Gülnazı ona verir? Gözəlliyi? Xeyr! Məşədi İbad, ərz eylədim ki, çirkindir.

Məşədi İbad. Mürtəd oğlu mürtədi yıxıb ağzına-ağzına vurasan.

Həsən bəy. Cavanlığı? Xeyr, Məşədi İbad qocadır. Bəs nəyi? Neujeli Məşədi İbadın pulu, malı, dövləti? Xeyr, xeyr, Rustəm bəy pulagir adam deyildir. Nakones, bəs nəyi? Bu saat ərz eyləyim. Bax, biz burada şərab içirik, amma Məşədi İbad içmir. Deməli, Məşədi İbad nədir? Məşədi İbad istinni müsülmanindir; i tak, Rustəm bəy öz qızını, mənim mneniyama görə, Məşədi İbadın istinni müsülmanin olmağına görə veribdir, ona görə yaşasın Rustəm bəy!

Hamı (*yavaşdan*). Yaşasın, yaşasın!

Rza bəy. Maşallah bu kəlama!

Həsənqulu bəy. Daha nitq demək lazım deyildir. Duraq ayağa!

Hamı. Duraq! (*Dururlar.*)

Əsgər. Yavaş-yavaş getmək vaxtı dəyildirmi?

Hamı. Bəli, vaxtdır.

Həsənqulu bəy. Rüstəm bəy, xudahafiz. (*Əl verir.*) Məşədi İbad, xudahafiz. (*Əl verir.*)

Əsgər. Rüstəm bəy, xudahafiz, Məşədi İbad, xudahafiz.

Həsən bəy. Rüstəm bəy, xudahafiz, Məşədi İbad, xudahafiz. (*Əl verir.*)

Məşədi İbad (*acıqlı*). Cəhənnəm ol o yana, mürtəd! Mənə meymun deyib, sonra da əl verirsən?

Rüstəm bəy. Nə oldu, nə oldu?

Həsən bəy. Pozvolte, pozvolte, ya yemu zadam, merzavsu!

Hamı yığılır. "Nə oldu, nə oldu?" deyib, aralaşdırırlar, şuluqluq düşür.

(Musiqi)

Həsən bəy

Mən sənə tay-tuş deyiləm, vurram başın, (*2 dəfə*)
Darbadağın lap dağılar, rədd ol burdan. (*2 dəfə*)

Həsənqulu bəy

A gedə, Həsən, bəs deyilmi, eyb olsun ki,
İntiligent ola-ola savaşırsan. (*2 dəfə*)

Məşədi İbad

Qoy məni bir ağzın əzim bu mürtədin, (*2 dəfə*).
Meymun özü ola-ola mənə deyir.

Hamı

A gedə, ayıbdır sizə bu rəftar, rəftar, (*2 dəfə*)
Xalqın evində dava etmək pis şeydir.
Xalqın evində dava etmək pis şeydir.
Adama yaraşmaz, adama yaraşmaz,
Adama yaraşmaz, maz, maz, maz, maz, maz...

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Rüstəm bəyin həyəti ilə küçədə vaqe olur. Rüstəm bəyin həyəti hasar ilə məhsurdur. Pərdə qalxdıqda həyətdə Sərvər ilə Gülnaz görünür. Pərdədən qabaq musiqi çalır. Sonra tarda "Şahnaz" çalınır. Pərdə qalxır.

Sərvər

Cahanda var görəsən dərdi-eşqə bir çara,
Bu eşq o eşqdir ki, Məcnuni qoydu avara.

Gülnaz

Bu eşq o eşqdir ki, Fərhada dağı çapdırdı,
Dübarə tişəni çaldırdı başa o biçara.

(Musiqi)

İkisi bir yerdə

Çün bahar oldu açıldı...
Gül açıldı hər yanda.

(Musiqi)

Çün bahar oldu açıldı...
Gül açıldı hər yanda.
Bülbül etdi ahü zarü
Nalə çəkdi oxudu. (*2 dəfə*)

(Musiqi)

Çünki gördü xari bülbül,
Söylədi ki, ey birəhm!

(Musiqi)

Çünki gördü xari bülbül
Söylədi ki, ey birəhm!
Səndə yoxdur eşq odu,
Gəl həzər et naləmdən. (*2 dəfə*)

(Musiqi)

Aşiq oldur ki, veribdir canini ol canana.

(Musiqi)

Aşiq oldur ki, veribdir canini ol canana,
Verməyibsə canini ol aşiq olmaz canana. (*2 dəfə*)

Bu əsnada Məşədi İbad, əlində bir yaylıq alma və armud küçədən gəlib, hasarın yanında dayanır.

Məşədi İbad. Mən istəyirdim ki, adaxlıbazlığa gecə gələm, halbuki gündüz də bu hasardan aşmaq çətindir. Ya Allah!.. (*İstəyir hasardan aşsın, amma bacarmayır.*) Yox, görünür ki, mümkün olmayacaq. Qoy bir hambal çağırım, ayağımın altında yatsın. (*Çağırır.*) Ada, hambal!

Hambal (*yüyürür*). Nə deyirsən, Məşədi? Yükün nədir? (*Kəndirini çıxardır.*)

Məşədi İbad (*cibindən bir abbası çıxardır*). Al abbasını, ayağımın altında yat.

Hambal. Məşədi, olmaya oğurluğa gedirsən?

Məşədi İbad. Kəs səsini, axmaq! Adaxlıbazlığa gedirəm!

Hambal. Məşədi, Allah qüvvət versin, amma belimi şikəst eylərsən. (*Yıxılır. Məşədi İbad onun belinə çıxır və hasardan baxır.*)

Məşədi İbad. Ada, hambal, o yaylığı mənə ver!

Hambal. Məşədi, tərpənsəm yıxılarsan ki...

Məşədi İbad. Dayan görüm! (*Düşüb yaylığı götürür, bir də çıxanda yaylıq açılır, alma, armud yerə dağılır.*)

Məşədi İbad (*hasardan baxır*). Qız oradadır, yanında da bir oğlan var. Görəsən o kimdir?

Gülnaz (*onu görüb*). Vay, dədəm vay!.. O kimdir? Mən qaçıram! (*Qaçır.*)

Məşədi İbad (*Sərvərə*). Oğlan, sən kimsən?

Sərvər. Bəs sən kimsən?

Məşədi İbad. Mən Məşədi İbadam!

Sərvər. Mən Sərvərəm!

Məşədi İbad. Bəs sən orda nə qayırırsan?

Sərvər. Bəs sən orda nə qayırırsan?

Məşədi İbad. Mən adaxlıbazlığa gəlmişəm!

Sərvər. Mən də adaxlıbazlığa gəlmişəm!

Hambal. A Məşədi İbad belim şikəst oldu.

Məşədi İbad. Ada, dayan görum bu nə deyir! Qoçaq, sən kimin adaxlısısan?

Sərvər. Qoçaq, bəs sən kimin adaxlısısan?

Məşədi İbad. Mən Rüstəm bəyin qızı Gülnaz xanımın!

Sərvər. Mən də Rüstəm bəyin qızı Gülnaz xanımın!

Məşədi İbad (*acıqlı*). Kəs səsini, axmaq! Sənin nə ixtiyarın var ki, mənim adaxlımın adını çəkirsən?

Sərvər. Axmaq sənsən ki, hasara dırmaşmısan!

Hambal. A Məşədi, belim qırıldı, düş aşağı!

Məşədi İbad. Qurban olasan bu altımdakı hambala, yoxsa əhədini kəsərdim! (*Düşür.*)

Sərvər. Heç bu iş pis olmadı, görək axırı nə olacaq?

Hambal. Məşədi, belim sınıbdır, bir abbası da verəcəksən.

Məşədi İbad (*hambala*). Heç başa düşmürəm ki, bu nə işdir?

Hambal. Məşədi, deyəsən qızın iki namizədi vardır?

Məşədi İbad. Əşi, mən qızın halalca adaxlısı ola-ola hasarın bu tayında qalım, bir dələduzun birisi də o tayda olsun? Ay bivəfa arvad! (*Fikrə gedir.*)

(Musiqi)

Məşədi İbad (*rast oxuyur*)

Mən nə danəstəm öz əvvəl ke, to bi mehro vəfai,
Əhdi nabəstən əz on beh ke, bə bəndi ya nə pai.

Burada mənim yadıma Leyli və Məcnun əhvalatı düşür.

Məcnun o tayda ahü-zar edir,
Leyli bu tayda əğyar ilə eyş edir.

(Musiqi)

İndi mən bu tayda hambal ilə qalmışam,
Yarım da o tayda əğyar ilə söhbət edir.

(Musiqi)

Yox, mən o məcnunlardan deyiləm, bu saat gedib qoçuları buraya yığacağam! (*Gedir.*)

Gülnaz ilə Sərvər çıxıb oxuyurlar.

Sərvər (*şikəstəyi-fars oxuyur*)

Ey mələksima ki, səndən özgə heyrandır sana,
Həqq bilir, insan deməz, hər kim ki, insandır sana
Verməyən canın sənə bulmaz həyati-cavidan,
Zindeyi-cavid ona derlər ki, qurbandır sana.

Gülnaz və Sərvər (*təsnif oxuyurlar*)

Gözəlim sənsən mənim.

(Musiqi)

Mehribanım, həmdəmim.

(Musiqi)

Dəxi yoxdur heç qəmim,
Çox şükür sənə, ey xuda!
Olmadıq biz əğyarə fəda. } (*2 dəfə*)

(Musiqi)

Sən mənimsən, mən sənin.

(Musiqi)

Ola bilməz özgənin.

(Musiqi)

Həmi bir can, bir tənin,
Çox şükür sənə, ey xuda!
Olmadıq biz əğyarə fəda. } (*2 dəfə*)

(Musiqi)

Dərdimə tapdım dava,
Qalmadı heç bir səfa. } (*2 dəfə*)
Axır ki, gördük cəfa,
Çox şükür sənə, ey xuda!
Olmadıq biz əğyara fəda. } (*2 dəfə*)
Əğyara fəda, əğyara fəda...

Bu əsnada Qoçu Əsgər və başqa adamlar gəlib,
Məşədi İbadla birlikdə hasarın dalında dayanıb baxırlar.

Məşədi İbad. Eşidirsiniz? Bayatı oxuyur.

Bunlar hasarın deşiklərindən baxırlar.

Gülnaz

Aləmi pərvanəyi-şəmi-camalın qıldı eşq,
Cani-aləmsən, fəda hər ləhzə min candır sana.

Əsgər. Oxa!.. Qız da oxuyur ki!

Məşədi İbad. İndi gördünmü iş nə haldadır?

Əsgər. Məşədi İbad, bir bəri zəhmət çək. (*Qabağa gətirib, nə isə deyir.*)

Sərvər

Çıxma, yarım, gecələr, əğyar tənindən sakın,
Sən məhi-övci-məlahətsən, bu nöqsandır sana.

Əsgər. İki min manat pul verərsən: bir min mənim, bir min də yoldaşlarımın.

Məşədi İbad. Mən yazıq bir o qədər pulu sənə haradan verim?

Əsgər. Özün bil, istərsən çıxaq gedək. Sən də camaat içində biabır ol. Heç kəs də sən ilə alver etməz. Sənin kimi binamus adamı biz heç içimizə qoymarıq. Adə, gedək!

Məşədi İbad. Bir bura bax. Yaxşı, verərəm. Sabah gəl pulları apar, amma indi bircə əvvəl bu oğlanı öldür, yoxsa onun səsini eşitdikcə bağrım çatlayır.

(Musiqi)

Qoçular

Ey, kimsən orda, aç qapını!
Aç qapını, gələk səni öldürək!

(Musiqi)

Pişto doludur, hazır etmişik,
Aç qapını, gələk səni öldürək!
Ey, kimsən orda, aç qapını!
Aç qapını, gələk görək kimdir o.
Ey kimsən, ey, aç qapını!
Aç qapını, gələk səni öldürək!

Gülnaz

Ax, Sərvər, qorxuram, səni öldürər bunlar.
Gəl tez buradan qaçaq, tez-tez, gedək özgə şəhərə.

Ah, Sərvər, qorxuram,
Açma gəl qapını sən.
Yoxsa səni öldürər
Qoçunun gülləsi.
Gəl bəri, Sərvər, gəl!

Qoçular.

Aç qapını!

Sərvər

Söyləyin görüm bir siz,
Nə istəyirsiniz məndən?
Nə lazım sizə bu evdən,
Ta xəlqin qapısından.
Qorxmuram mən sizdən,
Hər nə bilsəniz edin!
Yaxşısı budur, siz gedin,
Öz iş-gücünüzə.

Qoçular

Sənsən Məşədi İbadın
Gəlnin əlindən alan.
Sənsən xəlqin evin yıxan.
Səndə vardır çox günah,
Gəldik səni öldürək.
Ta kim, Məşədi xoş olsun.
Biz də ondan pul alaq,
Eyşü işrətə məşğul olaq
Ondan biz!

Əsgər (*qoçulara*). Çıxardın piştoları, hazır olun! Mən bir, iki, üç dedikdə siz atın! Hazır olun! Bir... iki...

Sərvər fit çalır, qaradovoy çağırır. Qoçular həmən saat qoyub qaçırlar. Hambal ilə Məşədi İbad dəxi qaçırlar. Sərvər gülür.

Gülnaz. Ax, qorxudan ürəyim üstümdə durmur.

Sərvər. Heç qorxma, bəri gəl, gedək otağa. (*Gedirlər.*)

Bu əsnada Rüstəm bəy küçədə vaqe olub, həyətə girmək istəyir.

Rüstəm bəy. Hərçənd Məşədi İbadın bir-iki min manat qulağını kəsdim, amma Gülnaza yazığım gəlir. Binəva bədbəxt olacaqdır. Mənim qızım Məşədi İbadın tayı deyildir, amma nə eyləmək, pulsuzluğun üzü qara olsun.

İstəyir ki, içəri girsin, bu əsnada Sərvər dəxi həyətdən çıxır. Bunlar bir-birini görüb, bir qədər təəccüb ilə baxışırlar.

Rüstəm bəy. Sən kimsən və mənim evimdə nə qayırırsan?

Sərvər. Mən bir student babayam və sənin evində heç nə eyləmirəm.

Gülnaz ilə Sənəm çıxırlar.

Rüstəm bəy (*acıqlı*). Bu saat de görüm, nə cürət edib mənim evimə gəlibsən?

Gülnaz. Öldürəcəkdir, hamımızı qıracaqdır.

Sənəm. Allah, sən saxla, yazığıq!..

Sərvər. Mən sənin evinə heç vaxt gəlməzdim, hərgah, sənin qızına aşiq olmasaydım və sənin qızın da mənə aşiq olmasa idi.

Rüstəm bəy (*hirs ilə*). Bu nə sözdür danışırsan? Nə cürət edirsən? Bu saat başına bir patron çaxaram ki, beynin dağılar.

Sərvər. Patronu mən özüm çaxacağam.

Rüstəm bəy. Kimə?

Sərvər. Özümə!

Rüstəm bəy. Bu nə sözdür!

Sərvər. Çünki mən Gülnazı öldürəndən sonra daha özüm yaşamayacağam.

Rüstəm bəy (*acıqlı*). Sən mənim qızımı öldürə bilməzsən!

Sərvər. Sənin xəbərin olmayacaqdır.

Rüstəm bəy. Neçün?

Sərvər. Çünki əvvəlcə səni öldürəcəyəm.

Rüstəm bəy. Bu nə danışır, ədə, dəlidir nədir?

Sərvər. Bax, sən bu qızı bədbəxt eyləmək istəyirsən. Amma mən, Sərvər, sən Rüstəm bəyə deyirəm ki, hərgah qızı mənə verməsən, onda bir güllə sənə, bir güllə ona və bir güllə də özümə vuracağam! (*Gedir.*)

Rüstəm bəy. Bacı oğlu, bir bura bax! Axı, mən özgəsinə söz vermişəm, iş-işdən keçibdir.

Sərvər. Hərgah sən mən deyənə razı olsan, işi düzəldərəm.

Rüstəm bəy. Nə tövr düzəldərsən?

Sərvər. Əvvəl de görüm, acığın soyudumu?

Rüstəm bəy. Soyudu.

Sərvər əyilib onun qulağına nə isə deyir.

Rüstəm bəy. Əşi, qoy görək! Eylə də iş olarmı?

Sərvər. Sənin canın üçün, mən düz deyirəm, razısanmı?

Rüstəm bəy. Yaxşı, razıyam, amma bəlkə baş tutmadı?

Sərvər. Onda qızı hər kəsə istəyirsən ver!

Rüstəm bəy. Çox gözəl!

Sərvər. Amma sən Məşədi İbada heç bir söz demə və onu tələsdir ki, tez toy eləsin.

Rüstəm bəy. Çox gözəl, deyəsən ağıla batan şeydir, görək?

Sərvər. Bax, əyər iş tutdu – tutdu və illah tutmadı...

(Musiqi)

Hamı

Babalın Sərvərin boynuna. (*2 dəfə*)

Sərvər

Əyər işi düz eləməsəm.

Rüstəm bəy

Düz eləməsən...

Sərvər

Gər bacarmasam...

Rüstəm bəy

Gər bacarmasan...

Hamı

Babalın Sərvərin boynuna. (*2 dəfə*)

Musiqi çalınır, oynayırlar və sonra gedirlər. Məşədi İbad pərişan və pəjmürdə bir hal ilə küçədə vaqe olur, hambal da dalınca.

(Musiqi)

Məşədi İbad (*bayatı oxuyur*)

Ayrı düşdüm yarımdan,
Əl çəkmişəm canımdan.
O qədər başımı itirmişəm ki,
Adım çıxıb yadımdan.

Hambal

Mən aşiq o kəndə də,
Belə o kəndə də, bu kəndə də.
Belə əcəb oğlan qoyub getmisən
A bu kişini əkən dədə!

Küçə adamları hamısı buraya yığılırlar.

Məşədi İbad

İşlərim hamısı zülüm getdi.
At axtardım çulum getdi.
Cavan qıza bel bağladım,
Beş min manat pulum getdi.
(Musiqi)

Adamlar

Əvvəldən aşina idin, yad oldun nədən? (*2 dəfə*)
Səni qoydu qaçdı o nazik bədən!
Ay belə iş olmaz, bala,
Heç belə iş olmaz!
Aman, aman, aman, aman,
Ay belə iş olmaz, bala,
Heç belə iş olmaz!

Məşədi İbad

Əvvəldən bilsəydim verməzdim pulu, (*2 dəfə*)
Xəlqin eyləməzdim cibini dolu.
Ay maralım, Gülnaz, bala, ay maralım, Gülnaz!
Aman, aman, aman, aman!..
Ay maralım, Gülnaz, bala, ay maralım, Gülnaz!

Adamlar

Dedin qocalıqda bir qız alasan, (*2 dəfə*)
Cavan qızı alıb evə salasan.
Ay belə iş olmaz!..

Hambal. A Məşədi, belim sınıbdır, sən gəl bir abbası da vergilən.

Məşədi İbad (*lap azarlı kimi*). A gedə, rədd ol başımdan! Mən nəyin dərdindəyəm, sən nəyin dərdindəsən. Təki mənim də dərdim sənin kimi bir abbası olaydı.

Millətpərəst Həsənqulu bəy gəlir.

Həsənqulu bəy. Məşədi İbad, salamünəleyküm. A kişi, bu nə işdir? Eşitdim ki, qızın iki adaxlısı vardır?

Məşədi İbad. A Həsənqulu bəy, sən allah, indi insaf eyləyin. Sənin yanında Rüstəm bəy demədi ki, qızı sənə verirəm?

Həsənqulu bəy. Dedi!

Məşədi İbad. Sonra məni evinə çağırmadı?

Həsənqulu bəy. Çağırdı!

Məşədi İbad. Siz də qonaq gəlmədiniz?

Həsənqulu bəy. Gəldik!

Məşədi İbad. Qonaqlıqda məni mübarəkbad eləmədiniz?

Həsənqulu bəy. Elədik!

Məşədi İbad. Birisi də mənə orada meymun demədi?

Həsənqulu bəy. Dedi!

Məşədi İbad. Mən də onunla dalaşmadım?

Həsənqulu bəy. Dalaşdın!

Məşədi İbad. Siz də bizi aralaşdırmadınız?

Həsənqulu bəy. Aralaşdırdıq!

Məşədi İbad (*bərkdən*). Bəs bu nə kələkdir ki, Rüstəm bəy mənim başıma gətirir, özü də hələ mənim beş min manat pulumu yeyibdir.

Həsənqulu bəy. Sən heç qəm eləmə. İşi düzəltmək asandır. İstərsən mən düzəldərəm!

Məşədi İbad. A kişi, atana Allah rəhmət eləsin, düzəlt, düzəlt, yoxsa əhvalım çox pərişandır.

Həsənqulu bəy. Çox gözəl! Onda tez ol, bir beş yüz manat ver, çünki bu işdə bir balaca pul lazımdır.

Məşədi İbad (*təəccüb ilə*). Nə? Beş yüz manat pul verim?!

Həsənqulu bəy. Əlbəttə, pulsuz olmaz ki!..

Məşədi İbad. Ə kişi, vallah, mən dağıldım, mən söküldüm, mən bu qədər pulu haradan alım verim!

Həsənqulu bəy. Özün bilərsən, amma mən belə güman edirəm ki, beş min manat verən adam, beş yüz də verə bilər, artıq pul deyildir.

Məşədi İbad (*əlini qoynuna salıb pul çıxardır*). Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu! Bu bir yüz, bu iki yüz, bu üç yüz. Özün də mənə iki yüz boşlusan, elədi beş yüz.

Həsənqulu bəy. Hə!.. İndi işi düzəldərəm, ancaq sən bir qəzetəçi Rzanı da gör, çünki Rüstəm bəy qəzetədən çox qorxan adamdır. (*Baxır.*) Aha, budur, özu də gəlir.

Rza vaqe olub Həsənqulu bəyə baş əyir və Məşədi İbadın yanına gedir.

Rza bəy. Salamünəleyküm, Məşədi! A kişi, bu nə əhvalatdır, deyirlər ki, qızın iki adaxlısı var imiş!

Məşədi İbad. Ay Rza bəy, səndən bir təvəqqəm var, sən gəl qələmi al əlinə və bu əhvalatı qəzetədə yaz, Rüstəm bəyi biabır eylə, çox təvəqqə edirəm!

Rza bəy. Bağışlayın, Məşədi, mən onu eyləyə bilmərəm!

Məşədi İbad. Neçün?

Rza bəy. Çunki o cür şey mənim məsləkimə müğayirdir, bu iş sənin öz xüsusi işindir, camaata nə dəxli var qəzetədə yazam?!

Məşədi İbad. A kişi, vallah, elə bunun özü qəzet əhvalatıdır.

Rza bəy. Yox, Məşədi. Mən bacarmaram və heç vaxt müğayir-məslək iş görə bilmərəm!

Məşədi İbad (*əlini cibinə salıb, bir yüzlük çıxardır və guya kağız əvəzinə göstərir*). A kişi, axır bu bir parça kağızı yazmaq çətin şeydirmi?

Rza bəy (*pulu görür*). Hə!.. Bu başqa məsələdir, indi başa düşdüm ki, sən nə deyirsən; yazaram, çox yaxşı yazaram!

Məşədi İbad. Bax, elə yaz ki, xalq oxuyub Rüstəm bəyə zad eyləsin... Adı nədir?.. Siz ona nə deyirsiniz?

Rza bəy. İzhari-nifrət!

Məşədi İbad. Hə, hə!.. İzhari-nifrət, izhari-nifrət!

Bu halda intelligent Həsən gəlir.

Həsən bəy. Sən keçən səfər məni askarbit eləmişsən, zato mən səni suda çəkmişəm.

Məşədi İbad. A kişi, sən allah, əl çək məndən. Mənə meymun dedin bəs deyil, sonra da suda çəkirsən?!

Həsən bəy. Xeyr, əl çəkmərəm, gərək sudda cavab verəsən.

Məşədi İbad. Ay camaat, mən burda öz həşrimə qalmışam, bu da gəlibdir ki, səni suda çəkirəm!

Həsənqulu bəy (*Məşədini bəri çəkir*). Məşədi, ağzına bir şey ver, rədd olsun!

Məşədi İbad. Yəni buna da pul verim?

Həsənqulu bəy. Bir əlli manat ver, əl çəkər.

Məşədi İbad (*çıxardır*). Ala, ala, rədd ol başımdan!..

Həsən bəy. Eto druqoye delo. Ərizəmi geri alaram.

Məşədi İbad. Diriqoy, ya qeyri diriqoy...

Hambal. A Məşədi, bu qədər xəlqə pul paylayırsan, mənə də bir abbası ver, belimi sındırıbsan!

Məşədi İbad. Əşi, rədd ol o yana, bir sən qalmışdın ki, məni soyasan. (*Yüyürür hambalın üstə, hambal qaçır, amma sonra yenə gəlir.*)

Həsənqulu bəy. Həzərat! Gəlin bu məsələni müzakirəyə qoyaq. Axı belə iş olmaz ki, Rüstəm bəy eyləyir, bu kişi də axı yazıqdır. Pulu gedir, özü də biabır olur. Gəlin bu saat Rüstəm bəyi bura çağıraq və onunla seryoznı danışaq!

Ham ı. Əlbəttə, əlbəttə.

Qapını döyürlər. Rüstəm bəy gəlir.

(Musiqi)

Böylə olmaz ki, sən aldadasan bizi,
Sən verirsən qızı
Özgə adama ərə getsin. (*2 dəfə*)
Bəs bu kişi yazıq necə etsin? (*2 dəfə*)

Məşədi İbad

Allaha and olsun, budur deyirəm:
Qızı mənə, qızı mənə gərək verəsən.
Verməsən hərgah, eylərəm bədnam,
Çünki mən bir adamam, baxmaram bəyə.

Ham ı. Böylə olmaz ki, sən... (*i. a...*)

Rüstəm bəy. Sözün doğrusu, mən qanmıram ki, siz nə deyirsiniz!

Məşədi İbad. Necə qanmırsan? Mənim pulumu yeyib, yalandan deyirsən ki, qızı sənə verəcəyəm, amma özgəsinə verirsən.

Rüstəm bəy. Kim deyir onu?

Məşədi İbad. Öz gözümlə gördüm ki, sənin qızının yanında bir cavan oğlan durubdur, soruşdum ki, ədə, sən kimsən, dedi: mən qızın adaxlısıyam!

Rüstəm bəy. Ha, ha, ha!.. O kişi zarafat edibdir. Bilirsənmi o kimdir? O qızın öz dayısıdır. Sənin lotuluq eləyibdir. Sən də inanırsan və bir də (*onlara*) Həsənqulu bəy, Rza bəy, sizin üçün eyb olsun ki, bu cürə axmaq sözə inanıb, mənim qapıma gəlirsiniz. Mən çox inciyirəm.

Həsənqulu bəy. Rüstəm bəy, vallah, bağışla bizi, Məşədi İbad yoldan çıxartdı.

Rza bəy. Sən Allah incimə bizdən, burada, rus demişkən, nedarazumeniya əmələ gəlibdir.

Məşədi İbad (*Rüstəm bəyə tərəf gedib, əlindən tutur*). Bağışla, bəy, Allah səndən razı olsun ki, bizi şəkki-şübhədən çıxartdın. Amma,

vallah, əhvalım çox pərişan olmuşdu. Ə kişi, mən deyirəm ki, axı Rüstəm bəy kişidir, belə şey eləməz. Qərəz ki, Allah şeytana lənət eyləsin! (*Gülə-gülə*) Rüstəm bəy mən istəyirəm ki, toyu bu günlərdə başlayam. Nə deyirsən?

Rüstəm bəy. Çox da yaxşı olar, nə qədər tez olsa, bir o qədər yaxşıdır.

Məşədi İbad. Onda mən bu gün istixarə elətdirərəm, bu yaxın xoş günlərin birində toyumuzu başlarıq.

Ham ı. Allah mübarək eyləsin! Məşədi İbad, toy hamamında bir yerdə çimək.

Məşədi İbad. İnşallah, bir yerdə çimərik. (*Kənara*) Bu şərtlə ki, hamam pulu sizdən.

Ham ı

Məşdi İbad, çox mübarək olsun!
Toyun sənin çox mubarək əst! } (*2 dəfə*)

Məşədi İbad

Çox sağ olun, çox da razıyam,
Zəhmət çəkib iş düzəltdiniz.

Ham ı

Məşdi İbad, çox mübarək olsun!
Toyun sənin çox mübarək olsun!
Çox mübarək olsun, çox mübarək olsun!
Olsun, olsun, olsun, olsun!..

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Bir hamamın soyunub-geyinən yerində vaqe olur. Sol tərəfdə (zaldan baxarkən) qapı və pilləkənlər, sağ tərəfdə, küncdə hamamın çimilən yerinə girən qapı var. Ortada hovuz və fantan, üstündən qəndil asılıbdır. Hamamçı Məşədi Qəzənfər sarı kürkə bürünüb, bayır qapının solunda öz yerində əyləşibdir. Qabağında manqal, üstündə güvəc, yanında mücrü. Özü də qəlyan çəkir. Ondan bir az sağ tərəfdə dəllək usta Məhərrəm Kərbəlayı Nəsirin başını qırxır. Bir az o yanda zurnaçılar oturubdurlar. Bir kənarda bir neçə nəfər camadar əllərində qırmızı fitə, balaqları çırmala dayanıbdırlar.

(Musiqi)

Hamı (*oxuyurlar*)

Hamamın içində, içində də çölündə (*2 dəfə*)
Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var.
Dövlətli, kasıb, tez gəl, yerin var, gəl!..

Hamamdan bir səs

Gəl, ey ha!.. Bir yumurta!..

Hamı

Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var.

(Musiqi)

Dəllək qırxır, hamamçı qəlyan çəkir.

Məşədi Qəzənfər. Həqiqət, hər bir şeyi fikirdən keçirib yenə baxıb görürəm ki, dünyada hamamdan başqa ləzzətli bir yer varsa, yenə hamamdır. Deməyin ki, özüm hamamçıyam ona görə belə danışıram, xeyr! Əşi, adam gərək insaf ilə danışsın: qışın soyuğunda harada qızışa bilərsən?

Hamı. Hamamda!

Məşədi Qəzənfər. Yazın istisində harada sərinləyə bilərsən?

Hamı. Hamamda!

Məşədi Qəzənfər. Daha kim deyə bilər ki, hamam pis şeydir?

Hamı. Əşi, heç kəs!

Məşədi Qəzənfər. Bəs belə de!

Usta Məhərrəm. Mən dəlləyəm. Özüm də ömrümün çox vaxtını hamamda keçirmişəm, heç bir belə heyifsilənmirəm. Çünki baxıb görürəm ki, mənim üçün hamamdan başqa heç bir yerdə xoş keçmir. Xalq gedir, adı nədir, o kluba, mənim klubum hamamdır. Xalq gedir teatra, mənim teatrım hamamdır. Əşi, işləyib yorulandan sonra harada istirahət edə bilərsən?

Hamı. Hamamda!

Usta Məhərrəm. Harda bir parça ləzzət görərsən?

Hamı. Hamamda!

Usta Məhərrəm. Daha kim deyə bilər ki, hamam pis şeydir?

Hamı. Əşi, heç kəs!

Usta Məhərrəm. Bəs elə, de gəlsin!

(Musiqi)

Hamı

Hamamın içində, içində də çölündə (*2 dəfə*)
Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var.
Dövlətli, kasıb, tez gəl, yerin var, gəl!..

Hamamdan bir səs. Gəl, ey ha!.. Bir papiros, özü də müştük ucunda. (*Aparırlar.*)

Hamı

Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var.
Dövlətli, kasıb, tez gəl, yerin var, gəl!..

(Musiqi)

Kərbəlayı Nəsir (*dəllək ülgücü itiləyərkən*). Mən özüm bisavadam, amma kitabda yazılanlardan oxuyubdurlar, mən də eşitmişəm: müsəlman padşahları bir yerdə şəhər salanda ilk əvvəlcə hamam tikdirmişlər, ondan sonra karvansara, ondan sonra məscid. Əşi, insaf ilə danışmaq, tozun-torpağın içində işləyirsən, çirkə-pasağa batırsan, bəs sonra harada təmiz olursan?

Hamı. Hamamda!

Kərbəlayı Nəsir. Harda pak olursan?

Hamı. Hamamda!

Kərbəlayı Nəsir. Daha kim deyə bilər ki, hamam pis şeydir?

Hamı. Əşi, heç kəs!

Kərbəlayı Nəsir. Bəs belə!

Məşədi Qəzənfər. Padşah dedin, yadıma düşdü: əşi, hamam indi hürmətdən düşübdür, qədim zamanlarda hamamın böyük hürməti varmış, bütün şairlər, süxəngulər, nağıl deyənlər, dərvişlər – hamısı hamama yığılıb, gözəl-gözəl söhbətlərlə hamam əhlini feyziyab edərlərmiş. Əşi, harada şirin-şirin söhbət eşidirsən?

Hamı. Hamamda!

Məşədi Qəzənfər. Harda dünya qayğısını yadından çıxardarsan?

Hamı. Hamamda!

Məşədi Qəzənfər. Daha kim deyə bilər ki, hamam pis şeydir?

Hamı. Əşi, heç kəs!

Məşədi Qəzənfər. Bəs elə isə de gəlsin!

(Musiqi)

Hamı

Hamamın içində, içində də çölündə (*2 dəfə*)
Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var!..

Hamamdan bir səs. Gəl, ey he!.. Ab xurdan, içində qəmiş. (*Aparırlar.*)

(Musiqi)

Hamı

Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var,
Dövlətli, kasıb, tez gəl, yerin var!.. gəl.

Usta Məhərrəm. Sizin canınız üçün, bir çox naxoşlular var ki, kurs qurtarmış həkimlər dərmanından acizdirlər. Amma naxoşu hamama gətirən kimi yaxşı olub sağalır. Ondan əlavə, hamam belə şeydir ki, insana zinət verir, abıra mindirir. Özünüz deyin, harda yaxşı qan aldırmaq olar?

Hamı. Hamamda!

Usta Məhərrəm. Harda yaxşı baş qırxdırmaq olar?

Hamı. Hamamda!

Usta Məhərrəm. Harda yaxşı həna yaxmaq olar?

Hamı. Əşi, hamamda!

Usta Məhərrəm. De, bəs belə!

Məşədi Qəzənfər. Həna dedin, yadıma Sədi Əlyəəlrəhmənin bir şeri düşdü ki, günlərin bir günündə rəhmətlik hamamda çimərkən öz məhbubindən həna alıb, ətrindən bihuş olub və o xüsusda bu şeri deyibdir:

Gili-xoşbuyi dər həmmam ruzi
Rəcid əz dəsti-məhbubi be dəstəm.
Bədu qoftəm ke, mişki, ya ənbəri
Ki, əzbuyi-delavizi-to məstəm.
Bəqofta mən gili-naçiz budəm
Və leykən moddəti ba gül neşəstəm.
Kəmali-həmneşin bər mən əsər kərd
Və gərna mən haman xakəm ki, həstəm!

İnandırıram sizi ki, əgər Sədi Əlyəəlrəhmə hamama gəlməsə idi, heç vaxt bu şeri yaza bilməzdi. Əşi, belə olandan sonra kim deyə bilər ki, hamam pis şeydir?

Hamı. Heç kəs!

Məşədi Qəzənfər. Bəs belə isə de gəlsin!

(Musiqi)

Hamı

Hamamın içində, içində də çölündə (*2 dəfə*)
Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var,
Dövlətli, kasıb, tez gəl, yerin var, gəl!..

Hamamdan bir səs. Gəl, ey ha!.. Qətfə! Gəl apar!

Camadarlar qətfə ilə gedirlər.

Hamı

Yay, yaz, qış, bahar isti, sərin var,
Dövlətli, kasıb, gəl, gəl, yerin var,
Dövlətli, kasıb, tez gəl, yerin var, gəl!..

İçəridən gəlirlər. Bəy hamamdan çıxır. Zurnaçılar çalmağa başlayırlar. Pərdə enir. Amma zurna səsi gəlir. İki dəqiqədən sonra pərdə qalxır. Zurna kəsir. Səhnədəkilər geyinmələrini tamam edirlər. Məşədi İbad yaxasını düymələyir, sonra əlinə aynanı alıb, saqqalına baxır. Həsənqulu bəy surtukunu geyir, Rza bəy varatnikini taxır. Həsən bəy başını darayır. Əsgər çəkmələrini geyir, hambal patavasını dolayır. Sairələr də kimi başını qurudur, kimi düymələrini bağlayır.

Məşədi Qəzənfər. Məşədi İbad, səhhəti-vücud! Allah mübarək eləsin! Oğullu-uşaqlı olasan!

Məşədi İbad. Sağ olasan, vücudun bibəla olsun!

Hamı. Allah mübarək eləsin, Allah mübarək eləsin!

Məşədi İbad (*cavab verir. Bir az conra ayna əlində*). Amma deyəsən bu səfər dəllək hənanı yaxşı yaxıbdır, daha ağ tük gözümə dəymir.

Əsgər. Maşallah, lap cavan olubsan ki!

Məşədi İbad. Cavan olmayanda qoca deyiləm ki...

Məşədi Qəzənfər (*bəylərə*). Bəydadaşlar, hamam xoşunuza gəldimi? Çünki sizlər bizim hamamlara gəlməzsiniz, ona görə soruşuram.

Həsənqulu bəy. Mən çoxdandır ki, töbə eləmişdim ömrüm olanı müsəlman hamamına getməyim, amma Məşədi İbadın xatirəsi yanımda o qədər əzizdir ki, töbəmi sındırıb məhz onun xatirəsi üçün bu hamama gəldim. Gəldim də... Heç, daha keçibdir.

Məşədi Qəzənfər. Bəs belə!

Rza bəy. Hərgah mən bir papaq alaydım və o papağa beş yüz otuz altı manat pul vermiş ola idim və bir nəfər də o papağı mənim başımdan götürüb müsəlman hamamının içinə tollaya idi, mən papaqdan əl çəkərdim, amma hamama girməzdim. Lakin Məşədi İbada söz vermişdim deyə, daha sözümdən qaça bilmədim.

Məşədi Qəzənfər (*sınır*). Bəydadaş, guya mənim hamamım murdardır? İçində urus çimir, yəhudi çimir?!

Rza bəy. Rəhmətliyin oğlu, girirəm xəznəyə, bilmirəm ki, bu içində çimdiyim sudur, neftdir, həlimdir, yoxsa bozbaşdır. Həzərat, vallah, sabah bunu mən qəzetəmdə yazaram. Belə eləməyin!

Həsənqulu bəy. Əşi, insafdır, o xəznəyə mən də girim, bu hambal da girsin? (*Hambalı göstərir.*)

Hambal. Bəy, məgər hambal hamamda çimməz, bəs hambalın canı can deyil?

Həsən bəy. Rza bəy prav. Doğrudan, mən də xəznəyə girib bilmədim ki, sudur, yoxsa ayrı bir jidkostdur. (*Həsənqulu bəyə*) No vı, vı rassujdayete kak burjuy! Necə yəni mən də girim, hambal da girsin, məyər hambal da sənin kimi adam deyil?

Hambal. Əlbəttə, adamam!

Həsən bəy. Onun da iki qulağı var, sənin də!

Hambal. Əlbəttə, iki qulağım var, bə nədi?

Həsən bəy. Onun da bir burnu var, sənin də!

Hambal. Əlbəttə, bir burnum var, bə nədi?

Həsən bəy. Yedinstvennaya raznitsa bundadır ki...

Həsənqulu bəy (*sözünü kəsir*). Bilirsən nə var, Həsən bəy! Sən keçən səfər Məşədi İbadla savaşdın, yenə də o bir evin içində oldu ki, heç kəs bilmədi, amma bura hamamdır, özün bilirsən ki, obşestvenni yerdir, təvəqqə edirəm ki, burada savaşmayasan.

Həsən bəy. Net, mən kak istinnıy narodnik protestuyu!

Bunlar, – Rza da iştirak edir, – əllərilə işarələrlə danışıb bəhs edirlər.

Məşədi İbad (*adamları nəzərdən keçirməklə sayır*). Görəsən bunların hamısını hamam pulunu, inşallah, mən verəcəyəm, hə?.. Bu bahalıqda bir bu qədər hamam pulu heç bilirsən neçə elər? Görüm, hamamçını bir no kələkləyə bilərəmmi?

Həsənqulu bəy (*münaqişəyə davam edərək*). Da ostavte menya v pokoye!

Həsən bəy. Net! Ya doljen protestovat.

Rza bəy. Əşi, ayıbdır hamamın içində...

Həsənqulu bəy. Da protestuyte, skolko xotite!

Həsən bəy (*bərkdən*). Ya ne pozvolyu, çtobı...

Əsgər, Rza tez durub bunların aralarına girirlər ki, aralaşdırsınlar.

Məşədi Qəzənfər. Bunların hamısı, görünür ki, mənim xəznəmin suyunun təsirindəndir.

Məşədi İbad (*onlara*). Bura bax, a!.. Cəncəl eləmək neyçün? Kişinin hamamında iki saatdır ki, müftə çimibsiniz, hələ bir durub cəncəl də salırsınız? Eyibdir ki... (*Sükut; hamamçıya müraciətən*) Məşədi Qəzənfər, sənin yadına gəlməz, çünki çox kiçikdin, mən ilk toy eləyəndə ki, mərhum Kərbəlayı Murtuzanın qızı, rəhmətlik Sonanı almışdım, toy həmin bu hamamda oldu. O zaman sənin oturduğun yerdə rəhmətlik sənin atan Məşədi Səməndər əyləşmişdi. Çıxanda durdum pul verməyə, dedi: ayıbdır ki... Nə qədər eylədim, pul almadı, yalvardım-yaxardım, almadı ki, almadı... Qərəz, rəhmətlik çox gözəl kişi idi.

Hamı bir-birinə baxıb himləşir.

Məşədi Qəzənfər. Heç mənim özümü demirsən. Keçən həftə bizim Məşədi Muxtarın toyu idi ki, mənimlə bərk aşnadır. Gəldilər hamama, gedəndə nə qədər eylədi, pul almadım, dedi inciyərəm səndən, dedim mən də inciyərəm səndən, almadım. Yanında lap bu Həsənqulu bəyə oxşayan bir nəfər bəy var idi. Çıxartdı cibindən iki dənə yüzlük üstümə atdı, istədim almayam, razı olmadı. Əlli manat dəlləyə verdi. Camadarların hərəsinə on manat naçay bağışladı; onun sabahı bir də gördüm ki, bir dəst yaxşı libas, iki kisə əla həna, bir kəllə qənd və bir dənə şirniyyat xonçası gəlibdir. Bunu da toy sahibi Məşədi Muxtar göndərmişdi. Axşam da ki, toyda idik. Qərəz, çox canfişanlıq oldu.

Bəylər himləşib gözləşirlər.

Həsənqulu bəy (*Həsən bəyə*). Vı vezde umestno, neumestno lezite sporit.

Rza bəy. Yenə başladılar ki...

Həsən bəy. Ya ne moqu, ya doljen protestovat, ya çelovek s ubejdeniyem.

Həsənqulu bəy. Da vı, prosto obmanşik i vse!

Həsən bəy (*bərkdən*). Çto? Vı menya oskorblyayete?

Həsənqulu bəy (*o da bərkdən*). Da oskorblyu!

Ara qarışır, Rza, Əsgər, sair qoçular qalxıb, onları aralaşdırmaq istəyirlər.

Həsən bəy. V takom sluçaye ya uxoju i potrebuyu udovletvoreniye za oskorbleniye. (*Gedir.*)

Rza bəy (*onun dalınca*). Həsən bəy, Həsən bəy, hara gedirsən, bir dayan. (*O da onun dalınca gedir.*)

Həsənqulu bəy (*kefsiz*). Həzərat, bağışlayın, xudafiz!.. (*Gedir.*)

Əsgər (*onun dalınca*). Əşi, bir dayan görək, bu saat hamımız gedirik!

Gedir, adamları da onun dalınca çıxırlar.
Qalır hamam əhli ilə Məşədi İbad və hambal.

Məşədi İbad (*kənara*). Lotular pul söhbətini eşidib qaçdılar. Yox, mənim kələyim baş tutmadı!

Məşədi Qəzənfər. Məşədi, sənin bu aşnaların nə hirsli adamlardır?

Məşədi İbad. Havanın təsirindəndir. (*Ona*) Qərdəş oğlu, haqq-hesabımız neçə elədi?

Məşədi Qəzənfər. Daha onu soruşmazlar ki, toy hamamıdır, neçə verirsən ver, istərsən mən də atam kimi səndən heç zad almayım...

Məşədi İbad. Xeyr, çox sağ ol! (*Kənara*) O, mənə baha oturar. (*Pul çıxardır verir.*) Bəsindirmi?

Məşədi Qəzənfər. Bəsdir, Allah bərəkət versin!

Məşədi İbad (*camadarlara*). Balam, ala, bu da sizin! Bunu da içəridəkilərə verərsiniz.

Camadarlar. Çox sağ ol, Məşədi! Allah bərəkət versin!

Hambal. Məşədi, abbasını vermədin, ha!..

Məşədi İbad. Adə, get gör bunlar necə oldu. Deyinən ki, qorxmayın, hamam pulu verildi, gəlsinlər bəyi hamamdan çıxarsınlar. (*Zurnaçılara*) Balam, siz də bir şey çalın, camaat yığılsın hamama, çıxaq gedək.

Zurnaçılar çalırlar, bir qədər keçmiş çıxıb gedənlər hamısı geri qayıdırlar.

Məşədi İbad (*durur*). Ya Allah!..

Hambal kömək edib düşürür aşağı. Zurnaçılar da qabaqda çala-çala çıxıb gedirlər.
Hamamçı, dəllək Məhərrəm, Kərbəlayı Nəsir və camadarlar yerlərində qalır, yenə də əvvəlki sayaqda olurlar.

Məşədi Qəzənfər. Bu urusbabılar heç ildə bir dəfə hamama getməzlər, qüsl-təharət nə olduğunu bilməzlər, gəlib burda mənim hamamımı pisləyirlər. Əşi, bir insaf ilə danışaq: harda yuyunub təmiz olarsan?

Hamı. Hamamda!

Usta Məhərrəm. Harda suya batıb çıxa bilərsən?

Hamı. Hamamın xəznəsində.

Kərbəlayı Nəsir. Daha kim deyə bilər ki, hamam pis şeydir?

Hamı. Əşi, heç kəs!

Məşədi Qəzənfər. Bəs elə isə de gəlsin!

(Musiqi)

Hamı

Hamamın içində, içində də çölündə (*2 dəfə*)
Yay, yaz, qış, bahar isti, sərin var.
Dövlətli, kasıb, gəl, gəl, yerin var,
Dövlətli, kasıb, tez gəl, yerin var, gəl!..

(Musiqi)

(Usta Məhərrəmlə Məşədi Qəzənfər kürkünü salıb oynayırlar, camadarlar da çırtıq vururlar.)

PƏRDƏ

DÖRDÜNCÜ PƏRDƏ

Məşədi İbadın evində vaqe olur. Toy məclisidir. Qoçu Əsgər "Padşah" olub, yuxarı başda əyləşibdir. Səhnədə olanlar: Həsənqulu bəy, Rza bəy, Əsgər və qonaqlar. Pərdə qalxır. Oyunçu qız ləzginka oynayır. Bəədə çıxıb gedir.

Əsgər. Mən tar çalana əmr edirəm ki, bir "Roza" havası çalsın, Həsənqulu bəy durub oynasın!

Həsənqulu bəy (*ayağa durur*). Padşah sağ olsun, vallah, mən oyun bilmirəm, məni bağışla!

Əsgər. Çəkin onu ortaya, bir-iki qırmanc vurun! (*Nökərlər Həsənqulu bəyi çəkib oynadırlar. Bəədə haman qərar ilə Rza bəy oynayır.*) Çəkin buraya Məşədi İbadı! Bəy gərək toyunda oynasın ki, ucuzluq olsun.

O biri otaqdan Məşədi İbadı gətirirlər. Məşədi İbad "Mirzəyi" havasını oynayır.

Həsənqulu bəy. Balam, dəxi vaxtdır, gedək gəlini gətirməyə.

H a m ı. Bəli, vaxtdır. (*Ayağa durub hamı gedir.*)

M ə ş ə d i İ b a d (*daxil olur*). Türkdə bir məsəl var: deyərlər ki, hər gözəlin bir eybi olar. Qonaqlar bu evdə olanda mən o biri otaqda səhərdən bəri fikirdə idim ki, ayə, mənim eybim nədir? İndi bilmişəm ki, mənim bir eybim varsa, o da eyibsizliyimdir. Hərçənd bu çox nazik mətləbdir, amma həqiqətdə də belədir ki, var. Hərgah mənim bir danə eybim olsaydı, xalq deyərdi ki, zərər yoxdur, hər gözəlin bir eybi olar. Amma indi mənim heç bir eybim yoxdur, ona görə də heç kəs mənə gözəl demir. Bütün məsələ bundadır. Vəssəlam... Hər halda qız nə qədər gözəl olsa da bir o qədər mənə baha oturdu: beş min manat Rüstəm bəy və toy xərci, beş yüz manat Həsənqulu bəyə rüşvət, yüz manat Rza bəyə rüşvət, əlli manat Həsən bəyə rüşvət, bir abbası hambala müzd, dörd yüz manat... Əşi, hesab eləməsəm yaxşıdır! Daha ürəyim xarab olur. Amma pis geyinməmişəm, ha!.. (*Ətrafına baxır və dalını görmək üçün fırlanır və sonra bir yerdə əyləşir.*) Bəli, qız gəlsin görək nə olacaqdır. (*Zümzümə eyləyir:*)

Şəb əsl şəhido şəmo şərabo şirini,
Qənimət əst ke, şəbi ruyi dustan bini!

Qız gəlsin, amma mən bir şeydən qorxuram ki, evdə oturmağa hövsələsi gəlməsin, çünki o cürə evdə böyümüş qız bir az kəmhövsələ olar. (*Acıqla*) Ağzı nədir! Vallahi, bax bu gündən bir yekə qıfıl alacağam. Səhər durub dükana gedəndə qapını qıfıllayıb, açarını aparacağam ta axşam qayıdana qədər; qoy qalsın evdə, evə öyrəşsin; pəncərələri də daldan taxta ilə vurduracağam. Çox da o yan-bu yan eyləsə, döyəcəyəm, çünki arvad ki, döyülmədi, xarab olar; arvad ərindən nə qədər kötək yesə bir o qədər ərin çox istəyər. Mən bunu qabaqlarda çox təcrübə eyləmişəm. Rəhmətlik Sonaya bir kərrə bir yumruq nə tori saldımsa, iki saat nəfəsini ala bilmədi; o idi ki, məni görən kimi üzümə gülərdi. Rəhmətlik Pərzada günlərin bir günü bir sillə çəkdim ki, bir dişi sındı, o idi ki, sonra bir kərrə olsun üzümə durmadı. Tək bircə mürtəd oğlunun qızı Gülxanıma bir ağac ilə elə çəkdim ki, o qaçan oldu ki, qaçdı! Bu da o yan-bu yan eyləsə budur, onun canıdır. (*Yumruq göstərir. Bu əsnada daldan: "Allah", "Allah" cəci gəlir, zurna çalınır.*) Paho, gəlin gəldi, mən qaçım!

Qaçır o biri otağa. Gəlini gətirirlər. Sənəm dəxi gəlin ilə içəri girir.

B i r i s i. Aha, de gəlin bəri çıxın! Sənəm, sən də bu biri otağa gəl.

Hamı çıxır, tək gəlin qalır.
(Musiqi)

M ə ş ə d i İ b a d (*daxil olur*)

Mən nə qədər, nə qədər qoca olsam da,
Dəyərəm min cavana... (*və i. a. oxuyur.*)

Xanım, ay xanım, zəhmət çək, başından çarşabı qoy yerə, sənə canım qurban!

Çarşabın içindən gəlin əvəzinə Sərvər çıxıb,
əlindəki siğarı tapança kimi uzadır Məşədi İbada tərəf.

M ə ş ə d i İ b a d. Vay!.. (*Deyib çökür.*)

S ə r v ə r. Səsin çıxdımı, başına bir güllə vuracağam! Tez ol, bir kağız-qələm götür!

M ə ş ə d i İ b a d (*qorxu ilə*). De qoy tapım da!.. (*Stolun üstündən kağız-qələm götürür.*) Bəs indi nə qayırım?

S ə r v ə r. Otur, bu saat mən deyəni yaz, tez ol, yoxsa vurdum gülləni!

M ə ş ə d i İ b a d. Yazım da, vallah, bu saat yazım!

S ə r v ə r. Yaz! (*Bərkdən deyir.*) Mən, Məşədi İbad Kərbəlayı Xocaverdi xan oğlu...

M ə ş ə d i İ b a d. Vaxsey!.. Atamın adını da bilir!

S ə r v ə r. Danışma, yaz, yoxsa odlaram səni!

M ə ş ə d i İ b a d. Vallah, danışmıram, yazıram, sonra?

S ə r v ə r. Rüstəm bəyin qızı Gülnaz xanımı almaq istəmirəm.

M ə ş ə d i İ b a d. İstəyirəm...

S ə r v ə r (*acıqlı*). İstəmirəm!..

M ə ş ə d i İ b a d. Yaxşı, istəmirəm, istəmirəm!..

S ə r v ə r. Və təvəqqə edirəm ki, onun kəbini geri oxunsun.

M ə ş ə d i İ b a d. Bunu kim təvəqqə edir?

Sərvər. Yaz mən deyəni, yoxsa beynini toz eylərəm!

M ə ş ə d i İ b a d. Yazıram, yazıram, sonra?

Sərvər. Və onun əvəzində qulluqçu Sənəmi alıram, yazdınmı?

M ə ş ə d i İ b a d. Yazdım...

Sərvər. De qol qoy!

M ə ş ə d i İ b a d. Vaxsey!.. Bəs mənim pullarım...

S ə r v ə r. Qol qoy, yoxsa partladaram səni. (*Qol qoydurur.*) İndi tərpənmə!

M ə ş ə d i İ b a d. Tərpənmirəm.

S ə r v ə r. Danışma!

M ə ş ə d i İ b a d. Danışmıram.

Sərvər dal-dalı gedib Sənəmi gətirir.

Sərvər. Bax bu sənin arvadındır. (*Dal-dalı gedir.*) İndi tərpənmə!

Məşədi İbad. Tərpənmirəm.

Sərvər. Danışma!

Məşədi İbad. Danışmıram.

Sərvər birdən dönüb cəld qaçır.

Məşədi İbad (*çığırır*). Ədə tutun, ədə qoymayın. Ay, tez olun, qaçdı! Ədə, bu nə iş idi mənim başıma gəldi, ay tutun, ay qoymayın!..

Camaat hamısı dolur içəri, səs-küy düşür.

Həsənqulu bəy. Ədə, bir dayan görək nə olubdur. Məşədi İbad, nə olub, nəql eylə görək!

Məşədi İbad. Əşi, siz bu gəlini gətirəndə bir baxmadınız görək, bu kişidir, yoxsa arvaddır?

Hamı. Bu nə əcəb sözdür?! Həlbəttə, gəlin arvad olar!

Məşədi İbad. Amma bu gəlin kişi çıxdı. Rüstəm bəy mənim evimi yıxdı, qızın əvəzinə mənə kişi göndərdi, o da qaçdı getdi.

Hamı. Paho!.. Bu nə işdir ki, o görübdür, belə də adam aldatmaq olarmı?

Birisi. Bəs nə tövr olsun, neyləməli?

Həsənqulu bəy. Məşədi, bir əlli manat ver, gedim bu saat qubernatoru buraya gətirim? Razısan?

Məşədi İbad (*azarlı kimi*). Yox...

Rza bəy. Məşədi, iyirmi manat ver, bu saat qəzetdə Rüstəm bəyi biabır eyləyim, razısan?

Məşədi İbad. Yox...

Əsgər. Məşədi, bir otuz manat ver, gedim Rüstəm bəyin beyninə bir patron çaxım, razısan?

Məşədi İbad. Yox...

Hamı. Bəs nə eyləməli?

Məşədi İbad. Gedin qazıya deyin ki, bu arvadın kəbinini mənim üçün kəssin!

Hamı. Ha!.. Bu başqa məsələdir. Nə eləmək: o olmasın, bu olsun, heç pis deyildir.

(Musiqi)

Hamı

Gedin, gedin, qazıya deyin,
Qoy kəbini kəssin. } (*2 dəfə*)

(*Sənəmə*) Məşədiyə arvad edək,
Razısan?

Cənəm. Hə!.. Hə!..

Hamı (*Məşədi İbada*). Razısan?

Məşədi İbad. Hə!.. Hə!..

Hamı. Razısız?

Məşədi İbad və Sənəm. Hə!.. Hə!..

Hamı. Bəs gedək biz?

Məşədi İbad

Gedin, gedin, qazıya deyin,
Qoy kəbini kəssin. } (*2 dəfə*)
(*Sənəmə*) Səni mənə arvad edə, razısan?

Sənəm. Hə!.. Hə!..

Məşədi İbad (*xora*). Razısız?

Xor. Hə!.. Hə!.. Razıyıq!.. Hə, Hə!.. Bəs gedək biz?

Bu əsnada səhnənin dal pərdəsi qalxır,
Sərvər ilə Gülnaz hündürdə dayanıb görünürlər. Tar çalınır.

Sərvər (*bayatı-qacar oxuyur*)

Yetdim vüsalına yarın, çəkdim əzabını,
Aşiqsə vəsl yolunda verər, əlbəttə, canını.

Gülnaz

Çün qalxdı pərdə, əyan oldu həp kəsə,
Məşuqə aşiqə vasil edər əlbəttə canini.

Hamı (*Məşədi İbada*)

Sən qoca, qız cavan,
Səndə yoxdur eşq odu.
Sərvərindir eşqi,
Sənə olmaz heç meyli. } (*2 dəfə*)

Məşədi İbad

Yanıma gəl, arvad, yanıma gəl, (*2 dəfə*)
Yanıma gəl, et məni şad!..

Hamı

Pulunu verdin sən, Məşədi İbad,
Əlinə düşdü dul arvad,
Qəm yemə hərçi badəbad,
Olmasa o, bu olsun!..

PƏRDƏ

ARŞIN MAL ALAN

Dörd pərdəli operetta

İŞTİRAK EDİRLƏR

Ə s g ə r – dövlətli bir tacir oğlandır
C a h a n – Əsgərin xalası, kök arvaddır
S ü l e y m a n – Əsgərin yoldaşı
V ə l i – Əsgərin nökəri
S u l t a n b ə y – qoca mülkədardır
G ü l ç ö h r ə – Sultan bəyin cavan qızıdır
A s y a – Sultan bəyin qardaşı qızıdır
T e l l i – Sultan bəyin qulluqçusudur
Qonşu qızlar

BİRİNCİ PƏRDƏ

Əsgərin evində vaqe olur. Otaq yaxşı bəzənib, fərş ilə döşənibdir. Stol və səndəllər dəxi vardır. Pərdə qalxmazdan qabaq Əsgər sağ tərəfdə və xalası sol tərəfdə oturublar. Qapının ağzında nökər Vəli hazır durubdur. Musiqi müqəddəməsi çalınır. Pərdə qalxır. Əsgər oxuyur.

Ə s g ə r

Nalədəndir ney kimi avazeyi-eşqim bülənd.

(Musiqi)

Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,
Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd.

(Musiqi)

Nalə tərkin qılmazam, nalə tərkin qılmazam,
Gər kəsilsəm bənd-bənd, gər kəsilsəm bənd-bənd.

(Musiqi)

Qıl mədəd, ey bəxt, yoxsa kami-dil mümkün deyil.

(Musiqi)

Qıl mədəd, ey bəxt, yoxsa kami-dil mümkün deyil,
Böylə kim, ol dilrüba bidərddir, mən – dərdmənd.

(Musiqi)

Nalə tərkin qılmazam, nalə tərkin qılmazam,
Gər kəsilsəm bənd-bənd, gər kəsilsəm bənd-bənd.

(Musiqi)

Açılır könlüm gəhi kim, giryeyi-təlxim görüb.

(Musiqi)

Açılır könlüm gəhi kim, giryeyi-təlxim görüb,
Açır ol gülrux təbəssüm birlə ləli-nuşxənd.

(Musiqi)

Nalə tərkin qılmazam, nalə tərkin qılmazam,
Gər kəsilsəm bənd-bənd, gər kəsilsəm bənd-bənd. A...

(Musiqi)

Cahan. Xalan sənə qurban, nə olubdur ki, belə qəmli-qəmli oxuyursan, adam eşidəndə ürəyi yanır?

Əsgər. Ürəyin yanırsa, görünur ki, sənin ruhun var, ay xala!

Cahan. Qanmadım nə dedin, xalan sənə qurban, bir də de, başa düşüm.

Əsgər. Heç, bir elə söz demədim ki, bir də təzədən deyim... İndi sən bura bax, ay xala. Bircə mənə de görüm axı belə olmaz ki, belə də qalsın, bu dünya belə gəlib belə getsə, bəs axırı nə olsun, onda işimiz necə olsun?

Cahan. Xalan sənə qurban, Allaha şükür, dünyaya nə olubdur ki?

Əsgər. Belə, deyirəm ki, axı bunun axırı necə olsun, nəticəsi necə olsun, məsələn, biz, bəli, böyüdük, başa çatdıq. Allaha şükür, mal-dövlət hamısı var, amma yenə də, bilirsən, bununla adamın işi düz olmur, ürəyi toxtamır, nə isə bir şeyə yenə ehtiyac görünür. Düz deyirəm, yoxsa yalan deyirəm?

Cahan. Xalan sənə qurban! Əlbəttə düz deyirsən, amma yenə də əməlli başa düşmədim ki, nə deyirsən.

Əsgər. Dediyim aşkar söhbətdir, ay xala! Belə, sözün doğrusu, o tərəfə, bu tərəfimə baxıb göz yetirirəm, görürəm yenə bir şeyim çatmır.

Cahan. Boy!.. Çatmayan bir şey varsa, gədəni göndər bazardan alsın, onda nə fikir var ki?..

Əsgər. Sən mən deyəni başa düşmədin. Əşi, mən sənin lə böyük şeyin söhbətini eləyirəm, sən bazardan danışırsan. Belə, deyirəm ki, bu cürə dolanacağın axırı nə olsun? Malım var, pulum var, amma pul sahibi gərək bir özgə şeyin də sahibi olsun. Vəhalun ki, heç malı, pulu olmayanların, görürsən ki, bir sürüsü var.

Cahan. Xalan sənə qurban! Sən bir tacir adamsan, sürünü nə edirsən? (*Vəli başını bulayır.*)

Əsgər. Of, ay xala! Yenə bilmədin nə istəyirəm?

Vəli (*birdən-birə*). Mən bilirəm ağa nə istəyir...

Əsgər (*ona tərəf yönəlir*). Ədə, sən də burdasan? Hə, de görüm nə istəyirəm...

Vəli (*irişə-irişə*). Mən bilirəm sən nə istəyirsən...

Əsgər və Cahan. Di bilirsən de, nə dayanıbsan!

Vəli. Sən istəyirsən... (*Birdən hırıldayıb, tez qapıdan çıxır, Əsgər gülümsünür.*)

Cahan. Boy, elə bil ki, gədənin dəliliyi var. (*Əsgərə*) Xalan sənə qurban, bircə məni yaxşıca başa sal görüm nə istəyirsən.

Əsgər. Ay xala, bura bax, ağlınca, mənim neçə yaşım var?

Cahan. Boy, bu ramazan yox, gələn ramazan gəlib ötəndən sonra sənin iyirmi səkkiz yaşın tamam olacaqdır. Nəyin dərdin çəkirsən? Sən ki hələ uşaqsan, səni görüm yüz yaşayasan!

Əsgər. Çox əcəb. Axı nə qədər uşaq olsam da yenə də ayaq üstə dura bilirəm ki?

Vəli daxil olub həmən sayaq dayanır.

Cahan. Əlbəttə dura bilirsən, Allaha şükür, sağ və salamat cavansan.

Əsgər. Yaxşı, indi bu sağ-salamat cavan bəs neyləsin, elə yeyib yatsın?

Cahan. Əsgər, sən Allah, gəl mənimlə açıq danış ki, mən başa düşüm; axı mən türkəsayəcə bir arvadam, ərəb dilini nə başa düşürəm, xalan sənə qurban.

Əsgər (*kənara*). Əşi, daha utanmaq yeri deyildir. (*Cahana*) Belə bilirsən nə var, xala? (*Bərkdən*) Mən arvad almaq istəyirəm ey, arvad, arvad!..

Vəli. Bax, mən deyən oldu... (*Hırıldayır.*)

Cahan. Buy... ay xalan sənə qurban, habeləcə de ki, mən də başa düşüm, daha bunun nə çək-çövürü var ki?!

Əsgər. Hə, bəs bunu bil ki, arvad almaq istəyirəm.

Cahan. Belə çox da yaxşı eləyirsən, xalan sənə qurban. Allah o günləri eləsin ki, toyunda oynayım. (*Vəli oynayır.*) Bax, Əsgər, xalan sənə qurban, gördün ki, axırda sən gəldin mən deyənə. Neçə vaxtdır ki, mən sənə deyirəm: Əsgər, gəl evlən, ev-eşik yiyəsi ol, oğul-uşaq sahibi ol, amma nə fayda var ki, sən qulaq asmırdın deyə, mən də daha dinmirdim. İndi görünür ki, mən deyənə gəldin. Əlbəttə, arvad al, toy elə, dost sevinsin, düşmən yansın. (*Vəli ah çəkir.*) Bax, istəsən günü bu güncə gedərəm, sənə qız axtararam. Rəhmətlik bacım canı ağzından çıxana kimi mənə deyirdi: Cahan, bax, Əsgəri sənə qoyub gedirəm; onu tək qoyma, evləndir. (*Ağlayır. Vəli bərk ah çəkir.*)

Əsgər. Əşi, daha bura ağlamaq yeri deyildir ki, qoy, söhbət açmışıq, görək axırı necə olur.

Cahan. Xalan sənə qurban, evlən!

Əsgər. Axı nə sayaq evlənim, iş elə burasındadır ki, evlənmək asan iş deyildir.

Cahan. Xalan sənə qurban, evlənmək su içmək kimi asan şeydir, onda nə çətinlik var ki? Ələlxüsus sənin kimi cavana ki, Allaha şükür,

həmi pulun var, həmi dövlətin var, həmi cavansan. Vallah, lap padşahın da qızını istəsən sənə verər. Bax, burda çox fikir lazım deyildir, qoy elə bu güncə çadramı başıma salıb, gedim sənin üçün qız bəyənib seçim. Ya özün istəsən mənə de, hansı bəyin və ya tacirin qızını istəsən gedim sənə alım.

Ə s g ə r. Axı mən nə bilirəm ki, hansı bəyin və ya tacirin qızı yaxşıdır ki, deyim get al; mən ki onları görməmişəm.

C a h a n. Buy!.. Xalan sənə qurban! Bəs mənim gözlərim kordur? Vallah, gedərəm, dolanaram, gəzərəm, baxaram, bəyənərəm, seçərəm, bir qız alaram ki, adam baxanda ağlı gedər.

Ə s g ə r (*gülür*). Ay xala, bəs elə olsa ağlım gedər, dəli olaram ki... Yox, xala, bu, əl verməz, mən gərək əvvəlcə özüm qızı görəm, xoşuma gəldi – alam, gəlmədi – almayam. Sən bir ağıllı-başlı mənə nağıl et görüm necə qız alarsan?

C a h a n (*oxuyur və oynayır*)

Çadramı sallam başıma,
Üz-gözümü bəzərəm. (*2 dəfə*)
Gedib sənə qız axtarıb,
Hər tərəfi gəzərəm. (*2 dəfə*)

(Musiqi)

Bəyin, xanın və tacirin
Qızlarını düzərəm. (*2 dəfə*)
Çəməndəki o güllərin.
Ən gözəlin üzərəm. (*2 dəfə*)

(Musiqi)

Xalan sənə qurban ola,
Zəhmətinə dözərəm. (*2 dəfə*)
Toyunda da sənin, bala,
Bax, beləcə süzərəm. (*2 dəfə*)

(Musiqi)

Bəs sən kişi xeylağı qızı nə sayaq görərsən, xəlq qızını sənə göstərərmi?

Ə s g ə r. Hə, bəs mətləb elə burdadır ki, səhərdən bəri sənə deyirəm ki, bunun axırı nə olsun. İstəyirəm evlənim, amma bilmirəm kimi alım; çünki heç kəsi görməmişəm və görmək də olmaz.

C a h a n. Ay xalan sənə qurban! Sən gəl ata-baba yolu ilə evlən. Sənin nə borcundur, qoy mən gedim sənə qız alım, hərgah pis olsa təqsir mənim boynuma.

Ə s g ə r. Ay xala, sən nə fikir edirsən? Mən arşını iki şahılıq çiti görməmiş almıram; halbuki diri gözlü arvad ola... Yox, mən bu sayaq evlənmək istəmirəm. Bacarsan mənə bir yol göstər ki, qızı görüm, sonra alım.

C a h a n. Xalan sənə qurban, nə yol göstərim?

Ə s g ə r. Görünür ki, heç bir yol yoxdur. Onun üçün mən də evlənmirəm.

Vəli ah çəkir. Sükut. Musiqi çalınır, sonra Süleyman daxil olur.

S ü l e y m a n. Cahan xala, kefin yaxşıdırmı? Vəli, sən necəsən?

C a h a n. Allaha şükür, sağ olasan, a Süleyman!

V ə l i. Bəy, iltifatın artıq olsun.

Süleyman Əsgərə tərəf gedib oxuyur.

(Musiqi)

S ü l e y m a n

Nədir sənin dərdin, bu nə ahü zardır? (*2 dəfə*)
Nədir sənin fikrin belə tarümardır? (*2 dəfə*)
Utanma, gəl söylə belə dərdini mənə, (*2 dəfə*)
Nə qüssədir böylə əsər eyləyib sənə? (*2 dəfə*)
Bu dünyada yoxdur belə dərdi-bidəva. (*2 dəfə*)
Davasın al dərdin, belə görginən səfa. (*2 dəfə*)
Eşitməmişsənmi, belə bir məsəl də var: (*2 dəfə*)
Nə arzu varsa, belə axtaran tapar! (*2 dəfə*)

Balam, nə olub ki, belə qaradinməzcə oturubsan, yoxsa dünyanın dərdi sənə qalıbdır?

Ə s g ə r. Ay Süleyman, yaxşı oldu sən gəldin; axı deyirlər ki, sən bir ağıllı adamsan, gəl görək, sən nə məsləhət tökürsən?

S ü l e y m a n. Deməli, sən özün inanmırsan ki, mən ağıllıyam?!

Ə s g ə r. İnanıram, amma məsləhət töksən lap yaxşı inanaram.

S ü l e y m a n. İndi bir-bir söylə görüm nə olubdur?

Ə s g ə r. Nə olacaqdır; onu fikir edirəm ki, yaxşı, axı bunun axırı nə olsun? Elə bu dünya belə gəlib belə getsə...

Süleyman (*sözünü kəsir*). Dayan, bildim nə istəyirsən.

Əsgər. Nə istəyirəm?

Süleyman. Əlbəttə, arvad almaq istəyirsən.

Hamı təəccüb edir.

Əsgər (*təəccüblə*). Paho, nə bildin?

Süleyman. Sifətindən görürəm. Onu bilmək çətin deyil ki; (*Cahana*) Belədir, belə deyil, Cahan xala?

Cahan. Qadan alım, əlbəttə elədir.

Süleyman (*Vəliyə*). Belədir, belə deyil, Vəli?

Vəli. Bəy, əlbəttə belədir.

Süleyman (*Əsgərə*). İndi bildin ki, mən ağıllıyam?!

Əsgər. Yarısına qədər bildim. Aşna, indi bir iş də var; hərgah ona bir tədbir töksən, onda bilərəm ki, başdan ayağa qədər ağıllısan.

Süleyman. De bir-bir söylə, qulaq asım.

Əsgər. Bax, Süleyman, mən belə fikirdəyəm ki, qız almaq mal almaq kimi bir şeydir. İndi malın pisi-yaxşısı olan kimi...

Süleyman. Dayan, bildim nə istəyirsən.

Əsgər. Nə istəyirəm?

Süleyman. İstəyirsən ki, əvvəlcə qızı görub, baxıb, sonra alasan.

Yenə hamı təəccüb edir.

Əsgər (*təəccüblə*). Balam, necə bildin?

Süleyman. Ağzını açan kimi. Onu bilməyə nə var ki... (*Cahana*) Belədir, belə deyil, xala?

Cahan. Qadan alım, əlbəttə elədir.

Süleyman. Belədir, belə deyil, Vəli?

Vəli. Bəy, doğru buyurursan.

Süleyman (*Əsgərə*). İndi bildin ki, başdan ayağa qədər ağıllıyam?

Əsgər. Bir azca qalıbdır, hərgah bir işi də bilsən, onda imanım kamil olar.

Süleyman. Bir-bir söylə, qulaq asaq.

Əsgər. Yaxşı, ağıllı oğlan! Bəs mən qızı haradan görüm və nə sayaq görüm ki, heç olmasa bir balaca bələd olum?

Süleyman. Ondan asan nə var ki; paltarını dəyiş, köhnəsini gey; qoltuğuna bir top çit-mit nə varsa vur, əlinə də bir arşın al; ondan sonra düş qapı-qapı gəz və arşın mal sat. Bu halda, gördüyün qızların birisini seç, sonra lələşini göndər, gedim elçilik eləyim, vəssəlam.

Əsgər (*sevinir*). Əcəb fikirdir, vallah!

Cahan. Qadan alım, əlbəttə yaxşı fikirdir.

Süleyman. Ayrı cürə əlacı yoxdur. (*Cahana*) Belədir, belə deyil, xala?

Cahan. Qadan alım, əlbəttə belədir.

Süleyman. Belədir, belə deyil, Vəli?

Vəli. Bəy, doğru buyurursan.

Süleyman (*Əsgərə*). İndi gördün ağıllıyam!

Əsgər. Ağıllısan, qardaş, ağıllısan! Vallah, sən deyən kimi edəcəyəm.

Cahan. Ay Süleyman, bəs sən niyə özünü qocaldıb evlənmirsən?

Süleyman. Mən də evlənərəm, xala; o fikirdən mənim də başımda var. Hələ indi əvvəlcə bir Əsgəri evləndirək; görünür ki, bu çox tələsiyir. Sonra mən də evlənərəm. (*Birdən*) Yaxşı, xala, bəs sənin fikrin nədir?

Cahan. Heç nə, qadan alım, nə olacaq ki?

Süleyman. Yox, xala, daha bu qədər dul qaldın bəsdir. Qoy səni bir Allah bəndəsinə verək, canımıza dua eləsin.

Cahan. Buy... qadan alım, mənim nə ərə getmək vaxtımdır ki?!

Süleyman. Necə? Çox balacasan?.. Əlbəttə, vaxtındır! Belədir, belə deyil, ay camaat? Əlbəttə belədir. (*Vəliyə*) Balam, Vəli, sən də hazırlaş ha!..

Vəli utanır, başını aşağı salır.

Süleyman. Hə... Əsgər, fikrə gedibsən?

Əsgər. Vallah, sabahdan arşın mal satan olacağam.

Süleyman. Əcəb edərsən, Allah səni də tez muradına yetirsin, bizi də; belədir, belə deyil, xala?

Cahan. Qadan alım, əlbəttə belədir.

Süleyman. Belədir, belə deyil, Vəli?

Vəli. Bəy, doğru buyurursan.

Süleyman. Bəs indi ki, belə oldu, qulaq as! (*Oxuyur.*)

(Musiqi)

Öyrən bu kələyi, arvadı tap, tez toy elə, (*2 dəfə*)
Bil kim, düşməyəcək böylə kələk bir də ələ. (*2 dəfə*)
Amma, bax, unutma sən, unutma sən bizləri sən,
Görəndə qaşı qara, gözü qara qızları sən.

H a m ı (*Əsgərdən başqa*)

Amma, bax, unutma sən, unutma sən bizləri sən,
Görəndə qaşı qara, gözü qara qızları sən.

(Musiqi. Oynayırlar.)

C a h a n

O gün ola, balam, toy edəsən, qız alasan, (*2 dəfə*)
Evlənmək işini aramıza dəb salasan. (*2 dəfə*)
Bizə də sən qur kələk, sən qur kələk, sən qur kələk,
Bəlkə biz də gün görək, bir gün görək, bir gün görək.

H a m ı

Bizə də sən qur kələk, (*2 dəfə*)
Bəlkə biz də gün görək. (*3 dəfə*)

(Musiqi. Oyun).

V ə l i

Düş bazar-şəhərə, sat arşın mal, Əsgər ağa! (*2 dəfə*)
Axtar, bax qızı tap, tez arvad al, Əsgər ağa! (*2 dəfə*)
Dərdinə tapdın əlac, tapdın əlac, tapdın əlac,
Vəliyə sən bir yol aç, sən bir yol aç, sən bir yol aç.

H a m ı

Dərdinə tapdın əlac, (*3 dəfə*)
Bizə də tez bir yol aç. (*3 dəfə*)

(Oyun)

P Ə R D Ə

İKİNCİ PƏRDƏ

Musiqi müqəddiməsi çalınır, sonra pərdə qalxır. Sultan bəyin evinin qabağıdır. Gülçöhrə, Asya və Telli oturub; biri tikiş tikir, digəri corab hörür.

Gülçöhrə (*tikiş tika-tikə oxuyur*)

(Musiqi)

Pərişan xəlqi-aləm ahü əfğan etdiyimdəndir.

(Musiqi)

Pərişan xəlqi-aləm ahü əfğan etdiyimdəndir,
Pərişan olduğum xəlqi pərişan etdiyimdəndir. (*2 dəfə*)

(Musiqi)

Dili-zarimdə dərdi-eşq günü-gündən füzun olmaq.

(Musiqi)

Dili-zarimdə dərdi-eşq günü-gündən füzun olmaq,
Yetən bidərdə tədbir ilə dərman etdiyimdəndir. (*2 dəfə*)
Deyil bihudə gər yağsa fələkdən başıma daşlar,
Binasın tişeyi-ahımla viran etdiyimdəndir. (*2 dəfə*)
Ah... Gəl yarım! (*3 dəfə*)
Gəl yarım! (*3 dəfə*)

A s y a (*ah çəkir*). Ay Gülçöhrə, sən oxuyanda həmişə mənim ürəyim tutulur, bikef oluram.

G ü l ç ö h r ə. Görünür ki, oxumağım sənə xoş gəlmir.

A s y a. Yox, çox xoş gəlir; elə ona görə də məni bir sayaq qəm basır, qüssə eliyirəm.

G ü l ç ö h r ə. Ah, elə bizim ömrümüz başdan ayağa kimi qəm-qüssə deyilmi?

A s y a. Hə, vallah, doğru deyirsən.

T e l l i. Ay xanımlar, nə olub ki, qəm-qüssə eliyirsiniz? Allah qoysa, Sultan bəy bu gün-sabah sizi ərə verər, gedib ev yiyəsi, oğul-uşaq sahibi olarsız, onda qəminiz də olmaz.

G ü l ç ö h r ə. Ah, Telli, o cürə ki, bizi ərə verirlər, heç verməsələr yaxşı olar.

T e l l i. Nə üçün, ay xanım, niyə elə danışırsan?

G ü l ç ö h r ə. Doğru deyirəm, vallah, o cürə ərə getmək mənim xo-şuma gəlməz ki, heç bilmirsən səni kimə verirlər, ərin kim olacaqdır, getdiyin adam cavandır, qocadır, keçəldir, qoturdur, adam döyəndir...

A s y a (*təəccüblə*). Bəs, ay Gülçöhrə, onda daha heç ərə getməyib, evdə qalıb, un çuvalına tay olacaqsan?

T e l l i. Allah eləməsin.

G ü l ç ö h r ə. Mən deyirəm ki, evdə qalıb un çuvalına tay olasan? Mən onu demək istəyirəm ki, belə, adam əvvəlcə bir görə ki, kimə gedəcəkdir. Baxa, bəyənə, təhər-töhrünə bələd ola, sonra ərə gedə.

A s y a (*gülür*). Elə söz danışırsan ki, bişmiş toyuğun gülməyi tutar. Sən bu dörd divarın içində kimi görə bilərsən, ay yazıq ki, (*rişxəndlə*) hələ baxıb bəyənəsən?!

Gülçöhrə. Elə olanda, evdə qız qalmaq yaxşıdır.

Telli. Əşşi, təki ağam sizi ərə versin, mən qaçıb, gedib nişanlını görərəm, evinə-eşiyinə baxaram, sonra gəlib hamısını sizə nəql edərəm.

Gülçöhrə ilə Asya gülürlər.

Gülçöhrə. Yaxşı, ay Telli, görünür ki, bizim adaxlımızı bir sən görsən kifayətdir, dəxi bizim görməyimiz lazım deyilmiş.

Telli. Yox, xanım, əvvəl mən görərəm, sonra siz görərsiniz.

Asya. Yaxşı, Telli, qoy sən deyən olsun; təki bizi ərə versinlər, yerdə qalanı asandır.

Gülçöhrə. Yox, mənciyəz görüb bəyənməyincə ərə getməyəcəyəm. Amma siz elə görməmişdən ərə gedərsiniz.

Telli. Vallah, xanım, elə görməmişdən getmək lazımdır; yoxsa əvvəl görəndə daha sonra yaxşı olmur; amma görməyəndə ürəyin tələsir ki, bir tez görəsən. (*Oxuyur.*)

Sən o yanda, yar bu yanda,
Ceyran tək boynun buranda
Baxışın min canlar alır,
Məni qəmə, dərdə salır.

(Musiqi)

Sən o yanda, yar bu yanda,
Hərdən qıyqacı baxanda
Gözüm o gözlərdə qalır,
Məni qəmə, dərdə salır.

(Musiqi)

Sən o yanda, yar bu yanda,
Saçların üzə salanda
Göylərə ahım ucalır,
Məni qəmə, dərdə salır.

(*Nəğl edir.*) Səni yaxşıca geyindirirlər, bəzəyirlər, sonra faytona mindirib allah-allah ilə aparırlar. Hələ, desən, ayağının altında qurban da kəsirlər, sonra otağa aparıb gərdək dalında oturdurlar, urəyin tıp-tıp döyünə-döyünə gözlüyürsən ki, qapı açılıb oğlan çıxdı...

Bu əsnada qapı açılıb Sultan bəy çıxır. Qızlar səslərini kəsib, işlərinə məşğul olurlar.

Telli (*kənara*). Allah eləməsin ki, belə oğlan olsun.

Sultan bəy (*əsnəyir*). Ay qız, Telli, min kərə demişəm ki, mən yatanda gəl mənim üstumü basdır; indi üstü açıq yatmışam, deyəsən belimə soyuq dəyibdir. (*Əsnəyir.*) Ay... rəhmətlik Sona sağ olaydı... Qərəz ki, təklik bir sənət deyildir.

Gülçöhrə. Ay ata, bizə desəydin örtərdik, bilmədik.

Sultan bəy. Demədim, demədim, keçibdir. (*Əsnəyir.*) Di durun gedin evə, mən də şəhərə çıxıram. Evdən yaxşı muğayat olun. Durun! (*Qızlar hamısı durub, içəri daxil olurlar.*) Olmur, təklik mənə əl vermir. Beş ildir ki, günü-gündən geri gedirəm. Srağa gün həkim Mirzə Hüseynə deyirəm ki, oram ağrıyır; deyir ki, bir arvad al. Hanı bir elə arvad ki, uğruma gələ idi, ala idim! Əlbəttə, mənə qız verməzlər, çünki yaşım çoxdur, pulum da azdır və bir də tazadan top-tüfəng ilə evlənmək mənə yaraşmaz; mənimki bir hallıca, dulluca arvaddır ki, bir nəfər molla, üç manat pul və bir kəllə qənd ilə, iş tamam ola. Ondan sonra arvad başlar gecələr buğlarıma həna yaxar, səhərlər də yuyar. Yatanda da belimə soyuq dəyməz. Qərəz, gedək bazara, görək nə var, nə yox. (*Gedir.*)

(Musiqi)

Əsgər pərdə dalında oxuyur.

Əsgər

Arşın mal alan! (*2 dəfə*)
Arşın mal alan!
Bafta, tafta, buxça, hey...

Əsgər qoltuğunda arşın malı və əlində arşın səhnəyə çıxır.

Əsgər. Tamam üç gündür qapı-qapı dolanıb gəzirəm, amma axtardığımı tapa bilmirəm. Bu günü də başa çıxardım görüm nə olur. Ey bəxt, səndən mədəd!

(Musiqi)

(*Yenə oxuyur.*) Arşın mal alan! (*2 dəfə*)
Arşın mal alan!
Bafta, tafta, buxça, hey...

Bu halda Gülçöhrə, Asya və Telli bir tərəfdən və qonşu qızlar o tərəfdən bayıra çıxırlar. Qızlar Əsgəri çağırır.

Q ı z l a r. Arşınmalçı, arşınmalçı, bura gəl!

Q ı z l a r x o r u (*Soprano*)

Arşınmalçı mal göstər,
Bir-bir yerə sal göstər.
Göstər, göstər hər nə var,
(A l t) Qızlar bəzənmək istər.

(Musiqi)

H a m ı

Ah, nə gözəl parçadır,
Gülləri də qonçadır,
Toy bəzəyi xonçadır, xonça, xonça... (*2 dəfə*)
Ondan bir paltar tikdirsəydim,
Oynardım doyunca-doyunca.

(Musiqi)

Xor bir də təkrar olunur.

Ə s g ə r (*gedə-gedə*). Aha, deyəsən qız mədəninə düşmüşəm, bir sürü birdən çıxdı. Görək necə şeydirlər. (*Onlara*) Deyin görüm, gözəl xanımlar, nə istəyirsiniz? Çit, ipək, məxmər, bafta, tafta – hər şeyim var.

G ü l ç ö h r ə. Aç görək, xoşumuza gələn nə var?

Ə s g ə r. Bu saat, xanım! (*Açır, Gülçöhrəyə diqqət edir.*)

A s y a (*kənara*). Batmış nə göyçək oğlandır!

Ə s g ə r (*yenə diqqətlə Gülçöhrəyə baxır*). Bax, xanım, hər nə könül istəyən desən, hamısı burada vardır. (*Kənara*) Amma, əcəb qızdır!

T e l l i. Ay xanım, o tumanlıq nə yaxşıdır!

A s y a. A, nəyə lazım olan şeydir ki...

G ü l ç ö h r ə (*Asyaya*). Sənə lazım olmaz, amma Telliyə lazım olar.

Əsgər. Doğru buyurursan, xanım (*Kənara*). Ağıllı qızdır ha!.. (*Ona*) Neçə arşın buyurursan qulluqçunuz üçün kəsim.

G ü l ç ö h r ə. Arşını neçədəndir?

Ə s g ə r. Heç neçə, on iki qəpikdir. Amma sizə iki şahıdan hesab edərəm.

G ü l ç ö h r ə. Bu çür çitin arşınını biz həmişə səkkiz qəpikdən alırıq, elə versən, on arşın kəs.

Ə s g ə r. Zərər yoxdur, sizə qurban olsun! (*Ölçür.*) Bir... iki... (*Kənara*) Amma deyəsən axtardığımı tapmışam... üç... dörd... Vallahı, çox

gözəl qızdır... beş... altı... yeddi... Deyəsən, elə qismətim bu olacaqdır... səkkiz... doqquz... Görünür, zahiri gözəl olan kimi batini də gözəldir... on... on bir... on iki...

G ü l ç ö h r ə. On arşın bəsdir.

Ə s g ə r. Buy, hə!.. Fikrimdən çıxdı, budur, elə on arşındır. (*Kəsir qulluqçuya verir.*)

A s y a. Ah, bizə yaraşan heç zadın yoxdur.

Ə s g ə r. Xanım, sizə yaraşan şeyim çoxdur, ançaq evdədir. İnşallah, gələn səfər gətirərəm. (*Gülçöhrə pul verir.*) Xanım, evin abadan, sənin əlinin bərəkəti mənə bəsdir.

G ü l ç ö h r ə. Nə bildin ki, əlimin bərəkəti vardır?

Ə s g ə r. Elə belə, ürəyimə damdı ki, sənin əlin bərəkətlidir. (*Kənara*) Vallah, mən deyən elə budur ki, var. (*Ona*) Xanım, bura Sultan bəyin evi deyilmi?

G ü l ç ö h r ə. Özüdür.

Ə s g ə r. Abadan olsun! Bəs Sultan bəyin qızı hansınızdır?

A s y a. Bu özüdür.

Ə s g ə r. Allah ömr versim! (*Kənara*) Çox gözəl qızdır!

A s y a. Ay Gülçöhrə, gedək evə; yoxsa əmim gələr, acığı tutar. (*Gedirlər.*)

Ə s g ə r. Sağ olun, var olun!

G ü l ç ö h r ə (*gedə-gedə*). Sən də sağ ol!

Əsgər (*tək*). Sözün doğrusu, bundan yaxşı qız görmədim və ola bilsin ki, heç görməyəm. Gəl, Əsgər, ya qismət de, bunu al! Sultan bəy məni görmüyübdürsə də adımı eşidibdir. Bilir ki, dövlətli tacir oğlanam. Yəqin, qızı istəsəm verər. İndi görəsən qız bilsə ki, mən doğrudan da arşın mal satanam, mənə gələrmi? Qızı bilmirəm, amma Sultan bəy bilsə ki, mən arşın mal satanam, min il də qalsa qızı mənə verməz. Allahın altında qız bir də çıxaydı, yenə bir görəydim, danışdıraydım. Dayan... (*Qapıya baxır.*) Deyəsən gələn var. Qoy gizlənim görüm kimdir. (*Gizlənir, qapı açılıb Gülçöhrə çıxır.*)

G ü l ç ö h r ə. Asya demişkən, arşınmalçının sir-sifəti yaxşı idi. İndi Asyaya desən ki, gəl səni ona ərə verək, bir həşir qatar, deyər ki, mən arşınmalçının tayıyam? Amma, məncə, arşınmalçılıq pis iş deyil ki... O da tacir kimi bir şeydir. Vallah, atam razı olsa, mən ona ərə gedərəm. Çünki, nə sayaq olsa, yenə də üzünü görmüşəm, bilirəm ki, şil deyil, kor deyil, keçəl deyil; sifəti də xoşuma gəldi. Üzü nəcib adamın üzünə

oxşayır. Vallah, onu qəşəng geyindirsən bir oğlan çıxar ki, bəy balası kimi... Mənə deyir ki, yəqin sənin əlin bərəkətlidir; özü də elə baxırdı ki, guya tək məni görür... Bir də görsəydim yaxşıca diqqət edərdim... Ah, gör nə danışıram; kim bilir, bəlkə onun arvad-uşağı vardır... (*Fikrə gedir.*)

Əsgər (*çıxır hüzura, arşın qoltuğunda*). Xanım, bağışla...

Gülçöhrə (*səksənir*). Oy, qorxdum a...

Əsgər. Qorxma, xanım, deyəsən, mən arşınımı burada qoyub getmişəm.

Gülçöhrə. Olsa burada qalardı...

Əsgər. Zərər yoxdur, evdə alahı arşınım vardır.

Gülçöhrə (*kənara*). Yenə o sayaq baxır, gözü gözümə sataşanda elə bil ki, ildırım kimi məni vurur.

Əsgər. Xanım, Allahın altında Sultan bəyin on iki nəfər sən kimi qızı olaydı!

Gülçöhrə. Yəni nə demək istəyirsən?

Əsgər. Onu demək istəyirəm ki, bir qızını bəyə, birini xana, birini tacirə, birini mollaya, birini də seyidə verib, axırda birini də mənə verəydi...

Gülçöhrə. Nə olar ki...

Əsgər. Amma, yox, verməz, əlbəttə verməz, o bir bəy adamdır, amma mən arşınmalçı. O mənə qız verməz... (*kinayə ilə*) və bir də versə də qız gəlməz...

Gülçöhrə. Görünür ki, sən subaysan.

Əsgər. Lap subayam; Allahın bərəkətindən işim də çox yaxşı gedir. Bir parça çörəyim var, ac deyiləm.

Gülçöhrə. Bəs nə üçün indiyə qədər evlənməyibsən?

Əsgər. Nə sayaq evlənim; görmədiyim qızı almaram, gördüyüm qızlardan da xoşuma gələn, ürəyimə batanı bir nəfər olubdur ki, onu mənə verməzlər...

Gülçöhrə. Qız özü sənə getməzmi?

Əsgər. Yəqin ki, getməz, çünki o bəy qızıdır.

Gülçöhrə. Sən əvvəlcə qızdan soruş, sonra de; nə bilirsən getməz?

Əsgər. Doğru buyurursan, xanım, bəs elə isə, de görüm, mənə gələrsənmi?

Gülçöhrə (*təəccüblə*). Kim? Mən?

Əsgər. Bəli, sən; mənim xoşladığım qız bircə sənsən.

Gülçöhrə. Mən elə bildim ki, özgə qızdır...

Əsgər. Səndən başqa özgəsi ola bilməz.

Gülçöhrə. Bəs sən məni bir kərrə görməklə xoşladın?

Əsgər. Əlbəttə, xanım. Göz gördü, könül sevdi. Gözüm səni görən kimi, qəlbim sevindiyimdən çırpınmağa başladı.

Gülçöhrə (*kənara*). Vallah, mənimki də elə oldu.

(Musiqi)

Əsgər

Öyrənib pürfənd oldum,
Özgəyə rişxənd oldum. (*2 dəfə*)
Hər bir dərdə mən doldum,
Səni gördüm bənd oldum. (*2 dəfə*)
Elə bənd oldum, elə bənd oldum,
Elə bənd oldum, dilbər!
Dura bilməm mən sənsiz.

(Musiqi)

Gülçöhrə

Heç kəsi mən görməzdim,
Sirrimi söyləməzdim. (*2 dəfə*)
Nədir aşiq bilməzdim,
Səni gördüm bənd oldum. (*2 dəfə*)
Elə bənd oldum, elə bənd oldum,
Elə bənd oldum, dilbər!
Dura bilməm mən sənsiz.

(Musiqi)

İkisi bir yerdə

Kömək etdi çün ol baxt,
Gəldi çatdı axır vaxt. (*2 dəfə*)
Özümü bildim xoşbaxt,
Səni gördüm bənd oldum (*2 dəfə*)
Elə bənd oldum, elə bənd oldum,
Elə bənd oldum, dilbər!
Dura bilməm mən sənsiz.

(Musiqi)

Ə s g ə r. Xanım, mən sənə yaraşan deyiləm.

G ü l ç ö h r ə. Bilmirəm, amma xoşlamışam.

(Musiqi)

Ə s g ə r. Görünür ki, doğru deyiblər ki, qəlb qəlbi istər, xanım...

G ü l ç ö h r ə. Mənə xanım demə, adım Gülçöhrədir.

Ə s g ə r. Gülçöhrə, bəs nə sayaq edək ki, atan səni mənə versin?

G ü l ç ö h r ə. Məni atamdan istə, verər-verər, verməz – mən özgəsinə ərə getmərəm.

Əsgər (*kənara*). Çox əcəb! (*Ona*) Atan səni güc ilə verər...

G ü l ç ö h r ə. Güc ilə ərə getmərəm.

Ə s g ə r. Səni zor ilə apararlar.

G ü l ç ö h r ə. Özümü boğaram.

Ə s g ə r. Allah eləməsin. İndi ki, belə oldu, qoy bir yaxşı fikir edək, görüm, bəlkə bir əlac taparam; indi cən get evə, yoxsa bizi görərlər, xudahafiz.

G ü l ç ö h r ə. Xudahafiz! Amma onu bil ki, sözüm sözdür. (*Gedir.*)

Ə s g ə r (*tək*). Deyirəm, vallah, ürək elə bir olur. Yazıq qız məni xoşlayıbdır. Özü də bilmir ki, dövlətli tacirəm. Mən də qəsdən demədim ki, qoy axıra kimi qızı sınayım. Çox əcəb! İndi mən gedim, bir bəhanə ilə xalamı dəxi buraya göndərim ki, baxsın, görsün necə qız seçmişəm. (*Gedir.*)

Gülçöhrə çıxıb ora-bura baxır və sonra oturub fikrə gedir.

G ü l ç ö h r ə. Bu nə iş idi mən elədim. Yad oğlan ilə nələr danışdım ki, heç qıza yaraşmaz... Bilmirəm haradan gəldi çıxdı... Özü yaxşı, sözü yaxşı... Heç fikrimdən çıxmır... Ah, necə könlüm pərişan olubdur! (*Oxuyur.*)

(Musiqi)

Aşiq oldum necə bir tazə güli-rənayə.

(Musiqi)

Aşiq oldum necə bir tazə güli-rənayə
Ki, salıbdır məni o işvə ilə qovğayə. (*2 dəfə*)
Aşiq oldum (*3 dəfə*)
Necə bir tazə güli-rənayə. (*2 dəfə*)

(Musiqi)

Gözümün qanı ilə sinəmi al etdim kim, (*2 dəfə*)
Səbəbi sənət ola ol büti-bipərvayə, (*2 dəfə*)
Pərvayə, pərvayə.
Bu bir işdir ki, məni iynə kimi incəldib,
Salır iplik kimi hərdəm bir uzun sövdayə. } (*2 dəfə*)
Aşiq oldum (*3 dəfə*)
Necə bir tazə güli-rənayə. (*2 dəfə*)

Asya və Telli çıxıb oxuyurlar.

A s y a v ə T e l l i

Nə pərişandır halın,
Gülçöhrə, Gülçöhrə?!
Nədir bu ahı-zarın?
Tez söylə, tez söylə!
Niyə solmuş rüxsarın?
Gülçöhrə, tez söylə! (*2 dəfə*)
Qıza layiq olmaz kim,
Dərd çəksin, qəm çəksin. } (*2 dəfə*)
Nədir bu ahı-zarın?
Gülçöhrə, tez söylə!
Gülçöhrə, tez söylə! } (*2 dəfə*)

Hamısı içəri girirlər. Bu halda Əsgər xalası ilə bərabər çıxır.
Cahan çarşaba bürünübdür.

Ə s g ə r. Bax, xala, haman qız bu evdə olur. Apararsan bu məxməri və deyərsən ki, arşınmalçı göndəribdir. Soruşan olsa ki, sən kimsən, deyərsən ki, arşınmalçının xalasıyam. Başa düşdünmü?

C a h a n. Başa düşdüm, xalan sənə qurban, gedirəm. (*Gedib içəri girir.*)

Əsgər (*tək*). Amma getdikcə qıza daha artıq bənd oluram. Günü bu gün Süleymanı görsəm göndərəcəyəm ki, gedib elçilik eləsin. Belə istədiyimi tapdım... Bu ev, bu həyət, bu yol hamısı elə bil ki, üzümə gülür. (*Oxuyur.*)

(Musiqi)

Axtarıb tapdım səni, səndəmi sevdin, yar, məni?
Gör nə haldır görmür gözüm, şadlığımdan dünyanı. (*2 dəfə*)
Gəl, gəl, maralım, gəl, gəl, gəl, ceyranım gəl! (*2 dəfə*)
Səni sevdim, yar, səni sevdim, gözüm görməz özgəni.

(Musiqi)

Halal olsun Süleyman!

(Musiqi)

Halal olsun Süleyman, sən nə kələkbazsan, şeytan!
Öyrədib məni yola saldın, mənə rast gəldi yar can.(*2 dəfə*)
Gəl, gəl, maralım, gəl, gəl, gəl, ceyranım, gəl! (*2 dəfə*)

İndi burada dayanmayım, gedim evə, xalam gəlsin görək nə söyləyəcəkdir. (*Gedir.*)

Sultan bəy bazardan evə qayıdır, yavaş-yavaş gələ-gələ özbaşına danışır.

Sultan bəy. Elə hamı mən deyəni deyir: bir hallıca dul arvad ola ki, bir nəfər molla, üç manat pul və bir kəllə qənd ilə iş tamam ola. İndi mən nə qayırım? Elə arvadı haradan tapım? Gəl, ey arvad, haradasan? Gəl! Gəl!.. (*Deyən kimi Cahan çıxır və buna tərəf gəlir ki, keçsin. Sultan bəy təəccüblə*) Paho!.. Yoxsa məni qara basır... Yox, deyəsən diri gözlü arvaddır. Özü də bizdən çıxdı. Deyəsən, Allah mənimkini yetirdi. (*Cahana tərəf gedir.*) Ay bacı, kimsən, bizdə nə işin var idi?

Cahan. Arşın mal aparmışdım, qızlara göstərəm.

Sultan bəy (*kənara*). Arvad olmağına arvaddır, ancaq üzünü görsəm pis olmaz. (*Ona*) Yaxşı, bacı, bir de, çarşaba bürünmuş kişi olmayasan?

Cahan. Buy... ay qardaş, nə söz danışırsan?

Sultan bəy. Bəs elə isə bir balaca üzünü mənə göstər ki, yəqinlik hasil olsun.

Cahan (*üzünu açıb göstərir*). Gördün ki, arvadam!

Sultan bəy. Hə, gördüm. (*Kənara*) Arvadsan, özü də lap mən deyəndən. (*Ona*) De, yaxşı bir məni başa sal görüm sən kimsən, nəçisən və kimin adamısan?

Cahan. Mən arşınmalçının xalasıyam, özüm də qızlara, arvadlara mal satıram.

Sultan bəy. Yaxşı, axı mənə bir demədin ki, görək kimin adamısan.

Cahan. Bəy, dəllal Kərbəlayı Nəsirin külfətiyəm, bəlkə tanıyasan.

Sultan bəy. Xeyr, tanımıram, mənim dəllal-məllal ilə işim olmaz. Yaxşı, deməli, sənin kişin dəllallıq edir, özün də arşın mal satırsan.

Cahan. Bəli, kişim dəllallıq edərdi.

Sultan bəy. Edərdi? Bəs indi nə iş görür?

Cahan. İndi Allah bilir ki, nə iş görür; rəhmətlik on iki ildir ki, ölübdür.

Sultan bəy (*sevinir*). Ölübdür? Deməli, sən dulsan?

Cahan. Bəli, dulam.

Sultan bəy. Belə de də!.. (*Öskürür və özünü düzəldir.*) Deyirsən ki, on iki ildir ki, ərin ölüb dul qalıbsan... Çox əcəb, indi bəs necə eyləyək?

Cahan (*təəccüblə*). Nəyi necə eyləyək?

Sultan bəy (*karıxmış*). Yox, belə onu deyirəm ki, mənim də arvadım, budur, beş ildir ki, mərhum olubdur. Belə olmaq çox pis şeydir. Adam lap tək qalır, bilmir ki, nə etsin. (*Kənara*) Yaxşıca əlimə düşübdür, heç buraxmaq lazım deyildir. (*Cahan istəyir getsin, Sultan bəy tez qabaqlayır.*) Əşi, bir dayan, hara tələsirsən?

Cahan. Tələsiyirəm, işim var.

Sultan bəy. Daha bundan gözəl nə iş olar, əcəb söhbət eliyirik. Sən dul, mən dul, gəl dərdləşək də... Yaxşı, indi sən deyirsən ki, dulsan, hə?..

Cahan. Buy, dedim ərim on iki ildir ki, ölübdür.

Sultan bəy. Axı burası var ki, mən də dulam.

Cahan. Nə olar, Allahın əmridir. Tək sənin başında görünməyib ki...

Sultan bəy. Orasını bilirəm.

Cahan. Bəs harasını bilmirsən?

Sultan bəy. Gəl biz ikimiz bir iş edək.

Cahan. Nə iş?

Sultan bəy. Belə iş ki, nə sən dul olasan, nə də mən.

Cahan. Nə sayaq eləyək?

Sultan bəy. Nə sayağı var ki, bir nəfər molla, üç manat pul, bir kəllə qənd, şüt-tamam, vəssəlam.

Cahan. Heç başa düşmürəm ki, nə deyirsən.

Sultan bəy. Başa düşmürsən? Əcəb dilbilməzsən! Bəs elə isə, dürüst qulaq as gör nə deyirəm, a dilbilməz!

Musiqi. Çırtıq vura-vura oxuyur.

Bir at aldım, hər yana çapdım,
Gəl alım, gəl alım, dilbilməz!
Axır gəlib səni tapdım, maralım, maralım, dilbilməz!
Aman, aman, oy, qaşı kaman oy!
Gəl alım, gəl alım, maralım, dilbilməz! (*Oynayır.*)

(Musiqi)

Bir ev tikdim, daş üstədir, gəl alım, gəl alım, dilbilməz!
Hər nə desən baş üstədir, gəl alım, maralım, dilbilməz!
Aman, aman, oy, qaşı kaman, oy!
Gəl alım, maralım, dilbilməz! (*Oynayır.*)

(Musiqi)

Sən dul, mən dul, gəl mənə bənd ol,
gəl alım, gəl alım, dilbilməz!
Hər nə desəm ona razı ol, maralım,
maralım, dilbilməz!
Aman, aman, oy, qaşı kaman, oy!
Gəl alım, gəl alım, dilbilməz!

Bu halda Əsgər gəlir və bunları görür.

Ə s g ə r. Aha!.. Xalamın da işi düzəldi. Əcəb! (*İrəli gəlir, oynamaqda olan Sultan bəyin qulağına*) A bəy! Ay bəy! Bir dayan, söz deyirəm. (*Sultan bəy səksənib dayanır.*) Axı belə iş yaxşı deyildir; özgənin arvadına eşqnamə oxuyursan.

S u l t a n b ə y. Balam, sən kimsən, sənə nə?

Ə s g ə r. Necə mənə nə? Bu mənim xalamdır.

S u l t a n b ə y. Xalandır? Deməli, arşınmalçı sənsən?

Ə s g ə r. Bəli, mənəm.

S u l t a n b ə y. Çox gözəl, çox pakizə. Balam, heç sənin insafınzadın yoxdur?

Ə s g ə r. Nə olubdur ki?

S u l t a n b ə y. Nə olacaq ki, bu yazıq arvadı on iki ildir ki, dul saxlayıb ərə vermirsən.

Əsgər (*gülümsünür*). Nə edim, bir yaxşı adam tapmıram.

S u l t a n b ə y. Yaxşı adam – mən! Gəl də!.. Gəl qohum olaq, mən də dulam.

Əsgər (*kənara*). Aha, yaxşı fürsətdir. (*Ona*) Doğru deyirsən, bəy, ya zarafat edirsən?

S u l t a n b ə y. Tayımsan ki, zarafat edim? Lap ürəkdən doğru deyirəm.

Əsgər. Yaxşı, bəy, fərz edək ki, mən xalamı verdim sənə, bəs əvəzində sən mənə nə verərsən?

S u l t a n b ə y. Nə verəcəyəm? Sənin müzdün bu olar ki, mənim kimi bəy ilə qohum olarsan. Xalanın müzdü o olar ki, canı rahat olar.

Mənim də müzdüm budur ki, savab yiyəsi olaram. Daha bundan artıq nə istəyirsən?

Ə s g ə r. Yox, bəy, bu sayaq sərf eləməz...

Sultan bəy. Bəs nə sayaq sərf eylər?

Ə s g ə r. Bax, bəy, indi ki, mənimlə qohum olmaq istəyirsən, gəl ikibaşlı qohum olaq.

S u l t a n b ə y (*təəccüblə*). Nə sayaq ikibaşlı?

Ə s g ə r. Bu sayaq ki, mən xalamı verim sənə, sən də qızını ver mənə.

S u l t a n b ə y (*bərk acıqlı*). Axmağın birisi axmaq! Nə yava-yava danışırsan?! (*Xəncərdən yapışır.*) Mən bəy balası kimi qızımı arşın mal satana verəcəyəm?! Cəhənnəm ol buradan sən də, sənin xalan da!.. Qudurğanın birisi, bir sillə çəkərəm ki, dişlərin qarnına gedər. Rədd ol gözümün qabağından!

Ə s g ə r (*arxayınca*). Xala, gəl gedək. (*Kənara*) Arşınmalçı Əsgərə vermədi, amma tacir Əsgərə verəcəkdir. (*Gedirlər.*)

S u l t a n b ə y. Tez ol, itil buradan! (*Evə tərəf gedib, qapının ağzında dayanır və gedənlərə baxır. Onlar gedirlər.*) Gör nə qudurğan gədədir ki, cürət edib qızımı istəyir. (*Xəncərini çəkib yüyürür.*) Öldürərəm səni, qudurğan oğlu qudurğan! (*Qayıdıb fikrə gedir.*) Yoxdur. Yoxdur məndə bəxt. Arvad əlimə göydən düşmüş kimi olmuşdu, özü də əsil mən deyən hallıca arvad idi ki, iş bir nəfər molla ilə bir kəllə qəndə bənd idi; mərdümazar oğlu mərdümazar hayandan gəldi isə bütün işi korladı. Planımı dağıtdı. Ey vay... (*Oxuyur.*)

Nə pis oldu halım mənim, gəl alım,
gəl alım, dilbilməz!
Getdi əldən yarım mənim, gəl alım,
maralım, dilbilməz!
Aman, aman, oy!.. (*Girir içəri.*)

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Sultan bəyin evində vaqe olur; Gülçöhrə təkcə oturub oxuyur. Musiqi çalınır.

G ü l ç ö h r ə

Bülbüli-zarəm, güli-rüxsari-alindən cüda.

(Musiqi)

Bülbüli-zarəm, güli-rüxsari-alindən cüda
Tutiyi-laləm, şəkər nisbət məqalindən cüda. (*2 dəfə*)

(Musiqi)

Der idim səbr eyləyim, olsam cəmalindən cüda.

(Musiqi)

Der idim səbr eyləyim, olsam çəmalindən cüda,
Bilmədim düşvar imiş olmaq vüsalindən cüda. (*2 dəfə*)
Ah... aman-aman... aman-aman!..
Bilmədim düşvar imiş olmaq vüsalindən cüda. (*2 dəfə*)
Yar, gəl, yar, gəl, yar, gəl, yar, gəl!..

(Musiqi)

Ağlımı tərk eylədim fəzlü kəmalindən cüda,

(Musiqi)

Ağlımı tərk eylədim fəzlü kəmalindən cüda,
Dönmüşəm mən müflisə cahü cəlalindən cüda. (*2 dəfə*)

(Musiqi)

Tirə oldu ruzgarım zülfü xalindən cüda,
Oldu səhra mənzilim vəhşi ğəzalindən cüda. (*2 dəfə*)
Ay aman!.. (*4 dəfə*)

(Musiqi)

Oldu səhra mənzilim vəhşi ğəzalindən cüda. (*2 dəfə*)
Yar, gəl!.. (*4 dəfə*)

M u s i q i. Üzünü örtüb ağlayır.

A s y a (*daxil olub Gülçöhrənin yanına gəlir*). Ah Gülçöhrə, sən Allah, bir de görüm, sənə nə olub ki, bu bir neçə gündür belə pərişan görünürsən?

G ü l ç ö h r ə. Vallah, heç özüm də bilmirəm. Yəqin naxoş olmuşam.

A s y a. Axı naxoş olanın bir yeri ağrıyar; görünür ki, sənin heç yerin ağrımır, şükür Allaha.

G ü l ç ö h r ə. Ah, Asya, neyləyirsən soruşub, sən allah, qoy məni əldən.

A s y a. Yox, Gülçöhrə, bu bir neçə gündür ki, sən bilmərrə dəyişilibsən. Eyzən fikirdə, kefsiz, dinməz, yəqin burda bir hikmət vardır... Ay qız, bəlkə bir adama bənd olubsan, hə?..

G ü l ç ö h r ə (*hərəkət edir*). Kimə bənd olacağam...

A s y a. Yox, yox, qızardın. Görürəm ki, bir adama bənd olubsan; ancaq o adam kimdir? Bizə arşın mal satandan başqa heç kəs gəlməmişdi. (*Birdən.*) Yəqin o gədəyə bənd olubsan!

G ü l ç ö h r ə. Gədə nə üçün olsun?!

A s y a. Aha, bildim!.. Arşınmalçıya gözün düşübdür. Ay qız, heç sənə yaraşan işdirmi? Sən bəy qızı, bəy balası bir gədənin birinə bənd olubsan... Nədir-nədir, bir qədər sir-sifəti var; vallah, istər lap çıraq kimi yansın, heç bir belə də məhəl qoymaram; o hara, mən hara...

G ü l ç ö h r ə (*təqsirli kimi*). Vallah, özüm də başa düşmürəm ki, bu nə haldır. (*Ağlamsınır və əlləri ilə üzünü örtür.*)

A s y a (*nəsihətyana*). Sən yekə qızsan, elə şeyləri başından çıxart. Sən hara, bazarın gədəsi hara. Barı, bənd olursan elə adama bənd ol ki, sənə yaraşan olsun. İkinciyə qalan yerdə, bənd olmaq özü qız üçün çox pis şeydir. Bax, mən də sənin kimi bir qızam, amma heç gör mən bir adama bənd olurammı? Bir də, vallahı, işdir, birdən atan bilsə, yəqin bil ki, səni tikə-tikə doğrar.

G ü l ç ö h r ə. Qoy atam bilsin, bir kərəlik məni öldürsün ki, canım qurtarsın.

A s y a. Axmaqlama, axmaqlama! Gəl bəri, gedək o biri otağa, gör sənə nələr söyləyəcəyəm.

Gülçöhrəni aparıb gedirlər.

S u l t a n b ə y (*daxil olur, tək*). Zalım oğlu arşınmalçının xalası yaxşı girimə keçmişdi, olmadı. Əsil mən deyən arvad elə o idi ki, hallıca, dul, əndamlı, bir nəfər molla, üç manat pul və bir kəllə qənd, şüttamam, vəssəlam. Amma, de gəl ki, məndə bəxt yoxdur... Qudurğan oğlu qudurğan, bir dul xalasının əvəzində gözəl-göyçək qızımı istəyir. Guya ki, mən qızımdan əl çəkmişəm ki, bazarın gədəsinə verəm... Mən bir bəyəm ki, bütün tanışlarım adımı əzbər bilir. Əşi, xan ilə aş yemirəm ki, buğum yağa batar; bir gədənin birisi mənə göyə olmaq istəyir... Amma xalasını alardım və bir söz deyən olsa idi, deyərdim ki, bir fəqir dul arvad idi, rəhmim gəldi, aldım. Əlqərəz, arvad elə öz ayağı ilə yanıma gəlmişdi, şeytan oğlu şeytan işə pərxaşlıq saldı. Qoymadı

işimizi görək... Ah, gedək bir az dincələk; yenə belimin ağrısı tutdu... (*Gedir o biri otağa, bu biri otaqdan Telli çıxır.*)

T e l l i (*tək*). Of, yenə ağam getdi uzanmağa. Kişi lap zəhləmi tökübdü, indi yenə çağıracaqdır ki, ay qız, Telli, gəl üstümü basdır. (*Sultan bəyin səsi gəlir: ay qız, Telli, gəl üstümü basdır.*) Çor, zəhrimar... (*Mülayim*) Ağacan, gəlirəm, gəlirəm. (*Gedir.*)

A s y a (*daxil olur, tək*). Ha öyüd, nəsihət edirəm olmur. Görünür ki, qız gədəyə çox bənd olubdur. Ağlayır, ağlayır, gözünün yaşını dolu kimi tökür; adamın rəhmi gəlir; bilmirəm hayandan gəldi çıxdı bura arşın mal satan... Yenə bir bəy balası ola, ya bir tacir oğlan ola, yeri var. Halbuki bazarın gədəsi... (*Pəncərəyə tərəf baxır.*) O kimdir bizə gəlir? Buy, nə yaxşı oğlandır, vallah, lap bəy balasına oxşayır. Bax, adam bənd olanda da beləsinə ola! Görəsən, bu bizə niyə gəlir, xeyir xəbər ola! Gəlir, gəlir, düz bizə gəlir, qoy gəlsin, qaçmayacağam. Gəldi...

Qapı döyülür, Asya qapını açır. Süleyman daxil olur.
Asya əli ilə üzünü gizlətmək istəyir.

S ü l e y m a n. Sultan bəy evdədirmi?

A s y a. Bəli, evdədir. Bir qədər burada əyləşin, gedim çağırım. (*Gedir.*)

S ü l e y m a n (*tək*). Yəqin ki, Sultan bəyin qızıdır, amma əcəb gözəl qızdır, bərəkalla Əsgərə! Görünür ki, kişinin ruhu var ki, özünə bu cür qız seçibdir. Mən belə bilmədim ki, Sultan bəyin qızı gözəl imiş, yoxsa əvvəldən bilsəydim özüm alardım. Heyif! Amma yaxşıca qızdır. Vallahı, çox böyük səhv eyləmişəm. Gərək bu qızı mən alaydım. Halbuki indi gəlmişəm qızı Əsgər üçün istəyim... Yoxsa, bəlkə elə gəlmişkən, elə özüm üçün istəyim?.. Yox, bu yoldaşlıq haqqında namərdlik olar. Əsgər mənə etibar edib elçiliyə göndəribdir, özü də qıza bənddir; necə ola bilər ki, onu məyus eyləyim, lənət şeytana! Adam gərəkdir dostluqda düz ola. Nə eyləmək? Mən də axtararam özümə bir gözəl qız taparam, xainlik pis şeydir.

Sultan bəy daxil olur.

S u l t a n b ə y. Paho, Süleyman, sən hara, bura hara? Xeyir xəbər olasan, əyləş görək nə var, nə yox? (*Əl-ələ verib, otururlar.*)

S ü l e y m a n. Bəy, xeyir olmamış nə olacaq? Şükür Allaha, hər şey öz yerində sazdır.

S u l t a n b ə y. Çox gözəl, indi söylə görək daha nə var, nə yox?

S ü l e y m a n. Bəy, bilirsən, bu dünyanın işi elə belə gəlibdir ki, insan insana lazım olur, adam adama gərək olur. Görürsən ki, əvvəlcə bir adamı heç tanımırsan, sonra tanış olursan; ondan sonra lap qohum olursan. Ancaq bir iş var ki, qohum olanda gərək elə olasan ki, sənə yaraşan ola, özü də varlı ola, adlı-sanlı ola. Məsələn, götürək bizim cavan tacirimiz Əsgəri.

S u l t a n b ə y. O kimdir?

S ü l e y m a n. Bəy, sən onun özünü tanımasan da, atasını yaxşı tanıyarsan. Mərhum bəzzaz Mürsəli deyirəm ki, bir gözəl kişilərin birisi idi.

S u l t a n b ə y. Hə, yaxşı tanıyıram; həqiqət, mərhum çox gözəl kişi idi.

S ü l e y m a n. Bəli, indi Əsgər dediyim oğlan onun oğludur ki, o da hər bir barədə atası kimi gözəl adam və ağıllı oğlandır. Özünün də, şükür Allaha, yaxşı varı, malı. Alveri də çox böyük tərəqqidədir.

S u l t a n b ə y. Yaxşı, Əsgər nə deyir?

S ü l e y m a n. Əsgərin dediyi odur ki, sənlə qohum olmaq istəyir.

S u l t a n b ə y. Balam, mənim qızım uşaqdır ki...

S ü l e y m a n. Bəy, gərək uşaq olmasın; amma onu bil ki, Əsgər özgə adamdır, bəy. O sayaq oğlanın qohumluğu sənə hər bir barədə yaxşı olar.

S u l t a n b ə y. Sən orasını doğru deyirsən; həqiqət, tacir tayfası mənim xoşuma gəlir. Yoxsa bu incinar-mincinar, doxtur-moxtur, vəkil-məkil, uçitel-muçitellərlə mənim işim olmaz və xoşuma da gəlməzlər. Ancaq burası var ki... Əsgəri mən görməmişəm; hərçənd bilirəm ki, atası yaxşı kişi idi və dövləti də çox idi, ancaq bəzi vaxt yaxşı kişinin pis övladı olur.

S ü l e y m a n. Xeyr, bəy, Əsgər çox gözəl oğlandır. Çox ağıllı, yaraşıqlı və çox da şüurlu oğlandır. O barədə təvəqqə edirəm ki, mənə etibar edib, sözümə inanasan. Hərgah Allah eləməmiş Əsgər pis adam olsa idi, mən sənin qızını ona istərdimmi?

S u l t a n b ə y. Elə isə, Allah xeyir versin, razıyam...

S ü l e y m a n (*əl tutur*). Allah xeyir versin, Allah hər ikisini xoşbəxt eləsin. Oğul-uşaq sahibi olsunlar.

S u l t a n b ə y (*durur*). İndi buyur da... Buyur gedək o biri otağa, çaydan-zaddan içək, söhbətimizi də orada edək. (*Durub o biri otağa keçirlər.*)

A s y a (*daxil olur, tək*). Vallah, heç belə gözəl oğlan olmaz. Ömrümdə də görməmişəm; qoy indi də bu qapının deşiyindən baxım. (*Əyilib qapının deşiyindən baxır.*) Mən də bu oğlana bənd olacağam. (*Acıqla*) Nə qayırım? Gülçöhrə gədənin birinə bənd olanda mən niyə bəy oğlu kimi bir cavana bənd olmayım? Elə olaram ki, hələ Gülçöhrəni də ötərəm... (*Aşiqanə*) Of, həqiqət, adamın adama gözü düşəndə əhvalı necə pərişan olur! (*Oxuyur.*)

(Musiqi)

Gözəlim, yar gözəlim.

(Musiqi)

Bir sözüm var, gözəlim.

(Musiqi)

Bu yazıq yarına hərdən.
Bir nəzər sal, gözəlim! } (*2 dəfə*)

(Musiqi)

Aşiq oldum sənə mən.

(Musiqi)

Etmədin lütfü kərəm.

(Musiqi)

Bu yazıq yarına hərdən
Bir nəzər sal, gözəlim. } (*2 dəfə*)

(Musiqi)

Yanaram eşq oduna,
Yetmədin fəryadıma.
Bu yazıq yarına hərdən
Bir nəzər sal, gözəlim. } (*2 dəfə*)

(Musiqi)

Gözəlim, yar gözəlim. (*Oynayır və sonra gedir.*)

T e l l i (*çıxır*). Yaxşı ki, qonaq gəldi, məni ağamın əlindən qurtardı; yoxsa oramı basdır, buramı basdır, oramı ov, buramı ov... Daha həlak eylədi məni. Belə şorgöz kişi olmaz. Vallah, bir Allah bəndəsi olsa idi,

mənicə alardı, canımı qurtarardı. Amma hanı bir elə Allah bəndəsi! (*Deyən kimi qapı döyülür.*) Bu kimdir? Yoxsa Allah bəndəsini yetirdi! (*Gedir qapını açır, Vəli daxil olur.*)

V ə l i. Sultan bəyin evi buradır?

T e l l i. Hə, buradır, nə işin var?

V ə l i. Sizdə bir nəfər qonaq varmı?

T e l l i. Hə, var, necə?

V ə l i. Daha nə üçün acığın tutur?

T e l l i. Acığım nə üçün tutsun, sən kimsən?

V ə l i. Mən kilimçi. (*Kənara*) Amma əcəb qızdır, yəqin bu, qulluqçudur.

T e l l i. Kilimçi nədir?

V ə l i. Bir əvvəlcə de görüm, sən kimsən?

T e l l i. Mən bu evin qulluqçusuyam?

V ə l i. Mən də o evin nökəriyəm.

T e l l i. Hansı evin?

V ə l i. Bəli o evin, o...

T e l l i. Buy, elə bil gədə dəli olubdur.

V ə l i. Dəli niyə oluram, maralım!

T e l l i. Mən maral deyiləm.

V ə l i. Belə məndən ötrü maralsan, bu canım da sənə peşkəş. Belə, belə... belə... (*Oxuyur.*)

(Musiqi)

Qoy xanımı bəy aparıb,
Tezlik ilə toy eləsin. } (*2 dəfə*)
Sənidəcə mən alaram,
Mən də bir bəy olaram. } (*2 dəfə*)

Telli — Pulun var?
Vəli — Var, var! } (*2 dəfə*)

Telli — Pulun var, gələrəm!

Vəli — Bilirəm, gələrsən!

Telli — Belə, belə yarımsan!

Vəli

Belə, belə canımsan!

M u s i q i. Oynayırlar.

Telli

Mən gedərəm ol kəsə ki,
Onun pulu çox olsun, } (*2 dəfə*)
Onun pulu çox olsun,
Dərdi, qəmi az olsun. } (*2 dəfə*)

Vəli

Pulun var?
Var, var! } (*2 dəfə*)

M u s i q i. Oynayırlar.

İkisi bir yerdə

Qoy xanımı bəy aparıb,
Tezlik ilə toy eləsin. } (*2 dəfə*)

Vəli

Sənidəcə mən alaram!

Telli

Mənidəcə sən alarsan!

Vəli

Mən də bir bəy olaram!

Telli

Sən də bir bəy olarsan!

Vəli

(*Tək*) Pulun var?
Var, var! } (*2 dəfə*)

M u s i q i. Oynayırlar.

T e l l i (*xoşuna gəlir*). Əşi, tez ol, sözünü de görüm nə istəyirsən?

V ə l i. Səni istəyirəm, səni! Bildinmi?

T e l l i. Buy, əcəb işə düşdüm!

V ə l i. Gözümün işığı, get o qonağa deynən ki, bir qapıya çıxsın, sözüm var. (*Telli gedir.*) Yeri, maralım, yeri! Yeri, ceyranım, yeri! Əcəb qızdır! Vallah, qoy ağam qızı alsın, mən də bunu alım, ikimizin də toyu bir gündə olsun. (*Əlini-əlinə sürtür.*)

Süleyman və Sultan bəy çıxırlar.

S ü l e y m a n. Hə, Vəli, sənsən? Bildim nə üçün gəlibsən, gəl gedək. (*Sultan bəyə*) Bəy, hələlik xudahafiz.

S u l t a n b ə y. Xudahafiz, səlamət ol. (*Gedirlər. Sultan bəy Süleymanı ötürüb qayıdır.*) Ay qız, Telli! Gülçöhrəni, Asyanı bura çağır gəlsin. Qıza da deyim görüm nə olur... Bəli, dünyanın işi belədir... Bir vaxt var idi biz də cavan idik... İndi...

Qızlar gəlirlər.

S u l t a n b ə y. Hə, oturun görüm. Ay qız, Gülçöhrə, nə üçün belə bikef görünürsən? Nə olub ki, naxoş deyilsən ki?

G ü l ç ö h r ə. Xeyr, ata, yaxşıyam.

S u l t a n b ə y. Çox gözəl, qızım, bilirsən nə var?

G ü l ç ö h r ə. Xeyr, ata.

S u l t a n b ə y. Bəs elə isə bil: səni ərə verirəm.

Gülçöhrə hərəkət edir, Telli şad olur. Asya heyifsilənir.

A s y a (*kənara*). Heyif, oğlan əlimdən çıxdı!

G ü l ç ö h r ə. Ay ata, mənim nə vaxtımdır ki, ərə gedim?

S u l t a n b ə y. Lap yaxşı vaxtındır. Uşaq ki deyilsən, hər bir şeyi bilirsən, anlayırsan. Səni bir tacir oğlana verirəm ki, həmi cavan, həmi pullu, həmi mallı...

G ü l ç ö h r ə. Ata, acığın tutmasın, mən ərə gedən deyiləm!

S u l t a n b ə y (*mülayim*). Bax, axmaqlama! Mən elçiyə söz verdim getdi.

A s y a (*kənara*). Allah sənə şükür, gələn oğlan elçi imiş.

G ü l ç ö h r ə. Yox, ata, mən ərə getmək istəmirəm!

S u l t a n b ə y. Yaxşı-yaxşı, naz eləmə, bilirəm ki, ürəyində sevinirsən.

G ü l ç ö h r ə. Yox, ata, doğru sözümdür, mən ərə getmək istəmirəm, istəyirsən vur məni öldür, – ərə vermə.

S u l t a n b ə y. Deyəsən, sən doğrudan danışırsan! (*Bərkdən*) Nə axmaq sözdür; necə yəni ərə getmək istəmirsən; evdə qalıb qocalıb qartımayacaqsan ki?..

G ü l ç ö h r ə (*ağlayır*). Mən ərə getmək istəmirəm!

S u l t a n b ə y (*lap bərkdən*). Sən allah qudurğan olma! Sənin nə haqqın var söz danışmağa. Atan səni ərə verir, – sənin borcun itaət eləməkdir!

Asya. Əlbəttə, Gülçöhrə, atan nə deyir, sən ona qulaq as; indi ki, səni ərə verirlər, sənin borcun getməkdir. Daha burda artıq çək-çevir olmaz ki...

Gülçöhrə. Qoy atam məni öldürsün, amma ərə verməsin.

Asya. Axı sənin danışmağa nə haqqın vardır?!

Sultan bəy. Sənə deyirəm ki, axmaq olma! Mən səni elə adama ərə verirəm ki, daha eləsin tapmazsan, sən nə fikirdəsən?!

Gülçöhrə. Sən o adama Asyanı ver, qoy mən evdə qız qalım.

Sultan bəy. Nə boş-boş danışırsan. Asyanı istəyən olsa, onu da ərə verəcəyəm. İndi səni istəyirlər, gərək əvvəl səni verim.

Asya. Əlbəttə, elədir.

Gülçöhrə. Mən ərə getmək istəmirəm!

Sultan bəy (*acıqlı*). Sənin borcun deyildir, ağzın nədir getməyəsən. Atan sənə buyurur get, get! Çox o yan-bu yan eləsən, tutub qulaqlarından mıxlaram divara. (*Gülçöhrə ağlayır... Sükut. Sultan bəy acıqlı-acıqlı ora-bura gəzinir. Bir azdan sonra mülayim dil ilə deyir.*) Qızım, sən elə bilirsən ki, mən səni pis adama verirəm, sən onu yəqin bil ki, belə oğlana gedəcəksən ki, padşah balası kimi; özü cavan oğlan, tacir, pulu çox, dövləti çox! Bəs, dəliyəm ki, səni pis yerə verim; sən mənim gözümün işığı tək qızımsan, mən səni bədbəxt elərəmmi? (*Tutub qızının alnından öpür.*) Sən qoca atayın sözünə qulaq as, dəlilik eləmə!

Gülçöhrə (*ağlaya-ağlaya*). Ay ata, vallah ərə getməyə heç könlüm yoxdur. Necə eləyim? Sən məni ərə vermə, qoy evdə qalım.

Sultan bəy. Qızım, inad olma! Atan nə deyir, sən də ona itaət eylə, eləməsən Allah səni xoşbəxt eləməz, bədbəxt olarsan və onu yəqin bil ki, mənim sözüm sözdür; mən kişiyə söz verdim, Allah qoysa, bu gün sabah nişan qoyular, kəbin kəsilər, toy olar. Gedərsən ərə, ərin dövlətli, özü yaxşı adam, oğul-uşaq sahibi olarsan, ev yiyəsi olarsan, mən də bu qoca vaxtımda bir azca dincələrəm, arxayın olaram; sən mən deyənə qulaq as!

Gülçöhrə. Ay ata, indi ki, sən istəyirsən mən ərə gedim, qoy onda öz istədiyimə gedim.

Asya qorxusundan guya üzünü cırır, təəccüb edir.

Sultan bəy (*təəccüb və heyrətlə*). Qızım, sən istədiyin kimdir, söylə görək.

Asya qorxur. Musiqi.

Gülçöhrə (*oxuyur*)

Məni saldı olmaz dərdə, arşın mal alan, (*2 dəfə*)
Qalmadı heç taqət məndə, yanaram. (*2 dəfə*)
Gündüz, axşam fikrim-zikrim, arşın mal alan, (*2 dəfə*)
Ola bilməz özgə fikrim, yanaram. (*2 dəfə*)
Onu görcək aşiq oldum, arşın mal alan, (*2 dəfə*)
Günü-gündən dərdə doldum, yanaram. (*2 dəfə*)

Sultan bəy (*bərk hirslənir*). Qızım, arşın mal alan kimdir? (*Kənara*) Yoxsa o xalası olandır?

Gülçöhrə. Mən getsəm, ona ərə gedərəm.

Sultan bəy (*birdən qışqırır*). Nə danışırsan, axmaq qızı axmaq! Bazarın gədəsinə ərə gedəcəksən? Dəli olubsan, nədir? Allaha and olsun, bir sillə çəkərəm ki, dişlərin qarnına gedər. Bəli, Sultan bəyin qızı bir gədəyə aşiq olubdur, pəh-pəh-pəh!.. İndi bildim ki, nə üçün ərə getmək istəmirsən. Amma onu sən yəqin bil ki, əgər axmaqlasan, atamın goru haqqı sənə bir toy tutaram, bir toy tutaram ki, bir kərə nəfəsini çəkərsən. Sən mənim namusuma toxunan iş görürsən. Nə haqqın var ki, arşınmalçıya baxırsan? Qoy bir o arşınmalçı gözümə görünsün, ona mən bir patron çaxım ki, iyi-tozu qalmasın. Onu bil ki, mənə Sultan bəy deyərlər. Mən binamusluğu qəbul edən adam deyiləm. Səni də öldürərəm, onu da öldürərəm!

Gülçöhrə (*ağlaya-ağlaya*). Ata, vallah öldür, mənim canım qurtarsın.

Sultan bəy (*çığıra-çığıra*). Öldürəcəyəm! Bu papaq mənə haram olsun ki, bir də arşınmalçı adı tutsan, səni tikə-tikə doğrayacağam! Belə binamusluq olar ki, mənim qızım gədə-güdəyə bənd olsun! (*Ayağını yerə vurur.*) Dur bu saat rədd ol gözümün qabağından! İtil burdan! Binamus! (*Gülçöhrə durub bərk ağlaya-ağlaya gedir, Sultan bəy hövlnak ora-bura gəzir. Asyaya və Telliyə*) Nə vaxt arşınmalçı bura gəlmişdi?

Asya (*qorxa-qorxa*). Vallah, xəbərim yoxdur.

Sultan bəy. Necə xəbərim yoxdur? Yalandan məndən gizləyirsiz! Cəhənnəm olun siz də buradan! (*Asya və Telli qaçırlar.*) Əcəb başıma kələk gəldi; itin birisi qapıma gəlib qızımı özünə bənd eləyir; belə də binamusluq olar?! İndi başa düşürəm ki, neçün xalasının əvəzində qızımı istəyirmiş; cəhənnəm olsun onun xalası da, istəmədik... Qız lap dəli kimi olubdur. Gərək tezliklə ərə verim çıxsın getsin, yoxsa işdən sonra bir xata çıxar. Süleymanı görsəm deyəcəyəm ki, Əsgərə xəbər versin ki, gəlib qızı götürüb qaçsınlar; yoxsa, görünür ki, xoşa-xoşluq ilə getməyəcəkdir. Mənim də hirsim tutar vurub öldürərəm. Ay qız, Asya, Telli! Bura gəlin. (*Asya və Telli daxil olur.*) Bax, mən gedirəm bazara, siz Gülçöhrəyə öyüd-nəsihət edərsiniz; onu başa salarsınız. Yoxsa, vallah, Allaha and olsun, hamınızı qıraram! (*Gedir bazara.*)

Asya (*Telliyə acıqla*). İndi biz fəqir nə qayıraq, bizdə nə təqsir var ki, Gülçöhrə bir gədəyə aşiq olubdur! Ay qız, get Gülçöhrəni çağır bura. (*Telli gedir.*) Gör sən allah! Qızın cürətinə bax! Atasına açıq deyir ki, arşınmalçıya bənd olmuşam. Lap xatadır bu qızın işi.

Gülçöhrə ilə Telli gəlirlər. Gülçöhrə yenə taxtın üstə yıxılır.

(Musiqi)

Asya və Telli

Bəsdir bunca ahü-zarın, (*2 dəfə*)
Nəyə lazım bu fəryad?! (*2 dəfə*)
Layiqdirmi ola yarın, (*2 dəfə*)
Atan ola sənə yad! (*2 dəfə*)

Gülçöhrə

Getmiş əldən ixtiyarım, (*2 dəfə*)
Kimsədən yox heç imdad.
Ağlar oldu böylə halım,
Necə qılmam mən fəryad?! (*2 dəfə*)

Asya və Telli

Heç yaraşmaz ah edəsən. (*2 dəfə*)
Gəl ol sən də biz tək şad. (*2 dəfə*)
Səy qıl kim, qala səndən (*2 dəfə*)
Xəlq içində yaxşı ad. (*2 dəfə*)

PƏRDƏ

DÖRDÜNCÜ PƏRDƏ

Əsgərin evində vaqe olur. Ev yaxşı bəzənib. Əsgər özü dəxi yaxşı geyinibdir.

Əsgər. Biçarə Gülçöhrənin başına əngəllər açdım. İndi yazıq qız elə bilir ki, doğrudan da, onu özgəsinə ərə verirlər. Amma əcəb sözü üstə dayanan qızdır. Xoşluq ilə ərə getməyə razı olmadı; odur ki, atasının təvəqqəsinə görə, adam göndərmişəm ki, gedib götürüb qaçsınlar. Zərər yoxdur; bir-iki saatdan sonra mənim kələyimin üstü açılar, onda qız da sevinər, mən də sevinərəm, atası da sevinər, hamı sevinər. Amma ürəyim çox bərk tələsiyir; istəyirəm qızı tez gətirsinlər ki, yazıq daha əzab çəkməsin; amma qəribə iş gördüm ha!.. Evlənmədim, evlənmədim, – axırda bu kələk ilə evləndim. Heç pis eləmədim, yaxşı elədim. Allah Süleymanın atasına rəhmət eyləsin, əcəb şey öyrətdi. İndi heç olmasa görüb sevdiyim qızı alıram, qız dəxi məni sevir... Qərəz, gedim görüm xalam dediklərimi düzəldibdirmi? (*Gedir.*)

Bir qədərdən sonra qapı açılır. Gülçöhrəni qaçırıb gətirirlər.

Bir neçə oğlan Gülçöhrənin qolundan tutub onu içəri salır və qapını örtüb gedir.

Gülçöhrə bərkdən ağlaya-ağlaya taxtın üstə yıxılır... Bir az keçəndən sonra deyir:

Gülçöhrə. Ox! Bu nə əzabdır mən çəkirəm?! Məni güc ilə, zor ilə ərə verirlər; bilmirəm kimə verirlər, məni sevdiyimdən ayırırlar. İstəmirəm mən bu dövləti, bu dəstgahı! Mən öz sevgilimi istəyirəm. (*Üzünü örtüb ağlayır.*)

(Musiqi)

Gülçöhrə

Hicran dərdi fələk verdi,
Bunca cəfanı layiq gördü. (*2 dəfə*)
Yoxdur taqət, səbrə halət.
Ölmək yaxşıdır, nə ki, bu zillət. (*2 dəfə*)
Ey xuda, rəhm et, ey xuda, rəhm et!
Qıl mədəd, ya rəb, mən yazığa rəhm et!

(Musiqi)

Yox, mən bu hala davam edə bilmərəm. Daha məndə tab və taqət yoxdur. Hamısından yaxşısı budur kn, bir kərəlik özümü boğum, öldürüm, canım qurtarsın. (*Dəsmalını açıb burur ki, özünü boğsun, lakin bu əsnada arşınmalçının səsini eşidib təəccüblə qulaq asır və eşitdikcə xoşuna gəlir. Əsgər pərdə dalından oxuyur: "Arşın mal alan!". Axıra kimi oxuyub qurtarır.*)

(Musiqi)

Əsgər daxil olub, salam verir.

Gülçöhrə (*təəccüblə baxır*). Sənsən, yoxsa özgədir?

Əsgər. Mənəm, mənəm, Gülçöhrə, arxayın ol!

Gülçöhrə (*ağlayır*). Görürsən mənim başıma nə işlər gətirirlər? Bir qədər gec gəlsəydin, özümü öldürmüşdüm. Sən buraya nə sayaq gəldin? Səni burada görsələr öldürərlər... Mümkün var isə gəl qaçaq. (*Əcələ ilə dartır.*)

Əsgər (*gülür*). Hara qaçaq öz evimizdən?

Gülçöhrə. Nə danışırsan, bura kimin evidir?

Əsgər. Bura mənim evimdir, sonra da olacaq sənin evin.

Gülçöhrə. Heç başa düşməyirəm? Məni kim götürüb qaçıbdır?

Əsgər. Mən göndərdiyim adamlar.

Gülçöhrə (*fikirlə*). Bəs mən elə bildim ki, məni atam verdiyi tacir oğlanın adamları götürüb qaçıblar.

Əsgər. Əlbəttə, elədir.

Gülçöhrə (*lap heyran qalır*). Yenə başa düşmədim, Allah eşqinə, məni başa sal görüm bu nə kələkdir.

Əsgər (*gülür*). Bax, Gülçöhrə! Sənə aşiq olan arşınmalçı da mənəm, atan ərə vermək istədiyi tacir oğlan da mənəm. Mən yalandan arşın mal satan olub, özümə qız axtarırdım ki, axırda səni tapdım və atandan istədim, o da verdi; amma atan bilmədi ki, mən arşın mal satan oğlanam, çünki o əvvəldən məni görməyibdir.

Gülçöhrə (*naz ilə*). Ay biinsaf! Bəs mənə yazığın gəlmədi ki, bu qədər əziyyət çəkdim, əzab çəkdim, atam məni öldürməli oldu. Özümü öldürməli oldum... (*Naz ilə*) Belə bilsəydim səni sevməzdim...

Əsgər. Bəs burası var ki, bu şadlığımız bütün o əziyyətləri yuyur aparır, elə deyilmi, maralım, Gülçöhrə?

Gülçöhrə (*axırda razı olur*). Elədir.

Əsgər. De gəl bəri, gedək otaqları bir-bir gəzək və xalamı da görək. (*Gedirlər o biri otağa*)

Bu halda bayır qapıdan Sultan bəy daxil olur.

Sultan bəy. Vallah, yenə ata ürəyidir, tab gətirmədi; dedim gedim görüm, bəlkə qız, xudanəkərdə, özünə bir xəsarət yetirdi. (*Ora-bura baxır*). Bəs hanı bunlar? Ay uşaqlar, kim var?

Əsgər daxil olur.

Əsgər. Salaməleyküm, Sultan bəy, sən bizə xoş gəlmisən.

Sultan bəy (*əvvəl xoş üzlə, sonra təəccüblə*). Balam, sən... Sən Əsgərsən? Yoxsa o arşın mal satan?

Əsgər. Xeyr, bəy, mən Hacı Mürsəl oğlu Əsgərəm sənətim də tacirlikdir.

Sultan bəy. Deyirəm axı, ancaq mənim gözümə belə görükdü ki, qabağımda o gədədir.

Əsgər. Hansı gədə?

Sultan bəy. Heç, bir gədə var idi, arşın mal satardı.

Əsgər. Bilirəm, sən istədin ki, onun xalasını alasan, o da əvəzində səndən qızını istədi, sən də acıqlanıb qovdun, belədirmi?

Sultan bəy (*təəccüblə*). Elədir... Balam, sən hardan bildin?

Əsgər. Necə bilməyim ki, o mən özüm idim...

Sultan bəy (*heyrətlə*). Nə danışırsan?!

Əsgər. Bəli, bəli, mən qəsdən etdim ki, qızı görüm, sonra alım.

Sultan bəy. Doğru deyirsən?

Əsgər. Budur, qızın təsdiq edər. (*Çağırır Gülçöhrəni*) Gülçöhrə!

Gülçöhrə (*daxil olub atasına tərəf gedir*). Bax, ata, həmi sən deyən oldu, həmi mən deyən. Əsgər bizi kələyə qoyub, sənin acığına və mənim də əzabıma səbəb oldu, bütün təqsir bundadır.

Sultan bəy (*ayılır*). Hə, indi başa düşdüm. Çox kələkbaz imişsən; rəhmətlik sənin atan heç belə deyildi. Ya Allah! (*Əl verir.*) Kefin yaxşıdırmı?.. Ay qız, Gülçöhrə, bəri gəl! (*Gülçöhrə gəlir, atası onun alnından öpür.*) Çox gözəl, çox pakizə, vay səni, Əsgər!.. Amma əcəb kələkbaz imişsən! (*Yadına düşür.*) Yaxşı, balam, bəs sənin xalan necə oldu? Hə?.. Həqiqət o sənin xalan idi, yoxsa o da kələk idi?

Əsgər. Xeyr, doğrudan xalamdır.

Sultan bəy. Yəqin, özü də duldurmu? (*Sevinir.*)

Əsgər. Bəli, duldur.

Sultan bəy. Hə, de ver gəlsin də!..

Əsgər. Gəlsin, nə deyirəm, Gülçöhrə, zəhmət çək, xalamı çağır.

Gülçöhrə gedir.

Sultan bəy. Gəlsin, onu alım da!.. O dul, mən dul; həkim də mənə deyib ki, gərək arvad alam. Mən bilən, həkim xalanı da görsə deyər ki, ərə get.

Əsgər. Nə sözüm var ki, al da... al, ikibaşlı qohum olaq. İndi bildinmi ki, ikibaşlı qohum nədir?

Sultan bəy (*gülür*). Bildim, bildim, a kələkbaz!

Gülçöhrə və Cahan daxil olurlar.

Sultan bəy (*Cahana*). Əşi, gəl də!.. İrəli gəl! Görürsən sənin bu bacıoğlun nə kələkbaz imiş... Hə, indi nə deyirsən, bir nəfər molla, bir kəllə qənd və üç manat pul ilə aran necədir? Deyirəm ki, elə Əsgər ilə Gülçöhrənin və sən ilə mənim toyumuz bir olsun.

Cahan. Nə deyirəm, Allah xeyir versin.

Hamı. Amin, amin!

Sultan bəy. Balam, o uşaqlar evdə tək qaldılar, nigarandırlar. Sizin gədəni göndərin Asya ilə Tellini bura gətirsinlər.

Əsgər. Bu saat gedim göndərim. (*Çıxır.*)

Sultan bəy. Əşi, vallah sevindiyimdən elə bilirəm ki, cavan oldum... (*Tez dilin dolayır.*) Yəni qoca da deyiləm, elə cavan kimi bir oğlanam. Maşallah olsun mənə!

Əsgər gəlir.

Əsgər. Göndərdim getdi.

Bu halda Süleyman daxil olur.

Süleyman. Səlamünəleyküm.

Sultan bəy. Paho, Süleyman, əleykəssəlam, balam sənin bu dostun nə kələkbaz imiş!..

Süleyman. Bəli, çox kələkbazdır; bilmirəm kimdən öyrənibdir.

Əsgər. Necə kimdən öyrənmişəm? Bunun hamısını sən öyrətmədinmi? Odur, xalam desin!

Cahan. Doğrudur, bütün bu kələklərin başçısı Süleymandır, o öyrətdi.

Sultan bəy. Belə imiş!.. Süleyman, mən səni heç belə bilməzdim, bu işləri haradan öyrənibsən?

Süleyman. Bəy, öz başımdan çıxardıram.

Sultan bəy. Ay sənin başın var olsun!

Süleyman (*birdən Gülçöhrəni görüb diqqət yetirir*). Yaxşı, Gülçöhrə budur?

Əsgər. Bəli, budur.

Süleyman. Bəs mən gördüyüm qız buna oxşamayır.

Sultan bəy. Sən yəqin Asyanı görübsən.

Süleyman. Asya kimdir?

Sultan bəy. O mənim qardaşım qızıdır.

Süleyman (*sevinir*). Hə?.. Əşi, elə isə mən nə üçün bekar qalım. Ver mən də toy edim də!..

Sultan bəy. Doğru deyirsən?

Süleyman. Əlbəttə!

Sultan bəy. Verdim, al!

Hamı. Allah xeyir versin, Allah xeyir versin! Nə əcəb oldu!

Süleyman (*kənara*). Bax, mərd yoldaşın axırı belə olar.

Bu halda Asya, Telli və Vəli daxil olurlar.

Sultan bəy. Bax, budur, gəldilər. Ay qız, Asya, bu oğlana səni versəm gedərsənmi?

Asya (*utana-utana*). Bəli, gedərəm.

Sultan bəy. Qoçaq qızsan, Gülçöhrədən ağıllı oldun, çox gözəl, çox pakizə. (*Vəli ilə Telli bir-birinə baxırlar. Vəli bərk ah çəkir.*) Ədə, nə yaman ah çəkdin, bala, nə dərdin var ki?

Əsgər. Nə dərdi olacaqdır... Gülçöhrəni mənə verdin, Asyanı Süleymana verdin, xalamı özün alırsan; indi Tellini də ver ona də!..

Hamı. Doğrudur, doğrudur!

Süleyman (*Vəliyə*). Hə, dedim ki, axı sən də hazırlaş.

Sultan bəy. A qız, Telli, Vəliyə gedərsənmi?

Telli (*mərd-mərdanə*). Bəli, gedərəm.

Sultan bəy. Vəli, sən Tellini alarsanmı?

Vəli (*utanır və birdən-birə*). Bəli, alaram! (*Gülür.*)

Hamı. Allah xeyir versin!

Sultan bəy. Yaxşı, balam, toylarımızı nə vaxt başlayaq?

Hamı. Elə günü bu gün.

Sultan bəy. Hə!.. Bəs elə isə başlayaq, düzülün!

Cüt-cüt olub oynayırlar. Əvvəlcə musiqiyə görə ağır, sonra musiqi tezləşdikcə tez-tez oynayırlar, ta ki pərdə düşür.

PƏRDƏ



PRİSTAV AĞA

M... kəndində bir qəribə halətdir. Əhali bir-bir komalarından dışarı çıxıb, guya xof və vahimədən nəşət edən bir iztirab ilə o tərəfə bu tərəfə baxaraq, kəndin gen bir küçəsinə doğru gedirlər və burada toplaşıb dururlar. "Allah özü sovuşdursun" – deyirlər. Hər kəsin üzündə bir nişanəyi-xof, hərəkətində bir cürətsizlik, danışığında bir ehtiyat müşahidə olunur. Bunlar insanı bilaixtiyar titrəməyə məcbur edəcək mərtəbədə müdhiş bir hadisə vüquinə və yaxud mütəqəddim bir şəxsin vürudinə müntəzir idilər. Vaqiən belə idi: M... kəndinin əhalisi (Allah göstərməsin) pristav ağanın təşrifini gözləyirdilər. Dünən İran sərbazına müşabəhəti olan bir strajnik "bəy" kəndə gəlib, qabağına çıxan ağsaqqalları xubunca döyüb-söyəndən sonra, "sabah pristav ağa gələcək" dedi və gecə, döy-düyü ağsaqqalların birinin evində qalıb, səhər atına minib, geri qayıtdı.

Şayani-diqqət burasıdır ki, strajnik bəyin kəndə gələndə cibində beş-altı qəpik pulu var idi. Lakin gedəndə bu beş-altı qəpik bir gecə-nin içində beş-altı manata "istihalə" etmişdi. Bu "möcüzənin" sirri ev sahibi ilə cib sahibinə məlum idi.

Strajnik bəy kənddən müfariqət edər-etməz, qonşular ev sahibi Kər-bəlayı Bünyadəlinin yanına yüyürüb, "pristav nə səbəbə gələcək" – deyib sordular. Kərbəlayı Bünyadəli isə – strajnik bəy evində mehman olduğu-nu ehsas münasibətilə böyük bir şərəfə nail olmuş kimi qeyrilərinə nis-bətən ali bir can sahibi olduğunu ehsas etdirmək üçün kəmali-kibr və qürur ilə "əşi, mən nə bilim? Pristav ağanın işi kəndləri gəzib adam döy-dürməkdir, dayna!" – deyib xalqdan üz çöndərdi və onların atəşi məraqini söndürmədi... Pristav çox gec gəldi. Əhali kəsbü karından əl çəkib, bu günü pristav ağanı gözləməyə sərf etdilər. Hər kəs, pristav nə üçün gə-ləcək? – deyə öz-özünə fikir edirdi. Ağanın bu qəsdini hər kəs bir bəha-nə ilə özünə andırırdı. Məsələn, Cənnətqulu belə güman edirdi ki, "Pris-tav, Əliqulunun oğurluğunu eşidib gəlir". Əliqulu isə deyirdi: "Ha! Pristav ağa Cənnətqulunun Məmmədcəfərlə savaşdığını eşidib gəlir və s..." Lakin "Pristav gəlir!" – bu ikisinin də hərdəm titrəməyinə səbəb olurdu.

Əlqissə, axşam çağı pristav gəldi. Müvasilətindən bir az müqəd-dəm kəndlidən birisi qışqıra-qışqıra, dili dolaşa-dolaşa: p... p... p... pristav ağa g... g... gəlir! – deyə cəmaətin vahiməsini son mərtəbəyə yetirdi. İtlər hürdü, uşaqlar ağladı, arvadlar "Allah sən saxla" – deyib, ora-bura qaçdılar. Kişilər də sapsarı saralıb itləri, uşaqları, arvadları sakit etməyə başlayıb, özləri onlardan betər qışqırırdılar.

Pristav ağa bir təmtəraq, bir təntənə, bir dəbdəbə ilə on nəfər cəlladməcaz strajniklərdən mütəşəkkil müini ilə belə çaparaq kəndə daxil oldular. Kəndlilər kəmali-inqiyad və itaət ilə cənab pristavı istiqbal etdilər və "sən bizim başımızın sahibisən" – deyib, əsnayi namazla rüku edən kimi, baş deyil, bədən əydilər. Lakin cənab pristav əhalinin belə izahari-təbəiyyəti-sadiqanəsindən əqmazi-eyn edib, keçən gün cibində "möcüzə" görünmüş sərbaz simalı strajniki təqib edərək, atını Kərbəlayı Bünyadın evi həyətinə sürdü.

Kərbəlayı, 70 sinn altında bükülmüş vücudunu 15 yaşına yetmiş cavana mənsub bir cümbüş və hərəkətə gətirib sıçradı və pristav ağanın "cismi-əzizi" atın üstündən yerə düşürdü. Strajniklər də kəndlilərin köməyi ilə atlarından yerə süqut edib, metad qaidəyə rəayət edərək topalanmış kəndliləri qamçı ilə şaparlamağa başladılar.Və atlarını otarmaq ilə özləri üçün də bir "yaxşı" yer hazırlamağa əmr etdilər.

O gecə M... kəndində bir neçə qoyun dəxi qurban edildi.

Sabahı günü Kərbəlayı Bünyadın həyətində şayani-təmaşa bir drama vaqe olurdu. Cənab pristav başıaçıq və əlləri ciblərində "özünü dartmış turac kimi" qapının ağzında durub, keçmiş padşahlara mənsub bir hökumət ilə cərgə ilə düzülmüş kəndliləri bir-bir və hərəsini bir növ ilə döydürürdü. Birisini libasdan xali edib, lüt əndamına qamçı vurdururdu, digərini saqqalından tutdurub, üzünə, başına sillələr çəkdirirdi, bir qeyrisini əlibağlı ora-bura çapdırırdı. Bəzisini yerə yıxıb, təpik altına saldırdı və sairə...

Döyüşə mübtəla olanlar hərdəm: "Bizim taqsırımız nədir, ağa, başuva dönüm" – dedikdə, cənab pristav və sonra da strajnik bəy tərəfindən bir neçə kəlmə föhşdən mütəşəkkil cəvabi – "şafi" alırdılar...

Bu drama səhərdən günortayadək imtidad çəkdi ki, ondan sonra pristav ağa, bu qədər zəhmətdən artıq yorulub, girdi otağa və kənd mollasının evində şərəfinə keşidə edilmiş ziyafətdə (bu ziyafətdə pristavdan savay bir də Kərbəlayi Bünyadəli var idi) mükəmməl surətdə bir nahar edib, istirahət üçün bir-iki saat şirin yuxuya müstəqrəq oldu... Bidar olduqdan sonra, Kərbəlayı Bünyad tərəfindən "Əbidanə" əta olunmuş kəhər ata rakib olub və kəndçilər tərəfindən "mübarək qədəmi" münasibətilə hədiyyə edilmiş quzuları (yağ, qatıq, pendir və s. məlum işdir) müininə tapşırıb, öz paytaxtına mütəvəccihən rəvanə oldu.

Ağa gedəndən sonra kəndçilər "Mumi ileyhin" sahibi təhəkküm bir zat olduğunu tosif və tərifə başladılar.

BİR FİRƏNG İLƏ SÖHBƏTİM

Günlərin bir günü, yəni bir neçə zaman bundan irəli nə tövr oldusa bir firəng ilə tanış oldum. Firəng məni, mən firəngi söhbətə tutduq, bir xeyli danışdıq, elədik; axırda firəng məndən soruşdu ki, bir de görüm bu Qafqazda nə qədər müsəlman vardır? Dedim, altı dəfə doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz və bir də altı müsəlman! Dedi, bu zəhməti çəkmə, altı milyon desə idin ağzın yorulmazdı. Dedim, mən müsəlmanam, doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquzun mənə artıq təsiri olur, nəinki bir milyonun. Firəng bu sözə razı oldu və sonra yenə soruşdu ki, bu altı milyon müsəlmanın içində neçə qəzetə verilir. Dedim Allahdan gizli deyil, səndən nə gizli olacaqdır: bu altı milyon müsəlmanın içində bircə dənə qəzetə verilir; bunu dediyimi gördüm, firəng yerindən elə sıçradı ki, guya, kişini ilan dişlədi! Və üzündə elə bir heyrət və təəccüb əlaməti göstərdi ki, mənim özüm də quruyub mat qaldım və ürəyimdən keçirtdim ki, yazıq altı milyon müsəlman bir gör sənin içində bircə dənə qəzetə verilməsi yad firəngə nə pis təsir elədi və halonki, sənə qalsa istərsən ki, heç qəzet yerli-dibli olmasın! Amma sonra bildim ki, firəngi təəccübə gətirən altı milyon müsəlmanın içində bir qəzetə olması deyilmiş, çünki o məndən soruşdu ki, "Müsyo, indiyədək, nə təvarixdə, nə də heç bir abrazavannı yerdə görülməyibdir ki, bir dənə qəzetənin altı milyon müştərisi olsun!!! "Neujeli" sizin bir danə qəzetənizin altı milyon müştərisi var?! Firəng bu sualı mənə verdikdə, məndən bir qəhqəhə çıxdı ki, firəng elə bildi dəli olmuşam... dedi, nəyə gülürsünüz? Dedim: heç, onu deyirəm ki, qəzetəmizin altı milyon müştərisi yoxdur, bir qədər azdır.

Dedi: Beş milyon? – Əlli min?
Dedim: Bir qədər azdır. – Yox, azdır.
Dedi: Dörd milyon? – Otuz min?
Dedim: Bir qədər azdır. – Yox, azdır.
Dedi: Üç milyon? – On min?
Dedim: Bir qədər azdır. – Yox, azdır.
– İki milyon? – Beş min?
– Yox, azdır. – Yox, azdır.
– Bir milyon? – Dörd min?

– Yox, azdır. – Yox, azdır.
– Beş yüz min? – Üç min?
– Yox, azdır. – Yox, azdır.
– Üç yüz min? – İki min?
– Yox, azdır. – Yox, azdır.
– Yüz min? – Bir min?
– Yox, azdır. – Yox, bir az çoxdur.
– Doxsan min? – Bəs neçə?
– Yox, azdır. – Min səkkiz yüz!

Bu sözü demişdim ki, gördüm rəfiqim firəng tez bir fayton çağırıb düz vağzala sürdürdü və o gedən firəng oldu ki, getdi. Bir neçə vaxtdan sonra firəngdən bir kağız aldım ki, içində bunu yazmışdı:

"Altı milyon tayfanın içində bir dənə qəzet ola, və o qəzetənin də min səkkiz yüz müştərisi ola, o tayfadan heç bir yaxşı şey gözləmək olmaz, a molla!". "Bu sözlər məni çox yandırdı, tez götürüb cavabında yazdım ki: nə olsun, biz müsəlmanlar beləyik, amma siz firənglərin də yedikləri həmişə qurbağa ilə tısbağadır!!!"

ÜÇÜNCÜ DƏLLƏK

Bizim Qarabağda cürbəcür dəlləklər var. Bunların içində eləsi var ki, həmi sənin başını qırxar, həmi hansı dişini desən çəkər, həmi boynunun ardına zəli qoyar, həmi istəsən oğlunu sünnət eylər. Amma "adikalon-madekalon" bilməz və o cürə murdar şeyə heç əlini də vurmaz, bainhəmə üstündən bərk "ətir" iyi gələr ki, ona "quyruq yağı" deyirlər.

Eləsi var ki məsələn, bu gün yaxşı urusu baş vurar, buğlarını da hatərəfə desən o tərəfə eşər və bir az-maz da urus dili bilər. Stolunun üstündə də həmişə cürbəcür içi su ilə dolu "adekolon" şişələri olar, güzgüsü də adamı "xortdan"a oxşadır.

Eləsi də var ki, (yox, qoyun bunu ayrı cürə deyim): Əzizim oxucu, əqlində bir adam fərz elə, qoy bu adamın bir ayağında qaloş olsun, bir ayağında başmaq, əynində çuxası olmasın, onun əvəzində tək bircə arxalıq olsun ki, onun parçasını və rəngini tanımaq üçün gərək əlinə

bir bıçaq alıb dörd gün çirkini qazıyasan. Belində bir qayış olsun və qayışın ucu da böyürdən sallansın, çiynində bir məhrəba asılsın və o məhrəba da gərək qab dəsmalına oxşasın. Belindəki qayışa ülgüc formunda iti bir bıçaq sancılsın və o bıçaq ilə də qarpız kəsildiyi məlum olsun; onda bu adam olar həmin mən dediyim dəllək.

Bu dəlləklərin dükanı olmaz, bunlar günlərini elə bazarda keçirərlər və özləri də həmişə kəndli-məndliləri qırxarlar, onda çox fənd eləyirlər; məsələn, görürsən ki, bir kəndli yayın isti günü bazara meyvə gətirib satıblar və özü də aşbazdan iki şiş lüləkabab alıb günorta üstü bir sərin yerə çəkilib dürməkləyir və öz-özünə də fikr eləyir ki, görəsən baqqal onu allatmadı ki, evdə arvad nə tapşırmışdı və sairə. Bu vaxt kəndli hiss elər ki, başı kicişir, əlini atar ki, qaşısın – bir adam deyir ki: "Yavaş, tərpənmə, ülgüc başını kəsər". Kəndçi dik ayaq üstə sıçrar və görər ki nə? Həmin bayaq yazdığım dəllək onun başını bir xeylaq qırxıbdır və özü də məzəmmət eləyir ki, əşi, uşaq-nəvalıq deyilsən ki, düz otura bilməzsən. Otur, tərpəndin, ülgüc də bir az başını cızdı... Sonra bilməyirəm bunların sövdası necə olar, ancaq onu bilirəm ki, kəndli evinə qayıdan zaman başını iki dəsmal ilə bağlamış qayıdar.

Bu söhbəti salmaqdan məqsədim o idi ki, bunu deyim ki, görəsən bu Yevropa hökumətləri ki, belə gəlib müsəlman hökumətlərinin dinməzcə başlarını qırxırlar ki, heç kəs də onlara bir söz deməyir. Qarabağın hansı dəlləklərinə oxşayırlar? Mənim əqlim kəsir ki, bizim bu bazar dəlləklərinə çox oxşayırlar. Nə üçün?

Ondan ötrü ki, məsələn, indi, götürək bu gün İranı, hamınıza məlumdur ki, indiyə kimi İranın başını iki nəfər "dəllək" qırxmaqdadır ki, onlardan birisi ingilis, o birisin də ki (qoy yavaş deyim eşitməsin!) özünüz tanıyırsınız.

İndi də demirsinizmi ki, bu yandan üçüncü "dəllək" çıxıbdır. Budur ki, neçə ildən bəridir ki, Osmanlının başını qırxan və çox vaxt da "bilməyib" qulağını kəsən Germaniyadır. Deyir indi də İranın başını mən də qırxacağam! O birilərə deyir: "Ay balam, axı neçə ildir ki, elə hazır bu kişinin başını podrata götürməmisiniz ha, mən də qırxacağam!".

Qərəz, mən onu deyirəm ki, İran görsün başına bir təhər çəkə bilərmi, yoxsa, bir də görərsən ki, dördüncü "dəllək" çıxdı; onda bir gün olar ki, İranı da Fas sultanının gününə salıb "kiliz" qoyarlar.

MƏŞƏDİ KABİLİN TƏBRİZ SƏFƏRİ

Məşədi Kabilin başı çox qarışıq idi, cürbəcür "vajnı" işləri var idi ki, bunların hamısını bir-bir düzəltmək lazım idi. Bir işi o idi ki, gərək oğlunu işkolaya qoysun, ondan sonra qızını köçürsün və bunlar hamısı keçəndən sonra Təbrizə gedib mal gətirsin və dükanını olduğu yerdən ayrı bir yerə köçürsün və bundan başqa o qədər xırda işləri var idi ki, bəzi vaxt heç başını qaşımağa da macalı olmurdu.

Məşədi Kabilə məsləhət gördülər ki, əvvəlcə Təbrizə gedib dükan işlərini düzəltsin, sonra o biri işlərinə şüru etsin.

– Elə yaxşıdır, əvvəlcə işlərini bir qurtar, sonra Allah qoysa, qayıdarsan, can sağlığı olsun, o biri işlərini də düzəldərsən! – deyib arvadı da Məşədi Kabilə bunu məsləhət gördü.

Məşədi razı oldu və başladı Təbrizə səfərə hazırlaşmağa...

Söyləyirlər ki, London ingilisləri bazardan evlərinə bir parça kağız yazıb göndərirlər ki: "Məni nahara gözləməyin, Hindistana gedəcəyəm". Və arvad-uşağı ilə görüşməyi qayıdan başa qoyub, paroxoda minib gedirlər. Amma bizim müsəlmanlar nədənsə qürbətdən çox qorxurlar.

Odur, məsələn, Bakıdan Biləcəriyə və ya Şuşa qalasından Ağdama getmək lazım olanda çox bikef olurlar, arvad-uşaq da bikeflənir və yola düşəndə də az qalırlar ki, ağlaşma qursunlar.

İndi Məşədi Kabil də Təbrizə gedəcəyini yadına salıb, bir az bikef olmuşdu, arvad-uşaqlar da bikef idi. Ancaq bircə Kərbəlayı Səfinin vecinə deyildi. Pəncərənin ağzında oturub səfərə hazırlaşan Məşədi Kabili gözləyirdi və uşaqlara təsəlli vermək üçün deyirdi:

– Allah qoysa atanız bu gün çıxar, bir-iki gündən sonra olar Təbrizdə, amma görün sizə nələr gətirəcək! Təbriz yemişi, bax, kişmişləri bu boyda olur, bax, badamları qoz boyda, çoxlu xurma gətirəcəkdir ki, biri yumruq böyüklükdə.

İşin bu məqamı balaca uşaqların bir qədər kefini açdı. Balaca Səməd isə tək bir yemişlərə kifayət etməyib, bir Təbriz xoruzu da istədi.

– Bəs, Təbriz xoruzu da gətirər, – deyib Kərbəlayı Səfi onu arxayın etdi.

İki saatdan sonra min cürə dualarla, daldan su atmaqla, qapıya Quran çıxartmaqla Məşədi Kabili yola saldılar...

Bir saatdan sonra bazara xəbər düşdü ki, Məşədi Kabili paroxod qabağında öldürdülər!

BAZAR SÖHBƏTİ

– Məşədi Səməd, bir bura bax! Vay Məşədi Səməd! Bura bax, söz deyirəm!

– Bu saat! Qoy bir bu çuxanın burasını tikim! Yiyəsi gözləyir.

– Əşi, bir bura bax, sonra tikərsən. Sənə bir yaxşı əhvalat deyəcəyəm.

– Sən de, mən qulaq asıram!

– Bura bax, rəhmətlik Əliqulu bəyin dayısı Kərbəlayı Hüseynəli bəyi tanıyırdın?

– Yox, necə Əliqulu bəyin?

– Əşi, nə deyirsən, dostun Mirzə Cəfərin aşnası Əliqulu bəyi tanımırsan?

– Hə, keçəl Əliqulu bəyi tanıyırdım.

– Onun dayısı Kərbəlayı Hüseynəli bəyi tanıyırdın?

– Tanıyırdım, necə?

– Axı, Kərbəlayı Hüseynəli bəyin bir nökəri var idi. Adına Yırtıq Səfi deyərdilər, bir arvadı da var idi, neçə ildi ki, doğmurdu, sonra gedib Qarabasan kəndindən bir qız aldı, özü də deyirlər ki, bəy qızıdır, ondan da Yırtıq Səfinin bir oğlu oldu ha!

– Hə, necə?

– Ta nə hə, haman o oğlan indicə bir rus qızı ilə gəlib bizim dükanın qabağından keçdi.

– Əşi, nə deyirsən?

– Sən öl, and olsun Allaha, özüm ölüm ki!..

HARA QAÇACAQLAR?

Ravi belə rəvayət eləyir ki, Eynüddövlə, Şüca Nizam, Rəhim xan, Mir Haşım, Mirzə Həsən, Mirzə Kərim və qeyriləri – bunlar hamısı Təbrizdən çıxıb qaçarkən şaha belə bir məktub yazıblar:

"Salam-duadan sonra yazıb məlum edirik ki, "ma səd nəfər budim tənha, onha, yek nəfər budənd cəm", ona binaən Təbrizdən qaçdıq, vəssalam."

İndi mən öz-özümə fikir edirəm: yaxşı, bunlar hara qaçacaqdırlar?

Tehrana?

Xeyr! İndi bu saat Məhəmmədəli şahın onlara elə acığı tutub ki, hərgah o, "səd nəfər tənha"dan birini görsə, elə vurar ki, başı süpəhsalar məscidi kimi darmadağın olar.

Bəs hara? İranın sair şəhərlərinə?

Xeyr! Hərçənd İranın sair şəhərləri Təbriz əhlini aldatdılar və yalandan dedilər ki, ay budur köməyə gəlirik, ay on min adam göndərirdik, ay bu gün çatar, ay sabah çatar, ha budur gəldilər, ha atlıların başı çıxdı – qərəz çox səs-küy elədilər, amma axırından bir şey çıxmadı, atlıların nə başı göründü, nə quyruğu, yazıq təbrizlilər gözlədilər, gözlədilər, axırda qəti ümid olub, dedilər: özünə bağla ümidini, özgəyə bağlama.

Amma yenə də...

Heç ağlım kəsmir ki, bu şəhərin adamları Təbrizdən qaçan "qəhrəmanlara" ağuşlarını açıb üzlərindən öpsünlər və desinlər: "Yuxay, nə yaxşı ki, sağ-səlamət gəlib çıxdınız". Çünki əgər bu şəhərlərin birində namus olmasa, barı insaf olar. O birində insaf da olmasa, barı bir parça qeyrət olar! Bir ayrısında namus, insaf və bir parça qeyrət olmasa, bir qədər həmiyyət olar; bir ayrısında namus, insaf, bir parça qeyrət və bir qədər həmiyyət olmasa, bir dıtdaq mürüvvət olar. Bir özgəsində namus, insaf, bir parça qeyrət, bir qədər həmiyyət, bir dıtdaq mürüvvət olmasa, barı bir barmaq ağıl olar. Yenə bir başqasında namuş, insaf, bir parça qeyrət, bir qədər həmiyyət, bir dıtdaq mürüvvət, bir barmaq ağıl olmasa da barı bir anbar qorxaqlıq olar.

Amma qorxaqlıq olar, çünki qorxaqlıq oldu ki, Təbrizə köməyə getmədilər və indi qorxaqlıq olar ki, Təbrizə kömək edərlər, çünki daha Səttarxanın gücü məlum oldu. Kişi padşah ilə padşahlıq etdi. Halbuki bütün İran və bizim Bakıda bütün Quba meydanının adamları deyirdilər ki, padcahnan padcahlıq eləmək olmaz. Amma görünür ki olar və necə ki oldu! Hə, bəs indi bu adamlar hara qaçacaqdırlar?

Rusiyaya?..

Xeyr, Rusiyada məşrutə var. Məşrutəli yer onları qəbul etməz.

Bəs hara?

Elə mən bu fikirdə idim ki, gördüm idarəmizin qabağında iki nəfər adam acıqlı danışır. Biri deyir:

– Adə, boynu sınmış Cəfər necə oldu?

O biri deyir:

– Getdi.

– Hara?

– Əşi, cəhənnəmə, gora! Mən nə bilim!

İndi ağlım kəsir ki, mənim sualıma da bu cürə cavab verməkdən başqa bir çarə yoxdur.

BİR DƏLİNİN DƏFTƏRİNDƏN

Bir məsəl var deyirlər ki, ikiayaqlıya etibar yoxdur.

Doğrudan da belədir, dünyada hər nə ikiayaqlı məxluq var, onların heç birinə etibar eləmək mümkün deyil.

Götürək, məsələn, toyuğu. İkiayaqlı məxluqdur. Nə qədər dən ver, nə qədər yem ver, yenə də səni görəndə qaçacaqdır. O ki qaldı adama – ikiayaqlı məxluqdur – daha burada heç danışmaq lazım deyil.

Amma bu işin səbəbi var.

Məsələn, evdən çıxırsan bayıra və görürsən ki, bir dənə toyuq ayağının birini qalxızıb təkcə durubdur, ya özü də bərk fikrə gedibdir. İstəyirsən ki, yanına gedib bir qədər dən verəsən. Görürsən ki, o saat qaçdı. Deməli, toyuqla sənin aranda etibar yoxdur. Çünki sən də ikiayaqlı, o da.

İndi görək bunun səbəbi nədir?

Toyuq çox yaxşı bilir ki, sən toyuq yeyənsən və madam ki, səni görür həmişə qorxur. Odur ki, bir sürü toyuğa da çağırıb dən tökəndə görürsən ki, yazıq toyuqların bir gözü dəndə və bir gözü də səndədir.

İndi gələk adamlara!

Deyirlər ki, qədim zamanlarda adamlar bir-birlərinə çox yaxşı etibar elərmişlər və hətta bir zaman var imiş ki, bir salavata çörək də almaq olarmış, başmaq da və papaq da.

Mən bilmirəm ki, bu əhvalat doğrudurmu, yoxsa yalan. Ancaq onu bilirəm ki, bu gün o cürə şeylər ola bilməz. Çünki bu gün "salavat" əvəzinə pul lazımdır. Pulu qazanmaq da salavat çəkmək kimi asan deyildir. İndi bu gün əgər bir adam o biri adama etibar eləyirsə, pulun cəhətinə eləyir və illa pulu olmasa, itmiş pasport kimi etibardan saqitdir.

Pul insanlar arasında rəsmiyyət törədir. Məsələn, Həsənqulu ilə Cəfərəli bir-birilə danışırlar, Həsənqulu deyir ki, bu gün başım bərk ağrıyır, onda Cəfərəli cavab verir ki, bir qədər fenastin al, yainki ya-

tarkən başuva dəsmal çal, ya həna qoy. Amma elə ki, Həsənqulu Cəfərəliyə bir manat zərər vurur, o halda Cəfərəli elə vurur ki, Həsənqulunun başı nəinki ağrıyır, bəlkə yarılır və qan axır. İndi mənə deyəcəklər ki, sənin sözlərində məntiq yoxdur...

Məntiq nədir?

Məntiq danışma elmidir. Danışan kəs gərək elə danışsın ki, sözünün dalı qabağı bir-birinə düz gəlsin. Məsələn, deməsin ki, bu gün hava çox gözəldir, çünki dünən bərk acmışdım.

İstərsiniz məntiq barəsində bir qədər söyləyim. Burda misal lazımdır. Məsələn, şüşə qırılar, əlimdəki şüşədir. Bəs əlimdəki şüşə də qırılar.

Bir özgə məsəl: insanlar öləcəkdirlər. Sən insansan, bəs sən də öləcəksən. Yainki insan ikiayaqlıdır. Və ikiayaqlıya da etibar yoxdur. Toyuq dəxi ikiayaqlıdır, bəs onda, toyuğa da etibar yoxdur.

Onda birisi gəlib deyir: toyuğun iki ayağı vardır və özünə də etibar yoxdur. Sənin də iki ayağın var və sənə də etibar yoxdur. Bəs onda sən toyuqsan!

Yox, bu söz xilafi-məntiqdir, buna "sufizm" deyərlər. Elə haman o "sufizm"dir ki, Tehran hökumətini bu günə saldı və həm ağlamalı və həm gülməli bir komediya qayırdı.

İran hökuməti deyir ki, sair hökumətlər məşrutə verdilər, çünki camaat elə istəyirdi. Amma İran camaatı elə istəmir və ona görə mən də məşrutə vermirəm.

Burada məntiq olardı, hərgah "İran camaatı elə istəmir" sözü qələt olmasaydı. Amma çünki o söz qələtdir, ona görə bu mətləbdə, İran hökuməti qanacaqdan kənar olan kimi, məntiqdən də kənardır. Mən burada çox sözlər danışardım, amma danışmıram.

Zəban dər dəhan ey xərəndmənd çist?

. . . . . nist.

BAŞA DÜŞMƏDİ

Keçənlərdə idarəmizə Yevropadan bir nəfər adam uçub gəlmişdi. Söhbət arasında dedi ki, bizim Yevropada böyük bir həyəcan və qorxu vardır.

Dedim:

– Səbəbi nədir?

Dedi: – Səbəbi odur ki, Yevropaya çox həyəcanlı xəbərlər gəlir ki, müsəlmanlar böyük bir surətlə tərəqqi edirlər...

Dedim: – Təəccübdür, bizim tərəqqimiz sizi qorxudurmu?

Dedi: – Bilirsiniz, insaniyyət nöqteyi-nəzərincə çox şad eyləyir. Biz sevinirik ki, bizim növümüz yavaş-yavaş zillətdən qurtarır. Amma o biri tərəfdən, bilirsiniz, bu əyyam bir əsri – mubarizeyi-həyatiyyə əsridir. Yəni dirilik üçün dava eləmək əsridir. Onun üçün biz istəməzdik ki, dirilik üçün dava edənlər bizim kimi elm quvvətilə güclü olsunlar. Məsələn, bu gün elm və mədəniyyət qüvvətilə yaraqlanmış olan İspaniya Fas ərəbləri ilə dirilik üçün dava eyləyir. Onun üçün İspaniyanın firənglərə çox bərk acığı tutubdur. Deyir ki, axı sən nə üçün bu vəhşilərə mədəniyyət ucunu göstərib tüfəng atmaq öyrətdin ki, onlar da bizə tüfəng atırlar. Bütün aləm də bunu boynuna alır ki, əgər Fas ərəbləri Yevropa mədəniyyətini öyrənsələr İspaniyanı beş-on gün içində darmadağın edib, əvvəlcə də mədəniyyət gücü ilə İspaniyanı öz mülkü etdiyi kimi, bu səfər də eləcə edər. (Çünki o zaman ki, Yevropa mədəniyyətdən məhrum idi, ərəblər ən şəşəlli bir mədəniyyətə malik idilər, yəni bütün elm və fənlər aralarında getdikcə tərəqqi edirdi. O halda İspaniyanı ərəblər alıb, islam dövlətinin bir vilayəti etmişdilər!.. Amma sonradan... əşi, Allah mollalara insaf versin.)

Mən yevropalıya dedim ki, əzizim, bizi bağışlayın, sizin qorxunuz bizim tərəqqimizə mane ola bilməz. İstər sizin qorxudan ürəyiniz getsin, biz yenə tərəqqimizi əldən buraxmayacayıq. Biz tərəqqi eləyəcəyik.

Dedi: – Bircə onu de görüm indiyə qədər çoxmu tərəqqi eləyibsiniz?

Dedim: – Çox eləmişik!

Dedi: – Olmazmı, öz tərəqqinizdən mənə nümunə göstərəsiniz?

Dedim: – Olar, çıxaq bayıra!

Bayıra çıxdıq, yevropalıya dedim tamaşa elə.

Dedi: – Baxıram.

– Gördünmü?

– Nəyi?

– Tərəqqini?

– Hanı? Heç bir şey görmədim!

– Bəs görmədinmi ki, buradan bir nəfər saqqallı müsəlman keçdi ki, ayağına çəkmə geymişdi. Onun ayağına çəkmə geyməyi çox böyük tərəqqidir.

Dedi: – Anlamıram nə deyirsən.

Dedim: – Belə beş-altı il bundan irəli hər kəs ayağına başmaqdan başqa özgə bir şey geysəydi, ona salam vermək əvəzində "Allah saxlasın" – demək lazım gəlirdi. Amma tərəqqimiz bu gün o dərəcəyə çatıbdır ki, çəkmənin başmaqdan rahat olduğunu hamımız boynumuza almışıq.

Dedi: – Heç başa düşmürəm nə deyirsən?

Bir az ora-bura göz gəzdirdim: – Bax, bax, müsəlman arvadları faytona minibdilər!

Dedi: – Nə olsun?

Dedim – Paho! Bir neçə il bundan irəli nəinki arvad, hətta kişi cürət edib faytona minsəydi, haman dəm faytonun çarxları bir tuği-lənət olub onun boynuna keçərdi!

Dedi: – Sözün doğrusu, heç qanmıram nə deyirsən?

Dedim: – Bir ora bax, iki nəfər müsəlman bir-birinin yanından keçdi və heç bir şey olmadı.

Dedi: – Nə olsun?

Dedim: – Pa! Bir-iki ay bundan irəli onlar bir-birinin yanından keçsə idilər, haman dəm atışıb bir-birini öldürmüşdülər. Halbuki indi, heç bir zad olmadı. Bundan artıq nə tərəqqi?

Dedi: – O sizin tərəqqi deyildir, o, Martınovun qorxusudur! Sən bircə mənə de görüm realnidə, gimnaziyada, universitetlərdə oxuyan uşaqlarınız çoxdurmu?

Dedim: – Vallah onlar çox olardı, hərgah bir məsələ ümum müsəlmanların qabağını kəsməsəydi.

Dedi: – Nə məsələdir?

Dedim: – Çox böyük məsələdir.

Əyilib qulağıma dedi:

– Hökumət qoymayır?

Dedim: – Xeyr, onun bir sözu yoxdur, bu məsələ başqa məsələdir.

Dedi: – Bir de görək nə məsələdir?

Dedim: – Şalvar məsələsidir?

– Necə şalvar?

– Adam geyən şalvar!

Dedi: – Canım, sən müəmma ilə danışırsan, açıq de görüm nə demək istəyirsən!

Dedim: – Qoçaq, bundan açıq söz olmaz, şkola gedən uşaqlar dar şalvar geyirlər və dar şalvar da bizlərdə çox pis şeydir. İndi həmin məsələ bizim qabağımızı kəsdiyinə görə işkolaya uşaq qoymaqa cürət eləmirik.

Bu sözlərdən sonra əcnəbi əvvəlcə çox güldü, amma sonra bir qədər fikrə gedib birdən başladı uşaq kimi ağlamağa və ağlaya-ağlaya bu sözləri dedi:

– Biz elm sayəsində havada quş kimi uçuruq, amma bunlar hələ şalvar məsələsinə məşğuldurlar... (*Dedi və uçub getdi.*)

TƏHSİL

Mən məktəbdə oxuyanda, bizim məktəbə təzə bir molla təyin eləmişdilər. Yəni bu molla "ekzamen" tutmuşdu və o "ekzamendə" heç bir kəs onunla bərabər ola bilməmişdi.

Camaat belə deyirdi ki, dünyada heç bir elm yoxdur ki, bu axund onu bilməmiş olsun. Bu sözləri axund özü də təsdiq eləyib deyərdir ki:

– Mən bütün ülum və fününa darayam.

Kişi "dara" olmaya bilməzdi, çünki səkkiz il məktəbdə oxuyub, bircə dəfə də fələqqəyə düşməmişdi. Sonra ikmali-təhsil üçün İrana gedib səkkiz il də Təbrizdə oxumuşdu və bədə Təbrizdən Tehrana yollanıb dörd il də orada və ondan sonra beş il Məşhəddə və bunlardan başqa dörd il də İranın bir şəhərində təhsil etmişdi ki, onun adı yadımda qalmayıbdır.

Dərs vaxtında bu axund bəzi vaxt bizim ilə dostanə söhbətlər edərdi, böyük səfərlərindən nağıl edərdi, çox şirin söhbət eylərdi.

Bir dəfə ondan soruşduq ki, axund İran böyükdür, yoxsa Rusiya?

Dedi:

– Əgər İranın bu başından düşəsən və gecə-gündüz yol gedəsən və hər bir saatda yetmiş ağac yol eləyəsən və yetmiş il səfər eləyəsən, hələ gəlib İranın yarısına çatmazsan.

Dedik:

– Axund, bəs ruslar yazırlar ki, İran Rusiyadan 20 dəfə balacadır.

Axund buna şeirlə cavab verdi:

Key nik-bəxt, an nə şekle-mən əst
Vəlakin, qələm dər kəfe-doşmən əst!

Bir gün uşaqlardan biri dedi:

– Axund, heç dəryanın dibini bilmək olar?

Axund dedi:

– Budur mən iyirmi beş il oxumuşam və iyirmi beş il sümük sındırıb bütun ülum və fünunə dara olmuşam, amma, indiyə qədər bir kitabda görməmişəm ki, dəryanın dibini bilən olsun.

Yoldaşlarımızdan biri dedi:

– Axund, bəs ruslar yazırlar ki, dəryanın lap dərini səkkiz verstdir.

Axund güldu və bunu nağıl etdi:

– "Zərəfşan" kitabında oxumuşam ki, İskəndər-Zülqərneyn dünyanın üzünü alandan sonra, istədi ki, dəryaların dibini də alsın, ona görə dəryanın içinə cumub yetmiş il yol getdi. Nagah burada bir adama rast gəldi ki, axtarır. Sual etdi ki, sən nə axtarırsan. Dedi ki, yetmiş il bundan əvvəl mənim əlimdən bu dəryaya bir balta düşüb, dəryanın dibinə gedibdir. İndi mən gərək bundan sonra yetmiş il yol gedəm ki, bəlkə dəryanın dibinə çatam. İskəndər-Zülqərneyn bu əhvalatı eşidib səfərindən əl çəkdi.

Yoldaşlarımızın içində bir "dələduzu" vardı, dedi:

– Axund, hesab elmi oxumaq haramdır, yoxsa halal?

Dedi:

– Haramdır!

Dedi:

– Bəs bu elm necə ki, məsələn, mən istəyirəm biləm, cibimə nə qədər pul qoyum ki, putu altı manatdan iki kəllə qənd və girvənkəsi iki manatdan beş girvənkə çay alıb, üstünə də nəqd on beş manat pul qoyub bir axunda göndərim.

Axund dedi:

– O cürə elmi oxumaq nə haramdır, nə halal, ancaq savabdır.

Bu əhvalatdan sonra, gördük ki, fəziləti-axund məlum şüd.

İştə iyirmi beş il oxumaq zarafat deyildir. İyirmi beş il – bir əsrin dörddən biridir.

BALACA FELYETON

Beş manat əhvalatı

Bir gün oturub dəftərxanada yazırdım. Gördüm bir müsinn şəxs qapını açıb məni işarətlə çölə çağırdı. Mən haman saat çölə çıxıb – nə buyurursunuz? – sualı ilə müraciət elədim. Kişi gözlərinin yaşını abibaran kimi axıdıb mənə dedi:

– Başına dönüm, mənim bir oğlum var, hansı ki, Xarkovda oxuyur. Budur üç ildir ki, mən bir tövrlə ona pul göndərirəm. İndi məktəbi qurtarmağına qalıbdır iki il. Mən də olub-olanımdan çıxmışam. İndi bir qara qəpəyim yoxdur ona göndərəm ki, bu neçə il çəkdiyim zəhmət əbəs yerə olmasın. Bu da mənim oğlum yazan kağızdır. Səndən təvəqqə edirəm bu barədə mənə kömək verəsən, yoxsa biabır olası yerimdir.

Mən dərhal öz aldığım məvacibi, kişinin halətini mülahizə edib gördüm mənim donluğumdan kişiyə haray yoxdur. Haman günü bir məclis tərtib edib öz dost-aşnalarımdan oraya cəlb edib, bir siyahı bina edib, insaflı kişilərimizdən ianə yığmağa məşğul oldum. Kimə müraciət etdimsə, pul tələbində müzayiqə etmədi. Sonra növbət gəldi bizim Hacı dayıya və ümidim var idi ki, Hacı bişəkk və şübhə 10, ya 15 manat verəcəkdir. Hacı dayının dükanına bir neçə yoldaşlar ilə varid olduq.

– Hacı dayı, salaməleyküm.

– Ba, ələyküməssəlam, bəy dadaş!

– Buyurun, buyurun, xoş gəlibsiz. A gedə çayçı, çay gətir.

– Xeyr, Hacı dayı, çox təşəkkür edirəm. Çay içməyəcəyəm, sizin yanınıza bir cüzi təvəqqeyə yoldaşlarla gəlmişəm, ümidvaram təvəqqeyimiz qulluğunuzda məğbul olub müzayiqə etməyəcəksiniz.

– Bəs, bəs, bəydadaş, bu nə sözdur, sən mənə qulluq buyur, mən həmişə can və başla düzəltməyə hazıram.

– Hacı dayı, bir artıq sizə zəhmətim yoxdur, bir şəxsin oğlu Xarkovda oxuyur, atası onun xərcini indiyə kimi çəkibdir. Amma indi əli aşağı düşməyə görə və müsəlman qardaşımız olmağa görə onun üçün bir az pul cəm etmişik ki, o cavan puldan məəttəl olub oxumağını yarımçıq buraxmasın. Ona görə 5 manat da siz əta ediniz, ianə cəmi təriqilə ki, sizin adınızı siyahıya yazaq.

– Ha, ha, ha, ha... Qəribə təklifdir. Yaxşı! Bəydadaş! Mən üç dəfə həccə getmişəm, dördüncü dəfə həm niyyətliyəm. Mən həcc pulumu pozub, nə tövr Rusiyaya göndərim?

– Hacı dayı, nə vaxt Allah qoysa bu dəfə həccə təşrif aparacaqsınız?

– İnşallah, bəydadaş, gələn il.

– Yaxşı, Hacı dayı, gələn ilədək məgər siz 5 manat qazanmayacaqsınız ki, gələn ilki həcc pulunu pozmayıb, üstünə qoyub gedəsiniz?

– Xeyr, əzizim. Mətləb burasındadır ki, bu gün banka 10 min manat yola pul salasıyam ki, veksilimin vaxtı keçməsin.

– Zərər yoxdur, Hacı dayı, onda sabah gəlim, sabah verərsiniz.

– Xeyr, xeyr, sabah zəhmət çəkməgilən, sabah usta Qarapetə min manat borc vəd etmişəm, ona görə gərək verəm ki, binəvanın pambıq pulu kəsirdir, aparsın, pambıq alsın.

– Zərər yoxdur, Hacı dayı, birisi gün gələrəm.

– Xeyr, xeyr, xeyr!.. Birisi gün Hacı Qulaməli kişinin oğluna nömrə pulu yığılır, ona pul göndərəcəyəm.

– Zərər yoxdur, Hacı dayı, o birisi gün gələrəm.

– Xeyr, xeyr, xeyr!.. O birisi gün barama almışam, onun pulun gərək verəm, gəlmə.

– Zərər yoxdur, Hacı dayı o birisi gün, gələrəm.

– Xeyr, xeyr, xeyr, xeyr, gəlmə.

– Niyə?

– Çünki.

– Nə çünki?

– Çünki.

– Nə çünki?

– Belə!

– Nə belə?

– Çünki belə.

– Necə çünki belə?

– Çünki habelə və genə habelə, mən sözün vazehi ruscanı oxuyana töbə etmişəm pul verməyəm, vəssalam.

– Hacı dayı bu nə sözdür sən danışırsan, ruscanı oxuyan müsəlmanlara sən gərək təşəkkür edəsən ki, hal-hazırda dəftərxanalara və qeyri-divanxanalara gedəndə dil bilməyib mat-məəttəl qalırsınız.

– Nə vaxt mənə dil bilən lazım olsa, mən pul ilə tutub apararam, mənə dilmanclıq edər.

–Yaxşı, Hacı dayı, dilbilən müsəlman qardaşlarımızın birisi də artıq olsa, nə ziyan edər?

–Xeyr, xeyr, xeyr, xeyr! Mən, sözün doğrusu, haman oğlana nəinki beş manat, hətta beş qəpik də göndərə bilmərəm. Çünki mən göndərdiyim pulla oxuyub, sonra bir rus orəti alıb həm məni tanımayacaqdır.

Xülasə Hacı dayıdan əlimi üzüb getdim dəftərxanaya.

Günlərin bir günü idi, gördüm mənim Hacı dayım kürkünün qollarını sallaya-sallaya gəlir. Gələn kimi şappadan içəri girmək istəyəndə qapıda duran kazax döşündən bir yumruq vurub Hacı dayını saldı bayıra. Mən bunu qəbul etməyib, Hacı dayını yanıma çağırıb sordum ki,

niyə gəlibdir. Hacı dayı dedi ki, bu gecə qonşusunun dükanından bir cüt başmaq oğurlanıbdır. Müqəssir bunun oğlunu güman edib həbsə salıbdılar, indi gəlibdi ki, naçalnikdən təvəqqe etsin, oğlunu zaminə versin. Çifayda rusca dil bilmir ki, getsin naçalnikin yanına.

Dedim: – Necə, Hacı dayı, rusca bilən gətirməyibsən?

Dedi: – Xeyr.

Dedim: – Niyə?

Dedi: – Çünki!

Dedim: – Çünki?

Dedi: – Ruscanı bilən məndən on manat istədi, indi dilbilən qardaş əlac sənə qalıbdır, mənə kömək elə, burada mən gəldim, sonra Hacı dayının işini də yola verib yola saldım və sabahı gün gördüm bir paketdə bir dənə üçlük manat göndərib və təvəqqe edibdir ki, haman oğlana göndərim. Sağ olsun belə Hacı dayı da.

PRUŞKEVİÇ VƏ HACI XUDU

Günlərin bir günü Pruşkeviç ilə Hacı Xudu yatmışdılar. Pruşkeviç Peterburqda yatmışdı, Hacı Xudu da öz evində yatmışdı. Bunlar birbirlərini yuxuda gördülər. Hacı Xudu ayıq olduğu zaman Pruşkeviç barəsində çox eşitmişdi ki, bu hərif müsəlmanların ziddinə gedəndir. Müsəlman xeyirxahı deyildir. Hətta bir jurnalda onun şəklini də Hacıya göstərmişdilər. Amma Hacı yuxusunda Pruşkeviçə baxıb gördü ki, hərif çox da çirkin deyildir. Gözündə çeşmək, əynində yaxşı libası, bir göyçək adamdır.

Hacı Pruşkeviçə dedi:

– Sən bir göyçək adamsan, amma sənin şəklini, nədənsə, çox pis çəkiblər.

Pruşkeviç Hacıya cavab verdi:

– "Ke, ey nikbəxt, an nə şekle mən əst,
Vəlakin qələm dər kəfe doşmən əst".

Sonra Hacı yenə soruşdu:

– Bir də deyirlər ki, sən və sənin kimi adamlar biz müsəlmanlara zidsiniz. Müsəlmanların bədxahısınız.

Pruşkeviç cavab verdi.

– Mən də bilmirəm, doğru deyirlər, yoxsa yalan. İstərsən mən də bir-iki kəlmə danışım. Gör yalan deyirlər, yoxsa haqq danışırlar.

Hacı razı oldu və Pruşkeviç başladı danışmağa.

P r u ş k e v i ç. Mən istəmirəm ki, müsəlmanlarda qəzet olsun.

H a c ı. Onu biz də istəmirik. Qəzet bizim şəriətimizdə haramdır.

P r u ş k e v i ç. Mən istəmirəm ki, müsəlmanlarda teatr olsun.

H a c ı. Biz özümüz də onu istəmirik. Teatr şəriətimizdə haramdır.

P r u ş k e v i ç. Mən istəmirəm ki, müsəlmanlarda musiqi çalmaq, şeir yazmaq və şəkil çəkmək işləri tərəqqi etsin.

H a c ı. O çür şeyləri biz özümüz də istəmirik. Onlar hamısı şəriətdə haramdır.

P r u ş k e v i ç. Mən istəmirəm ki, müsəlmanlar nemes dili, firəng dili, hesab, coğrafiya, hikmət, fəlsəfə, kimya, tarixi-təbiət, tarixi-bəşər, həndəsə, müsəlləsat və bu cür şeyləri bilsinlər.

H a c ı. Bu cür şeylərin hamısı küfrdir. Biz özümüz də onları istəmirik.

P r u ş k e v i ç. Mən istəmirəm ki, müsəlmanlarda üsuli-cədid məktəbləri olsun.

H a c ı. Allah üsuli-cədid çıxardanlara lənət eləsin. O cür məktəblər hamısı bicxana yığıncağıdır.

P r u ş k e v i ç. Mən istərdim ki, müsəlman məktəblərinin hamısı ruhani məktəbləri olsun.

H a c ı. Əlbəttə, əlbəttə... Biz də onu istəyirik.

P r u ş k e v i ç. Amma bu şərtlə ki, o məktəblərdə şəriətdən başqa özgə elmlər oxunmasın.

H a c ı. Allah atana rəhmət eləsin. Bəs biz dediyimiz nədir?

P r u ş k e v i ç. Bəs belə!

H a c ı. Doğrudan deyirsən, yoxsa zarafat eləyirsən?

P r u ş k e v i ç. Xeyr, doğrudan deyirəm.

H a c ı (*şad və xürrəm*). Əlini mənə (*ürəyində*) zərər yoxdur, sonra əlimi suya çəkərəm. (*Aşkara*) Hər kəs sənə pis deyir, onun özü pisdir. Bu canım üçün hərçəndi sən urussan, amma bir çox müsəlmanlardan daha müsəlmansan! Təki müsəlmanların sənin kimi bədxahları çox ola.

P r u ş k e v i ç. Arxayın ol. Mənim kimilər çox-çoxdur. Amma təki müsəlmanların çoxu sənin kimi ola.

H a ç ı. Arxayın ol, mənim kimilər çox-çoxdur!

P r u ş k e v i ç. Bəs yerdə qalanlar?

H a c ı. Yerdə qalanların hamısı babılardır.

P r u ş k e v i ç. Bizim də yerdə qalanların hamısı cuhuddur.

Bundan sonra ikisi də yuxudan ayıldılar. İndi bir adam lazımdır ki, bunların ikisinin də yuxusunu yoza...

QARABAĞIN KEÇMİŞ GÜNLƏRİNDƏN

Günorta azanından iki saat keçmişdi ki, Azad bəy Məşədi Fərrux ilə qumar oynadığı otaqdan durub öz "hərifini" yola salıb, keçdi arvadı Gülnisə xanım olan otağa. Gülnisə xanım ərinin pəjmürdə sifətini görub, kəmali-hüzn və kədərlə soruşdu:

– Uduzdunmu?

Azad bəy:

– Yox əşi, – deyib arvadını aldatmağa başladı. – Əvvəl uduzmuşdum, amma sonra yenə uddum. Tək beş manat uddum!

Lakin qəlbən öz-özünü məzəmmət elədi: "Yalansa, Allah mənə lənət eləsin! Gözumün ağı-qarası əlli üç manatımı uduzmadımmı?"

Doğrudur, Gülnisə xanım ərinin "uddum" sözünə inanmadı, lakin yenə də bir söz deməyib, yalnız bir ah çəkdi. Sonra ərinin təvəqqeyinə görə nökər Hüseynəlini çağırdı ki, naharı çəkib versin. Nahar bozbaşdan ibarət idi ki, onun da ətini, noxudunu, hətta suyunu da binavə Hüseynəli dalaşa-dalaşa dükançılardan borc almışdı.

Ər və arvad oturub çörək yedikləri yerdə otağın qapıları şaqqıltı ilə açılıb, Azad bəyin oğlu – valideynin fərzəndi – yeganəsi içəri daxil olub dəyil, hücum edib qoltuğunda olan kitabları şappıltı ilə otağın ortasına tolazladı. Xudadad bəy (*oğlanın adı idi*) realnı məktəbdən qayıtmışdı. Bu, "pəhləvanlıqdan" sonra Xudadad bəy məktəb paltarını tələsik soyuna-soyuna, divanəvər bir səs ilə çığırdı:

– Vallah, ta mən oxumayacağam, billah oxumayacağam, qoy direktor acığından partlasın, cırılsın, yenə oxumayacağam! Ana, hanı mənim müsəlman paltarım?

Azad bəy nahardan başını qovzayıb kəmali-təəccüb ilə oğluna tərəf baxdı və soruşdu ki:

– Ədə, başına at təpməyibdir, səni cin vurmayıbdır, içib kefli deyilsən, nə qayırırsan?

Oğlu isə ağzını-üzünü qırışdırıb dedi:

– Əşi, sən də qoy görüm!.. Bilmirəm bu nə deyir! Ağız, ana, hanı mənim papağım, çuxam, arxalığım? Dur by saat bura ver, geyim!

Azad bəyin acığı tutdu və istədi ki, ağzını açıb bir söz desin, lakin arvadı onu bu işdən mən edib dedi: – "Sən dinmə bircə!" – və özü ayağa durub gəldi oğlunun yanına və mülayim, mehriban dil ilə dedi:

– Bala, müsəlman paltarını neynirsən? Neçin buluzunu çıxarırsan?

Oğlan cavab verdi ki:

– Mən bir də ta oxumayacağam!

– Neçin?

– Elə heylə, oxumaq istəmirəm.

– Axı, neçin oxumaq istəmirsən?

– Oxuya bilmir, şüuru yoxdur! – deyib Azad bəy oğlunun əvəzindən cavab verdi.

Bu isə Xudadad bəyə xoş gəlməyib istehza ilə dedi:

– Hə, oxuya bilmirəm! O gözü kor urus başmaqçı Səfinin oğluna "pyat" qoyub, mənə də "dva" qoyanda, əlbəttə ki, oxuya bilməyəcəyəm!

Atası: – Yaxşı oxu, sənə də "pyat" qoysun.

Oğlu: – "Yaxşı oxu!.." Məndən yaxşı oxuyan yoxdur.

Atası: – Bəs nə üçün sənə "dva" qoyur?

Oğlu: – Çünki o kor urus mən ilə ləçdir!

Gülnisə xanım bu söhbətə müdaxilə elədi:

– Bir deyin görüm, sən allah, mən qanmıram, kor urus kimdir, "pyat" nədir, başmaqçı Səfinin oğlu kimdir, "dva" nədir?

Azad bəy arvadını başa salırdı:

– Belə kor urus bunların uçitelidir, başmaqçı Səfinin oğlu da bunun yoldaşıdır. Uşqollarda pis oxuyanlara "dva", yəni "iki" qoyurlar, yaxşı oxuyanlara da "pyat", yəni "beş" qoyurlar. İndi bizim bu oğlana görünür ki, "iki" qoyublar, yoldaşı başmaqçı oğluna da "beş", odur ki, bunun acığı tutubdur.

Gülnisə xanım dedi:

– Neçin sən bəy oğlu ola-ola, sənə iki qoyurlar, amma başmaqçı oğluna beş? Neçin demirsən ki, ay uçitel, mənə beş qoy, altı qoy, mən bəy oğluyam, mənə yeddi, səkkiz də azdır... Başmaqçının oğlu nədir ki, ona beş-beş qoyur?..

Azad bəy:

– Ağlına maşallah! – deyib arvadının qanacağına "təhsin" oxudu.

Xudadad bəy isə acığının içində də gülümsəyib, üzünü divara tərəf tutdu ki, atası onun gülümsədiyini görməsin. Sonra özünü yığışdırıb acıqla anasına qayıtdı:

– Ağız, qanmadığını danışma, tez ol mənim paltarımı bura ver! Vallah ta bir də oxumayacağam! Qoy cəhənnəm olsun direktor da, kor urus da, o da, birisi də. Tez ol, acmışam!

Anası oğlunu sakit edirdi:

– A balam, bir soyunma, əvvəl çörəyini ye, sonra paltarını dəyiş dayna!..

Oğlu razı oldu:

– Di yaxşı, mən çörəyi yeyincə, sən paltarı hazırla! – Bunu deyib döşü açıq olduğu halda oturdu deyil, yıxıldı atasının yanına və mürəkkəbli əlini biləyinədək soxdu bozbaş kasasının içinə.

Azad bəyin ovqatı təlx oldu. Dedi:

– Ədə, adamsan, bir əlini yuyaydın, ondan sonra çörəyə oturaydın! Neçin belə dəli-şəli olmusan?

Bu söz Xudadad bəyin xatirinə dəydi, "yemirəm" deyib geri çəkildi.

– Zəhrimar olsun!

Atası isə oğlundan da bərk acığı tutub, az qaldı ki, oğluna bir sillə çəksin, lakin özünü saxlayıb bir qədər hüm-hüm elədi, axırda sımsırığını sallamış oğluna baxıb:

– Dur burdan itil! – deyib qışqırdı.

Oğlu durdu ayağa və "Cəhənnəmə!" deyib, anası hazırladığı müsəlman paltarını geyməyə başladı. Binəva Gülnisə xanım yenə müdaxiləyə məcbur oldu. Əvvəlcə ərini sakit etmək üçün oğlunun uşaq olduğunu ona qandırdı (*halbuki oğlunun azından bir on dörd yaşı vardı*) və sonra oğluna tərəf gedib, anaya mənsub bir nəvazişlə dedi:

– Bala, yekə oğlansan, atanın sözü xatirinə dəyməsin get çörəyini ye, o, bir pis söz demədi, deyir yəni əlin mürəkkəblidir, get yu! İndi ki yumursan nə eləmək, yuma, get çörəyini ye. Atana həram eləmə, mən də yazığam, axı!..

Lakin anasının nəvazişi Xudadad bəyə əsər eləmədi.

– Əşi, sən də qoy görum, – deyib qırmızı ipəkdən gödək arxalığını, ağ dəvə yunundan uzun çuxasını və "diyaqanal"dan dar tikilmiş şalvarını da geyib kəmərini bağladı, saatını taxdı və atasına acıq olmaq üçün qollarını ata-ata və ayaqlarını bərk yerə vura-vura qapıya tərəf yollandı. Anası onu saxlamaq istəyib dedi:

– A balam, Xudadad, hara gedirsən, qal çörək ye!..

Lakin Xudadad qulaq asmayıb:

– O çörək zəhrimar olsun! – deyib qapıdan düz çıxdı...

Gülnisə xanım mat qaldı. Azad bəy isə oğlunun dalınca bir qədər baxıb bir lomba tüpürdü.

– Tfu, – dedi, – Allahın qəzəbinə gələsən, a pis övlad!

– Buy, sən allah, elə demə, ay Azad! – deyib Gülnisə xanım ərinin üstünə çığırdı: – A kişi, necə dilin var gəlir. Yazıq deyilmi? Sən də yekə kişi qoşulursan balaca uşağa... İndi nə olsun, sən allah, yazıq ac getdi, nə bilim hara getdi... Əşi qoyursanmı ki, bircə uşaq evdə otursun?..

Azad bəy də öz tərəfindən söylənməyə başladı:

– Əşi, sən allah bəsdir, elə onun xarabını çıxardan əvvəldən sən oldun! Uşaqdır, uşaqdır deyə-deyə gedəni qudurtdun. Onun harası uşaqdır? Yox, indi ki, uşaqdır, uşaq yerində otursun, böyüyün üstünə it kimi çəmkirməsin!.. Tez ol, çağır nökəri, bu çörəyi yığsın... Özüm də bir az yatmaq istəyirəm.

Bir ah çəkib, Gülnisə xanım nökəri çağırdı. Nökər Hüseynəli gəlib süfrəni yığdı və gedəndə ağasına doğru üzünü çöndərib yavaş səs ilə dedi:

– Ağa, o baqqal Həsən kişiyə bir qədər pul versəydin yaxşı olardı. Yoxsa and içibdir ki, daxı bundan sonra bir düyü də nisyə verməyəcəyəm... Əttar Məşədi Cəfər də bu gün lap abrımı tökübdür. A gedə, deyir, vallah bir yol sənin ağanı bazarda tutub başından papağını alacağam, yoxsa...

– İtil, itil burdan, səfeh oğlu səfeh! – deyib Azad bəy elə çığırdı ki, səsinin gücündən evdə qab-qacaq cingildədi və otağın baş tərəfində bir tikə çörək üstündə diş sındıran pişik qorxusundan tikəni qoyub, güllə kimi çıxıb bayıra qaçdı.

Hüseynəli kor və peşman qayıdıb, yavaşca sovuşdu aşpazxanaya. Azad bəy bu zərb-zəngdən sonra yorulub yıxıldı taxtın üstünə və... yatdı. Gülnisə xanım isə daha bir söz danışmayıb, kefsiz və qəmgin bir halda yerə əyləşib ərinin qumarbazlığı, işinin xarablığı və oğlunun rəftarı barəsində qara-qara fikirlərə qərq oldu...

Bəli, Azad bəyin oğlu Xudadad bəy andına vəfa etdi, yəni daha oxumadı; lakin direktor və kor urus partlamadı. Ancaq Azad bəyin acığı tutdu və Gülnisə xanım isə bir-iki gün ah çəkib, sonra oğlunun: "Ana, vallah, oxumaq mənə zərərdir" kimi sözlərinə inanıb, "Canı sağ olsun" – deyə sakit oldu. Bu minval ilə üç il gəlib keçdi. Xudadad bəy özünə ayrı bir iş tapdı ki, o işin adına hər yerdə qumarbazlıq deyərlər. Lakin Xudadad bəy özü və yoldaşları bu sözün əvəzinə "məşğuliyyət" sözü işlədirdilər. Doğrudan da bu "məşğuliyyət" Xudadad bəyi elə məşğul edirdi ki, bütün gecə-gündüzünü də "məşğuliyyət" üstündə keçirirdi.

Gündüz evdən çıxıb bir də sübhə yavıq zamanda qayıdırdı və hər bir qayıdan vaxt qapının ağzında anasını əli qoynunda, intizar ilə durmuş görürdü...

Şəhərdə bir toy olmazdı ki, Xudadad bəy orada hazır olmamış olaydı.

Bir dəfə Xudadad bəyin atası Azad bəy bazarda durub öz "hərifi" Məşədi Fərruxu gözləyirdi. Özu də elə yer seçib durmuşdu ki, borclu olduğu dükançılar onu görmürdülər. Bir qədərdən sonra bir nəfər adam ona tərəf yaxınlaşmağa başladı. Bu adam papağı əyri, cır-cır çəkməli, yeriyəndə lovğalıq üçün iki tərəfə əyilən və qollarını canbaza çıxmış pəhləvan kimi atan bir oğlan idi. Azad bəy onu gendən görən təki tanıdı, lakin bir o qədər də şad olmadı. Bu oğlanın adı Səlim, ləqəbi isə "Cırıq" idi. (Hər adama bir ləqəb qoymaq şəhərdə çoxdan bəri dəb düşmuşdü: birisinə "Pəndir" Ələkbər deyirdilər, birisinə "Saqqal" Musa deyirdilər və birini "Dikdən qoru" adlandırırdılar və s.) Cırıq Səlim şəhərin qolçomağı (qoçusu) hesab olunurdu. Çünki bir dəfə bazarda birisilə dalaşıb, qaradovoyun yanında cibindən tapança çıxartmışdı və hərçənd qaradovoy tapançanı onun əlindən almaq istəmişdi, lakin Cırıq Səlim verməmişdi. Deyirlər ki, sonra Səlim qaradovoyun "könlünü almışdı". Hər halda bunun cibindən qaradovoyun yanında tapança çıxması, yəni bu günə cəsarət və cürətin büruzu onu xalqın yanında başı uca etmişdi və şəhərin qoçuluğuna layiq olmuşdu... Xeyrat və ehsan günü mollalara edilən hörmət, toy günlərində buna edilirdi. Qərəz qoçu Cırıq Səlim Azad bəyə yaxınlaşıb salam verdi. Azad bəy tələsik cavab verib əl tutdu. Başladılar söhbət etməyə. Səlim dedi:

– Allah sağ eləsin, sizin Xudadad bəy əməlli-başlı oğlan olubdur.

Azad bəy:

– Necə?

Səlim:

– Hamı ilə danışır, gülür, toylarda yaxşı oynayır, çox yaxşı qumar da oynayır...

Azad bəy qızardı:

– Harada görmüsən? – dedi.

Səlim cavab verdi:

– Çox yerdə görmüşəm. Bir də dünən Quru Mustafanın toyunda idi. Məclisi çox şad elədi. Neçə dəfə gözəl oynadı. Hamını məəttəl qoydu. Allah onu həmişə səlamət eləsin. Ancaq bir o var ki, qumar üstündə bir az dava-dalaş eləyir, o yaxşı deyil...

Azad bəy qıpqırmızı olmuşdu. Səlim sözünə davam edirdi:

– Dünən o toyda bir neçə gedə-güdə vardı, onlar ilə dördaşıq üstündə bir az sözləri çəp düşdü, aralıqda bir çox yava söhbət oldu... Ancaq mən o gedələrə acıqlandım, istədim də döyüb onları məclisdən qovam, amma toy sahibi yalvardı ki, işin yoxdur, qoy pislik olmasın, yazıqdırlar... Sonra Xudadad bəyi kənara çəkib tapşırdım ki, bir də elə adamlar ilə qumar oynama, oynayırsan da mənim ilə oyna, Əsgər bəy ilə oyna, yoxsa gedə-güdələrə qoşulsan, camaat pis söz deyər. Söz verdi ki, oynamaram, xülasə mənimlə bir-iki aşıq tolladı. Gördüm ki, bəy yamanca hərifdir. O gecə mənim on beş manatımı uddu. Dedim zərər yoxdu...

Azad bəy utandığından bilmirdi ki, nə qayırsın. Əgər o hində yer yarılsa idi, haman dəm yerə girərdi. Oğlu Səlimi udmuşdu və Səlimi udan adamlar da qaydaya görə gərək haman pulu bir qədər də artırıb geri qaytara idilər. Binanən ileyh Azad bəyə lazım idi ki, Səlim bəyə bir iyirmi-otuz manat versin ki, həmi özünü sındırmasın və həm də bununla oğlunun eybini örtsün. Lakin dərd burası idi ki, bu halda Azad bəyin cibində iyirmi manat o yana dursun, iyirmi qəpik də yox idi. Əgər pulu olsaydı, burada boş-boş durmazdı, "hərif" tapıb, özu demişkən, çörək pulu qazanardı. Ona görə bir yandan pulsuzluq xəcaləti və bir yandan da oğlunun nalayiq hərəkəti binəvanı turp kimi qızardıb, su kimi tər tökməyə məcbur elədi. Bir-iki dəfə öskürüb əlini cibinə saldı və bir şey axtarmağa başladı. Cırıq Səlim sevindi. Yəqin elədi ki, Azad bəy pul çıxardacaqdır və ehtiram üçün istədi desin ki, "Əşi, lazım deyil, filan", amma yaxşı ki, demədi. – Çünki bəyin cibindən pul əvəzinə papiros ilə dəsmal çıxdı. Bu isə Cırıq Səlimin kefini pozdu və bikefliyini bildirməmək üçün üzünü o tərəfə çevirib Azad bəy tərəfindən təklif olunan papirosdan çəkmədi ki, "Sağ ol, mən qəlyan çəkirəm" və tez xudahafiz edib getdi. Cırıq Səlim getdikdən sonra Azad bəy acığından dodağını dişləyib, oğlunu qaibanə hədələdi: "A namərd! Sən məni biabır elədin, adamlar yanında üzümü qızartdın, gör sənin başına nə oyun çıxardacağam. Allaha and olsun, əlimə bir odun alıb səni o qədər döyəcəyəm ki, şişib tuluq kimi olasan! Görək, əlbət evə gələrsən, binamus!".

Bu hədədən sonra Azad bəy bir papiros da çəkib oğlu barəsində fikir etməyə başladı. Oğlunun uşaqlığı onun yadına düşdü. Necə o zaman Xudadad bəyi atası sevirdi, heç qucağından yerə qoymazdı. Dörd yaşında Xudadad bəyi alardı dizinin üstünə və dilini əzə-əzə deyərdi:

"A küçük, ay it!". Xudadad bəy də şirin uşaq dili ilə: "Əşi, küçük sənsən, it sənsən!" – deyib cınqılı əli ilə atasının üzünə şapalaq (sillə) vurardı. Atası deyərdi: "Yavaş, eşşək!". Oğlu cavab verərdi: "Əşi, eşşək sənsən!". "Vallah gözünü tökərəm!" – deyib, az qalardı balaca barmağı ilə atasının gözünü çıxartsın. Atası deyərdi: "Ada, adam da atasına söyərmi, a heyvan?". Oğlu cavab verərdi: "Bəs sən mənə niyə söyürsən, a heyvan?".

Bu mükalimədən sonra Azad bəy oğlunu qucaqlayıb marçamarç ilə öpərdi. Uşaq da: "Əşi burax!" – deyib dartınardı ki, xilas olsun. Axırda Gülnisə xanım gəlib uşağı ərinin əlindən alardı. Atası isə nökəri bazara aparıb oğlu üçün cürbəcür şeylər alardı. O vaxt Azad bəyin cib sarıdan kefi kök idi. Yüz manata pul deməzdi. Bazardan aldığı şeyləri evə gətirib tökərdi oğlunun qabağına və söyüşə-söyüşə yeyərdilər. Azad bəy oğlunu evdən çölə buraxmazdı. Qorxardı ki, oğluna göz dəysin. Evdə oturub həmişə öz yanında saxlardı. "Həriflər" ilə qumarzad oynayanda oğlunu da yanına çağırıb deyərdi:

– Otur burda, sənə pul udub verəcəyəm!

Doğrudan da udduğu pulun yarısını oğluna verərdi ki, bunu da sonra Gülnisə xanım tutub oğlunun əlindən alardı.

Xudadad bəy yeddi yaşına yetişdikdə atası onu "çastni" şkolaya qoydu və uçitelə tapşırdı ki, vurub eləməsin. Uçitel daxı bəyin sözlərinə əməl edib (çünki aybaşı öz vaxtında yetişirdi), Xudadad bəy dərsini bildi-bilmədi bir ağır söz də deməzdi və çox vaxt tərifləri ki, görün necə təmiz uşaqdır, heç bir yeri cırıq deyil!

Azad bəy iki ildən sonra oğlunu "çastni" şkoldan çıxarıb realnı şkolaya qoymaq istədi, amma direktor onu qəbul etmirdi. O halda Azad bəy tanış müəllimlərindən birinin vasitəsilə direktor ilə aşna olub, özünün dövlətli bir bəy olduğunu ona qandırdı. Direktorun bu aşnalıqdan xoşu gəldi, amma yenə də dövlətli aşnasına məsləhət gördü ki, hələ bir qədər "çastnım obrazom" oxutsun, lakin Azad bəy qandırdı ki, oğlunu "çastnım obrazom" oxutmaq üçün heç olmasa bir yüz manat sərf etmək lazım gəlir. Yaxşı olmazmı ki, yüz manat özgənin cibinə girməyib elə direktorun özündə qala – bunu deyib əlini cibinə saldı. Direktor bir az çəm-xəm elədi, amma axırda yumşalıb yüz manatı əlində oynada-oynada dedi:

– Doğrudur, oğlunu qəbul etdim, amma yenə də deyirəm ki, oxuya bilməyəcəkdir. Çünki heç savadı yoxdur. Gərək onun dərsinə evdə diqqət yetirilsin.

Azad bəy direktoru arxayın elədi ki, "qorxma, inşallah, bülbül kimi oxuyacaqdır..."

Bu işlərin hamısını Azad bəy yadına saldı və oğlunun indiki oturub-duruşunu mülahizə edib çox pis oldu.

– Bəs, – dedi, – uşağın axırı xarab oldu... Mən nə qayırım? Oxumadı. Bütün əməyimi zay etdi. İndi də qumarbaz olub, Cırıq Səlim kimi adamlarla qumar oynayır. Allah ona lənət eləsin! Məni bihörmət elədi. Bazar içində adımı yerə soxdu. Nə qayırım? Evdə görəndə deyirəm: balam, oxumadın, oxumadın, barı gəzmə, dalınca pis söz deyirlər... Deyir, ey sənin borcun deyil. İstəyirəm döyəm – anası qoymayır, söyürəm, durub evdən qaçır. Yox, ta bu səfər gərək mən onun havasını alım. Atamın ərvahına, onu bir xubunca döyüb – baxmayacağam anasına – ayaqlarını bağlayıb salacağam otaqların birisinə, qoy orada dustaq olsun. Ondan savay əlac yoxdur!

Azad bəy bu niyyətlə yerindən tərpənib evinə getdi. Lakin oğlunu orada tapmadı. Gülnisə xanımdan soruşdu ki, oğlun hanı?

Dedi:

– Nə bilim, a başına dönüm, oğlum evdə olanda o qədər üzünü danlayırsan ki, yazıq baş götürüb evdən qaçır. Sən allah, bir də ona bir söz demə, vallah gedə lap bezar olub. Özüm də qorxuram, ürəyimə qara-qara fikirlər gəlir, pis yuxu görürəm. Allah özü saxlasın!..

Azad bəy bir söz demədi və bir qədər otağın o başına-bu başına fırlanıb nökər Hüseynəlini çağırdı. Hüseynəli gəldi:

– Nə buyurursan, ağa?

Azad bəy:

– Get Məşədi Fərruxu çağır, de ki, ağam deyir gəlsin bir az söhbət edək. Özün də söz arasında Məşədi Fərruxa çatdır ki, kənddən ağanın yanına adam gəlmişdi ki, dəhyek pulu gətirmişdi... Qandınmı nə deyirəm? Di tez get!..

Bəzzaz Hacı Əsədin oğlu Rustəmin toyu idi. Gəlin gətirilən günün irəliki axşamı oğlan evində çox böyük məclis arəstə olmuşdu. Xalıgəbə ilə gözəlcə bəzənmiş böyük bir otağın içi toya yığılmış adamlar ilə dolu idi. Ən yuxarı başdan "padşah" oturmuşdu. Bu "padşah" qoçu Cırıq Səlim idi. Onun sağ və sol tərəflərində əyanlar düzülmüşdü; "Qarğa" ləqəbilə məşhur qəssab Əsgər, Dimdikburun Hümmət, dəlləkbaşı Körük Mərdan, Leylac Səfdər, Qayqac Məhərrəm və sairə. Bunlar həmi "vəzirlik" edirdilər, həm də "qaradovoyluq". Aşağı tərəfdə oxuyub-çalanlar əyləşmişdilər. Bir nəfər xanəndə, bir nəfər tar

çalan və bir nəfər də yerdönbələyi vuran lotu. Yerdə qalan camaat hüzzardan ibarət idi. Bunlar divarların dibində əyləşib, otağın ortasını məhz oynayanlar üçün xali qoymuşdular. Sazəndələr oxuyub-çalmayan vaxtda əhli məclis söhbətə, çay içməyə və papiros çəkməyə məşğul olurdu. Vəxta ki, sazəndə dəstgahlardan birisini oxuyurdu, hamı səsini kəsib huş-guş ilə qulaq asırdı. Ancaq hüzzardan birisinin kəmali-hüzn ilə ah çəkib "Uf, evin yıxılsın, ay fəraq" – deyə pıçıldamağı sakitliyi pozurdu. Dəstgah qurtarıb təsnif oxunduqda bütün əhli məclis kəmali-qaideyi-musiqi ilə çırtıq vururdular. Bunların içində elə bir mahir çırtıq vuranlar var idi ki, şaqqıltısı küçədə eşidilirdi və küçə ilə gedənləri də tərənnümə gətirərdi. Təsnifdən sonra rəng vurulurdu, yəni oynamaq havası çalınırdı. O halda əhli məclisdən birisi yerindən sıçrayıb artıq bir şərq ilə qol götürüb oynayırdı. Oynayanlar cürbəcür qayda ilə oynayırdılar. Bəzisi gözlərini divarın bir nöqtəsinə dikib bir an oradan gözünü çəkmirdi. Bəzisi gülümsünürdü və çox vaxt ayaqlarına baxırdı ki, görsün düzmü işləyirlər. Bəzisi oynadığı yerdə əllərini qoynuna qoyub qaşqabağını sallayırdı, xalq demişkən çox "suryoznu" oynayırdı. Birdən olurdu ki, "vəzirlərdən" birisi "padşaha" danos edib xəbər verirdi ki, məsələn, Məşədi Cabbar çox gözəl uzundərə oynamaq bilir, amma nədənsə burada istəmir ki, oynasın. O halda "padşah" əmr edirdi:

– Çəkin ortaya Məşədi Cabbarı, sazəndələr də uzundərə çalsınlar!

Haman dəm vəzirlər və "qaradovoylar" şiri-əyan kimi yerlərindən qalxıb Məşədi Cabbarın üstünə hücum edirdilər və dartıb otağın ortasına çəkirdilər. Binəva Məşədi Cabbar and içirdi ki:

– Oynamaq bilmirəm!

Qızarırdı, tərləyirdi, dartınırdı ki, xilas olsun. Amma fayda vermirdi, axırda libası cırılacağını duyub, canını qurtarmaq üçün oynamağa məcbur olurdu. Lakin həqiqət də oynamaq bilmədiyi üçün dəli-divanə kimi bir qədər o başa-bu başa fırlanıb yenə yerində otururdu.

Məlum olsun ki, bizim Azad bəyin oğlu Xudadad bəy dəxi bu toyda hazır idi. Bir çox təmtəraq ilə cərgədə əyləşib damaq ilə papiros çəkirdi. Bu halda əhli məclisdən birisi yerindən qalxıb "padşaha" baş endirdi və dedi:

– Padşah sağ olsun, ərzim var! Təvəqqe edirəm ki, burada bir keçiməməsi çalınsın və Xudadad bəy də durub oynasın!

Əhli məclis ittifaq ilə ərizəçinin sözünə qüvvət verdi. Haman dəm keçiməməsi çalınıb Xudadad bəyi ortaya çəkdilər. Xudadad bəy isə Məşədi Cabbar kimi eləmədi, qol götürüb, sözsüz, hərəkətsiz oyna-

mağa başladı. Xudadad bəy çox gözəl oynayırdı. Hamını valeh edirdi. O idi ki, əhli məclis onun oynamağından şövqə gəlib bir dəstfəşanlıq edirdilər ki, səsası asimanə bülənd olmuşdu. Bununla bərabər əhli məclis, "Afərin, odur ha! Uxxay!" hətta "bravo" sözlərilə, hiss etdikləri ləzzəti izhar edirdilər.

Oyun qurtarandan sonra Xudadad bəy hamıya baş əyib yerinə oturdu və "padşah" tərəfindən bir qırmızı alma ətasına layiq oldu.

Bir qədərdən sonra əhli məclisdən qumar oynayanlar ayrılıb o biri otağa girdilər. Xudadad bəy dəxi bunların içində idi. Burada qumarbazların bəzisi dördaşıq üstə otururdu. Bəzisi "bank" və "bakara" açdı, bir qədəri "asnas" qurdular və sairələri də nərdtaxta oynamağa başladılar. Bir-iki saatdan sonra hamısı çox hirs ilə iş görməkdə idilər. Aşıqların şappıltısı, nərdtaxtanın şaqqıltısı, pul cınqıltısı, "Aşığı qəlbi tulla!" sözləri, "Yalançıya Allah lənət eləsin!" avazı, "Mən ölüm, dilxor eləmə!" səsi otağı başına götürmüşdü.

Xudadad bəy üç nəfər sair yoldaşları ilə dördaşıq oynayırdı. Çox bərk qızışmışdı. Kefi də kök idi, görünür ki, atası kimi "çörək pulu" qazanırdı. Qolunu çırmayıb, ortaya yarım manat salıb deyirdi:

– At yarım manat! Yarım manatda məzarı. Amma qəlbi atmasan əlinə lənət!

Aşıq tullayan bu sözdən inciyirdi:

– Bəy, min dəfə demişəm əlimin üstündə bəd danışma! Axı dilxor eləyib qoymursan ki, görək nə oynayırıq. Ala, qəlbi atdım. Aşıq hey!.. Əh... içinə lənət! Toxandır, əşi qoyursanmı ki, biz burada pul qazanaq! – deyib hərif aşığı buraxırdı...

Dördaşıqdan Xudadad bəy iyirmi manat pul udub durdu ayaq üstə və istədi getsin, lakin yoldaşları buna razı olmayıb dedilər ki:

– Oyundan qaçmaq olmaz, ya otur bizi lap ud və ya ki, pulunu uduz!

Xudadad bəy dedi ki:

– Canım, ta mən dördaşıq oynamaq istəmirəm, bank oynayacağam, gedirəm.

Amma yoldaşları qoymadılar, xülasə bir çox söz və hərəkətdən sonra Xudadad bəy təkrar oturub, yenə oynadı. Lakin çox çəkmədi ki, həriflərin bir azca qalmış pullarını təmiz udub durdu və sonra gedib bank və bakara oynayanlara qoşuldu. Görünür ki, bu gecə Xudadad bəyin əli yaxşı gətiribmiş; bank oyunundan da bir əlli manat udub qo-

şuldu asnasa... Qərəz hər bir oyun oynadı və hamısında da uddu. Sonra papağını əyri qoyub uduzanlara yanıq vermək üçün papiros damağında olaraq o tərəf-bu tərəfə gəzməyə başladı. Bu halda Xudadad bəyin heç fikrinə də gəlmirdi ki, evdə anası onun yolunu kəsdirib, əli qoynunda intizardadır... Belə rəvayət edirdilər ki, o gecə Xudadad bəy üç yüz manat qırx doqquz qəpik pul udubmuş. Bir çox adam ona həsəd aparıb, bəziləri də iqrar edirmişlər ki, bu qədər pula bir baqqal dükanı açmaq mümkün imiş...

Toy axşamının səhərisi saat altıda şəhərin bir məhəlləsində zurna və nağara ilə bəzzaz Hacı Əsədin evinə gəlin gətirdilər. O biri məhəlləsində isə Azad bəyin evindən "şaxsey, vaxsey" ilə qəbiristana tərəf meyit aparırdılar. O tərəfdən gəlin aparanlar zurnanın havasını oxuyub deyirdilər ki, "Gəl, gəl ay mənim maralım!", bu tərəfdən isə meyitin qabağında gedən tələbələr səs-səsə verib deyirdilər ki, "Sübhanallah, vəlhəmdəlillah... Allahu əkbər...". O tərəfdən "Urra, Urra!" və sonra "Allah, Allah!" – deyib Allah-taaladan tofiq və səadət diləyirdilər, bu tərəfdən isə bunlar da "Allah, Allah!" deyib xudayi-yeganədən rəhmət və əfv istirham edirdilər... Bu halda şəhər əhlindən Kərbəlayı Binnətqulu adlı bir baqqal öz tanışı əttar Məşədi Yadigar ilə görüşüb salamlaşandan sonra Kərbəlayı soruşdu:

– Məşədi Yadigar, bu ölən kimdir?

Məşədi cavab verdi:

– Bu ölən, Kərbəlayı Binnət, Allah rəhmət eləsin, Azad bəyin cavan oğlu Xudadad bəydir.

– Buy, Allah rəhmət eləsin... – deyib Kərbəlayı Binnət məəttəl qaldı: – A kişi, dünən mən ki, onu bazarda sağ-salamat gördüm ki? Ona nə oldu ki, belə tez öldü?

Məşədi cavab verdi ki:

– Özü ölməyibdir, yazığı öldürüblər. Çox da yaman dərd ilə öldürüblər.

Kərbəlayı:

– Vay yazıq! Görəsən kim öldürübdür?

Məşədi:

– Nə bilim, Allah bilir, ancaq o məlumdur ki, bu gecə bəzzaz Hacı Əsədin toyunda imiş, özü də səkkiz yüz manat pul udubmuş. Yazığı aldadıb çölə aparıblar və orada bıçaq ilə başını kəsib cibini soyublar...

Kərbəlayı Binnət bir ah çəkdi:

– Ax! A dünya, necə xarab olubsan. Yazıq Xudadad bəy, Allah sənə rəhmət eləsin, yaxşı uşaq idi, görəsən atası, anası nə haydadır?

Məşədi Yadigar çiynini tolladı:

– Nə hayda olacaqlar, gözlərinin ağı-qarası bir oğlan idi, ya onu öldürdülər, ya ki ata-anasını öldürdülər, nə təfavütü var!..

Bir qədər sükutdan sonra Kərbəlayı soruşdu ki;

– Hara gedirsən?

Məşədi cavab verdi ki:

– Dükana gedirəm!

Kərbəlayı dedi:

– Mən də dükana gedirəm, – sonra bunu da artırdı ki, – təzə yağ gətirmişəm, lazım olsa uşağı göndər bir az aparsın evinizə.

Məşədi Yadigar dedi:

– Çox yaxşı, göndərərəm. – Sonra o da Təbrizdən təzə həna ilə yaxşı qara çay gətirdiyini Kərbəlayıya qandırıb xudahafiz etdi, biri sola getdi; biri də sağa...

YEVLAX-ŞUŞA YOLU

Heç nə!.. Dəmir yolu ki, çəkildi, Yevlax-Şuşa yolunun bütün ləzzəti qaçacaqdır!

Heç insafdır ki, sən Allah, dilicanın, faytonun, furqonun istirahətini, ləzzətini dəmir yola verəsən? Dəmir yol o yerdə yaraşar ki, məsələn, bu gün Bakıdan gedəsən Yevlağa; Tiflisdən, Gəncədən gələsən Yevlağa və Yevlaxdan da dilicana minib, yel vura-vura sürdürəsən Şuşa şəhərinə.

Elə ki Yevlax astanasında vaqondan düşürsən, bir də görürsən ki, faytonçular, dilicançılar səni bürüdülər.

– Hara gedirsən?

– Şuşaya!

– Bəs, onda buyur da, dilican hazırdır.

– Qoşubsan?

– Çoxdan!

– Neçəyə apararsan?

– Neçə adamsınız?

– İki nəfərik.

– Şeyiniz çoxdur?

– Yox, adama bir çamadandır.

– Elə isə adama səkkiz manat.

Burada balaca alış-veriş vaqe olur. Səkkiz manat, yenir olur altı.

– Hə, di qoy minək, sür gedək.

– Bu saat. Siz əyləşin, bir stəkan adama çay için, bu saat dilicanı sürüm bura, amma çayı tez için ki, ləngiməyək.

Bəli, əyləşib bir stəkan çay içirik. Yevlağın ditdilisi "dızz" eləyib o qulağından dişləyir, "dızz" eləyib burnundan dişləyir.

Qərəz, dilican gəlincə ditdili bildiyini eləyir. Amma dilican gəlmir, yenə çay içirsən, papiros çəkirsən, durub gəzinirsən, divardakı yazıları bir-bir oxuyursan; dilican gəlmir ki, gəlmir.

Başlayırsan darıxmağa. Bir də görürsən dilican gəlmədi, amma dilicançı özü gəlir. Başını qapıdan çıxardıb baxır və soruşur.

– Burdasınızmı?

– Əşi, burada olmamış hara gedəcəyik, bir tez ol dilicanı sür gəlsin, vaxt keçdi, gün günorta oldu. Yoxsa, şəhərə gecə çatarıq!

Bu söz dilicançının xətrinə dəyir.

– Nə? Gecə! Görünür ki, mənim atlarımdan xəbəriniz yoxdur. Budur sizə deyirəm, axşam azanına bir saat qalmış Şuşa şəhərinin bazarında olacağıq, inşallah!

– Di yaxşı, tez ol!

– Bu saat atlara "qormut" verim, acdırlar. Gedir, yenə gözlə ki, dilican gələcəkdir.

Saat on olur, Tiflis poyezdi gəlir. Bundan da bir yarım saat keçəndən sonra dilicançı gəlir ki, di buyurun gedək. Məlum olur ki, hərif Tiflis poyezdini gözləyirmiş.

Baxıb görürsən üzüm giləsinə milçək daraşan kimi, dilicanın altından başqa hər yerindən adam sallaşır. Özünü bir növ ilə dilicanın içinə salırsan. "Bismillahir-rəhmanir-rəhim, – deyib yola düşürsən.

Bəh, bəh, bəh... At qumrovlarının səsi sənə laylay çalır. Yolun tozunun ətri səni valeh eləyir.

Bir dörd-beş saatdan sonra gəlirsən Bərdə astanasına.

Burada bir balaca tovqif lazım gəlir, atlar dəyişilib qoşulunca, bərdəlilər sənə hər tərəfdən tamaşa eləyirlər.

Buradan da yola düşürsən. Bir də görürsən ki, qabağına çıxan arabaların təkərləri və atların ayaqları yaşdırlar. Məlum olur ki, Tərtər çayında su var. Tərtər çayı gendən qıjıldayır. Dilican ilə keçmək mümkün deyildir... Gərək kəl arabasına minəsən.

Adambaşına bir abbasıya kəl arabasına minirik. Kəllər özlərini vururlar suya. "Allah-Allah" səsi hər yeri götürübdür. Suyun lap güclü yerində arabaçının yoldaşı arabaçıdan soruşur ki, əyə, bunları neçiyə keçirirsən? O da deyir ki, bir abbasıya.

– Nə?

– Abbası.

– Sarsaq oğlu sarsaq, mən abbasıdan ötrü kəllərimin boynunu qıracağam? Mən kəlimi açıram!

Yoldaşı deyir ki, ədə səfeh olma, kişiləri suya salarsan, kəlin qabağına dur, altı şahı verərlər.

Amma yoldaşı adama yarım manatdan dəm vurur. Qərəz, suyun ortasında taks abbasıdan qalxır iki abbası olur. Tərtəri keçib genə dilicana minirsən və fikir edirsən ki, bəli bu çayı salamat keçdik. İndi qaldı Xaçın ilə Xojalı.

Nə başınızı ağrıdım, axşama bir saat qalmış dilican varid olur Ağdama və bir qədər də orada ləngiyəndən sonra yola düşürsən. Əsgəran ötür, Xojalı ötür, Ballıca ötür. Xanbağı ötür. Şəhərin dolayı yolu başlayır. Ağzın dönür gah gün batana, gah gün çıxana. Amma gün çoxdan batıbdır, axşamdır. Yol üzü yoxuşadır. Atlar güclə addım atırlar. Lap qaranlıq çökür. Səni mürgü basır. Ayılıb görürsən ki, yol gedirsən; üstün dağ, altın uçurum. Dilicançıya deyirəm ki, qoçaq, bəs, sən deyirdin ki, axşam azanına bir saat qalmış şəhərdə olacağıq. Dilicançı qulaqardına vurub bu sözlər ilə zümzümə eləyir:

Ayın aydınlığı, hava nə xoşdur,
Ay dilbər can, Zeybər can.

Sübh azanına bir saat qalmış şəhərə varid olursan.

SÖHBƏT

İyul ayının dördü idi, dərya kənarında, təzə bulvarda gəzirdim. Yoruldum, bir skamyada əyləşdim. Bir nəfər qoca bir cavan bəy ilə oturub şirin söhbət edirdilər. Söhbətləri mənə çox xoş gəldi, tez dəftərimi çıxardıb yazdım.

Qoca dedi:

– A bəy, neçin papağını bir bu qədər kəc qoyubsan ki, az qalır papaq başından düşsun yerə və boynunu da zəhmət çəkib əyri tutursan ki, papağın başından yerə düşməsin?

– Çünki mən bəyəm.

– Yaxşı, görürsən ki, bu yay günündə xalq hamısı yay çəkməsi geyir ki, ayaqları sərin olsun. Sən neçin uzunboğaz çəkmə geyirsən? At minib səfərə ki, getmirsən, canına yazığın gəlmir bəyəm?

– Çünki mən bəyəm.

– Yaxşı, sən ki, çinovnik deyilsən, bəs şapqana neçin kakard yapışdırırsan?

– Çünki mən bəyəm.

– Bəs paltonun yaxasına neçin qırmızı mahut tikmisən. Sən ki, əfsər deyilsən?

– Çünki mən bəyəm.

– Yaxşı, bunları qoyaq kənara, sən ki, qumar oynayanda həmişə uduzursan, bəs neçin qumar oynamaqdan əl çəkmirsən?

– Çünki mən bəyəm.

– Çox gözəl, bunların hamısını qəbul edirəm. Hələ de görüm hamı şərab içəndə gizli içir ki, xalq görməsin. Bəs, sən neçin aşkara içirsən?

– Çünki mən bəyəm.

– Çox əcəb, bunu da başa düşdüm. Bəs, bazarda hər dükançıya bir manat, iki manat, bir abbası, üç abbası borcun var. Neçin onları vermirsən ki, abrını aparmasınlar?

– Çünki mən bəyəm.

– Hələ bunların hamısı keçər gedər, eşitdik ki, otuz prosent – faiz ilə min manat borc eləyib veksil vermisən; bu nə işdir?

– Çünki mən bəyəm.

– Bəs, bir belə prosent ilə borc alıb, qızlara neçin on manat, on manat bağışlayırsan?

– Çünki mən bəyəm.

– Yaxşı, tutaq ki, bunlar hamısı bəylik nişanəsidir, neçin bəs adını müsəlmanca yaza bilmirsən. Sənə bu ayıb deyilmi?

– Çünki mən bəyəm.

– A bəy! Sən bəy ola-ola, neçin bir şanqalı qaradovoy görəndə, o saat ikiqat olub, ona "izdirasti! deyib əl verirsən. Amma bir kəndli qoca kişi qapına gələndə, əlini belinə vurub, səsinin yoğun yerinə salıb, guruldaya-guruldaya deyirsən: "Kərbəlayı, bəs hanı quzu, hanı yumurta, cücə?". Və o yazıq sənə ikiqat əyilib salam verəndə, salamını da almırsan. Bu neçin?

– Çünki mən bəyəm.

– A bəy, neçin ticarət eləmirsən, bir iş görmürsən. Elə belə boşbekar gəzirsən?

– Çünki mən bəyəm.

– Sənin bu sözünə görə bu sifətlər birində olmasa bəy olmaz. Bəylik ancaq ibarətdir bu sifətlərdən. Çox əcəb, bəs, bir məclisə daxil olanda neçin birbaşa yügürürsən yuxarı başa, a bəy?! Görürsən ki, yuxarı başda yer yoxdur.

– Çünki mən bəyəm.

– Bu da belə. Hələ doğrusunu de görüm: belinə xəncər neçin bağlayırsan, davaya-zada getmirsən ki, Allaha şükür şəhərimizdə sakitlikdir. Gecə də deyil ki, qorxasan. Günün günorta çağında bu xəncər nə üçün?

– Çünki mən bəyəm.

– Mətləb hamısı məlum oldu. Hərçənd bəylərin cümləsində bu sifətlər olmaz. Tutaq ki, sən deyən düzdür, amma bir zada qalmışam məəttəl: onun da doğrusunu söylə, sözü qurtaraq.

İndi Məmmədəli şahı taxtdan saldılar aşağa, daha bundan sonra ona kömək çıxmaq nə üçün? Bilirəm bundan ötəri kömək çıxırsan ki, bəlkə də şeytan işidir, birdən yenə Məmmədəli şah taxta çıxdı, onda səni özünə pişxidmət eləsin. Çox əcəb. Bəs İran mücahidlərinə föhş, hədyan demək nə lazım, ay bəy oğlu bəy?

– Çünki mən bəyəm, çünki mən bəyəm.

– Gördüm qoca bu sözləri eşidəndə qəzəbləndi, üzü-gözü qızardı, barıt kimi birdən od aldı, durdu ayağa, qışqıra-qışqıra cavan bəyə dedi:

Çünki sən bəysən, çünki sən bəysən...

Kafirəm əyər bir pula dəysən.
Qaradağda da yoxdur əvəzin,
Bəylər içində bircə sən təksən.

Gördüm qoca qəzəbindən qafiyəpərdazlıq eləyir, mən durub qaçdım; onlar da başladılar boğuşmağa...

KEÇMİŞDƏ VƏ İNDİ

Keçmişdə köhnə mədrəsələrimizin cığ-bığını, bir bucaqda mürgüləyən mollanı, onun çırt çubuğunu və "çubi tənbihini", fələqqəni, "Gülüstan", "Bustan", "Çehil Tuti", "Yusif və Züleyxa", "Cameyi-Abbas" və sairələrini yada salıb və indiki müntəzəm, elm oxudan, baqaidə

məktəblərimizi görub, öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükür!".

Keçmişdə küçələrdə avara və sərgərdən qalıb, öyrəndikləri təkbir, cürbəcür, pis-pis söyüşlər olan oğlan uşaqlarımızı yada salıb indiki çadra başında və kitab qoltuğunda məktəbə yügürən qızlarımızı görub öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükür!".

Keçmişdə minbərə çıxıb, hənanın nə sayaq yaxılmağından və insanın nə etsə, cünub olduğundan məscidə yığılmış adamlarla söhbət edən mollaları yada salıb və indi minbər başından əhalini tərəqqi və təkamül yoluna çağıran axundlarımızı görüb öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükr!".

Keçmişdə div, əjdaha, ilan, qurbağa nağılları ilə başları dolmuş və dünyadan heç bir xəbəri olmayan əsnafımızı yada salıb, indi onların əllərində müsəlman qəzeti oxuyub, rus, alman, fransa, ingilis mübahisələrini eşidib öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükür!".

Keçmişdə ağlaşmaya getməkdən başqa bir şey bilməyən və oğlu dərs oxuyandan sonra ağzını suya çəkən arvadlarımızı yada salıb, indi qızının bu klasdan o biri klasa keçməsi üçün məktəbə yügürüb müəllimlərə yalvaran arvadlarımızı görüb öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükür!".

Keçmişdə boş vaxtını bomboş qalan teatrlarımızı və yainki bir neçə nəfər tamaşaçı ilə üç-dörd nəfər artistin camaatdan xəlvət qısılaqısıla və qorxa-qorxa teatra getməklərini yada salıb və indi teatrımızın, qoca, cavan, bəy, hacı, arvad və kişi ilə ağzına qədər dolmasını görüb, öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükür!".

Keçmişdə əcnəbilərin zor ticarətini və müsəlmanların hisli-paslı və içində üç cüt bir tək qoz olan dükanlarını yada salıb, indi özümüzün böyük-böyük mağazalarımızı və şirin-şirin alverə öyrəndiyimizi görüb, öz-özümə deyirəm ki: "Pərvərdigara, dərgahına şükür!".

Mənə deyəcəklər ki: əh, nə olsun, indi də köhnə mədrəsələrimiz, avara və sərgərdan balalarımıza hənа yaxmaq öyrədən mollalarımız, dünyadan bixəbər əsnafımız, ağlaşmaya yügürən arvadlarımız, boş teatrımız və bişüur alış-verişçilərimiz vardır.

Onda cavabında deyirəm ki, o vaxt onlar "var idi" "bunlar" yox idi, indi "onlar da var, bunlar da var", bir az dəxi əcəl macal versə, görərik ki, "onlar" yoxdur, "tək bunlar" var. Mən ki buna inanıram, sən istəsən inanma!

MÜƏLLİMƏ

Onu göndərdilər ki, azarlamış müəllimin yerini hələlik dolandırsın... Müəllimə özu rus, şagirdlər müsəlman.

Əvvəl gün dərs otağına girdikdə, uşaqların çirkli paltarlarından gələn iydən az qaldı ki, burnunu tutub çıxsın. Ətir və ənbərə öyrənmiş olan bu cür iylərə dözmək istəmirdi. Şagirdlər tərəfindən gətirilib mizlərin içində gizlədilmiş olan İran şirniyyatının (zəfəran, mixək, darçın, hil kimi) qoxuları uşaqların üst-başından çıxan çirk və piy iyisinə qatışıb, onsuz da əlliyə qədər adamın nəfəsi ilə pozulmuş havanı daha da bədtər etmişdi.

Heç süpürülməmiş və yainki süpürülən kimi zibillənmiş olan döşəmənin üzündə toz-torpaq, yeyinti qırığı... uşaqların əyni-başı cırıq-cırıq, başlarında yekə-yekə papaq və çirkli yaylıq, müəllimənin təmizliyə öyrənmiş olan gözlərini incidirdi.

Səs-küy, anlamadığı bir dil, qışqırıq, lüzumsuz gülüş binəvanın musiqiyə öyrənmiş qulağına çox fəna təsir edirdi.

– Mən buna dözə bilmərəm, – deyib müəllimə istədi ki, çıxıb getsin. Lakin... qalmağa məcbur idi, yoxsa gələcək ümidləri zay ola bilərdi.

Dərsə başladı... Uşaqlar rus dilini bilmir, bu dediyini onlar, onlar dediyini bu anlamırdı. O idi ki, klasda uşaqları nizam ilə saxlamaq mümkün deyildi. Bu hər nə deyirdisə, uşaqlar öz bildiklərini edirdilər.

Belə pərişan və qat-qarışıq bir mənzərə içində bir şey müəllimənin diqqətini cəlb etdi. Uşaqlardan küncdə oturan bir nəfəri bu nizamsızlığa heç qarışmayıb, dinməz-söyləməz oturub, kəmali-ədəb ilə dərsə qulaq asırdı. Əyninə baxdıqda bu bir kasıb balası idi, amma üzündə nəcabət əsarı var idi. Bundan heç bir nalayiq hərəkət baş vermirdi.

Sözsüzdür ki, bütün klasın içində müəllimənin xoşu gələn bir şagird var idisə, həmin bu Əlisəfdər idi; özü də yoldaşlarından rusca çox bilirdi və yaxşı xətt ilə yazırdı.

– Allahın altında bunun əyni-başı düzəlmiş olaydı, – deyib müəllimə hətta bu fikirdə oldu ki, Əlisəfdərə paltar tədarükü görsün. Amma o biri uşaqlar müəlliməni çox incidirdilər. Özləri də klasda papaqlı otururdular.

– Bu saat papaqlarınızı çıxarın! – deyib müəllimə uşaqların üstünə qışqırdı. Onun əmrini anlayanlar papaqlarını çıxartdılar, anlamayanlar da o birilərinə baxıb başlarını açdılar.

Lakin burada bir şey müəlliməni heyran qoydu. Onun dostu Əlisəfdər papaqlı oturmuşdu. Müəllimə təəccüb ilə ona baxıb, "Sən də papağını çıxart!" – dedi. Lakin o heç tərpənmədi, ancaq qıpqırmızı qızardı. Şagirdlər səslərini kəsib bütün diqqətlərini bu fəqərəyə cəlb etdilər. Klasda dərin bir sükut əmələ gəldi. Müəllimə dost tutduğu şagirdin bu itaətsizliyindən qəlbi sınmış halda, ona tərəf gedib, öz əli ilə onun papağını çıxartdı. Bu halda uşaqlar bir hay-küy saldılar ki, az qaldı otaq dağılsın. Müəllimə bilaixtiyar geri çəkildi və az qaldı ki, özündən getsin. Lakin ona əsər edən uşaqların vəhşi qışqırığı deyildi.

Bəs nə idi?

Əlisəfdərin başı keçəl idi.

DİNMƏ VER PULU

– Salaməleyküm, yoldaş!

– O... Əbdülkərim!.. Əleyküməssalam. Necə varsınız? Keyf, əhval?! Uşaqlar və kənd əhli necədirlər?

– Ay yoldaş... Necə olacaq, elə əvvəlki kimidir də!.. Ancaq qəhətlik, fəqirlik...

– Yaxşı, Əbdülkərim, bircə de görüm mənə, strajniklər yenə əvvəlki kimi çapıb aparırlar?..

– Ay yoldaş! İndi strajniklər əvvəlkindən də yaman çapqınçılıq edirlər və artıq payədə. Bəzi vaxt gəlirlər ki, pristav töycü pulu istəyir. Biz deyəndə ki, atam-babam zalımsınız, heç olmasa bir insaflı zalım olunuz, deyirlər ki, oğurluq elə, amma insafını əldən buraxma... İndi, siz də soyub aparmışsınız, bir möhlət verin bir az özümüzü düzəldək, yenə gəlib aparın... Bimürüvvət oğlanları razı olmayıb, şeymeymizi götürüb hayda! Demək istədilər, hər yerə göz yetirdilər, dörd gözlü olub, marıtladılar, hisli sacdan, sınıq tabaqdan, oxlovdan, şikəst çıraqdan, yırtıq keçədən, nimdaş çarıqdan, xalçasız hanadan, dəhrədən, bir qəbzə bıçağından başqa, evdə bir şey tapmadılar. Keçən illərin mis qabları, yorğan-döşək və xalçaların dadları damaqlarında qalmış idi... Hə... axır ki, evdə bir şey tapmayıb, bayıra çıxırlar, şovqərib, mirasa qalmış toyuqlar qa-qa deyib çığırmağa başlayır və strajniklər tuthatut. Toyuqların ayaqlarını sarıyıb aparırlar... Deyirəm xudaya bu nədir?

Bunu deyib, həmsöhbətim bir ah çəkib, xudahafiz edib getdi.

Töycü söhbətini açdım, yadıma bir şey düşdü: görək bizim boynumuzdan da bu dinməver, danışmaver, tərpənməver, baxmaver, eşitmə-

ver, bilməver və ilaxır... və bir də çaypulu və papiros adlanan töycülər götürüləcəkmi? Bu məmurlar, polis əhli və qeyri çinovnik əhli o qədər "çay və papiros" pulu alıblar ki, camaat bu pulların verilməsini adət və vəzifə edibdir və görürsən elə yerdə elə ittifaqda məmura oxşayan kimsəyə təklif edir ki, əsla lazım deyildir. Məsələn, keçən seçkidə evlərin kirayənişinləri və ümumən – "bütün şəxslərin" (bizim haqq intixab üsulu elədir ki, iyirmi dörd il on bir ay iyirmi doqquz günlük sinni olan, yaxud bu axır senat bəyannaməsinə mülahizətən mətbəxsiz əlahiddə qapısız və bir ildən əskik, məsələn, 11 ay 20 gündən bəri kirayə tutulmuş evdə olan kirayənişin yarım adam hesab olunur) siyahısını tərtib edəndə evin sahibi Hacı Dümün yazıçısını yanlayıb deyir: "Bəy, çox təvəqqe edirəm ki, yaxşı yazasınız... əgər... istəsəniz... sizə bir qədər "papiros pulu"... verərəm".

Yazıçı cavab verdi:

– Əmi, mən bunu yazmağım əvəzinə pul almıram... Bu mənim vəzifəmdir. Mən bunu yazmağa borcluyam.

Bədbəxt camaat, gör rüşvətçi məmurların xasiyyətlərinə özünü necə adətləndirib!

Oğru, xırsız istər ki, həmişə gecə qaranlıq və zülmət olsun ki, "kəsbkari tərəqqi" eləsin...

İndi bizim məmurlar da əllərilə də, ayaqları ilə də və başları ilə də səy edirlər ki, camaatı zülmətdə və avamlıqda baqi eləsinlər ki, belə-belə sözləri aşikar olmasın. Hətta bir pristav "vətənpərəstliyindən" savadlı gəncləri görəndə gözləri çıxırdı, tükləri biz-biz dururdu və belə savadlının "divanxanaya", yəni "ədalət çeşməsinə", işləri düşəndə ağa pristav ona: "Səndən zəhləm gedir" – deyib qovardı. Amma savadsızlara pristav himayə edib, bir sərnic süd, yaxud bir bəsti bal, ya ki, yüz yumurta əvəz alar idi... Pristavın bu mücahidliyinin nəticəsi bu oldu ki, savadlı kəndçi qol çəkmək, kağız imzalamaq lazım gəldikdə "xeyr, mən savadlı deyiləm" – deyib özünü avam göstərirdi ki, pristavın qəhərinə düçar olmasın...

Xudavəndə! Sən özün bizi belə məmurların şərindən hifz elə.

PİŞİK

Uşaqlıqda nənəmiz bizim üçün bir nağıl deyərdi. O nağılın başı bu idi ki: bircəciyi var idi, bircəciyi yox idi, bircə qarı var idi. Bir gün getdi su üstə, sürüşdu düşdü buz üstə.

Dedi: – Ay buz, sən nə zalımsan?

Buz dedi: – Mən zalım olsaydım, gün məni əritməz idi!

Dedi: – Ay gün, sən nə zalımsan?

Dedi: – Mən zalım olsaydım, üstümü bulud almazdı!

Qərəz bulud da bir başqasına zalım deyir, axırda hamıdan zalım pişik çıxır. Amma hər kəs nağılın axırınacan eşitməsə, təəccüb qalar ki, qarının yıxılmağının pişiyə nə dəxli var?

İndi müsəlman qəzetlərinin bağlanmağında hər kəs bir tərəfi müqəssir hesab edir. Biz də başlayaq soruşmağa, görək təqsirkar kimdir?

– Ay əmələlər, niyə tətil elədiniz, siz nə zalımsız?!

– Biz heç zalım deyilik. Bizim zəhmətimiz çox, məvacibimiz az, xərcimiz çatmır. Qəzetçilər zalımdırlar ki, məvacibimizi artırmırlar.

– Ay qəzetçilər, siz nə zalımsınız? Niyə əmələlərin məvacibini artırmırsınız?

– Biz zalım deyilik. Zalım millətimizdir, əgər millətimizin yüzdən biri qəzet oxusa, Qafqazda yarım milyon müştərimiz olardı. Onda biz də əmələyə nə qədər məvacib istəsəydilər verə bilərdik.

– Ay millət, siz nə zalımsınız, niyə qəzet oxumursunuz?

– Biz zalım deyilik, bizim savadımız yoxdur ki, qəzet oxuyaq!!!

– Bəs niyə uşaqlıqda məktəbə getmədiz ki, savadsız olduz?

– Getmişik, hamımız uşaqlıqda məktəbə getmişik və beş-altı il də "Əlif zirən" demişik. Bununla belə indi yenə heç zad bilmirik.

– Bəs niyə özgə millətlərin uşaqlarını hankı biri üç gün məktəblərinə gedirsə, öz dilində hər cür oxumaq, yazmaq bilir?

– Onların öz dilinə görə asanca əlifbaları var, məktəbə getməmiş elə evdə də öz özündən hürufları tanıyırlar. Zalım bizim əlifbamızdır!

Doğrudan da belədir. Billah belədir! Qəzetlər yerimir camaatın savadsız olmağına görə. Camaat savadsızdır əlifbamızın pisliyinə görə.

Məni dünyada bir şey çox yandırır. Məsələn, üləmaya söz demirik, çünki vərəsəyi-ənbiyadırlar; Seyidə söz demək olmaz.

– Zaçem?

– Çünki əksəri övladi-peyğəmbərdirlər: falçıya söz demək olmaz, cındıra söz demək olmaz, çünki müsəlmanıq, etiqadımızda cin var.

Bircə bilmirəm bu ərəb əlifbası nədir ki, tovqilənət olub keçib boğazımıza?! Niyə cəsarət edib onun boynunun ardından vurub, salmırıq eşiyə?..

Ay canım, yenə dualar üçün, ərəb yazıları üçün, şəriət işləri üçün ərəb əlifbası olsun da. Axır belə bizim bu öz türk dilciyəzimizə yara-

yan bir əlifba düzəltsək, yəni qiyamət qopar? Qafqazda sənə yüz min bisavad müsəlman göstərim ki, nə məktəb görüb və nə uşqol. Amma tamam migədanların və restoranların qapısında viveskaları və içərisində stolların nömrələrini oxuyurlar və bir yerə məktub göndərəndə paketin üstünü də özləri yazırlar. Rusca qəzetlərin hüruflarını da oxuyurlar. İntəha dilini başa düşmürlər. Nə olar, yəni biz də öz dilimiz üçün bir elə asan və hər səslərimizə görə bir hərfi olan əlifba düzəltsək, onda ərəblər gəlib bizi Qafqazdan qovarlarmı? Yainki bir günahikəbir etməmiş olarıq. Görəsən təzə müəllimlərimiz o qədər kordurlar ki, bu böyüklükdə nöqsanı görmürlər? Əyər görürlər, bə nə üçün dinmirlər. Hər kəs mərc gəlir gəlsin, bu gün siz mənə öz türk dilimizə yarayan mükəmməl bir əlifba verin, on ildən sonra mən sizə tək Qafqazdan yarım milyon qəzet müştərisi verim.

Hə, əyər hünərin var, gəl mərc eləyək. Onda bilərsiz ki, müsəlman qəzetlərinin bağlanmasına səbəb nə əməldir, nə qəzetçilər, nə camaat. Qarı nənənin buz üstündə yıxılmağına səbəb pişikdir. Qəzetlərin bağlanmağına səbəb əlifba!

Di gəl büz dodaqlarını, gül nə qədər güləcəksən!

AYRI SÖHBƏT

M ə ş ə d i D a d a ş. Kəblə Qasım nə belə dərin fikrə cumubsan?

K ə b l ə Q a s ı m. Ay Məşədi, ovqatım nəhayətdə çox təlxdir.

M ə ş ə d i D a d a ş. Niyə bala, sənə nə olub ki, səhərdən sımsırığını sallamısan?

K ə b l ə Q a s ı m. Daha nə olacaq. Bundan sonra evimiz yıxılıb, qapımız bağlı qalacaq; balalarımız da çöllərdə səfil-sərgərdan dolanacaqlar. Ax, ax, Allah baisin evini yıxıb, balalarını mənim balalarım kimi çöllərdə qoysun.

M ə ş ə d i D a d a ş. Kişi, nə çox ahu-zar eləyirsən? Nə olub sənə məgər? Olmaya şəhər dumasının yaman günlərinə və camaatın sahibsizliyinə belə ağlayırsan? Yoxsa şəhərimizdə təzə açılan bankın üzvləri sənə də kredit (etibar) açmaq üçün kəlləqənd təmənnasında olublar? Olmaya haman ağalar oranı da şəhər idarəsinin, kökünə salmaq istəyirlər ki, guya... gərək onlara baş əyilsin? Ay kişi! Niyə dinmirsən? Görünür ki, dərdin lap yekədir? (*Kəblə Qasım ağlayır.*) A kişi, bir deginən görüm axır sənə nə olub? Olmaya keçən gün "Məktəbi-xeyriyə"də imtəhan üstündə bir-birilə boğuşan müəllimlərin, "müdir"lərin halı səni ağladır?

K ə b l ə Q a s ı m. Ay başına dönüm, Məşədi Dadaş, iş elə budur da! Belə bu gün oğlum məktəbdən gəlib, çəkməsini atdı taxçaya, sonra da başladı özünü yerdən yerə sürtməyə. Mən və uşağın anası uşağı güc ilə ovudandan sonra soruşduq ki, balam nə olub? Dedi ki, ata, bu gün uçitellərimizin ikisi də, məktəbin qeyrətli komisiyonlarına ültimatom veriblər ki, ya gərək onlardan birisi məktəbə müdir olsun, ya da ki, üç günə kimi məktəbi bağladacaqlar. İndi mən də bundan ötəri ağlayıram ki, balalarımız çöldə qalacaqlar. Daha müəllim tapılmayacaq, uşaqlarımız da quli-biyabani olacaqlar.

M ə ş ə d i D a d a ş. Kişi, elə bu?

K ə b l ə Q a s ı m. Bəs bu azdı?

M ə ş ə d i D a d a ş (*bir az fikirdən sonra*). Doğrudan da. Filankəs ilə mən də fikirləşirəm ki, bu çox böyük bədbəxtlikdir; Allah axırın xeyir eləsin!

İ k i s i. Amin!

MƏZHƏKƏ

Kəndlinin biri buğdasını, baramasını aparıb bazarda dəyər-dəyməzinə satıb bir dana at, bir dana eşşək və əyninə də bir dəst paltar alıb, evinə tərəf gəlirdi...

Bir nəfər bəy bunu gendən gördu və təəccüb elədi ki, kəndlinin həmi atı var, həmi də eşşəyi. Daldan kəndliyə yaxınlaşıb başına elə bir qapaz saldı ki, kəndli ancaq bir saatdan sonra ayıla bildi və ayılandan sonra da baxıb gördü ki, eşşəyi yoxdur.

Yasavul kəndlinin atına baxıb şikayətinə qulaq asdı, amma şikayət "haqqı az olduğuna görə" kəndliyə bir neçə qamçı çəkdi və dedi:

– Bağla atını burada, get ətrafı gəz, bəlkə eşşəyin tapıla.

Kəndli atını yasavula tapşırıb, eşşəyi axtarmağa getdi. Çox gəzdi, çox dolandı, hərçənd bəyin qapısında bir eşşək gördü ki, öz eşşəyinə çox oxşayırdı, amma o cürə şeyləri fikrinə gətirməyə cürət eləmədi. Və qayıtdı ki, bəlkə yasavul bir kömək eləyə, amma nə yasavuldan və nə atdan bir nişan da görmədi.

Kəndli xofə düşdü, elə bildi ki, bunlar hamısı yuxudur. Onun üçün özünü çimdiklədi ki, ayılsın, amma gördü ki, xeyr yatmayıbdır. Bikef

və bidamaq bir çayın qırağında oturub evinə qayıtmağa utanırdı. Gördü ki, bir nəfər sarıqlı gəlir. Kəndli durub ikiqat əyildi və genə bidamaq yerinə oturdu. Sarıqlı dedi:

– Nədir ki, belə bidamaqsan?

Kəndli ağlaya-ağlaya əhvalatı nəql elədi.

Sarıqlı bunun təzə libasına diqqət yetirib dedi:

– Mən sənə əlac edərəm!

Yazıq kəndli şadlığından bilmədi ki, nə qayırsın, özünü yıxdı sarıqlının ayağına. Sarıqlı dedi:

– Sənin atını da, eşşəyini də cin oğurlayıbdır və o cin də sənin bu libasındadır. Ona görə bu libası ovsunlamaq lazımdır. Və illa başına çox bəlalar gələr.

Kəndli cin adını eşidən kimi, dəlitək paltarını çıxardıb tulladı. Sarıqlı bir dua oxudu və dedi:

– Bir qədər yat!


Onsuz da it kimi yorulmuş kəndli başını yerə qoyan kimi yuxu basdı və yuxusunda gördü ki, eşşəyi və atı da tapılıb, kişnəyə-kişnəyə bunun yanına çapırlar. Kəndli sevindiyindən elə çığırdı ki, öz səsinə oyandı və oyanıb gördü ki, nə sarıqlı var, nə paltar. Binəvanı dəhşət basdı. Əlinə çomaq alıb özünü qoruya-qoruya kəndinə yetirdi. Xalq yığılıb dedilər ki:

– A kişi, dəli olubsan nədir? Lüt gəzib özünü qoruyursan?

Dedi:

– Atımı oğurladılar, eşşəyimi oğurladılar və paltarımı oğurladılar. İndi qorxuram ki, özümü də oğurlayalar.





KƏLƏKBAZLAR

Mirzə Bədnamülməmalik ilə qaspadin İvanın söhbəti.

Bədnamülməmalik. Adə İvan, bu nə işdi ki, bizim başımıza gəldi?

Qaspadin İvan. Əşi, Allah yapon Susimaya lənət eləsin ki, məni də, səni də kələyə saldı.

Bədnamülməmalik. Bu sən öl, doğrudur! Səni də məni də kələyə saldı!

Qaspadin İvan. Yaxşı, bəs sənin fikrin nədir?

Bədnamülməmalik. Fikrim?.. Əgər belə olsa, qoyub qaçmaq.

İvan. Yox, mən qaçmaram, amma... sən ölәsən, bu saat əhvalım çox yamandır, yenə gəlib, kəsdiriblər qapını, yapışıblar boğazımdan, "ürəyimin dalında bir köpük pulum da yoxdur ki", barı soldat zor ilə özümü xilas eləyim.

Bədnamülməmalik. Buy, bəs mən səndən bir az borc pul istəyəcək idim, İvan dadaş!

İvan. Əşi, sənin də borc istəməkdə heç əvəzin yoxdur! Gözlə, heç kimdən alma, sonra mən verərəm, qoy, görək bircə başımıza nə çarə qılaq. (*Bu hində bunların yanına ingilis Con-bol gəlir.*)

Con-bol (*gülə-gülə*). Hi, quyruğunuz qapı arasında qalıb, ay lotular!

Bədnamülməmalik. Aman günüdür, Con-bol dadaş, gör bir əlac eləyə bilərsənmi?!

İvan. Ey əbləh, elə kələyi sənin başına gətirən Con-bol deyil idimi? Sənin nökərlərin üzünə ağ olanda, onlara fisincan pilovu verən bu deyil idimi?

Con-bol (*bic-bic gülür və əllərini cibinə salıb, pul cınqıldadır*). Sən nə bilirsən ki, Bədnamülməmalikin canını qurtaran da mən olmayacağam?

Bədnamülməmalik. Bəli?!

Con-bol. Vallah, sən öl, hələ deyəsən İvana da yaxşı köməyim dəyər!

İvan. Görək yenə nə kələyin var?

Con-bol. Kələk filan yoxdur, doğru sözdür ki, deyirəm.

İvan (*bir az irəli durub*). Axı nə qayıra bilərsən?

Bədnamülməmalik (*bir az irəli durub*). Doğrudan danışırsan, yoxsa zarafat eləyirsən?

C o n - b o l. Yox, zarafat eləmirəm, qulaq asın deyim... Mirzə Ələsgəri tanıyırsınız?

İ v a n. Yaxşı tanıyıram!

B ə d n a m ü l m ə m a l i k. Yəni bizim Mirzə Ələsgəri? Elə mən onu bu saat yerdə-göydə axtarıram.

C o n - b o l. Yox, onu sən axtarma, çünki yanına qoymazlar, qoy elə bizdə qalsın. İş burdadır ki, onun sizin yerdə yaxşı nökərləri var. Belədir, belə deyil?

İ v a n və B ə d n a m. Belədir, düzdür, doğrudur; amma nə olsun?

C o n - b o l. Bir də sənin yerində mənim və haman bu İvanın bir neçə dəllal və dəlləkləri var. Belədirmi İvan?

B ə d n a m. Belədir, düzdür, doğrudur, amma nə olsun?

C o n - b o l. Ta nə var, nə olacaq, Mirzə Ələsgər onlara deyir ki, nökərlərimə yazaram ki, Bədnamülməmalikin yerində bir qalmaqal salıb, sənin və İvanın orada olan dəllallarını və dəlləklərini xubunca əzsinlər. Onda mən ilə İvan əlbir olub, gələrik sizə və başlarıq sizin camaatı qırmağa ki, nə üçün bizim adamlara sataşırsınız. Onda araya bir vur-çatlasın düşər. Elə ki, vur-çatlasın düşdü, onda sən Bədnamülməmalik bir yanda öz bildiyini elərsən, o İvan da bu yanda öz bildiyini. Mən Con-bol da bir yanda öz bidiyimi elərəm və habelə Bədnam dadaşın canını qurtararıq. O ki qaldı sənə, İvan, sən də boğazını üzən adamlara deyərsən ki, balam, hələ bir az gözlə, indi başım bərk qarışıqdır, qoyun sonra danışarıq. Onlar da baxıb görəcəkdirlər ki, doğrudan da sənin başın qarışıqdır, əl çəkib duracaqlar, ağlınız nə kəsir?

B ə d n a m ü l m ə m a l i k. Mən razıyam!

İ v a n. Mən də razıyam!

C o n - b o l. De, buyurun gedək.

(*Gedirlər.*)

HÖKUMƏT VƏ DUMA

Bir pərdəli komediya

H ö k u m ə t (*minnət gözləmək səsilə*). Hə, lotu gördün? Yenə səni çağırdım, yığdım Peterburqa, yaxşı elədimmi?

D u m a. Yaxşı elədin, ancaq təvəqqe edirəm ki, mənə minnət qoymayasan.

H ö k u m ə t (*guya inciyib*). Hə! Sözünə bax, mən ölüm. Di gəl bundan sonra xalqa yaxşılıq elə!

D u m a. Sən bizi ondan ötrü yığdın ki, çünki dalın...

H ö k u m ə t (*öz-özünə*). Tazadan işə düşmədim?! (*Dumaya*) Yaxşı, indi sənin sözün nədir?

D u m a. Sözüm odur ki, helə irəli otur hesab çəkək.

H ö k u m ə t (*öz-özünə*). Bu nə kələk idi, a başınıza dönüm! (*Dumaya*) Balam, nə hesab?

D u m a. Necə nə hesab? Bəs bizi şoraba qoymağa çağırmısan?

H ö k u m ə t. Yox əşi, bir gəlin məni də döyün, vallah zərrə qədər sizdən qorxmuram.

D u m a. Əlbəttə, sən bir igid oğlansan, sənin yaxşı voyenni polojeniyaların var, ondan "voyenni polevoy sudların var, qərəz çox zirəksən. Ancaq bunların hələ mətləbə dəxli yoxdur. Sən bir gəl əvvəl hesabımızı çəkək, sonra igidliyindən dəm vurarsan.

H ö k u m ə t. Ağzına bax, mən ölüm, uşaqcıq! Mən yekəlikdə kişi durub sizə hesab verəcəyəm.

D u m a. Uşaqcığıq, ya hər nəyik – sən yığmısan, amma hər halda biz hesab dərsini çox yaxşı bilirik, arxayın ol, bizi aldada bilməzsən.

H ö k u m ə t (*öz-özünə*). Lənət sənə kor şeytan, dayna, bu nə qələt idi ki, mən elədim; təki, əvvəlki dumanı mən heç qovmayaydım. (*Dumaya*) Balam, axı vallah, billah, siz hələ mən biləni bilmirsiniz. Mənim ayağım biləni sizin başınız bilmir, nahaq yerə mənə də, özünüzə də zəhmət verməyin, hesab nədir, zad nədir, qoy mən bildiyimi eləyim, siz də deyin ki, bəli, dürüst buyursunuz, siz deyəndir!..

D u m a (*baş barmağını şəhadət ilə orta barmağının arasından çıxarıb deyir*). Ala! Yaxşı zurna çalırsan, amma heyif ki, səsi çıxmır! Təvəqqe eləyirik ki, əngəl eləməyəsən. Qurtar! Bizə hesab ver görək.

H ö k u m ə t. Adə, vallah dinc oturun, yoxsa, and olsun o Fon-Plevenin goruna, o Trepovun qəbrinə, o Pobedonosstevin baş daşına ki, durub sizi qovaram.

D u m a. Bilirsən nə var, aşna, biz qovulmaqdan, filandan qorxan adam deyilik və sənə də bunu deyirik ki, bax, əvvəlinci duma sənin ancaq güləşməyə hazırlaşırdı ki, sən nahaq yerə onu qovdun, sonra da min cürə biclik edib bizi çağırdın. Amma özün görürsən ki, bicliyin baş tutmadı. Çünki biz gələn kimi yapışdıq sənin qollarından, əgər bizi də qovub, üçüncü duma çağırsan inan ki, o da gəlib yapışacaqdır xırp sə-

nin boğazından özün də qalacaqsan udquna-udquna. Ona görə elə yaxşısı budur ki, heç o yan-bu yan eləməyib, oturasan yerə və biz soruşaq, sən də cavab verəsən.

Hökumət (*bilmir nə qayırsın, gah ah çəkir, gah zaylanır və öz başına döyür*). Evin yıxılsın fələk, bu nə kələk idi ki, məni saldın? Bu nə iş idi mənim başıma gətirdin. (*Bu əsnada, "əsli rus" adamlarından Pruşkeviç meydana çıxıb, dumaya tərəf qışqırır.*) Əşi, siz nə çox hırt-hırt edirsiniz, hökumət doğru deyir də nə karasınız ki, gəlib ondan hesab çəkirsiniz? Hesaba qalsa, mən sizdən min cür hesab istərəm. Hələ bir deyin görüm, qaradavoy Qançlovu kim öldürübdür?

Hökumət (*sevinir*). Hə, bərəkallah, sən öl, bax bu mənim işimi tikdi, ha qoçum Pruşkeviç!

Duma (*Pruşkeviçə*). Sən nə hədyan eləyirsən? Pravakator oğlu pravakator! İtil bu saat buradan – sürün!

Pruşkeviç. Məni qovursunuz? Məni.

Duma. Rədd ol, sürük burdan xuliqan belindən gəlmiş! İtil! (*Pruşkeviçi itələyib, hökumət bikef olur və öz-özünə deyir:*)

Hökumət. Heç nə, işlər xarab oldu, kələk baş tutmadı, indi mən nə qayırım. Paxırlar açılacaq.

Qovum – vay!

Qovmayım – vay!

Hesab verim – vay!

Verməyim – vay!

Çay, Dunay, Uxay.

May, Cuhud, voyenni polevoy sud...

(*Burada pərdə düşür.*)

DUMANIN HALI

Bu yaxınlarda dumadan bəzi qəvanin və tənzimata dair bir islahat gözləmək hələ çətindir; çünki duma qanunsuz bir müəssisə mövqeyini hələ işğal eləməyibdir.

Söz yoxdur ki, üzvlər məhəllərdən seçilib Peterburqa tərəf getdikləri zaman, birinci dəfə yığılıb da qanunsaz bir heyət təşkil edəcəklərinə əmin idilər; onlar özlərini həmin seçildikləri gündən qanun və tənzimat yapacaq bir işçi bilib, bu niyyət ilə də seçilmişdilər; lakin, baş vəzir Stolıpin kabinəsinin dumaya qarşı ittixaz etdiyi rəftar və göstər-

diyi münasibət bunu aşkar etdi ki, duma özünə nə tövr baxacaqsa baxsın, amma hökumət isə onun qanunsuz bir müəssisə olduğuna hələ bu tezlik ilə inanmaq istəməyir.

Orası məlumdur ki, hökumət şurişə gəlmiş olan məmləkəti təskin etmək üçün "dinməyin, sizin üçün məclisi-məbusan açacağam" dedikdə, şübhəsiz, həmin məclisi-məbusanın qanunsaz bir müəssisə olacağını dəxi bildirirdi və onsuz da elə, bu hər kəsə məlum idi. Lakin görünür ki, hökumət bir cür vədə verib də, özgə cürə ifa etmək fikrində imiş, yəni indiyə qədər yalnız bir özünə müxtəss bildiyi qanunsazlığı bu tələsiklə məclisi-məbusana tərk edib, kənara çəkilmək niyyətindən uzaq imiş. Firqə və partiyalar arasında ümumiyyətcə böyük bir həmrəylik ilə məşhur olan birinci duma əvvəlinci günü hökumətə öz mövqe və vəzifəsini göstərib həman vəzifəni ifadə də sabitqədəm olacağını qəti nümayişlərilə elan etdi. Hökumət bunun üstündə onu qovdu və qovub da ümidini ikinci dumanın "sözü yatan" olacağına bağladı və bu ümidin hüsulu üçün birinci intixab nizamlarını təqyir edib, seçki işində verilmiş olan bir para ixtiyarları təbdil etdi; yəni o surətə salmaq istədi ki, intixabatın nəticəsində ikinci dumanın üzvləri əksərən "əsil rus" adamlarından və yaxud ittilaat və məlumatı – siyasiləri az olan "bitərəflər"dən olsun; lakin hökumət aldandı, çünki o cürə adamlar Rusiyada çox az tapıldı. Amma bainhəmə hökumət belə bir sifət göstərir ki, guya öz aldanmasına inanmaq istəməyir. Bu səbəbə görə də duma üzvlərini siyasətcə bir şey başa düşməyib, qanmaz olmaqlıqda zəmm edir və bununla dəxi o tərəfə işarə etmək istəyir ki, belə, qanmaz və qanacaqsız dumadan qanunsuz bir müəssisə ola bilməz; ona görə bu cür dumanın işi ancaq vəzirlər tərəfindən sazlanan qanunları bilamübahisə və müzakirə təsdiq etmək olmalıdır.

Lakin duma vəzirlərin bu biəsas sözlərinə cavab verə bilməyəcək qədər cahil olmadığına görə, hökumət ancaq başını bulayıb çiynini atmağa məcbur olur. Məlumdur ya, əgər dumanın üzvləri siyasətcə cahildirlərsə, bütün təqsir hökumətin özündədir, çünki özü qəsdlə sədlər qurub əqilli və müttəle şəxslərin dumaya daxil olmaq yolunu kəsdi.

Bundan masəva, hökumətin dumanı əsassız sözlərlə zəmm etməkdə haqlı olmadığına bir dəlil burasıdır ki, duma özü kəndisinin bəzi əhəmm məsələlərdə filhəqiqə bir o qədər əhəmiyyətli olmadığını etiraf edərək, hökumətə təklif edir ki, haman məsələlərin müzakirə və tədqiqi üçün təşkil olunmuş xüsusi komisyonlara kənardan əhəmiy-

yətli və bilikli adamlar çağrılsın. Lakin hökumət buna qəti surətdə razı olmayıb, bu cürə şeyi "xilafi-qanun" hesab edir.

Xeyr kim nə deyir desin; amma bircə orası doğrudur ki, hökumət bu fikrə heç razı olmaq istəməyir ki, məclisi – məbusan qanunsuz bir müəssisə olmalı və icraat işləri isə, məsuliyyət ilə bərabər hökumətə vagüzar edilməlidir.

Odur ki, indi duma hələ öz qanunsuzluq mövqeyini işğal etməyibdir: ona görə də bu tezlikdə ehtiyacati-məmləkətə müvafiq bir qanun yazıb tətbiq edilməsini gözləməkdən isə, dumanın qovulmasına müntəzir olmaq daha dürüstdür.

ÖZ MƏİŞƏTİMİZDƏN BİR DRAM

Əvvəlinci məclis

İki uşaq:

Hümmətəli. Ədə, Həsən bəy, gəl mazı-mazı oynayaq.

Həsən bəy. Nədən oynayaq?

Hümmətəli. Lopuxdan oynayaq. Hərgah mən udsam, sənə dörd lopux vurum, hərgah sən udsan, mənə üç lopux vur.

Həsən bəy. Əh, mən lopuxdan oynamaq istəmirəm...

Hümmətəli. Di yaxşı, neynək, lopuxdan oynamırsan, gəl üz əlləmədən oynayaq. Hərgah mən udsam, sənin üzünü əlləyim, yox sən udsan, əvəzində mənim üzümü əllə.

Həsən bəyin anası. Ədə ey, o nə yava-yava sözdür ki, mənim uşağıma deyirsən? Heç utanmırsan? Gedib indi bu saat nökərə deyim, gəlsin səni başına alıb elə yerə vursun ki, pırtdanağın çıxsın? (*Hümmətəli qaçır, Həsən bəy də anasının yanına gəlir.*)

* * *

İkinci məclis (*polisxana*)

Pristav Həsən bəy. Gətirin görüm o dükançını! (*Dükançı Hümmətəlini gətirirlər, pristav Həsən bəy onun üstünə çığırır.*) Ədə, sənin adın nədir?

Dükançı Hümmətəli. Bəy, məni tanımırsan? Bahalıq ili sizinlə qapı-qapıya olmurduqmu?

Həsən bəy (*acıqlı*). Adını de görüm nədir? Artıq zəvzəmə!

Hümmətəli.Vuy, ay Həsən bəy, nə tez bizi yaddan çıxartdın, uşaqlıqda elə il uzunu bir yerdə oynamırdıqmı? Yadındadırmı, bir dəfə də anan Şərəfcahan xanımın mənə acığı tutdu ha!

Həsən bəy (*yasavullara*). Vurun bu zəvzəy oğlu zəvzəyi. (*Yasavullar vururlar.*)

Hümmətəli. Əşi, daha niyə vurursunuz? Qoy adımı deyim dayna! Adə vurmayın, adım Hümmətəlidir, atamın adı... yavaş vur a zalım oğlu – Molla Cəfərdir, dayım mırığ Səfi, vay gözüm töküldü – ala itdən məşhurdur...

(*Pərdə düşür.*)

* * *

Üçüncü məclis (*Beş ildən sonra, bazarda. Həsən bəy qulluqdan qovulmuş, əynində köhnə palto Hümmətəlinin dükanına tərəf gedir.*)

Həsən bəy. Salaməleyküm, Hümmətəli!

Hümmətəli. Əleyküməssəlam, bəy! Ancaq, sən allah, dükanın qabağını kəsmə, müştərilər səni görəndə hürkərlər.

Həsən bəy. Əşi, nə yaman kəmiltifat olmusan. Di, elə isə o üç qəpiklik papirosun birini ver, gedirəm Kəsbər gilə.

Hümmətəli. Buyur! (*Verir.*)

Həsən bəy. Sağ ol, qayıdan baş üç qəpiyini verərəm.

Hümmətəli (*əlini uzadır*). Bəy, bir o papirosu bura ver!..

Həsən bəy. Neyniyirsən?

Hümmətəli. Sən bircə mənə ver. (*Alır, qoyur yerinə.*) Havaxt pulun olsa gəlib apararsan!

Həsən bəy. Əşi, zarafat eləmə, bura ver, axşamdan boğazım göynəyir.

Hümmətəli. Yox Həsən bəy, verə bilmərəm, atamın goruna and içmişəm ki, heç kəsə nisyə verməyəm. Bir də məndən sənə əmanət, heç papiros çəkmə! Vallah... adama çox zərərdir, nahaq yerə döşünü tutur, onun əvəzində həmişə adət elə fındıq ye.

Həsən bəy (*gedə-gedə*). Ey bivəfa dünya. (*Gedir.*)

Hümmətəli (*çırtıq çalıb oxuyur*)

Yadındadır lopux-lopux, ay balam,
Mənə vurdun lopux-lopux, ay balam.
Ay ölləm, ölləm, gedərəm Elxana...

(*Pərdə düşür.*)

A x u n d. Ay camaat, indi ittifaq və ittihad vaxtıdır. Bundan sonra biz gərək hər bir işimizdə ittihad və ittifaqı əldən buraxmayaq. Amma onu da bilin ki, ittihad və ittifaqın əmələ gəlməsi üçün bir neçə şərtlər vardır ki, o şərtləri gözləməsən, ittifaq və ittihad əmələ gəlməz. Ay camaat, haman şərtlərdən biri budur ki, siz gərək ən əvvəl adam öldürməyi və qətl işlərini mövquf eləyib, bir-birinizlə mehriban olasınız.

C a m a a t d a n b i r i. Axund, bağışla sözüvü kəsirəm, yerdə qalan şərtlərin hamısını qəbul eləyirəm, amma əvvəlki şərtə, sözün doğrusu, mən qol qoya bilməyəcəyəm. Ona görə gedirəm, ancaq daldakı şərtlərdən arxayın olun! (*Gedir.*)

A x u n d. Ay camaat, ikinci şərt budur ki, siz gərək ittifaq və ittihad naminə hər bir oğurluq və sirqəti bundan belə aradan götürəsiniz.

C a m a a t d a n b i r i. Axund, sözünün qabağında oğlun dursun, əvvəlki şərtini də və yerdə qalan şərtlərini yerinə yetirmək mənə borcdur, amma bu şərt ilə ki, indi, bu saat buyurduğun mənə vec verə bilməyəcəkdir. Ona görə məndən incimə, cünki bir bölük külfətim var, özüm də kasıbam, xudahafiz! (*Gedir.*)

A x u n d. Ay camaat, ittihad və ittifaq üçün lazımdır ki, bir-birinizə tərəfdar çıxıb, mərd-mərdanə iş görəsiniz və bir-birinizin "yanını" heç vaxt verməyəsiniz və bir-biriniz üçün quyu qazıb tələ qurmayasınız.

C a m a a t d a n b i r i. Axund, qoy, bircə sözüm var, onu deyim. Mən, nə adam öldürənəm, nə də oğruyam, amma, sözün doğrusu açıq-açığına burada deyirəm ki, mən namərdəm, mənim atam da namərd idi. Deyirlər, babam da çox namərd imiş. Ancaq bunu mən dürüst bilmirəm. Amma özüm namərdəm. Hərgah bu sözlərində sən namərdliyi pisləyirsənsə, onda məni "vur nağara, çıx qırağa".

Salamat qal, çünki sənətimdən əl çəkə bilməyəcəyəm.

A x u n d. Ay camaat...

C a m a a t d a n b i r i. Axund, sən allah, əvvəl məni başa sal görüm, o əvvəlki sözlərində danosbazlığa işarə olan bir şey yoxdur ki? Çünki bilirsən, mən bir az danos-zad yazıram. Amma bainhəmə adımı altına yazmıram, deməli, mən öz adımla heç kəsə zərər yetirmirəm. Hələ ki, xudahafiz. Yerdə qalan şərtlərin göz üstə qəbuldur.

A x u n d. Bunların hamısından sonra siz cəhd edin ki, ziyankarlıq və druyəlikdən bəri olasınız...

C a m a a t d a n b i r i. Axund, xudahafiz, mənimki də tutmadı.

A x u n d. Bunu da sizə deyim ki, dünyada mərdüməzarlıqdan pis şey yoxdur.

C a m a a t d a n b i r i. Rəhmətliyin oğlu, başına söz qəhətdir?! (*Çıxır.*)

C a m a a t d a n b i r i. Axund, bax, hamını qaçırtdın, yerdə mən qaldım. Gör bir təhər eləyə bilərsənmi ki, aramızda razılıq olsun, çünki bu bir belə dediyin şərtlərdən hamısını qəbul eləmişəm.

A x u n d. Balam, daha sözüm qurtardı, bir onu deyəcəydim ki, hiylə və təzviri...

Y e r d ə q a l a n. Axund demə! Demə! Canım sənə qurban; yoxsa mən də qaçaram, iş xarab olar. Qoy, barı eşidib bilən desin ki, bizim içimizdə bircə dürüst adam var ki, o da mənəm.

* * *

İndi keçək ayrı mətləbə. "Həyat" rəfiqimizdən mənim rəfiqim "Birisi" deyir ki, "Bir-iki uçitel, bəşəxsən, Kroşevan ilə tanış olduqlarına görə, bir priqovor qayırıb veriblər Levitski təsdiq eləyib, sonra da göndəriblər Kroşevana ki, biz vəkil eləməmiş, hər kəs baydaq-zad götürsə, qəbul eləmə. Çünki baydağı ya bizim tazə müsəlman dəstəsi götürəcək, ya biz vəkil etdiyimiz şəxs. Rəvayətə görə, bunların priqovorunu Kroşevan öpüb gözü üstə qoyub, çünki bu priqovordan Kroşevanın burnuna vuruşma, təfriqə və pozğunluq iyi gəlib ki, bu da Kroşevanın proqramı ilə mütabiqdir.

Mən dünən bir türk qəzetəsində bir baş məqalə oxudum. O baş məqalənin ümdə məzmunu bax budur:

"Ay avam və fanatik müsəlmanlar, bir görün "tazə müsəlmanlar" bizim dinimizə rişxənd eləyirlər və islam dinini azadlıq kimi yaxşı şeyə zidd bilirlər, amma tək bircə mən deyirəm ki, islam dini azadlığa mütabiqdir, bunlar mənə də rişxənd eləyirlər, belə də şey olarmı?". Mən, mən Filankəs, uçitellərin priqovorunu bilmirəm, amma burasını yəqin bilirəm ki, Kroşevan lap əvvəl haman bu qəzetənin bu baş məqaləsini öpüb gözünün üstünə qoyacaq. Çünki əsil vuruşma, toqquşma, çırpışma, döyüşmə, söyüşmə, güləşmə, pozğunluq, qozğunluq, vurğunluq, təfriqə, müfriqə, cəfriqə iyi bu baş məqalədən gəlir. Bunu gərək "Birisi" rəfiqim də, öz aramızdır, lotu-lotuyana, mərd-mərdana iqrar eləsin.

İTTİFAQ VƏ İTTİHAD MƏSƏLƏSİ

Bakı. Bax budur, mən sizə açıq-açığına deyirəm: hərgah bizim aramızda "ittihad və ittifaq" olmasa, – onda, sözün doğrusu, işlərimizin axırı xarab olacaqdır. Bax, bu bir sözdür ki, mən sizə dedim və öz borcumdan çıxdım, indi özünüz bilin!..

Gəncə. Əvvəla, Allah sənin atana rəhmət etsin. Və saniyən, sənin dediyin sözlər bir belə həqiqətdir ki, hərgah bir kəs durub, onun əksinə danışsa – nə deyim, onda gərək sözsüz, hekətsiz namərdliyi boynuna götürə. Mən də bunu deyirəm.

Qarabağ. Bax, bu siz öləsiniz, mənim də fikrim, zikrim, gündüz axşamadək elə bu idi. Ancaq, sözün doğrusu, qorxurdum deyəm, məni qınayasınız.

Tiflis. Hərgah əlinizə çıraq alıb, bütün dünyanı gəzəsiniz – bir nəfər adam tapmazsınız ki, desin ittifaq və ittihad pisdir!

Şəki. Doğrudur!

Dərbənd. Düzdür!

İrəvan. Ey milləti-biçarə! Daha, sən nə vaxta kimi öz hali pərişaninə bəsirət nəzəri salıb, nifaq və ziddiyyətdən tökülən atəşi covr və zülmi görməyəcəksən?!

Ordubad. Bərəkallah, sən öl!

Salyan. Haqq sözə kim nə deyər.

Quba. Heç kim.

Bu hamısı pərdənin bir üzüdür. İndi baxaq pərdənin o biri üzünə.

Bakı. İttifaq, ittihad – bunlar hamısı boş sözdür. Pəh! Mən işimi, gücümü töküm ki, bəli millətin halı pərişandır, xeyr, yalan sözdür. Hərgah mən millətəmsə, mənim keyfim çox kökdür. Yerdə qalanın canı çıxsın! Mənə nə?

Gəncə. Doğrudur, ittifaq və ittihad yaxşı söz və yaxşı da işdir. Amma adam gərək bir işi tutanda, dalını da mülahizə eləsin. Hərgah bu ittifaq və ittihadın dalısı müəllimlər ictimai olacaqsa, onda, sözün doğrusu, mən əlimi yuyub çıxıram qırağa, bu cürə ittifaq ittihaddansa, farağat oturmaq min pay yaxşıdır.

Qarabağ. Bir yerdə ki, cəmi rəiyyətlərin "atası" olan bəyin sözünə bir qara qəpik qiymət qoyan olmıya və bir yerdəki baqqal durub bəy hüzurunda "reç" deyə və bir yerdə ki, eşşəksürənin birisi bəy ilə bərabər saat gəzdirə, elə yerdə ittifaq və ittihaddan danışmaqdansa, bir girvənkə simiçkə alıb, çırtlamaq yüz dəfə yaxşıdır.

Tiflis. Mən də deyirəm ki, ittifaq və ittihad yaxşı şeydir. Amma, di gəl ki, görək hökumət nə deyir. Vallah, mən mərc gələrəm ki, hərgah biz də durub xalq kimi ittihad və ittifaq qayırsaq, bir də nişan və midal görüncə qulaqlarımızın dibini görərik və halbuki cəmi vur tutduğumuz elə bir nişan üçündür.

Şəki. İttifaq, yəni birləşmək deyilmi? Canım, mən birləşmirəm də!

Şamaxı. Bu məsələdə "böyük" sözünə baxan heç vaxt peşiman olmaz.

İrəvan və Naxçıvan. İttifaq və ittihad, bunlar hamısı lotupotu sözüdür. Təvəqqe edirəm ki, öz işinizdə olasınız.

Ordubad. Bərəkallah, sən öl!

Salyan. Haqq sözə kim nə deyər?

Quba. Heç kim.

YUXUDA

(*Komediya*)

Əvvəlinci məclis

Şahın sarayında, bir qapının ağzında vaqe olur.

Şüca Nizam. Mən deyirəm ki, şahın yanına bir-bir gedək.

Müctəhid Mirzə Həsən. Nə üçün? Hamımız bir yerdə girsək nə olar?

Şüca Nizam. O da yaxşı olar, ancaq...

Mir Haşım. Mən də o fikirdəyəm ki, bir-bir girsək yaxşı olar!

Müqtədiriddövlə. Mən də buna razıyam.

Rəhim xan. Yoxsa bir-bir girib məndən şaha şeytanlıq eləmək istəyirsiniz?

Şüca Nizam. Əşi, ayıb deyilmi belə sözlər danışırsan?

Rəhim xan.Yox, şahzadə! Mən sözü açıq danışıram. Demə ki, bu bir çöl tərəkəməsidir, qanmır, amma mən sözü açıq danışaram: şahın özünə də açıq söyləyəcəyəm! Mən, mən... biclik bilmərəm.

Şüca Nizam (*acıqlı*). Xan! Sən padşahı söyürsən!

Rəhim xan. Mən padşahı söymürəm! Mənim ürəyim...

Şüca Nizam (*lap acıqlı*). Xeyr, sən padşahı söyürsən. Sən mənə xanəzadə, şahzadəyə bic deyirsən və halonki, mənim atam da, anam da məlumdur.

Rəhim xan. Mənim sənin atanla və ananla işim yoxdur... və təvəqqe edirəm ki, hirsini basıb top kimi açılmayasan, mənim xasiyyətim bir qədər tünddür!

Şüca Nizam (*hədə ilə*). Yaxşı... Çox yaxşı...

Müctəhid Mirzə Həsən. Əşi, bəsdir, ayıb deyilmi, uşaq deyilsiz ha!

Mir Haşım. Bura Təbriz deyil ha! Bura padşah qapısıdır.

Rəhim xan. Bilirəm, sizin hamınızın fikri nədir! Amma şahı aldada bilməzsiniz!

Müqtədiriddövlə. Xan, ümidvaram ki, sən mənə yaxşı bələdsən!

Mirzə Həsən. Allahın kəlamına and olsun, heç qanmıram ki, bu nə söhbətdir.

Rəhim xan. Sizin hamınıza yaxşı bələdəm.

Mir Haşım (*cibindən tənbəki çıxardıb çubuq hazırlayır*). Xan, çubuq dartırsan?

Rəhim xan (*etinasız*). Yox, başım ağrıyır.

Müqtədiriddövlə. Məndə bir qədər baş ağrısı davası var, istəyirsən?

Rəhim xan. Yox, o davalar mənə kar eləməz.

Mirzə Həsən. İstəyirsən baş ağrısı duası yazım.

Rəhim xan. Yox, ağa zəhmət çəkmə! Mənim bütün əhvalım pərişandır.

Şüca Nizam. Xan, mən sənin xatirinə dəydim, təvəqqe edirəm ki, bu adamların içində məni bağışlayasan, özün bilirsən ki, Təbrizin əldən getməyi nə təhər əsər eləyib. Bir qədər dilim acı olub, bağışla xan! (*Yanına gedir, əl verir.*)

Rəhim xan (*bu işdən xoşlanıb*). Allah bağışlasın, mənim də dediyim odur ki, mən sizin hamınızdan qocayam, özümün də sənətim gündüz axşamadək cəngü-cidal idi. Bir dava olurdu ki, mən basırdım, bir dava olurdu ki, mən basılırdım. İndi Təbriz davasında mən basıldım. Nə zərəri var, sabah Şiraz davası olar mən basaram. Dediyim budur, elə şaha da belə deyəcəyəm, mənim təqsirim yoxdur. Mənim sənətim belədir.

Hamısı. Əlbəttə, əlbəttə, bizim heç birimizin təqsiri yoxdur, ancaq iş burdadır ki, o tərəf güclü oldu. Ona görə... iş də belə oldu!..

İkinci məclis

Şah otağında

Ş a h. Sonra nə oldu?

Şüca Nizam. Fəda olum sənə! Sonra mən Rəhim xana dedim ki, indi ki sən dava eləmək istəmirsən, onda sən Təbrizdən çıx get, ancaq qoşunu ver mənə dava edim. Buna da razı olmadı. O tərəf isə getdikcə hücumunu artırıb bizi dara saldı! Yenə Rəhim xana yalvardım ki, Allaha baxsın, səni arada görsün, bizə kömək eləsin. Qulaq asmadı, axırda bir də eşitdik ki, Rəhim xan öz qoşunu ilə Təbrizdən çıxıb qaçıbdır.

Ş a h. Yaxşı get o biri otağa. Mir Haşım gəlsin.

Şüca Nizam çıxır, Mir Haşım girib səcdə edir.

Ş a h. Söylə görək əhvalat nə tövr oldu.

Mir Haşım (*durur*). Bi əbi əntə və ümmi! Ayağınızın torpağına fəda olum şah, bizim evimizi yıxan Şüca Nizam ilə müctəhid Mirzə Həsən oldu.

Ş a h. Həə!.. Yaxşı get, Müctəhid gəlsin!

Mir Haşım çıxır, Mirzə Həsən ərəbcə sözlər oxuya-oxuya daxil olub səcdə edir.

Ş a h. Söylə görüm əhvalat nə tövr oldu?

Müctəhid Mirzə Həsən. Fəda olum sənə, dünyada hər şeyin bir başı olar və bir də ayağı. Məsələn, sən bizim başımızsan biz də sənin ayağın...

Ş a h. Mətləbi söylə görək iş nə tövr oldu?

Mirzə Həsən. Sənə fəda olum, hərgah Şüca Nizam, Mir Haşım və Müqtədiriddövlə olmasaydı, Təbriz əldən getməzdi.

Ş a h. Yaxşı get, Müqtədiriddövlə gəlsin!

Müqtədiriddövlə. Xaki-payinə qulamın canı qurban! Şüca Nizam, Müctəhid Mirzə Həsən, Mir Haşım – Təbrizi fənaya verdilər. (*Gedir.*)

Ş a h. Rəhim xan gəlsin. (*Rəhim xan gəlir.*) Çağırın Şüca Nizamı, Mir Haşımı, Mirzə Həsəni, Müqtədiriddövləni. (*Hamısı daxil olurlar.*)

Ş a h (*Şüca Nizama*). Bəs sən deyirsən ki, Təbrizin batmağına Rəhim xan səbəb oldu?

Şüca Nizam (*Rəhim xana baxıb*). Bəli, şah sağ olsun!

Rəhim xan (*acığından dişini qıcayır*). Sən namərdsən!

Ş a h. Xamuş! Müctəhid sən də deyirsən ki, təqsirkar Şüca Nizam, Mir Haşım və Müqtədiriddövlə idi?

Şüca Nizam, Mir Haşım və Müqtədiriddövlə. Şah sağ olsun, təqsir bu əmmaməli müctəhidin özündə idi.

Ş a h. Mir Haşım, sən də deyirdin ki, təqsirkar Şüca Nizam ilə müctəhiddir.

Mir Haşım. Şah sağ olsun, Şüca Nizamı da dedim? Gərək ki, onu...

Ş a h. Müqtədiriddövlə, sən də söylədin ki, Şüca Nizam, Mirzə Həsən, Mir Haşım təqsirkar idilər.

Müqtədiriddövlə. Şah sağ olsun, bəli!

Mir Haşım. Müqtədiriddövlə, məni də təqsirkar bilirsən?

Müqtədiriddövlə. Bəs sən məni nə üçün deyirsən?

Mir Haşım. Mən səni deməmişəm.

Müctəhid. Yaxşı, cənab Müqtədiriddövlə və Mir Haşım, sizin sözünüzdən bu çıxır ki...

Şüca Nizam. Cənab müctəhid, heç utanmadın ki, sən məni böhtan altında...

Rəhim xan. Görək, Şüca Nizam, qalsın sənin lə...

Müqtədiriddövlə. Ayıb olsun sənə, Mirzə Həsən, mən səni bir adam...

Ş a h (*bərkdən*). Lyaxov!

Lyaxov daxil olur.

Ş a h. Bu adamları aparıb top ağzına qoyarsan. Ən əvvəl müctəhidi toplarsan.

Mirzə Həsən. Vay, dədəm vay, ah, şah başına dönüm, sənə qurban olum, mənə yazığın gəlsin! Mənə yazığın gəlsin, sənə qurban olum, vay...

– Ağa, ağa, ağa

Mirzə Həsən. Haa!..

– Nə pis sayıqlayırsan!

Mirzə Həsən. Paho!.. Bari pərvərdigara, şükür olsun sənə, yaxşı ki, yuxu imiş!

– Nə olub?

Mirzə Həsən. Balam yuxumda gördüm ki, Təbrizi Səttarxana verib, Tehrana qaçmışıq, şah da bizi top ağzına qoydurub.

– Ağa, elə axırda da o cürə olacaqdır. Bizi ya Səttarxan topa qoyacaqdır, ya ki şah. Bu ikisindən xali dəyilik. Nahaq yerə özümüzü əngələ saldıq!..

QALMAQAL

Əvvəlinci məclis

T ü r k i y ə (*sair dövlətlərə*). Bircə siz mənim işimə qatışmayın, qoyun mən öz əlimlə öz başım olum, işlərimi də düzəldim! Yəni Siz Makidoniyanın rahatlığını istəmirsinizmi? Sizin işiniz yoxdur, mən onu rahat edərəm.

İ n g i l t ə r ə. Kişi doğru deyir, gəlin gedək, qoyun işini görsün.

F r a n s a. Mən ki, qatışmayacağam.

R u s i y a. Mm m... mən də!

A v s t r i y a. İndi ki, belə oldu – mənə nə düşübdür?

B o l q a r i y a. Doğrudan çıxıb gedirsiniz? Bəs, sizin hünəriniz elə buradək imiş, ay bişuurlar!

A v s t r i y a. Neyləmək əzizi mən, kişiyə güc ilə demək olmaz ki, yıxıl üstünə minim. O lap ağ olar ki, (*qulağına pıçıldayır*) amma sən... başqa məsələsən, sənin bu saat əlinə bir fürsətdir düşübdür ki, hərgah şüurun olsa.

İ n g i l t ə r ə. Onun qulağına nə pıçıldayırsan?

A v s t r i y a. Heç, deyirəm ki, elə otur, elə dur ki, heç kəs səndən inciməsin!..

T ü r k i y ə. Çox razıyam həzərat! Təvəqqe edirəm ki, sabah gəlib çörəyinizi bizdə yeyəsiniz.

B o l q a r i y a. Saat neçədə?

T ü r k i y ə. Sən ilə dəyiləm!

B o l q a r i y a (*ağlamsınır*). Məni çağırmırsan?

T ü r k i y ə. Yox, sənin bunlara dəxlin yoxdur.

B o l q a r i y a (*ağlayır*). Görünür ki, sən məni adam hesab eləmirsən.

R u s i y a və A v s t r i y a (*Türkiyəyə*). Gəl onu da çağır, xətrinə dəymə.

T ü r k i y ə. Xeyr, ola bilməz, bura xətir yeri deyil, heç görün o sizə taydırmı?

B o l q a r i y a (*gözlərini silir və yavaşca deyir*). Gör sənin başına nə oyun gətirəcəyəm?

DÖVLƏTLƏR GƏZİRLƏR

İkinci məclis

Fransa. Məncə, bu gün durub Türkiyə ilə pislik başlamağın heç bir mənfəəti yoxdur. Bu gün bu kişi heç birimiz ilə düşmən olmaq fikrində dəyil, mən bunu yəqin bilirəm.

Avstriya. Yaxşı, məgər mən deyirəm ki, Türkiyə ilə dava başlayaq?

Rusiya. Doğrudur, demirsən, amma...

Avstriya. Nə amma?

İngiltərə. Amma bu gün danışırlar ki, Bosna hersoqu özünə götürmək istəyirsən.

Avstriya. Kim? Mən? Əşi, ağlınız olsun, siz allah, Bosna hersoqu mən nə edəcəyəm? Mənim yerimmi azdır, adamımmı yoxdur.

Almaniya. Fransanın da yeri çoxdur və adamları da vardır, amma bununla belə Fası da udmaq istəyir.

Fransa. Əşi, Allah mənə lənət eləsin, hərgah elə fikrim varsa.

İspaniya (*Almaniyaya*). Sən nahaq yerə Türkiyəyə töhmət eləmə.

Almaniya. Bəs nə üçün Molla Hafizi təsdiq eləmirsiniz?

Fransa. Kim deyir eləmirəm? Eliyirəm. Ancaq mənim dediyim odur ki, elə olsun ki, sonra bunun içindən bir pislik çıxmasın ki, hamınız peşman olasınız.

(*Bu əsnada Bolqariya gendən görünüb qaçır və qaça-qaça çığırır.*)

Bolqariya. Vallah verməyəcəyəm! Ölsəm də verməyəcəyəm.

Dövlətlər (*təəccüblə*). Bu nə işdir?

Avstriya. Adə nə olub?

Türkiyə (*Bolqarın dalınca yüyürür*). Sənə deyirəm ki, qoy yerə!.. Qoy yerə, yoxsa daldan tolamaz da gəldi. (*Yüyürür.*)

Dövlətlər (*onların dalınca yüyürür*). Nə olub? Nə olub? Nə oğurlayıbdır?

Türkiyə (*dayanır və dövlətlərə deyir*). Görürsünüz bu bici?

Dövlətlər. Axı nə olub? O nə götürüb qaçır?

Türkiyə. Belə dəmir yolu.

Dövlətlər (*iztirab ilə*). Hansı dəmir yolu?

Türkiyə. Şərq dəmir yolunu!

Dövlətlər. Əşi, nə deyirsən? Ada yüyürün qoymayaq, orada bizim də payımız var, bu axmaq nə qayırdığıdır. (*Yüyürürlər.*) Bolqariya dalına baxıb lap bərk qaçır, dövlətlər yüyürüb onu tuturlar.

Avstriya. Yavaş, hələ vurmayın.

İngiltərə. Bura ver oğurladığını bu saat.

Rusiya (*Türkiyəyə*). Sən bir az səbrini bas, biz görək bunun sözü nədir!

Türkiyə. Özünüz bilin, orada Sizin payınız da var.

Bolqariya (*zınqıldayır*). Əşi, vermirəm, vermirəm!..

Rusiya. Qoçaq, sən nə üçün belə nahaq iş görürsən?

İngiltərə. Dinməz-söyləməz xalqın malını ver özünə.

Bolqariya. Əşi, vermirəm, vermirəm!

Fransa. Axı necə yəni vermirsən?

Avstriya. Bala, axı bu yol Türkiyənin deyil. Burada bizim də payımız vardır.

Bolqariya. Əşi, vermirəm, vermirəm.

Türkiyə (*qolunu çırmalayıb*). Yaxşı vermə!

Avstriya. Bəlkə onun əvəzində bir şey istəyirsən?

İngiltərə (*o birilərinə*). Sən bunun bicliyinə bax.

Fransa. Adə bir qarın çörəkdən ötrü xalqı xataya salma, ver özünə!

Bolqariya. Əşi, vermirəm, vermirəm! – deyib ağlayır.

Dövlətlər bir-birinin üzünə baxıb dururlar.

Üçüncü məclis sonra vaqe olacaqdı

İRAN İŞLƏRİ

Şah (*öz-özünə*). Nə tövr eləyim? Doğrudan məclisi bir də açımmı, açmayımmı? Məşrutəni verimmi, verməyimmi? Vallah qəribə işə düşmüşəm, heç baş açmaq olmur.

Əmir Bahadır (*daxil olur*). Sənə qurban olum! Buyur bu kağıza qol çək, bu qələm, bu da mürəkkəb.

Şah. O nədir? Nə yazılıbdır?

Əmir Bahadır. Bu dəsti-xəttdir və içində də yazdırmışam ki, məşrutə şəriyyətə xilafdır və məclis də olmayacaqdır.

Ş a h. Bəs biz vədə vermişik ki, axı bu günlərdə məclisi açaq, nəinki bilmərrə bağlayaq.

Ə m i r B a h a d ı r. Sənə qurban olum, fərman sənindir, ancaq məclisi əgər bir də açsaq, nə qədər ki, İranda molla var, yəni İranın yarısı bir iğtişaş salarlar ki, Təbriz iğtişaşı onun yanında zərafət hesab olunar. Əgər mən qocanın bu sözlərinə inanmırsınızsa (*ağzını qapıya tərəf tutub çağırır*), Şeyx Fəzlullah, ay Şeyx Fəzlullah!

Ş e y x (*daxil olur*). Salaməleyküm!

Ə m i r (*ona*). Mollaların sözlərin şaha ərz elə.

Ş e y x. Sənə fəda olum! İran əhalisinin yarısından ibarət olan bütün mollalar mənim vasitəmlə hüzuri-alinizdən istirham edirlər ki, məşrutə verməyəsiniz və məclisi açmayasınız.

Ş a h (*qol çəkir*). Siz deyən olsun!

Ə m i r və Ş e y x. Allah mübarək eləsin, inşallah! (*Gedirlər.*)

Ş a h (*öz-özünə*). Qurtardım.

(*Bu əsnada ingilis və rus səfirləri daxil olur, şah onları qəbul edir.*)

İ n g i l i s s ə f i r i. Nə tövr oldu?

Ş a h. Nə?

R u s s ə f i r i. Məşrutə əhvalatı.

Ş a h. Bu gün dəsti-xəttə qol çəkdim. Görəsən hava nə tövrdür? Gərək ki sizin Rusiya indi çox soyuqdur. Amma sizin İngilis, gərək, bir az isti ola.

S ə f i r l ə r. Bəli, Rusiya soyuqdur, amma İngilis istidir. Deməli, inşallah bu gün-sabah məclis açılar?

Ş a h. Hansı məclis?

S ə f i r l ə r. Buyurdunuz ki, qol çəkibsiniz... Dəsti-xətt veribsiz...

Ş a h. Bəli, dəsti-xəttə qol çəkdim, amma məclis açılmayacaqdır! Bizim şəriət elə şeyləri haram buyurubdur. Məşrutə – donuz əti, məclis, çaxır, bunlar hamısı bizdə haramdır.

S ə f i r l ə r. Mərənd alındığını zati-aliniz bilirmi?

Ş a h. Xeyr, məgər Mərənd alınıbdır?

S ə f i r l ə r. Bəli, Xoy da alınıbdır, Gulfa da, Səlmas da, qərəz bütün Azərbaycan əldən gedir.

Ş a h. Qəribə əhvalat var imiş! Heç mən bilməmişəm! Daha nə var, nə yox?

S ə f i r l ə r. Əgər məclisi açmasanız, sizin işləriniz çox xarab olacaqdır. Bəlkə bütün İranı təhlükəyə salarsınız. Bizim məsləhətimiz

odur ki, məclisi açıb həm İranı sakit edəsiniz, həm də qonşuların iştahasını artırmayasınız.

Ş a h. Bəs axı məclis şəriyətcə həramdır, mollalar qoymaz.

S ə f i r l ə r. Əvvəla, Məhəmməd peyğəmbər heç bir yerdə deməyibdir ki, məşrutə və məclis haramdır. Və saniyən sizin şəriətinizdə var ki, əgər şərab bir naxoşluğa dərmandırsa, o halda şərab naxoş üçün halaldır. İndi də sizin İran naxoşdur və bunun dərmanı məşrutədir. Ona görə biz əminik ki, şəriət buna yol verər.

Ş a h. Görünür ki, siz bizim şəriəti də əzbərləyibsiniz. Siz avropalılar çox qoçaqsınız. Xub, əmr edərəm ki, o dəsti-xətti camaata bildirməsinlər. (*Səfirlər gedirlər.*)

Ə m i r B a h a d ı r (*daxil olur*). Sənə qurban olum, kafirlər nə deyirdilər?

Ş a h. Deyirlər ki, gərək məclisi açasan, mən də baxıram ki, açmasaq onlar bizi lap təngə gətirəcəklər.

Ə m i r (*fikir edir və sonra bir qədər bərkdən deyir*). Görək kim kimi aldadacaqdır! – deyib əyilir və şahın qulağına sözlər pıçıldayır.

Ş a h (*bir az fikirdən sonra*). Xub, buyurunuz fərman yazılsın və məşrutənin verilməyəcəyi elan olunsun.

Küçədə əhali:

– Ta bərk sərə-kar in... əst

İran hələ ləng, ləng, ləngəst.

"QUYRUQLU ULDUZ"

İki pərdəli komediya. Yaxud "Revizor"u yamsılamaq. Əvvəlinci məclisdəki əfrad əhli-məclis.

1) H a c ı Q ə m i ş – tacirdir.

2) C a h i l o ğ l u Q a t i l – işi məlum deyildir.

3) Ş ə r m i s a r b ə y – bəydir.

(*Pərdə qalxır.*)

Ş ə r m i s a r b ə y (*əlində rus qəzeti*). Həzərat, sizi buraya çağırmaqda məqsədim sizə bir pis xəbər verməkdir.

H a c ı Q ə m i ş (*kənara*). Pis xəbər verən, evin yıxılsın!

Cahil oğlu Qatil. Nə pis xəbərdir?

Şərmisar bəy. Göydə quyruqlu ulduz görünübdür. Budur qəzetdə yazıbdır. Haman bu ulduz, bir neçə aydan sonra yerə düşüb, hər nə günahkar adam var, hamısını quyruğu ilə yandıracaqdır.

Hacı və Qatil (*bir yerdə*). Bəh, bəh!.. Bunu bizə nə üçün deyirsən?

Şərmisar bəy. Bəs kimə deyim?

Hacı və Qatil. O adama söylə ki, günah sahibidir, biz ki əlhəmdülillah müsəlmanıq.

Şərmisar bəy (*özü də şad olur*). Əlbəttə, mən özüm də müsəlmanam və o ulduzun nə quyruğundan və nə başından qorxuram. Ancaq bunu sizə deməkdən məqsədim yenə də, hər halda xəbərdarlıqdır ki, bəli, o vaxt ulduz yerə düşəndə vahimə etməyəsiniz.

Hacı Qəmiş. Ancaq mən bilmirəm ki, o ulduzun göydə durduğu halda yerdə nə işi var?

Qatil. Necə? Yoxsa öz müsəlmanlığından arxayın deyilsən?

Hacı. Arxayın olmasaydım, mən də sənin kimi həccə getməzdim! Ulduzun yerə düşməsinin o tərəfi xoşagələn deyil ki, yerdə olan günahkarları yandırıb müştərilərimizi azaldacaqdır.

Şərmisar bəy. Bax, Hacı sən deyirsən ki, arxayın olmasaydım, həccə getməzdim. Sənin bu sözün, bağışla, ancaq məni bir qədər şəkkə salır. Çünki mən, mən Şərmisar bəy öz müsəlmanlığımdan arxayınam ki, həccə getmirəm!

Qatil. Əlbəttə! Mən özüm də o cürəyəm! Mən öz müsəlmanlığımdan arxayın olmasaydım, başlardım həccə getməyə, ehsan verməyə, qurban kəsməyə.

Hacı. Şərmisar bəy, məgər sən öz müsəlmanlığından arxayınsan?

Şərmisar bəy. Arxayınam!

Hacı. Bəs nə tövr arxayınsan ki, əlinə qazut alıb oxuyursan, halbuki haman qazutu çıxardan kafirlərdir və o kafirlərdir ki, quyruqlu ulduz gəlib onları yandıracaqdır.

Qatil. Doğru deyir!

Şərmisar bəy. Ha, ha, ha, ha,... Bəs Hacı, sən burdan Məskova gedəndə nə üçün vaqona minirsən? Məgər bilmirsən ki, vaqonu çıxardanlar da kafirlərdir?

Qatil. Bu da doğru deyir.

Hacı. Mənim əlacım olsa, vaqona minmərəm. Amma sən nəinki qazut oxuyursan, hələ hətta çaxır da içirsən!

Qatil. Bu da yalan demir! Sən çaxır içirsən!

Şərmisar bəy. Doğrudur, mən çaxır içirəm və günah eləyirəm. Amma bəzi vaxt olur ki, ayıq da oluram. Bundan əlavə nə sənin kimi, Hacı dörd arşında arşınyarım kəf gedib, puluma haram qatmıram, hə də sənin kimi cəllad olub xalqın başını kəsmirəm.

Hacı. Doğrudan, birdən olur ki, arşında səhv düşür, çünki ölçüdə adam karıxa bilər. Amma sən onu de ki, hər cümə axşamı oruc tuturam və bir tələbə gətirib qarnını doydururam, amma sən qumar da oynayırsan.

Qatil. Doğrudur, mən az adam öldürməmişəm. Bunu da hər kəs bilir və polisiyaya da yəqindir, amma sən orasını da de ki, ömrüm olanı bir dəfə də üzümə ülgüc dəyməyibdir. Həddi-büluğa yetəndən bəri bir kərə də olsun ayaq üstə bovl eləməmişəm! Amma sən çaxır içirsən, qumar oynayırsan, üzünü qırxdırırsan və üzdən iraq soldat kimi də ayaq üstə divarın dibini gözləyirsən.

Hacı. Hələ təharət almağından da şəkkim vardır.

Şərmisar bəy. Mən hər nə eləyirəm öz nəfsimə eliyirəm. Amma siz xalqın evini yıxırsınız. Mənim ömrümdə əlimdən tək bircə dənə xəta çıxıbdır ki, bir gün keflənib butulka ilə Sərkis bəyin başını yarmışam və ayılandan sonra da çox pəşiman olub ondan "izvineniya" istəmişəm. Amma siz... Ux, Allah heç kafir bəndəsini də sizə rast eləməsin, yamanca ev yıxansınız.

Hacı. Bəs sən özün qumar oynayıb, xalqın pulunu udub evini yıxmırsan?

Şərmisar bəy. O məni udmasın, mən də onu udmayım.

Qatil. Əcəb! Onda o məni öldürmək üçün gizlənməsin, mən də onu öldürməyim!

Hacı. Vallah, o adam ki, mən səhvən arşında ona kəf gedirəm ha... hərgah onu buraxsan, o saat mənim dükanımı yarar. Mən bilirəm bu camaatı.

Şərmisar bəy. Qərəz, adam gərək insaflı olsun. Əgər mən günahkaramsa, sən də günahkarsan, o da günahkardır. O biri də günahkardır. Dünyada günahsız adam yoxdur.

Hacı. Bəs günahı da savab yuyar! Odur mən bir günah buraxıramsa da iki savab edirəm. Çox vaxt üç rükət axşam namazı əvəzində mən qəsdən dörd rükət qılıram ki, biri də artıq olsun. İndi o artıq rükətin savabı bir köpükdən hesab olunsa, gör onun pulu hara vurar?

Q a t i l. Əşi, vallah öldürdüklərim adamların hamısının qanı mənim üçün dəryaca günah olsa da, bir adam öldürmüşəm ki, onun savabı hamısını yuyub aparar.

Məlun oğlu Qara Vəlini deyirəm ey, deyirlər istəyirmiş babı olsun.

Şərmisar bəy. Canım, günah eləmək bir günah, günahı da danmaq iki günah. Hamısından yaxşısı budur ki, şək-şübhədə və qorxuda qalınca, duraq burdan gedək axundun yanına, öz əhvalatımızı ona söyləyək və hər nə lazımdır, ona verək, baxsın görsün hərgah günahımız savabımızdan çoxdursa, o halda bundan sonra başlıyaq ulduz yerə düşənə qədər ibadətə məşğul olaq. Elə ki, ulduz gəlib bizdən ötdü, getdi, genə də öz işimizdə davam edərik.

Hacı və Qatil. Çox əcəb, artıq danışmaq nə lazım, gedək axundun yanına.

(*Çıxıb gedirlər.*)

PƏRDƏ

İkinci məclis gələn səfər

ATA VƏ OĞUL

A t a (*təkcə*). Kordur yurdum! Kor, kor! O günə daş düşeydi ki, mən evləndim; o günə ildırım düşeydi ki, mən belə nəslə rast gəldim! Kaş heç əvvəldən məni evləndirməyəydilər.

A r v a d (*daxil olur*). A kişi, yenə nə var öz-özünə söylənirsən?

A t a. Kəs səsini, kəs; o günü olmayaydı ki, sən mənə düçar olub mənim üçün bala doğmadın, bir bəla doğdun!

A r v a d. Axı, yenə bir də görüm nə olubdur, balam sənə nə eləyibdir?

A t a. Nə olacaq? Laməssəb oğlun məni soymaq istəyir!

A r v a d. Nə üçün, məgər quldurdur?

A t a. Quldurdan da pisdir! Bayaq evdə namaz qıldığım yerdə adam göndərib ki, filan yerdə yığılıb qəraətxana açırıq, tez on manat pul versin. Acığımdan namazı da alayarımçıq qılıb, indiyə qədər acığımı soyuda bilmirəm...Vay, kor olan yurdum.

A r v a d. Belə təxsir sənin özündədir! Kim sənə dedi ki, oğlunu dərsə qoy? Mən min dəfə sənə dedim ki, kişi uşağımı xarab eləmə, məktəbdə min cür biclik öyrənər, sən qulaq asmadın!

A t a. Əşi, Allah sənin qardaşına lənət eləsin ki, mən boyda yekə kişini yoldan çıxartdı, zorla gədəni aparıb məktəbə qoydu, yoxsa mən olam uşaq oxudam ki, axırda da belə laməssəb ola? Hərgah oxutmaq istəsəydim, İrana göndərərdim ki, gedib tələbə olub gəlsin. Mən heç yerli-dibli oxutmaq istəmirdim. Hər nə başıma bəla gəlirsə, səndən və sənin qohumlarından gəlir. Allah sizin nəslinizi üzsün.

A r v a d. Yaxşı, pul verdin, yoxsa yox?

A t a. Lənət şeytana də! Ay heyvan nəslindən əmələ gəlmiş, mən xəzinəçiyəm?

O ğ u l (*daxil olur*). Yaxşı, pul vermədiyin bəs deyil, bir də göndərdiyim adamı söyürsən, o da gəlib xalqın içində mənə deyir ki, atan məni söydu, qovdu. Mən də xalqdan xəcalət oluram.

A r v a d. Doğru deyir, pul vermədin-vermədin, daha niyə söyürsən?

A t a. Arvad, arvad! Ey məluni-xəsərətdünya! İndicə sən mənə tərəf dəyildin? İndi oğlunu görüb o tərəfə dönürsən, ay bimürvət? Sən o dünyada ruzi-məşhərdə nə cavab verəcəksən?

O ğ u l. Cavab verəcəkdir ki, ərim məni söyürdü!

A t a. Oğul, sən hər nə desən de, daha mənim dinimə, məzhəbimə sataşma.

O ğ u l. Mən din və məzhəbə sataşmıram. Ancaq onu deyirəm ki, hərgah sən o dünyada anamdan şikayət etsən, o da səndən edəcəkdir!

A t a. Deməli, sənin sözündən bu çıxır ki, heç o dünya yerli-dibli yoxdur? Bilirəm, bilirəm nə deyirsən, eşşək deyiləm, anlayıram.

A r v a d. Oğul, başına dönüm, sən o cürə şeylərə sataşma, dilim qurusun, gözün tutular.

O ğ u l. Ay ana, məgər mən burda dinə bir pis söz dedim? Deyirəm ki, hərgah o dünyada...

A t a. Görürsən, arvad? "Hərgah o dünyada" yəni "əgər o dünya varsa" – demək istəyir! Əstəğfürullah rəbbi və tövbə ileyh. Bari pərvərdigarə, sən mənim günahımdan keç! Mən yazığam, bu cürə nacins ucundan məni cəhənnəm oduna yandırma.

O ğ u l. Ey on manat, sənsən bu kişini belə danışdıran!

A t a. Əstəğfürullah rəbbi və tövbə ileyh. Arvad pambıq gətir qulaqlarıma tıxıyım və bu cürə küfür sözləri eşitməyim. Bu laməzhəb deyir ki, məni danışdıran puldur, yəni pul Allahdır. Ay camaat, bu cürə küfrü mən heç yerdə eşitməmişdim, bu müşikdür, pulu Allaha şərik bilir.

Ravi rəvayət eləyir ki, bir dəfə bir kəs Musa peyğəmbərin hüzuruna gəlib dedi ki, ey Musa!.. Yox, mən bu kafirnən bir evdə ola bilmərəm, çıx, çıx mənim evimdən!

O ğ u l. Ay ata, mən nə vaxt o cürə küfür söz dedim. Nə üçün yalan deyirsən?

A t a. Vay, ilahi! Bu atasına deyir ki, yalan deyirsən! Bu görünür ki, bütün kafirlərin bidinidir. Hərgah mən yalan deyirəmsə, bil ki, molla da yalan deyir; molla yalan deyirsə, bil ki, müctəhid yalan deyir; müctəhid yalan deyirsə, bil ki, imam yalan deyir. İmam yalan desə, bil ki, peyğəmbər yalan deyir. Peyğəmbər yalan desə, bil ki, Allah yalan deyir. Çəkil, çəkil mənim bu müqəddəs evimdən, ey kafir! Bu saat, bu saat evimizdə olan bütün qablar, boşqablar, istəkanlar, samovar, qazan, kəfgir, aşsüzən – hamısı sənə lənətxandır. Onlar hamısı qiyamət günü hüzura çıxıb sənin cəzanı istəyəcəklər. Çəkil, kafir, çəkil! Murdarlama, bu pak olan yeri, çəkil, çəkil (*yıxılır səcdəyə*).

O ğ u l. Bu kişi dəli olubdur.

A r v a d. Qoy, gedim bir dua yazdırım.

GƏLƏCƏK AVROPA KONFRANSI

Müqəddimə

Bir gecə Molla Nəsrəddin yatmışdı, evinin qabağında böyük bir dava düşdü. Arvadı Mollanı oyatdı ki, gör o nə davadır. Molla durub yorğana büründü və qapının ağzına çıxdı. Dava edənlər Mollanı görüb, yorğanı onun əlindən qapdılar və qaçdılar. Haman dəm, dava sakit oldu. Molla otağa qayıtdıqda arvadı soruşdu ki, dava nə üstə idi?

– Heç, bizim yorğan üstə idi, – deyib Molla çılpaq uzandı.

Əhvalat

İ n g i l i s (*Avstriyaya*). Balam, sən öz yanından Bolqariyaya məzəmmət edirdin ki, dəmir yolu oğurlayıbdır, indi görünür ki, oğrunun böyüyü özün imişsən.

A v s t r i y a. Təvəqqe edirəm ki, mənə oğru deməyəsiniz. Mən öz malıma yiyəlik eləmişəm.

S e r b i y a (*ağlayır*). Yalançıya Allah lənət eləsin! Bosna hersoqu sənin malın idi?

A v s t r i y a. Çox zıqqıldama, Bosna hersoqu mənim də olmasa, sənin də deyildi. Özün də ata sərçə kimi çox atılıb düşmə. Yoxsa axırda xarabçılıq edərsən.

Q a r a d a ğ. Sən də çox o yan-bu yan eləmə, görünür ki, bizi balaca tanıyıbsan.

A v s t r i y a (*rişxənd ilə*). Buna bax! Heç qıçım boyda deyil ha! Bu da mənim üstümə xoruzlanır. Səni bir Qaradağ qayıraram ki, böyründən də bir Ağdağ çıxar.

R u s i y a. Yaxşı-yaxşı bilirik ki, sən Serbiyadan da Qaradağdan da güclüsən. Ancaq iş bundadır ki, sən nahaq iş görübsən.

F r a n s a. Sən Yevropanın tərəzisinə əl vurubsan, indi tərəzinin bir gözü ağır gəlir.

A v s t r i y a. Hansı tərəzi?

İ n g i l i s. Belə Berlində qurduğumuz tərəzi.

R u s i y a. Həzərat, burada oturub boşboğazlıq eləmək lazım deyil, durun gedək, tərəziyə baxaq görək bir gözü nə qədər əyilibdir. Ona görə də əməl edək. Razısınızmı?

H a m ı s ı. Razıyıq.

İ n g i l i s (*Avstriyaya*). Görürsən tərəzinin sən baxan gözü iki girvənkə ağır çəkir. Bu, Bosna hersoqunun ağırlığıdır. Sən gəl onu qaytar sahibinə, həm tərəzimiz düzəlsin, həm də o kişiyə bir hörmətlik olmasın. Yazıq tazə iş başlayıb, xələl yetirmək yaxşı deyil. Özü də gör nə mülayimətlə dolanır. Vallah onun yerinə ayrısı olsa idi, indi səni o baş ilə qoymazdı.

A v s t r i y a. Minin min söz deyəsiniz, mən Bosna hersoqu qaytaracaq deyiləm. Çünki, əvvəla o yer mənim haqqımdır, ora mən pul qoymuşam. İkinciyə qalan yerdə eşşəyə minmək bir ayıb, düşmək iki ayıb.

F r a n s a. İndi ki, belə oldu onda gərək tərəzinin o biri gözünə də bir əlac olsun ki, bu biri gözü ilə düz olsun.

A v s t r i y a. O ayrı məsələdir. Ona mən də razıyam.

İ n g i l i s. Nə tövr edək?

R u s i y a (*tərəzinin boş gözünü özünə tərəf çəkir*). Hərgah Dardanel boğazı bu gözünə qoyulsa, mən tərəf düzələr.

A l m a n i y a. Türkiyədə nəki dəmir yol var hamısını qoyun mən tərəfə, düzəlməsə Messopatamiyanı da artırın.

İ t a l i y a. Mən evdə hesablamışam, Albaniya da mənə tərəf qoyulsa, mən tərəf də düzələr.

İ n g i l i s. Yəni yəqin bilirsən.

İ t a l i y a. Yəqin.

İngilis. Yaxşı onda gərək Misir də bəri qoyulsa, mən tərəf də düzələrmi?

R u s i y a. Düzələr, düzələr.

F r a n s a. Bəs mən tərəf?

H a m ı s ı. Sən də gör də!

F r a n s a. Keçmişdə bizim üçüncü Napaleon deyirdi ki, Şam bizə yarar. Ağlım kəsir ki, elə indi də onu qoysaq, mən tərəf düz olar.

H a m ı s ı. Sözümüz yoxdur.

Y u n a n. Daha mənim deməyim lazım deyil, özünüz bilirsiniz ki, Kirid cəzirəsi də mən tərəfi düzəldər.

H a m ı s ı. O məlumdur.

F r a n s a. Çox gözəl, o halda, bir tez paylaşaq ki, məsələ həll olsun. Daha vaxtımızı zay etməyək, onsuz da "kulturnı" işimiz çoxdur.

R u s i y a. Bəs Bolqariya, Serbiya, Qaradağ? Onlara nə verilsin ki, xətirlərinə dəyməsin.

H a m ı s ı. Yerdə qalan da onlara verilsin. Özləri bölüşərlər... Xub, deməli məsələ həll olundu. Dağılaq.

T ü r k i y ə. Yaxşı, bəs indi mənim təklifim nədir?

H a m ı s ı. Sən... zad elə... əvvəla bizdən incimə, çünki bizim fikrimiz əsla sənə pislik eləmək olmayıb, bəlkə tərəzini düzəltməkdir. İkinciyə qalan yerdə... (*elə bu yerdə qalır*).

"MÜƏLLİMLƏRƏ 75 MANAT PUL BOLDUR" ŞƏHƏR İDARƏSİ

"MÜƏLLİMLƏR ÖZ İŞLƏRİNİ QOYUB ÖZGƏ İŞLƏRLƏ MƏŞĞUL OLURLAR"

Boşboğazlar

Dərs

M ü ə l l i m (*klasa daxil olarkən*).

...(*15 manat dükançı Cəfərə*)... Oturun! (*11 manat yarım da çörəkçi Vəliyə*) ...Duanı oxuyun görüm! (*Bu elədi 26 manat yarım*)... Çox yaxşı. (*18 manat evyiyəsi... Keçən səfər 3 manat da borclu qalmışdım.*

Bu elədi) Kim dərsini deyər?.. (*Bu elədi*) Oxu görüm. (*21 manat, o da 43 manat yarım*)... Həsən düz otur, biclik eləmə! (*Qəssaba gərək verəm 12 manat beş şahı.*)... Otur yerə, indi sən oxu.

Ş a g i r d. Bir gün Həsən atasına dedi ki, ata, mənə də çeşmək al, mən də sənin kimi kitab oxuyum.

M ü ə l l i m (*öz-özünə*). Budur, bizim Mecid neçə vaxtdan bəri yalvarır ki, ata mənə bir çəkmə al, yazıq lap ayaqyalındır... Amma hanı pul?!

Ş a g i r d. Atası gedib oğluna bir əlifba kitabçası aldı.

M ü ə l l i m (*görünür ki, kişinin pulu var imiş*).Yaxşı, otur. Sən oxu! (*Suçuya 3 manat 87 qəpik verilməlidir, neftçiyə 4 manat 20 qəpik*).

Ş a g i r d. Dedi ki, ata, mənə bir çeşmək al.

M ü ə l l i m (*şagirdə*). Yox, çəkmə al.

Ş a g i r d. Mirzə, xeyr, çeşmək al.

M ü ə l l i m. Hə, hə çeşmək al. Oxu... (*Bu səfər də mənə 25 manat çatmır, onu nə tövr eyləyim?*)

Şükür, dinc otur, qulağını çəkərəm! (*...manat*). Açın kitabları. (*Yəni 25 manat çatmayacaqdır... Heç kəs də borc vermir.*) Qulaq asın, təzə dərs verirəm. (*Nə qayırım ev kirayəsi olmasa idi, yenə bir tövr əl-əl baş-başa çıxmaq olardı.*) Düz oturun, yaxşı qulaq asın! Bu saat hesaba məşğul olacağıq! (*Cibimizdə olmayan pulu əqlimizdə hesablamaq genə təsəllidir.*)

Sizə bir hesab məsələsini deyəcəyəm: bir kişi (*kişi şəhərimizin atasıdır*) ildə... yaxşı qulaq verin! İldə... Həsən, düz otur, qələmi qoy yerə, hələ qulaq as! Hə... ildə... dürüst-dürüst qulaq verin, amma qorxmayın!.. İldə 20 min manat nəqd pul alır!!!

Şagirdlərin bəziləri. Vaxsey!!!

Bəziləri. Vay dədə vay!!!

Bəziləri. Pah atanın evinəcən!

Müəllim. Bəs ildə.

Şagirdlər. Mirzə, daha demə, qorxuruq!

Müəllim. Yox, qorxmayın, heç bir xətası yoxdur. Ancaq onu bilin ki, ildə 20000 min manat nəqd pul alır!!

Bütün klas. Vaxsey!!!

Bir şagird. Mirzə, bəs onu nə tövr sayır?

Müəllim (*acı gülümsünür*). Hey, yüz o qədərini saya bilər! Yaxşı, bir də bir ayrı kişi var ki... (*məsələn, mən yazıq ildə doqquzca*

yüz manat pul alır... Hələ onu da nə tövr alır...) Bu az pul alan kişinin hər ay 25 manat borcu olur.

Şagirdlər. Yazıq!

Müəllim. Əlbəttə, yazıq!

Şagird. Mirzə, o çox pul alan kişi öz pulundan bir az ona versə nə olar?

Müəllim. Ay balam, nə olacaq, çox yaxşı iş olar, amma elə dərd burasıdır ki, məsələyə yaxşı qulaq asın, ayrı söz danışmayın!

Şagird. Mirzə, bəs məsələdə nə sual olunur?

Müəllim. Hə, indi sual olunur ki, həmin o 20000 manat pul alan, öz aldığı puldan 6-ca min manat kəsib versə, neçə yüz nəfər 900 manat alan kişini borcdan xilas edə bilər?

Bir şagird. Mirzə, əvvəlcə de görək, bu az pul alan kişi ki, bir ayda 25 manat borca düşür, ildə nə qədər borc eləyir?

Müəllim. Bərəkallah! Bəs onu nə tövr bilək? (*Hərçənd mən yaxşı bilirəm.*)

Şagird. Bir ayda 25 manat borc, bir ildə yəni 12 ayda eylər: on dəfə 25-250; iki dəfə də 25-50. 250. O da 50, eylər 300 manat.

Müəllim. Çox yaxşı, sonra?

Şagird. İndi görək, 6000-in içində nə qədər 300 var. 6000-ni 300-ə böləndə eylər... eylər 20.

Müəllim. Bəs nə məlum oldu?

Şagird. Məlum oldu ki, əgər o 20000 manat pul alan, öz pulundan...

Müəllim. İnsafa gəlib...

Şagird. İnsafa gəlib, öz pulundan...

Müəllim. Yox, sən insafa gəlib demə, onu mən deyirəm.

Şagird. Elə durduğu yerdə öz pulundan 6000 manat kəsib versə, o halda 20 nəfər 900 manat alan...

Müəllim. Və borca düşən...

Şagird. Və borca düşən adamları, borcdan xilas eylər.

Müəllim. Və o adamlar da borcdan xilas olandan sonra öz işlərini yaxşımı görərlər.

Şagirdlər. Bəli!

Müəllim. Əlbəttə, yoxsa yazıq borc fikrinə düşsün, yoxsa öz fikrinə düşsün.

Bir şagird. Mirzə, axı o çox pul alan adam öz pulundan 6000 kəssə, onda bunun pulu azalar!.. 14-cə min manat qalar.

Müəllim (*onun üzünə bir qədər baxıb*). Sənin atan dumda qlasnı deyil ki?

Şagird. Bəli, bəzi vaxt duma gedir.

Müəllim. Deyirəm axı... doğrudur. Pul bir qədər azalar, amma iş yaxşı yola gedər. Məsələ həll olundu. Amma... (*Hər halda bu ay da 25 manat borc gəlir, vallah bilmirəm nə tövr eyləyim.*)

İdarədən. Yazıq müəllim.

ORDAN-BURDAN

Şah söz verdi ki, altı günlük sülh olsun. Amma yalançı çıxdı...

Rus konsulu.

Komediyalar

I

Camaat arasında

Camaat (*çığırır*). Ay Avropa, ay insaf əhli, ay insaniyyətdən dəm vuranlar, şah bizi qırır, qoymayın!

İngilis səfiri. Əşi, nə danışırsınız. Belə də iş olarmı, onun nə haqqı var insan övladını qırsın?

Camaat. A başına dönüm, şah haqqı-maqqı nə tanıyır. Bizi qırır, qoymayın. Axı biz də sizin kimi insanıq.

Səfir. Həzərat, mən bu saat onun yanına gedib bir əxtar verim ki, heç dadı da damağından çıxmasın.

Camaat. Balam, Allah səndən razı olsun, bizə əlac elə!

Səfir. Bu saat, bu saat. (*Gedir.*)

II

Şah hüzurunda

Şah. Gərək İranın yarısını qan dəryasına döndərəm!

Əmir Bahadır. Qurban olum bu kəlamə!

Lyaxov. Bəli, qorxutmaq, qorxutmaq lazımdır bu asiyalıları.

S ə f i r (*daxil olur*). Şah, Allah saxlasın!

Əmir Bahadır. Xoş gördük, a kirvə!

Ş a h. Sağ ol ingilis, əyləş qonaq ol!

S ə f i r. Çox sağ ol, şah!

Əmir Bahadır. Nə var, nə yox?

S ə f i r. Hər şey var və heç zad yoxdur... he-he-he!

Əmir Bahadır. Xa-xa-xa, nə nazik, mətləbdir.

Səfir. Şah, camaatın hamısını birdən qırdıracaqsınız, yoxsa yarısını saxlayacaqsınız?

Ş a h. O mənim qəzəbimə bağlıdır. İstəsəm hamısını qırdıraram!

Əmir Bahadır. O, şahın öz əmrinə bağlıdır. Bu gün hökm eyləsə hamısını öldürdər, istəsə hamısını bağışlar. Bu cür işlər şahın özünə məxsus işdir. Onu heç kəs bilməz və heç kəs soruşmaz.

S ə f i r. Xeyr, siz elə güman etməyin ki, mən şahın xüsusi işlərinə müdaxilə etmək xəyalındayam. Əstəğfürullah, ancaq dediyim odur ki... yəni hamısını birdən-birə qırdırmaqdansa, yarı-yarı bölmək...

Əmir Bahadır. Bəli, başa düşürəm, nə deyirsiniz. Xeyr, o babətdən arxayın olun!

S ə f i r. Bəli, çünki mənim borcum gəlib-getmək... Özünüzə məlumdur.

Əmir Bahadır. Xeyr, xeyr, xatircəm olun, başa düşürəm...

S ə f i r. Xudahafiz!

Əmir Bahadır. Xoş gəldin, sağ ol. (*Nökərə*) Ay gədə, səfirin başmaqlarını cütlə!

III

İngilis parlamanında

B i r m ə b u s. Yaxşı, bəs nə oldu? O yazıq iranlıların dad və fəryadına qulaq verən oldumu? Bu barədə hökumətimiz nə qayırdı?

V ə z i r K i r e y. Əlbəttə! Bizim səfir şaha şiddətli bir əxtar göndərib, dövlətimiz naminə tələb etdi ki, emal və hərəkəti mərdimazaridən çəkilsin.

M ə b u s l a r. Bərəkallah, sonra?

K i r e y. Daha sonrası yoxdur, çünki biz İran işlərinə müdaxilə edə bilmərik.

M ə b u s l a r. Çox yaxşı, indi vicdanımız əziyyətdən xilas oldu.

IV

Yenə şah hüzurunda

S ə f i r (*tələsik daxil olur*). Sözün doğrusu, bunun adına həddən artıq zarafat deyirlər.

Ş a h. Nə olub, nə olub?

Əmir Bahadır. Allah saxlasın kirvə?

S ə f i r (*acıqlı*). Xeyr, saxlamasın!

Ş a h. Baba, in çe zərbo zenk əst. Məgər mən şah...ney...

Əmir Bahadır (*şaha*). Dinmə, dinmə, bu ingilisdi. Zarafat deyil, qoy görək nə olubdur. (*Səfirə*) Babacan nə olubdur?

S ə f i r. Nə olacaqdır! Sizin yerinizdə bizim mənafeyimizə toxunulubdur. İsfahan tərəfində bir ingilisin iki şahi pulu itibdir və biri də yıxılıb burnu qanayıbdır. Bu saat buna bir tədbir tökün.

Əmir Bahadır. Paho! Bu saat əmr yazaram İsfahan qubernatoruna ki, həmin pulu itmiş ingilisə əhalidən yüz o qədər pul alıb versin və o burnu qanayanın da yıxılmağı əvəzinə həmin yıxıldığı yerin sahibini iki il həbsə salsın, bəsdirmi?

S ə f i r. Yaxşıdır. (*Mülayim səslə*)... Bəs eşitdim ki, məşrutə vermək istəyirsiniz?

Əmir Bahadır. Bəli, verəcəyik!

S ə f i r. Nə vaxt?

Əmir Bahadır. Nə vaxt şah lazım bilsə.

S ə f i r. İndi vermirsiniz?

Əmir Bahadır. Xeyr, indi olmaz!

S ə f i r. Neyçün?

Əmir Bahadır. Çünki bizim şəraitdə məşrutə-qəşrutə net rabatay. Və bir də bu bizim daxili işimizdir.

S ə f i r. Əlbəttə, mənim müdaxiləyə heç bir haqqım yoxdur, xudahafiz!

Axırıncı komediya

Yenə şah hüzurunda

S ə f i r. Təbrizdə bütün adamlar və bütün əcnəbilər qorxurlar ki, aclıq davası düşsün. Atlılarınıza əmr edin ki, bir neçə gün möhlət versinlər ki, şəhərə azuqə getsin.

Əmir Bahadır. Xeyr, elə iş mümkün deyildir.

Səfir. Onda sözün doğrusu Təbrizə qoşun göndərəcəyik, bizdən inciməyin.

Əmir Bahadır. Bəs onda...

Şah. Vallah mən bunların işini heç başa düşmürəm!

Lyaxov. Zərər yoxdur, 6 gün möhlət verərik.

Səfir. Doğrudan?

Lyaxov. Doğrudan. (*Meyitini görüm.*)

Səfir. Onda gedim deyim ki, qoşun gəlməsin. Xudahafiz!

Əmir Bahadır. Xudahafiz (*acıqlı*), başıma daş salasan! Elə bizim çalışdığımız odur ki, Təbriz acından qırılıb təslim olsun. Bu da deyir ki, möhlət verin azuqə gəlsin! Ay yazıq!

Lyaxov. Bəli, Təbrizə azuqə gəlsin, onlar da yeyib qızsınlar, ondan sonra gəl tazadan dava elə.

Əmir Bahadır. Mən burda şəhəri mühasirə elətdirib, aclıq qorxusu ilə şəhər alıram, bu da gəlibdir ki, onlara möhlət ver. Guya ki, oyun oynayırıq, "siçan yolu" ver deyir!

Şah. Vallah mən bunların işlərini heç başa düşmürəm!..

Bir neçə gündən sonra

Şah (*iztirab ilə*). Bəs deyirlər ki, Təbrizə rus qoşunu gəlir.

Əmir Bahadır. Bəli, gəlir!

Şah. Bəs nə tövr olsun?

Əmir Bahadır. Nə təfavütü vardır? Təbriz bizim deyildi ki, məncə, rus qoşunu məşrutəçilərdən min pay yaxşıdır.

Şah. Axı bəs... onlar gəlib İranı alarlar.

Əmir Bahadır. Bəli, alarlar.

Şah. Bəs, onda biz...

Əmir Bahadır və Lyaxov. Onda (*çırtıq vururlar*), onda...

Biya berəvim əzin vilayət məno to.
Şah xodra be "baq" əndaz!
Şah xodra be "baq" əndaz!

MÜNDƏRİCAT

Sənətkar ömrü 4

OPERALAR

Leyli və Məcnun 17
Şah Abbas və Xurşid banu 44
Əsli və Kərəm 82
Harun və Leyla 116
Rüstəm və Söhrab 154
Koroğlu 174

MUSİQİLİ KOMEDİYALAR

Ər və arvad 223
O olmasın, bu olsun 247
Arşın mal alan 288

SATİRİK HEKAYƏLƏR

Pristav afa 329
Bir firəng ilə söhbətim 331
Üçüncü dəllək 332
Məşədi Kabilin Təbriz səfəri 334
Bazar söhbəti 335
Hara qaçacaqlar? 335
Bir dəlinin dəftərindən 337
Başa düşmədi 338
Təhsil 341
Balaca felyeton 342
Pruşkeviç və Hacı Xudu 345
Qarabağın keçmiş günlərindən 347
Yevlax-Şuşa yolu 358
Söhbət 360
Keçmişdə və indi 362

Müəllimə 364
Dinmə ver pulu 365
Pişik 366
Ayrı söhbət 368
Məzhəkə 369

SƏHNƏCİKLƏR

Kələkbazlar 373
Hökümət və Duma 374
Dumanın halı 376
Öz məişətimizdən bir dram 378
Moizə 380
İttifaq və ittihad məsələsi 382
Yuxuda 383
Qalmaqal 387
Dövlətlər gəzirlər 388
İran işləri 389
"Quyruqlu ulduz" 391
Ata və oğul 394
Gələcək Avropa konfransı 396
"Müəllimlərə 75 manat pul boldur" şəhər idarəsi 398
Ordan-burdan 401

ÜZEYİR HACIBƏYLİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

"ŞƏRQ-QƏRB"

BAKI-2005

Buraxılışa məsul: *Əziz Gülaliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Alianna Duxanina*

Korrektorlar: *Elmira Teymurova*
Ceyran Abbasova

Yığılmağa verilmişdir 25.09.2004. Çapa imzalanmışdır 13.03.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 25,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 46.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

AZ 235656